İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏN BİRİNCİ KİTAB

## İYUN 2017 - AVQUST 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Polşa, Türkiyə, Latviya respublikalarına və Rusiya Federasiyasına rəsmi və işgüzar səfərləri, həmçinin Türkmənistan Respublikası Prezidentinin ölkəmizə səfəri zamanı bu ölkələrin rəhbərləri ilə danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanılmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi kitabda öz əksini tapmışdır.

Oxucular bu cilddə, həmçinin Prezidentin Balakən, Zaqatala, Qax, Göygöl, Samux, Gədəbəy və Şəmkir rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşünə və bu rayonlarda sosial infrastruktur layihələrinin açılışı zamanı etdiyi nitq və çıxışlarına dair materiallarla da tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

# POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iyunun 27-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Polşa prezidenti Andjey Dudanın bəyanatı

Zati-aliləri cənab Prezident!

Hörmətli qonaqlar!

Prezident İlham Əliyevi Polşada məmnuniyyətlə salamlayıram. Bu sırf onunla bağlı deyil ki, o, dövlət başçısıdır. O həmçinin elə bir insandır ki, Polşa Respublikası ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirir. Əslində sonuncu rəsmi səfər 2008-ci ildə – 9 il əvvəl olmuşdur. Həmin vaxt cənab Prezident ölkə başçısı, professor Lex Kaçinski ilə görüşlər keçirdi. Yaxşı xatirimdədir ki, biz cənab Prezidenti və xanımını Prezident sarayı qarşısında səmimiyyətlə qarşıladıq. Çox şadam ki, cənab Prezident, Siz yenidən Varşavadasınız.

Sizin səfəriniz çərçivəsində bu gün biz ölkələrimiz arasında bir çox sənədləri imzaladıq. Hesab edirəm ki, bu sənədlərin məqsədi əməkdaşlığın, xüsusən də iqtisadi, elmi, siyasi əməkdaşlığın genişləndirilməsi deməkdir. Çünki imzaladığımız sənədlər ölkələrimiz arasında siyasi əməkdaşlığımızı, strateji tərəf-

daşlığımızı inkişaf etdirəcək və bu da çox vacibdir. Cənab Prezident, mən çox şadam ki, ölkələrimizin iqtisadi potensialı, sözün əsl mənasında, çox böyükdür və ticari mübadilələrimizdə həyata keçirilir. İl ərzində onun həcmi 100 milyon dollar civarındadır.

İqtisadi imkanlara gəldikdə, onların geniş olmasına baxmayaraq, əməkdaşlığımız hələ ki, istənilən səviyyədə deyil. Bu gün sənədlər imzalandı. Cənab Prezident, çox böyük səmimiyyətlə qeyd edim ki, bu gün biz Sizinlə birgə biznes-forumu açıq elan edəcəyik və ölkələrimizin işgüzar dairələri həmin tədbir çərçivəsində görüşəcəkdir. Bu əslində ölkə prezidentlərinin iqtisadi əməkdaşlığa, şirkətlər arasındakı əməkdaşlığa böyük dəstəyinin göstəricisidir. Cənab Prezident, çox sağ olun ki, məni Azərbaycana, Bakıya dəvət etdiniz. Elə indicə – bizim geniş tərkibdə görüşümüz zamanı, Sizin də qeyd etdiyiniz kimi, xeyli vaxt keçməsinə baxmayaraq, bu rəsmi səfəriniz üçün hazırlıq işlərimiz yaxşı nəticə verdi, ölkələrimiz arasında sənədlər imzalandı.

Cənab Prezident, Sizə səmimi-qəlbdən təşəkkürümüzü bildiririk ki, Siz Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə dəstək verdiniz. Mən buna görə Sizə çox minnətdaram. Gördünüz ki, bir çox səslər ölkəmizin namizədliyinin lehinə verildi. Bizim seçilməyimiz bütövlükdə BMT-nin 190 üzvü arasında böyük dəstəyə malik olduğumuzu göstərdi. Çox şadıq ki, 2018–2019-cu illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olacağıq. Bu həmçinin bizim beynəlxalq arenada mövqemizin gücləndirilməsi deməkdir. Buna görə Sizə çox minnətdaram, cənab Prezident. Bu gün mən həmçinin Vuc şəhərinə Sizin dəstəyinizi xahiş etdim. Çünki biz orada 2022-ci ildə sərgi təşkil etmək fikrindəyik. Ümidvaram ki, Azərbaycan Prezidentinin verdiyi dəstək sayəsində Polşanın belə bir gözəl şəhərinin namizədliyi keçəcək və bir neçə ildən sonra biz qonaqları orada salamlayacağıq. Xanımlar və cənablar, bizim cənab Prezidentlə çox yaxşı fikir mübadiləmiz oldu. Biz bir çox məsələlərə toxunduq, təmaslarımızın inkişafı

haqqında danışdıq. Həmçinin beynəlxalq proseslərə diqqət yetirdik və öz mülahizələrimizi bildirdik ki, vəziyyət nədən ibarətdir və necə dəyərləndirilməlidir. Təbii ki, bu vəziyyətin dəyərləndirilməsində də mövqelərimiz üst-üstə düşür. Bir çox strateji məsələlərə gəldikdə, cənab Prezidentin tutduğu mövqe mənim fikirlərimlə üst-üstə düşür. Biz bundan çox məmnunuq. Cənab Prezident, Sizə təşəkkür edirəm ki, fikir mübadiləmiz baş tutdu, Ukrayna haqqında danışdıq, Donald Trampın Avropaya və xüsusən də Polşaya səfəri ilə bağlı faydalı söhbət etdik.

Cənab Prezident, minnətdaram ki, Siz Avropa ilə Asiya arasında iqtisadi baxımdan əlaqələrin gücləndirilməsi barədə fikirlərinizi bildirdiniz. Qeyd etdiniz ki, nəqliyyat sahəsində bizim əlaqələrimiz genişlənməlidir. Çox istərdik ki, Azərbaycan ilə Polşa arasında birbaşa dəmir yolu xətti Gürcüstan və Ukrayna ərazilərindən keçərək yaradılsın. Bu, olduqca əhəmiyyətlidir. Bunun sayəsində bizim nəqliyyat dəhlizimiz əslində Çinin irəli sürdüyü «Bir kəmər – bir yol» layihəsinə tam uyğun olaraq həyata keçirilir. Biz də bu layihənin bir hissəsiyik və bizim həmçinin Hindistana və İrana çıxışımız təmin olunur. Hesab edirik ki, biz bu perspektiv sayəsində ticari münasibətlərimizi və təmaslarımızı genişləndirəcəyik. Qarşımızda həm Polşa, həm də Azərbaycan üçün böyük imkanlar açılacaq. Bu səbəbdən iqtisadi münasibətlərimiz ikitərəfli münasibətlərimizin vacib bir hissəsidir. Mən çox şadam ki, bizim Asiya regionu ilə iqtisadi əməkdaşlığımızın genişləndirilməsi sahəsində mövqemiz üst-üstə düşür. Cənab Prezidentlə biz istərdik ki, bu layihələri həyata keçirək.

Enerji əməkdaşlığımıza da toxunduq. Ümidvaram ki, biz energetika sahəsində də çox sıx əməkdaşlıq quracağıq. Bu layihələr hələ professor Lex Kaçinski Polşanın prezidenti olarkən irəli sürülmüşdür.

Cənab Prezident, ümidvaram ki, biz bu münasibətləri daha da intensivləşdirməyə müvəffəq olacağıq. Çox şadam ki, Siz ölkəmizə, Varşavaya səfərə gəlmisiniz.

Mənim dəvətimi qəbul etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Prezident!

İlk növbədə, məni Polşaya dəvət etdiyinizə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Yenidən dost Polşa torpağında olmağımdan çox məmnunam.

Bu saraya daxil olarkən mənim dostum, Azərbaycanın dostu prezident Kaçinskini xatırladım. Onun faciəvi ölümü dostlarını da sarsıtmışdır. Onun xatirəsi dostlarının qəlbində bu gün də yaşayır. Siz də onun silahdaşı kimi, bu gün dost Polşaya rəhbərlik edirsiniz.

Biz bu gün yenidən Polşa–Azərbaycan əlaqələrinin inkişafına təkan veririk. Prezident Kaçinskinin dövründə mənim Polşaya, onun da Azərbaycana çoxsaylı səfərləri olmuşdur. Bu səfərlər zamanı biz dostluğumuzu möhkəmləndirirdik, birgə layihələr haqqında danışırdıq, bəzi layihələrə start verirdik. İndi isə Polşa–Azərbaycan əlaqələrinin növbəti dövrü başlanır. Bu əslində prezident Kaçinskinin dövrünün məntiqi davamıdır. Bu gün biz bir çox məsələlər ətrafında səmimi fikir mübadiləsi apardıq. Bir daha gördük ki, Polşa və Azərbaycan iki dost ölkədir. Biz dostluğu bundan sonra da gücləndirəcəyik və əlaqələrimizin inkişafı üçün birgə səylər göstərəcəyik.

Prezidentin qeyd etdiyi kimi, bu gün bir çox önəmli sənədlər imzalandı. Bu sənədlər əməkdaşlığımızın perspektivlərini müəyyən edir. Mən onların arasında prezidentlər tərəfindən imzalanmış «Strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannamə»ni qeyd etmək istərdim. Bu çox ciddi siyasi sənəddir. Bu Bəyannamə əlaqələrimizin, demək olar ki, bütün istiqamətlərini, həmçinin siyasi, iqtisadi, enerji, nəqliyyat məsələlərini ehtiva edir. Bu Bəyannamədə Ermənistan–Azər-

baycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da deyilir və göstərilir ki, bu münaqişə ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bu ədalətli mövqeyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əlavə etmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı erməni işğalından 20 ildən çoxdur ki, əziyyət çəkir. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Bu münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bu tezislər Birgə Bəyannamədə də öz əksini tapıbdır.

Biz bu gün beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz haqqında da danışdıq. Fürsətdən istifadə edərək, bir daha Polşanı böyük qələbə münasibətilə təbrik etmək istəyirəm. Dünya birliyinin mütləq əksəriyyəti – 200-ə yaxın ölkə Polşanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçdi. Bu, ölkənizə və apardığınız siyasətə verilən böyük dəstəkdir.Bu dəstəyi Siz öz fəaliyyətinizlə, siyasətinizlə qazanmısınız. Polşa sürətlə inkişaf edir, beynəlxalq arenada çox möhkəm mövqelərə malikdir və özünü prinsipial və ləyaqətli aparır. Hesab edirəm ki, bu amillər də belə böyük dəstəyə səbəb olubdur. Mən şadam ki, təxminən 200 ölkənin arasında Azərbaycanın da səsi vardır. Bu gün biz razılaşdıq ki, beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da bir-birimizi dəstəkləyəcəyik.

Qarşılıqlı əlaqələr təbii ki, iqtisadi sahəni əhatə edir. Biz razılaşdıq ki, indiki ticarət dövriyyəsi bizi qane edə bilməz. Ümid edirəm ki, bu gün keçiriləcək biznes-forum və onun nəticələri ticarət əlaqələrimizin inkişafına xidmət göstərəcəkdir. Artıq bu gün bir neçə konkret məsələlər ətrafında söhbət aparıldı.

Nəqliyyat və energetika hesab edirəm ki, iqtisadi bloka aid əsas istiqamətlər olmalıdır. Energetika sahəsində – Azərbaycan nefti Polşa bazarlarına çatdırılır. Bu gün Azərbaycan tərəfdaş

ölkələrlə birlikdə nəhəng layihə olan «Cənub Qaz Dəhlizi» layihəsini uğurla icra edir. Bu layihə Azərbaycan qazını Avropa məkanına çıxaracaq. Layihənin ümumi dəyəri 40 milyard dollardır və icrası da uğurla davam etdirilir. Ümid edirəm ki, bu layihənin birinci mərhələsi gələn il, ikinci və sonuncu mərhələsi 2020-ci ildə başa çatacaqdır. Beləliklə, Azərbaycan Avropa üçün çox etibarlı tərəfdaş kimi özünü göstərəcək, Azərbaycanın enerji resursları Avropanın enerji təhlükəsizliyinə öz dəyərli töhfəsini verəcəkdir. Əlbəttə ki, energetika sektorunda digər istiqamətlər üzrə də yaxşı perspektivlər vardır. Əminəm ki, biz bundan istifadə edəcəyik.

Nəqliyyat sahəsinə gəldikdə isə prezident Duda da qeyd etdi ki, həm Şərq–Qərb, həm də Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Bizim ölkəmizdə artıq bütün müasir infrastruktur yaradılıb – dəniz limanları, dəmir yolları, aeroportlar, avtomobil yolları və regional əməkdaşlıq formatı. İndi bizim vəzifəmiz ondan ibarətdir ki, bu əməkdaşlığı dərinləşdirək, Avropa ölkələrini də bu əməkdaşlığa cəlb edək. Bu yaxınlarda Bakıda dəmir yolları rəhbərlərinin keçirdikləri görüş deməyə əsas verir ki, artıq geniş beynəlxalq əməkdaşlıq formatı yaranır. Şadam ki, Polşa tərəfi də bu formatda iştirak edir. Bu bizim qarşımızda çox böyük perspektivlər açır. Əminəm ki, bu istiqamətdə aparılacaq əlaqələndirmə işləri və birgə səylər tezliklə yaxşı nəticələrə gətirib çıxaracaq, bütün iştirakçı ölkələr bundan faydalanacaqdır.

Çıxışımın sonunda mən əlaqələrimizin humanitar aspektinə də toxunmaq istərdim. Biz polyakları və Polşanı yaxşı tanıyırıq. Müxtəlif dövrlərdə Azərbaycanda çalışmış və ölkəmizə xidmət etmiş məşhur polyak memarların, mühəndislərin, ictimai xadimlərin xatirəsi Azərbaycan xalqı tərəfindən yüksək hörmətlə anılır. Polyaklar 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublikanın rəhbərliyində də təmsil olunmuşlar. Yəni tariximizin bu səhifələri bugünkü dostluğun təməlidir. Humanitar sahədə, mədəniyyət, turizm sahələrində də çox yaxşı

perspektivlər vardır. Bugünkü səfərim bizim dostluğumuzu bir daha təsdiqləyir.

Prezidentin qeyd etdiyi kimi, mən cənab Dudanı Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Əminəm ki, o, dəvəti qəbul edəcək və biz uğurlu əməkdaşlığımızı davam etdirəcəyik.

Bir daha təşəkkür edirəm.

## AZƏRBAYCAN–POLŞA BİZNES-FORUMUNDA İŞTİRAK

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iyunun 27-də Varşavada Azərbaycan–Polşa biznes-forumunun açılışı mərasimində iştirak etmişlər.*

*Polşanın İqtisadi İnkişaf nazirinin müavini Tadeuş Kosçinski də biznes-forumda iştirak edirdi.*

**Tadeuş Kosçinski:** Mən İqtisadi İnkişaf Nazirliyi adından hörmətli prezidentləri və bütün iştirakçıları bu gün keçirilən biznes-forumda salamlayıram. Bu, birgə keçirilən tədbirdir. Bu tədbirdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edir. Ümidvaram ki, bu gün məhz müzakirələr və fikir mübadilələri bizim iqtisadi inkişafımıza və Azərbaycan ilə Polşa arasındakı iqtisadi əməkdaşlığa zəmin yaradacaq. Mən hesab edirəm ki, məhz Azərbaycan Polşanın Cənubi Qafqaz regionunda ən etibarlı və perspektivli tərəfdaşlarından biridir. Polşa Azərbaycan ilə münasibətlərin dərinləşdirilməsində maraqlıdır. Bu baxımdan son aylar ərzində hökumətlər səviyyəsində müxtəlif görüşlər keçirilibdir. Biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığımızı qurmuşuq. Lakin onun bugünkü səviyyəsi mövcud iqtisadi potensiala uyğun deyil. Bunu nəzərə alaraq və xüsusən də bu əməkdaşlığın perspektivlərini görərək, biz Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi siyasəti öyrənirik. Bilirik ki, bu siyasət ölkənin bütövlükdə iqtisadiyyatının şaxələndirilməsinə və xüsusən də iq-

tisadiyyatın bütün digər sahələrinin inkişafına yönəldilibdir. Biz bilirik ki, Azərbaycan iqtisadiyyatının liberallaşdırılması istiqamətində bir çox addımlar atıbdır. Sərmayələrin qoyuluşu üçün Azərbaycanda münbit şərait yaradılıbdır. Bu baxımdan, həmçinin stimullaşdırıcı tədbirlər də görülüb ki, məhz investorlar cəlb edilsin, güzəştli kreditlərin verilməsi yolu ilə bu kimi iştirakçıların sayı çox olsun. Təbii ki, bu, iqtisadi münasibətlərimizə, ölkələrimiz arasındakı əlaqələrə müsbət təsir göstərir. Hesab edirik ki, bu gün məhz iqtisadi əməkdaşlığın, Polşa ilə Azərbaycan arasındakı əlaqələrin gücləndirilməsində bir çox imkanlar vardır. Məsələn, gəmi tikintisi, dəmir yolları, daşımalar, inşaat materialları istehsalı, maşınqayırma, energetika, sənaye, neft sənayesi, kənd təsərrüfatı, yeyinti məhsulları, kimya sənayesinin inkişafı baxımından bir çox imkanlar vardır.

Biz hesab edirik ki, iqtisadi inkişafımızda məhz yeni texnologiyaların araşdırılıb tətbiq edilməsində Polşa şirkətlərinin təcrübəsindən yararlanmalıyıq. Polşa tərəfi nəinki Azərbaycanın daxili bazarında öz iştirakının genişləndirilməsində maraqlıdır, o cümlədən Azərbaycan şirkətlərinin bizim ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrində iştirakına da maraq göstərir.

Xanımlar və cənablar, hesab edirik ki, keçirilən bu biznes-forum məhsuldar əlaqələrin qurulmasında bir çox imkanlar yaradacaq və əməkdaşlığımız bununla daha da genişlənəcəkdir. Sağ olun.

## Polşa prezidenti Andjey Dudanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli nazirlər!

Hörmətli şirkət rəhbərləri, dəyərli qonaqlar!

Bu gün keçirilən biznes-forumda iştirak etdiyinizə görə təşəkkürümü bildirirəm. Bu gün biz yeni bir layihəni həyata keçiririk. Yəni Polşa ilə Azərbaycan arasında iqtisadi münasibətlərin məhz genişləndirilməsinə yönəlmiş tədbirdə iştirak edirik. Mən AZPROMO-ya xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu bu tədbirin təşkil olunmasında yaxından iştirak edib. Biz görürük ki, burada iqtisadiyyatımızın müxtəlif sahələri üzrə şirkətlər təmsil olunub. Hesab edirik ki, bu bizim üçün yeni təmasların qurulmasına imkan yaradacaq və biznes münasibətlərimiz daha da intensivləşəcəkdir.

Xanımlar və cənablar, Azərbaycan Polşanın Cənubi Qafqaz və Xəzər dənizi regionunda mühüm tərəfdaşıdır. Bu baxımdan biz Azərbaycan ilə iqtisadi əməkdaşlığımızın gücləndirilməsinə xüsusi önəm veririk. Bu gün prezident İlham Əliyevin və mənim iştirakımla Prezident sarayında mühüm sənədlər imzalandı. Əminəm ki, bunun sayəsində ticarət münasibətlərimiz daha da intensiv olacaqdır. 2005-ci ildə Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlıq haqqında Saziş imzalanıbdır. Bunun əsasında hökumətlərarası birgə Komissiya yaradılıbdır. Komissiya Bakıda və bizim paytaxtımızda dəfələrlə görüşlər keçiribdir. Bu baxımdan, həmçinin strateji tərəfdaşlıq haqqında bu gün imzalanmış Birgə Bəyannamə əməkdaşlığımızı daha da gücləndirəcək və biz bu Bəyannamə əsasında digər sahələrdə də işbirliyi qura biləcəyik. Əvvəlcə bildirmək istəyirik ki, Azərbaycan ilə Polşa arasında əməkdaşlığın çox geniş perspektivləri vardır. Çünki bizim ölkələrimiz tarixi İpək yolunun bərpasında xüsusi rol oynaya bilər. Azərbaycan mühüm daşımalar marşrutlarında, Asiya ilə Avropanın kə-

sişməsində yerləşir. Bu baxımdan hesab edirik ki, biz məhz Cənub və Qərb, o cümlədən Qərb–Şərq arasında Saziş imzalamışıq. Həmçinin İranın da bu daşımalar marşrutuna qoşulmasını nəzərdə tuturuq. İstəyirik ki, digər tərəfdaşlar da bu işə qoşulsunlar və «Şərq Tərəfdaşlığı» çərçivəsində yeni bir layihə həyata keçirilsin. Biz dəmir yolunun məhz cənub-şərq hissəsinin şəbəkəmizə qoşulmasını təmin etmək istəyirik. Bu bir növ Avropanın bütün Asiya ölkələrinə, regionuna çıxışını təmin edəcəkdir. Məhz bizim şəbəkələr Avropa İttifaqının bazarına böyük çıxışı təmin edir. Polşanın iqtisadi diplomatiyası məhz yeni ticari tərəfdaşların tapılmasına və yeni ticari münasibətlərin qurulmasına yönəlibdir. Bu baxımdan Azərbaycan sərmayədarları bizim üçün vacibdir. Azərbaycanın daxili bazarında da olmağımız bizim üçün əhəmiyyətlidir. Biz hesab edirik ki, bu baxımdan hər iki tərəf yalnız qazana bilər və bu, hər iki tərəfə qarşılıqlı surətdə hər hansı bir fayda gətirə bilər. Bu işdə avadanlıqlar, xidmətlər, neft və qaz emalı prosesləri, dəmir yolları xətlərinin təkmilləşdirilməsi, Polşa texnologiyalarının, mövcud mühəndis həll variantlarının tətbiq edilməsi də öz rolunu oynaya bilər. Polşada istehsal edilən avtobuslar, ictimai nəqliyyat vasitələri Stokholmda və digər Avropa paytaxtlarında artıq istifadə olunur. Bizim dəmir yolu sahəsində texnologiyalarımız var, həmçinin informasiya texnologiyaları, kənd təsərrüfatı, yeyinti məhsulları sahələrində fəal işləyirik. O cümlədən logistika sahəsində imkanlarımız kifayət qədər genişdir. Əczaçılıq və kosmetika sənayesi də geniş inkişaf edibdir.

Bizim ticari münasibətlərimizdə digər bir məqam da ondan ibarətdir ki, hələ istifadə olunmayan potensialımız vardır. 2016-cı ildə təxminən 100 milyon ABŞ dolları həcmində ticarət dövriyyəmiz olubdur. Ümid edirəm ki, cənab prezident İlham Əliyevin ölkəmizə səfəri sayəsində ticari mübadilələr daha da artacaqdır. Söhbət əsnasında və bu gün apardığımız danışıqlar zamanı biz iqtisadi münasibətlərimizə xüsusi toxunduq. Biz bu fikrə gəldik ki, iqtisadiyyatlarımızı bir-birimizə daha açıq etməli

və beynəlxalq səviyyədə birgə mövqedən çıxış etməliyik. Zənnimcə, biz son 10 il ərzində digər xarici tərəfdaşlarımızla öz ticarət dövriyyəmizi necə artırmışıqsa, eyni zamanda, Sizin ölkənizlə də bu səviyyəni artırmalıyıq. Onu da qeyd edim ki, qlobal reytinq təşkilatları bu gün Polşanı məhz Avropada 3 ən cəlbedici sərmayə mərkəzlərindən biri hesab edir. Buna görə də istərdim ki, Azərbaycan şirkətləri ölkəmizə gəlsin və sərmayələr yatırsınlar. Biz Avropa İttifaqının 6-cı ən böyük iqtisadiyyatıyıq.

Xanımlar və cənablar, ümidvaram ki, bu gün keçirilən görüş bir sıra təmasları qurmaq imkanı yaradacaq və siz birgə layihələr üzərində razılığa gələcəksiniz, öz şirkətləriniz, öz ölkələrinizin iqtisadiyyatı üçün bir çox fayda əldə edəcəksiniz.

Çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar, əziz dostlar!

Əvvəla, cənab Prezidentə məni Polşaya səfərə dəvət etdiyinə, mənə və bizim nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu gün biz əməkdaşlığımızın inkişafının yeni mərhələsinə qədəm qoyuruq. Mənim Polşaya səfərim çox uğurlu keçir. Biz bir çox sənədləri imzaladıq. Onların arasında mən «Strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannamə»ni xüsusi vurğulamaq istəyirəm. Bu, siyasi və iqtisadi əlaqələrimizin inkişafında yeni bir yol xəritəsini əmələ gətirir. Bəyannamənin adı bizim iqtisadi əməkdaşlığa necə önəm verdiyimizi göstərir. Bugünkü biznes-forum onun digər bir göstəricisidir. Çünki biznes icmaları çox həssasdırlar və çox aydın başa düşürlər ki, bu gün Polşa və Azərbaycan arasında yüksək səviyyəli siyasi əlaqələr onlar üçün yeni imkanlara yol açır. Məndə olan məlumata görə, bu gün biznes-forumda

şirkətlərimiz arasında bir neçə razılaşma imzalanacaqdır. Əlbəttə ki, ticarət dövriyyəmizin cari səviyyəsi bizi qane edə bilməz və bu gün biz cənab Prezident və nümayəndə heyətləri ilə ticarət dövriyyəsinin necə artırılması yollarını müzakirə etdik. İqtisadi əlaqələrimizə təkan vermək üçün və həmçinin ixrac potensialımızın yaxşı mənzərəsinin formalaşmasına dair əlverişli fürsətlər vardır. Yəni biz bir-birimizə nəyi ixrac edə bilər və hansı birgə biznes layihələrini icra edə bilərik.

Polyak dost və tərəfdaşlarımızı çox sürətli iqtisadi inkişaf münasibətilə təbrik etmək istəyirəm. Bu gün Polşa ən yüksək iqtisadi artım sürəti, siyasi və iqtisadi sabitlik nümayiş etdirir. İnkişaf isə bu gün ölkənizin tərəqqiyə doğru yolunu gücləndirmək üçün çox yaxşı imkanlar yaradır.

Azərbaycana gəlincə, ölkəmiz nisbətən gəncdir, müstəqillik yalnız 25 il bundan öncə bərpa olunubdur. Biz keçən il bunu qeyd etdik. Bu illər siyasi, sosial və əlbəttə ki, iqtisadi cəhətdən transformasiya illəri olubdur. Bu gün Azərbaycan, həmçinin çox yaxşı iqtisadi fəaliyyət nümayiş etdirir. 2004-cü ildən bəri iqtisadiyyatımız 3 dəfədən çox artıbdır. Biz işsizliyi və yoxsulluğu 5-6 faiz səviyyəsinə qədər azalda bilmişik. Hazırda ümumi daxili məhsulun 70 faizdən çoxu özəl sektorun payına düşür və maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə artıqdır. Beləliklə, iqtisadi və siyasi baxımdan Azərbaycan sabit və son 20 ildə 200 milyard dollardan çox sərmayə cəlb edə bilmiş bir ölkədir. Bunların təxminən yarısını xarici sərmayələr təşkil edir. Əlverişli investisiya mühiti və əcnəbi investorlar üçün çox etibarlı investisiya şəraiti şirkətlərə Azərbaycanda işləmək üçün yaxşı imkanlar yaradır.

Biz Polşa şirkətləri ilə həm Azərbaycanda, həm də Polşada tərəfdaş qismində müxtəlif layihələrdə çalışmaq, investisiya qoyuluşu ilə bağlı layihələrdə iştirak etmək istəyirik. Biz Polşa şirkətlərini Azərbaycanda həyata keçirilməkdə olan enerji, nəqliyyat, tikinti layihələrində tərəfdaş olmağa dəvət edirik. Biz onları podratçı qismində dəvət edirik. Biz şirkətləri

Azərbaycanda və regionda bazar potensialı olan sahələrə sərmayə yatırmağa dəvət edirik. Hesab edirəm ki, belə yaxşı siyasi münasibətlərə və iqtisadi əməkdaşlıq üzrə aydın təsəvvürə malik olmaqla, biz çox qısa müddət ərzində uğur qazana, ticarət dövriyyəsini, zənnimcə, bir neçə dəfə artıra və biznes icmaları üçün çox möhkəm təməl yarada bilərik.

Azərbaycan sərhədlərimizdən çox kənara uzanan olduqca önəmli enerji və nəqliyyat layihələrini həyata keçirir. Nəqliyyat sahəsində, cənab Prezidentin qeyd etdiyi kimi, biz artıq dəhlizlərin yaradılması üzrə birgə fəaliyyətə başlamışıq. Azərbaycan nəqliyyat dəhlizlərinin yaradılması üzərində uzun illərdir ki, çalışırdı və indi bütün zəruri nəqliyyat infrastrukturu artıq yaradılıbdır. Bizim bütün qonşularımızla şimal, cənub və qərb istiqamətində dəmir yolu əlaqəmiz var. Bizim bütün təyyarələri qəbul edə bilən 6 beynəlxalq aeroportumuz var. Bizim yükdaşıma donanmamız dünya miqyasında fəaliyyət göstərən ən aparıcı yükdaşıma donanmalarından biridir. Ölkəmiz regionla ən yeni magistrallar şəbəkəsi ilə birləşir. Biz daşımaların həcmini Xəzər dənizində yeni tikilmiş ən böyük liman vasitəsilə artırırıq. Onun 1-ci mərhələsi artıq fəaliyyət göstərir və növbəti il dəniz limanının tikintisinin tamamlanması bizə ən azı ildə 15 milyon ton yük və 1 milyon ton konteyneri yükləyib-boşaltmaq imkanını verəcəkdir. Artıq Çindən Avropaya gedən sınaq konteyner qatarları Azərbaycandan keçir. Beləliklə, Şərq–Qərb nəqliyyat dəhlizi, demək olar ki, icra edilib. Azərbaycan nəinki təkcə ölkə daxilinə sərmayə yatırıb, eyni zamanda, Gürcüstanda dəmir yolunu tikmək üçün 700 milyon dollardan çox maliyyə dəstəyi göstəribdir. İndiki mərhələdə biz İranda dəmir yolunu tikmək üçün maliyyə dəstəyinin göstərilməsi məqsədilə iranlı qonşularımızla danışıqların ən son mərhələsindəyik. Bu dəmir yolu İran dəmir yollarını bizim dəmir yolları ilə birləşdirəcəkdir. Beləliklə, biz çoxsaylı dəhliz formatını, Azərbaycan ərazisindən keçən, Şimali Avropadan Hindistana qədər uzanan Şimal–Cənub və Çindən

Qərbi Avropaya qədər uzanan Şərq–Qərb dəhlizlərini yaratmış olacağıq.

Polyak dostlarımızla üzərində çalışdığımız digər bir layihə isə Cənub–Qərb dəhlizidir. Bunu cənab Prezident də qeyd etmişdir və mən çox şadam ki, Polşa bizim tərəfdaşımızdır. Şimal–Cənub və Şərq–Qərb dəhlizləri vasitəsilə yüklərin Azərbaycan ərazisindən çatdırılma vaxtı ənənəvi marşrutlarla müqayisədə ən azından 2 dəfə qısa olacaqdır. Çoxlu işlər görüləcək, var-dövlət əmələ gələcək və layihə özü ilə yeni əməkdaşlıq sahələrini gətirəcəkdir.

Həyata keçirdiyimiz və Avropada çox yüksək səviyyədə dəstəklənən digər bir vacib layihə «Cənub Qaz Dəhlizi» layihəsidir. Bu gün bu layihə Avropaya qazın çatdırılması üçün yeganə yeni mənbədir. «Cənub Qaz Dəhlizi» Azərbaycanın bir neçə il bundan öncə başladığı layihədir. Bu, dəyəri 40 milyard dollar təşkil edən və demək olar ki, artıq tamamlanan bir layihədir. Bizə bu layihəni 100 faiz tamamlamaq üçün 2-3 il lazımdır. İndi bu layihənin müxtəlif seqmentlərinin icrası 40–95 faiz arasındadır. Bu, Avropaya təbii qazın çatdırılması üçün digər bir mənbə olacaqdır. Bu, enerji şaxələnməsi, enerji təhlükəsizliyi, Avropa bazarlarına təbii qazın davamlı çatdırılması deməkdir. Biz cənab Prezidentlə bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdik. Azərbaycan Avropa bazarlarına neftin çatdırılmasında artıq etibarlı tərəfdaşdır. Bizim Polşa ilə əməkdaşlığımız da çox uğurludur. Beləliklə, əməkdaşlığımızın bu aparıcı qüvvələri qlobal enerji, nəqliyyat və təhlükəsizlik layihələri kimi, mühüm əhəmiyyət kəsb edir. Lakin onlar bu layihənin bir hissəsi olmaq üçün özəl şirkətlərə böyük imkanlar açır. Mən bir daha Polşa şirkətlərini bizim tərəfdaşımız olmağa dəvət edirəm. Biz daha sıx iqtisadi və işgüzar əlaqələr yaratmaq istəyirik. Polşa bizim üçün yaxın dost və nəinki Avropada, dünya miqyasında böyük potensialı və çox yaxşı mövqeyi olan bir ölkədir.

Bu gün həmkarım prezident Dudanı böyük müvəffəqiyyət – Polşanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına, demək olar ki, 200 ölkənin dəstəyi ilə qeyri-daimi üzv seçilməsi münasibətilə təbrik etdim. Bu, ölkənizə beynəlxalq səviyyədə olan hörmətin və sizin etdiklərinizə verilən qiymətin əlamətidir. Əmin ola bilərsiniz ki, Cənubi Qafqaz və Xəzər regionunda sizin etibarlı dostunuz və tərəfdaşınız var. Bacarıqlı, sözünə əməl edən və əməkdaşlığımızı gücləndirmək istəyən dostunuz var. Əminəm ki, ölkələrimizin biznes icmaları imkanları ətraflı şəkildə nəzərdən keçirəcəklər. Əminəm ki, siz bu gün kənd təsərrüfatı, sənaye, turizm, əczaçılıq və böyük potensialı olan digər əməkdaşlıq sahələrində müxtəlif layihələri müzakirə edəcəksiniz. Biz bunu prezident Duda ilə artıq müzakirə etdik və əminəm ki, müzakirələriniz və qarşılıqlı əlaqələriniz yaxşı nəticələrin hasil olunmasına gətirib çıxaracaqdır.

Bir daha sizi salamlamaq, forumda iştirak etdiyiniz üçün sizə minnətdarlığımı bildirmək və uğurlar diləmək istəyirəm. Çox sağ olun.

* * *

*Sonra biznes-forum işini müzakirələrlə davam etdirdi.*

*Biznes-forumda iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 150-dən çox, o cümlədən Azərbaycandan 60-dan artıq iş adamı iştirak edirdi.*

*Forum çərçivəsində Azərbaycanın və Polşanın müxtəlif biznes qurumları və şirkətləri arasında ümumilikdə 5 müqavilə və Əməkdaşlıq Memorandumu imzalandı.*

## POLŞA RESPUBLİKASI SENATININ MARŞALI STANİSLAV KARÇEVSKİ İLƏ GÖRÜŞ

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Polşa Respublikası Senatının Marşalı Stanislav Karçevski ilə görüşmüşdür.*

*Stanislav Karçevski Azərbaycana səfərini və prezident İlham Əliyev ilə görüşünü məmnunluqla xatırlatdı. O, Azərbaycan ilə Polşa arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd olunduğunu vurğulayaraq, bu əlaqələrə böyük əhəmiyyət verdiklərini söylədi, xalqlarımız arasındakı dostluq münasibətlərindən məmnunluğunu ifadə etdi. Stanislav Karçevski prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin və bu səfər çərçivəsində keçirilən biznes-forumun ikitərəfli əlaqələrin müxtəlif sahələrdə gücləndirilməsi baxımından önəmini vurğuladı. O, Polşanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi zamanı Azərbaycanın dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Parlamentlərarası əməkdaşlığa böyük önəm verdiklərini diqqətə çatdıran Polşa Senatının Marşalı Azərbaycanın nəqliyyat dəhlizi imkanlarından istifadə edilməsinin iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Polşaya rəsmi səfəri çərçivəsində strateji tərəfdaşlığa və müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlərin imzalanmasının ölkələrimiz arasında dostluq münasibətlərinin yaxşı göstəricisi olduğunu bildirdi. Dövlətimizin başçısı Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi*

*üzvü seçilməsi münasibətilə təbriklərini çatdırdı. Səfər çərçivəsində iqtisadi əlaqələrimizin mühüm hissəsinin – Azərbaycanın nəqliyyat dəhlizləri və ölkəmizin tranzit imkanlarından istifadə olunması məsələsinin müzakirə edildiyini bildirən prezident İlham Əliyev bu nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Azərbaycan–Polşa əməkdaşlığının böyük tarixinin olduğunu qeyd edən dövlətimizin başçısı ölkəmizin ikitərəfli əlaqələrin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Polşa ilə beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa Parlament strukturlarında uğurla əməkdaşlıq etdiklərini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Polşa arasında siyasi, iqtisadi, humanitar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələri ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonda prezident İlham Əliyev Senatın Xatirə kitabına ürək sözlərini yazdı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə iyunun 27-də Polşa Respublikasının Prezidenti Andjey Dudanın adından rəsmi ziyafət verilmişdir.*

*Azərbaycanın və Polşanın Dövlət himnləri səsləndirildi.*

*Sonra dövlət başçıları rəsmi ziyafətdə çıxış etdilər.*

### Polşa prezidenti Andjey Dudanın çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezidenti Varşavada qonaq qismində qəbul etməyim məni çox sevindirir. Sizin Polşaya çox gözlənilən səfəriniz xüsusi məna daşıyır. Bu, ölkələrimiz arasında yaxın əlaqələrin olmasının sübutudur.

Azərbaycanın nailiyyətlərinə böyük ehtiramla yanaşır, ölkənizi tərəfdaş kimi görürük. Polşa və Azərbaycanın qarşısında oxşar məqsədlər durur. Ölkələrimizin sabit və təhlükəsiz inkişafını təmin etmək üçün çalışır və eyni zamanda, beynəlxalq arenada mövqemizi möhkəmlətmək istəyirik. Polşa və Azərbaycan öz regionlarında iqtisadi liderlərdir, regionun sabitliyinin və inkişafının təmin edilməsində həlledici rol oynayırlar. Cənubi Qafqaz regionunda rolu, həmçinin «Şərq Tərəfdaşlığı»nda getdikcə artan iştirakı baxımından Polşanın Şərq siyasəti üçün Azərbaycan çox önəmlidir. Hesab edirik ki,

Azərbaycan Avropa ilə Asiyanı birləşdirən önəmli körpüdür. Əminəm ki, bu gün beynəlxalq vəziyyətin çox mürəkkəb olduğu dövrdə birlikdə tərəfdaşcasına əməkdaşlıq sayəsində ortaq təşəbbüs və tədbirlərimizi uğurla həyata keçirmək şansına malikik.

Hörmətli cənab Prezident, xalqlarımızı bir-birinə bağlayan dostluq münasibətləri dərin tarixi köklərə əsaslanır. Polyaklar Azərbaycana artıq XVIII əsrdən başlayaraq üz tutmuş, burada özlərinə ikinci yurd tapmış və yeni vətənlərinin inkişafında iştirak etmişlər.

XIX əsrdə Bakıda neft sənayesi sürətlə inkişaf etməyə başlamışdır. O vaxt «Bakı neftinin atası» adlandırılan geoloq Vitold Zqlenitskinin və mühəndis Pavel Pototskinin nailiyyətləri xüsusi tanınırdı. Bu günədək Azərbaycanda onların nailiyyətlərinin xatırlanması və Pavel Pototskinin Xəzər dənizinin sahilində yerləşən məzarına hörmət və qayğı göstərilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. XIX əsrin sonları – XX əsrin əvvəllərində polyak əsilli tanınmış memarlar Yuzef Qoslavski, Yuzef Ploşko, Yevgeni Skibinski və digərləri bu gün də mötəbərliyini itirməyən Bakının simasının formalaşmasına öz töhfələrini vermişlər. Milliyyətcə polyak Stanislav Despot-Zenoviç isə Bakı şəhərinin başçısı olmuşdur. Bir çox polyak üçün Bakının nə qədər əhəmiyyətli olmasını, həmçinin polyak ədəbiyyatının nadir incilərindən sayılan Stefan Jeromskinin «Bahar ərəfəsi» əsərinin əvvəlindəki hadisələrin məhz bu şəhərdə – baş qəhrəman Tsezari Barıkanın uşaqlıq və gənclik illərinin keçdiyi, atası Severinin böyük ümidlər bəslədiyi şəhərdə cərəyan etməsi bunu təsdiq edir.

XX əsrdə müstəqilliyə və azadlığa olan məhəbbətimiz bizi bir-birimizə yaxınlaşdırdı. 1918–1920-ci illərdə – Azərbaycanın azadlıq uğrunda mübarizə apardığı dövrdə başda öz həyatını Azərbaycanın müstəqilliyinə qurban vermiş general Maçey Süleyman Sulkeviç olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda və dövlət aparatında bir çox polyak xidmət

göstərmişdir. İkinci dünya müharibəsi illərində bizim azadlığımızı isə Polşa Ordusu sıralarında polkovnik Vəli bəy Yadigar qorumuşdur. Onların Varşava şəhərinin Praqa rayonunda ucaldılmış birgə abidəsi bu qarşılıqlı əlaqələrin təcəssümüdür.

Hörmətli cənab Prezident, artıq bizim müasir əlaqələrimiz də əhəmiyyətli tarixə malikdir. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ili tamam olur. Diplomatik münasibətlərimizin 25-ci ildönümü məni sevindirir. Gələcəyə nikbinliklə baxır, Polşa və Azərbaycan əməkdaşlığı üçün yeni perspektivlər görürəm. Əminəm ki, ölkələrimizin uğurları naminə bundan istifadə edəcəyik.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, məni Polşaya rəsmi səfərə dəvət etdiyinizə, səfər zamanı mənə və nümayəndə heyətinə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Bu səfərim ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə təsadüf edir.

Müasir diplomatik əlaqələrimizin tarixi 25 illik dövrü əhatə etsə də, xalqlarımız arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Hələ XV əsrdə Azərbaycan hökmdarı Uzun Həsənin Polşa kralı Yagello ilə sıx təmasları olmuşdur. Sonrakı dövrlərdə də münasibətlərimiz qorunub saxlanılmışdır. Şərqdə ilk demokratik respublikanın – 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin həyatında polyaklar fəal iştirak etmişlər. General Maçey Sulkeviç həmin dövrdə Azərbaycan Ordusunun qərargah rəisi olmuşdur. Kriçevski qardaşları Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində rəhbər vəzifələr tutmuşlar. Azərbaycanlı Vəli bəy Yadigar isə İkinci dünya müharibəsi illərində Polşa Milli Ordusunun polkovniki olmuşdur. XIX əsrin sonları – XX əsrin

əvvəllərində Bakı şəhərinin memarlıq simasının formalaşmasında polyaklar böyük rol oynamışlar. Bakının baş memarı olmuş Yuzef Qoslavski, eləcə də tanınmış memarlar Ploşko və Skureviçin layihələri ilə inşa edilmiş binalar bu gün də Bakıya gözəllik verən memarlıq nümunələridir. Polyaklar Azərbaycanın neft sənayesinin inkişafına da töhfələr vermişlər. Mühəndis Pavel Pototskinin Xəzər şelfində neft çıxarılması sahəsində böyük xidmətləri olmuşdur. Vəsiyyətinə uyğun olaraq, Pototski Bakıda dəfn olunmuş və burada onun xatirəsinə abidə ucaldılmışdır.

Qeyd etməliyəm ki, ədəbi, mədəni, elmi əlaqələrimizin də zəngin tarixi vardır. Bu əlaqələr bu gün də davam və inkişaf etməkdədir. Xalqlarımız arasında formalaşan möhkəm dostluq əlaqələri bugünkü münasibətlərimiz üçün gözəl zəmin yaradıbdır. Hazırda Azərbaycan ilə Polşa arasında siyasi əlaqələr yüksək səviyyədədir. Bu səfər çərçivəsində imzalanan sənədlər, xüsusilə də «Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə» münasibətlərimizin daha da inkişafı üçün siyasi iradəmizin göstəricisidir. Siyasi münasibətimizin mövcud səviyyəsi iqtisadi əlaqələr üçün də yeni perspektivlər açır. Tarixi İpək yolu üzərində əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə həyata keçirilən beynəlxalq enerji və nəqliyyat layihələri əməkdaşlığımızın daha da genişlənməsinə imkan verir.

Azərbaycan regionda təhlükəsizliyə, sabitliyə, inkişafa və əməkdaşlığa töhfə verir. Lakin regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunub, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilib, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü

tanıyır və münaqişənin beynəlxalq normalara uyğun ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, NATO, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Mövcud status-kvo qəbuledilməzdir və işğal edilmiş ərazilər qeyd-şərtsiz azad olunmalıdır.

Mən Polşaya Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyinə görə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, dəvətə və yüksək qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirir, öz növbəmdə, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Sizə cansağlığı, ölkənizə, xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

## POLŞA RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM BEATA ŞİDLO İLƏ GÖRÜŞ

*Varşava*

*28 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Varşavada Polşa Respublikasının Baş naziri xanım Beata Şidlo ilə görüşmüşdür.*

*Baş nazir Beata Şidlo prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından önəmini qeyd etdi, Azərbaycan–Polşa biznes-forumunun iqtisadi əməkdaşlığın dərinləşdirilməsində əhəmiyyətini vurğuladı. Azərbaycan–Polşa diplomatik əlaqələrinin qurulmasının 25 illiyinin qeyd olunduğunu bildirən Baş nazir ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.*

*Beata Şidlo Polşanın Azərbaycanın regionda rolunu yüksək qiymətləndirdiyini, ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsi istiqamətində səylərini dəstəklədiyini və bu dəstəyin gələcəkdə də davam etdiriləcəyini söylədi. Polşanın Baş naziri səfər çərçivəsində imzalanan sənədlərin iki ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün möhkəm hüquqi baza yaratdığını dedi. Ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılmasında maraqlı olduqlarını vurğulayan Baş nazir bildirdi ki, Polşa Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində səylərini dəstəkləyir və yüksək qiymətləndirir. Polşa şirkətləri də bu istiqamətdə fəal iştirak etməyə hazırdırlar. Beata Şidlo bildirdi ki, regionda böyük rol oynayan Azərbaycan Polşanın Şərq siyasətində mühüm yer tutur. Baş nazir Azərbaycanın balanslı siyasət həyata ke-*

*çirdiyini bildirərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını xüsusi vurğuladı, bu baxımdan «Cənub Qaz Dəhlizi»nin önəmini qeyd etdi.*

*Baş nazir Beata Şidlo ilə əvvəlki görüşünü xatırladan prezident İlham Əliyev Polşaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi, qarşıda duran məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi. İkitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev Polşanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə təbriklərini çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan və Polşa beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də və Avropa strukturlarında uğurla əməkdaşlıq edirlər. İkitərəfli münasibətlərimizin Azərbaycan–Avropa İttifaqı əlaqələri baxımından önəmini vurğulayan prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın uğurla inkişaf etdiyini, bu istiqamətdə yeni saziş üzərində iş aparıldığını nəzərə çatdırdı. Prezident İlham Əliyev beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın fəal iştirak etdiyini və bu istiqamətdə Polşa ilə əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, qarşılıqlı ticarət dövriyyəsinin ölkələrimizin mövcud potensialını tam əks etdirmədiyini, onun artırılması üçün əsas istiqamətlərin müəyyənləşdirilməsində Azərbaycanın maraqlı olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında nəqliyyat, energetika, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyevin Polşa Respublikasına rəsmi səfəri iyunun 28-də başa çatdı.*

**BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB PYER NKURUNZİZAYA**

Hörmətli cənab Prezident!

Burundi Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Burundi xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyun 2017-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Müasir Belarus nəzərdə tutulan məqsədləri və prioritet vəzifələri uğurla həyata keçirərək, dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsi, davamlı sosial-iqtisadi inkişaf sahələrində sanballı uğurlara nail olubdur.

Azərbaycan ilə Belarusu ənənəvi sıx dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək münasibətləri birləşdirir. Əminəm ki, bizim birgə səylərimiz Azərbaycan–Belarus qarşılıqlı faydalı əməkdaşlığının və çoxplanlı qarşılıqlı fəaliyyətin bundan sonra daha da genişlənməsinə və möhkəmlənməsinə şərait yaradacaqdır.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Belarus xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2017-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər diplomatik əlaqələrimizin qurulmasından sonra ötən 25 il ərzində dostluq və əməkdaşlıq zəminində dinamik və hərtərəfli inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlibdir.

Enerji təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycanın həyata keçirdiyi irimiqyaslı transmilli layihələrə ABŞ-ın mühüm və davamlı dəstəyi, beynəlxalq terrorizmə qarşı mübarizədə, Əfqanıstanda sülhyaratma missiyasında ölkələrimizin yaxından və səmərəli əməkdaşlığı tərəfdaşlığımızı səciyyələndirən başlıca amillərdəndir.

Biz eyni zamanda, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın doğma yurd-yuvalarına qayıtması üçün Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həllində ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyun 2017-ci il*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*İstanbul*

*9 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İstanbulda keçirilən XXII Ümumdünya Neft Konqresində iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

*Azərbaycan Prezidentini İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər qarşıladılar.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*9 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər və şam etdilər.*

*Görüşdə Türkiyə–Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu bildirildi.*

*Prezident İlham Əliyev XXII Ümumdünya Neft Konqresinin Türkiyədə keçirilməsi münasibətilə prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etdi. Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində strateji əhəmiyyətli layihələrin uğurla icra olunduğu qeyd edildi, xüsusilə TANAP layihəsinin gələn il başa çatacağı məmnunluqla vurğulandı.*

*Azərbaycan və Türkiyə prezidentləri ölkələrimizin hərbi sahədə əməkdaşlığının daha da genişləndirilməsi və möhkəmləndirilməsi haqqında söhbət etdilər.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Prezident İlham Əliyev son vaxtlar təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə ətraflı məlumat verdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğuladı.*

## ABŞ-ın DÖVLƏT KATİBİ REKS TİLLERSON İLƏ GÖRÜŞ

*İstanbul*

*10 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da İstanbulda ABŞ-ın Dövlət katibi Reks Tillerson ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi və enerji sahələrində uğurla inkişaf etdiyi qeyd olundu.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Prezident İlham Əliyev bu münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bir daha bildirdi, Ermənistanın təmas xəttində son hərbi təxribatı haqqında məlumat verdi.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı görülən işlərdən danışdı.*

*Reks Tillerson qeyd etdi ki, ABŞ bu layihənin həyata keçirilməsinə bundan sonra da dəstək verəcəkdir.*

*Prezident İlham Əliyev XXIV Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransının açılışı münasibətilə göndərdiyi təbrik məktubuna görə ABŞ Prezidenti Donald Trampa minnətdarlığının çatdırılmasını Reks Tillersondan xahiş etdi. Dövlət başçısı bu məktubu ABŞ-ın Azərbaycanın enerji siyasətinə, xüsusilə «Cənub Qaz Dəhlizi» layihəsinə dəstəyi kimi dəyərləndirdi. ABŞ-ın Dövlət katibi Azərbaycanın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyətini və ölkəmizin bu əməliyyatlarda logistik və nəqliyyat dəhlizi rolunu yüksək qiymətləndirdi. Söhbət zamanı, həmçinin ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, demokratiyanın inkişafı ilə bağlı məsələlər də müzakirə edildi.*

## XXII ÜMUMDÜNYA NEFT KONQRESİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI ARASINDA QISA SÖHBƏTDƏ İŞTİRAK

*İstanbul*

*10 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin, Türkiyənin Baş naziri Binəli Yıldırımın, Albaniyanın Baş naziri Edi Ramanın, Bolqarıstanın Baş naziri Boyko Borisovun, Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrakın və Ümumdünya Neft Şurasının prezidenti Cozef Totun arasında iyulun 10-da İstanbulda keçirilən XXII Ümumdünya Neft Konqresi işə başlamazdan əvvəl qısa söhbət olmuşdur.*

## XXII ÜMUMDÜNYA NEFT KONQRESİNDƏ İŞTİRAK

*İstanbul*

*10 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da İstanbulun ev sahibliyi etdiyi XXII Ümumdünya Neft Konqresi çərçivəsində keçirilən prezidentlərin tədbirində iştirak etmişdir.*

*Konqres ötən il iyulun 15-də Türkiyədə baş verən hadisələr zamanı həlak olan şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlandı.*

*Ümumdünya Neft Şurasının sədri Cozef Tot 1933-cü ildə yaradılan bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini və hər 3 ildən bir konqresin keçirildiyini bildirdi. Bu dəfə İstanbulda «Enerji gələcəyimizə körpülər» devizi altında təşkil olunan XXII Ümumdünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazirin, 5000-dən çox dövlət nümayəndəsinin və şirkət rəhbərlərinin qatıldığını qeyd edən Cozef Tot konqres çərçivəsində aparılacaq müzakirələrin faydalı olacağına əminliyini ifadə etdi.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak konqresə ev sahibliyi etməyin Türkiyə üçün qürurverici olduğunu söyləyərək, Moskvada keçirilən son konqresdən sonra bir çox işlərin görüldüyünü, mühüm nəticələrin əldə olunduğunu bildirdi. Son illərdə Türkiyədə neft-qaz sektorunun inkişafı ilə bağlı görülən işlərdən söz açan nazir enerji sahəsinə artan tələbatın ödənilməsinin, özəl sektorda yatırımların həcminin artırılmasının, milli enerji siyasətinin təməl prinsiplərinin güclən-*

*dirilməsinin diqqət mərkəzində saxlanıldığını vurğuladı. Qarşıda duran vəzifələrdən danışarkən Berat Albayrak boru kəməri layihələrinin genişləndirilməsinin də əhəmiyyətinə toxundu, qlobal enerji layihələrində Türkiyənin hər zaman təbii müttəfiq olacağını bildirdi.*

**Berat Albayrak:** Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP, «Türk axını» və Şərqi Aralıq dənizi qaz layihələri Türkiyənin və Avropanın təbii qazla təchizatı mənbələrinin şaxələnməsi baxımından çox əhəmiyyətlidir. Türkiyə enerji sektoruna yatırılan investisiyaların artırılmasında maraqlıdır.

*Sonra müasir dövrdə həyatın və sivilizasiyanın mənbəyi olan enerjinin əhəmiyyətinə həsr olunmuş videoçarx nümayiş etdirildi.*

*Bolqarıstanın Baş naziri Boyko Borisov çıxışında Balkan regionunda neft-qaz sektoru baxımından önəmli mövqeyə malik olan ölkəsinin gələcəkdə Avropanın təbii qazın paylanması mərkəzinə çevrilmə ehtimalının böyük olduğunu bildirdi və bu məsələdə Balkan regionunun əhəmiyyətini qeyd etdi. O, Azərbaycandan gələn təbii qazın qəbulu və ötürülməsində də Bolqarıstanın önəmli rol oynadığını diqqətə çatdırdı.*

**Boyko Borisov:** Avropaya Azərbaycan, Rumıniya və Rusiya ilə yanaşı, Bolqarıstan vasitəsilə də təbii qaz nəql etmək imkanımız olacaqdır. Bununla bağlı 1 milyard kubmetr qazın nəql edilməsi üçün Azərbaycan ilə müzakirələr aparmışıq. Biz qaz anbarlarımızın daha da inkişaf etdirilməsi ilə bağlı əlimizdən gələni edəcəyik.

*Albaniyanın Baş naziri Edi Rama da neft-qaz sektorunun inkişafı sahəsində ölkəsinin böyük imkanlarının olduğunu, bu baxımdan Balkan regionunda önəmli məntəqəyə çevrildiyini bildirdi. Neft-qaz, ümumiyyətlə, enerji sektorunda Albaniyanın böyük perspektivlərindən danışan Edi Rama Xəzərdən gələn enerjinin 2020-ci ildə Avropaya çatacağını və Albaniyanın da təbii qazın qitəyə ötürülməsində önəmli məntəqə olduğunu*

*bildirdi, enerji sahəsində fəaliyyət göstərən şirkətləri ölkəsinə sərmayə qoymağa dəvət etdi.*

*«Dünyada önəmini qoruyub saxlayan enerji sektorunun müasir dövrdə ölkələrin və xalqların mənafeyinə xidmət etməsi vacibdir» – söyləyən Türkiyənin Baş naziri Binəli Yıldırım bu sahədə ölkəsinin həyata keçirdiyi tədbirlərdən danışdı, enerji təhlükəsizliyinin siyasi problemlərinin həllinə, sülhün təmin olunmasına xidmət etməsinin vacibliyini bildirdi. Binəli Yıldırım Türkiyənin Azərbaycan və Gürcüstan ilə birgə həyata keçirdiyi Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələrinin önəmini vurğuladı.*

**B i n ə l i Y ı l d ı r ı m:** Regional əməkdaşlığın nə dərəcədə önəmli olduğunu Azərbaycan və Gürcüstanla birgə həyata keçirdiyimiz Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri layihələri ilə regiona və dünyaya nümayiş etdirdik. Bu əməkdaşlığı hazırda «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində həyata keçirdiyimiz Trans–Anadolu qaz boru kəməri – TANAP layihəsi ilə də davam etdiririk. TANAP-ın gələn il istifadəyə verilməsi nəticəsində Türkiyə hər il Azərbaycandan əlavə olaraq 6 milyard kubmetr təbii qaz alacaq. Bundan başqa, 2020-ci ildən etibarən bu xətt vasitəsilə Avropaya 10 milyard kubmetr qaz ixracı məsələsi gündəmdə olacaqdır.

*Sonra Türkiyənin dünya enerji xəritəsində oynadığı roldan bəhs edən növbəti videoçarx göstərildi. Videoçarxda Türkiyənin mədəniyyətindən, geosiyasi mövqeyindən, bu ölkənin bölgədə sülhün və təhlükəsizliyin qorunmasındakı rolundan söhbət açıldı. Qədim zamanlarda İpək yolunun kəsişməsində yerləşən Türkiyənin bu gün enerji kəmərlərinin kəsişdiyi nöqtədə durmasının əhəmiyyəti vurğulandı.*

*Hazırda enerji təminatının ölkəsinin xarici siyasətində ən önəmli yerlərdən birini tutduğunu deyən Serbiya prezidenti Aleksandr Vuçiç bu məsələ ilə bağlı gələcəyə yönələn tədbirlərdən söz açdı, beynəlxalq əməkdaşlığın diqqət mərkəzində saxlandığını bildirdi. Etibarlı enerji tədarükünün Serbiya üçün*

*xüsusi önəm daşıdığını qeyd edən Aleksandr Vuçiç ölkəsinə ixrac olunan mavi yanacağın həcminin artırılması ilə bağlı tədbirlərin görüldüyünü vurğuladı, alternativ enerji mənbələri ilə bağlı həyata keçirilən siyasətin Serbiyanın gündəmində olduğunu diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qardaşım, hörmətli prezident Rəcəb Tayyib Ərdoğan!

Hörmətli xanımlar və cənablar!

Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam. Fürsətdən istifadə edərək, qardaş Türkiyə xalqına sülh, rifah, tərəqqi arzulayıram.

Prezident Ərdoğana minnətdaram ki, məni bu konqresə dəvət etdi. Mənə göstərilən qonaqpərvərliyə görə də minnətdaram. Türkiyə bu gün dünya miqyasında böyük bir gücdür. Türkiyə dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malikdir. Bütün bu uğurlar mənim qardaşım prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçibdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə gücləndikcə biz də güclənirik, biz də sevinirik. Fürsətdən istifadə edərək, qardaş Türkiyə xalqına bütün Azərbaycan bacı-qardaşlarının səmimi salamlarını çatdırıram.

Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən enerji sahəsində Türkiyə–Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı–Tbilisi–Ceyhan neft kəmərini, Bakı–Tbilisi–Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, hətta dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

Azərbaycan qədim neft diyarıdır. Biz hesab edirik ki, Azərbaycan neftin vətənidir. Çünki dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə məhz Azərbaycanda, Bakıda çıxarılmışdır. Ondan bir əsr sonra – XX əsrin ortalarında yenə də dünyada ilk dəfə olaraq, dənizdən neft Xəzər dənizinin Azərbaycan sektorunda Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdir. Lakin o vaxt Azərbaycan müstəqil deyildi və biz təbii sərvətlərimizdən tam istifadə edə bilmirdik. Ancaq müstəqillik dövründə Azərbaycan xalqı öz taleyinin, öz təbii sərvətlərinin sahibi oldu. Müstəqillik dövründə bu təbii sərvətlər ölkəmizin inkişafına, xalqın rifah halının yaxşılaşmasına xidmət etməyə başladı. Müstəqilliyimizin ilk illərində – 1994-cü ildə Azərbaycan ilk dəfə olaraq, Xəzər dənizindəki karbohidrogen yataqlarını xarici sərmayədarların üzünə açdı.

1994-cü ildən etibarən Azərbaycanın neft sənayesinə böyük sərmayə qoyulmağa başlandı. 1994-cü il ona görə əlamətdar bir tarixdir ki, məhz o ildə «Əsrin müqaviləsi» imzalandı. Bu müqavilə Bakı–Tbilisi–Ceyhan kəmərinin neftlə doldurulmasında əsas rol oynayır. Ondan sonra Azərbaycanda çox zəngin «Şahdəniz» qaz yatağı aşkar edildi. Bu yatağın qaz ehtiyatlarının həcmi 1,2 trilyon kubmetrdir. Bu, dünya miqyasında ən böyük qaz yataqlarından biridir və bu gün «Cənub Qaz Dəhlizi»nin resurs bazasının əsasını təşkil edir.

Beləliklə, artıq Azərbaycan müasir dövrdə neft və qazı hasil və ixrac edən ölkəyə çevrilibdir. Bizim ölkəmiz dünya bazarlarına çıxış əldə etmək üçün neft-qaz kəmərləri tikməli idi. Çünki bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bu məqsədlə 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəməri və 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istismara verildi. Ondan bir neçə il əvvəl Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı–Supsa neft kəməri tikilmişdir. Beləliklə, Azərbaycanın təbii resurslarının dünya bazarlarına çıxarılması üçün kifayət qədər böyük şəbəkə yaradıldı. 2006-cı ildə Ceyhanda qardaşım prezident Ərdoğanla bir yerdə Bakı–Tbilisi–Ceyhan

neft kəmərinin açılışında iştirak edirdik və o vaxt da biz gələcək planlar haqqında düşünürdük, fikir mübadiləsi aparırdıq. O vaxtdan bu günə qədər bizim bütün planlarımız uğurla reallaşır. Çünki biz bu gün «Cənub Qaz Dəhlizi» kimi meqalayihənin üzərində çalışırıq, onun da təməli Türkiyədə, bu gözəl İstanbul şəhərində qoyulubdur. 2012-ci ildə qardaşım prezident Ərdoğanla TANAP layihəsi haqqında müqaviləni imzaladıq. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin özəyidir. Məhz ondan sonra bütün digər istiqamətlər üzrə işlər başlandı. Bu gün «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Bu layihə 4 hissədən ibarətdir. Birinci hissə «Şahdəniz» qaz yatağıdır, orada «Şahdəniz-2» layihəsinin icrası artıq 93 faizə çatıbdır, yaxın aylarda tam başa çatacaqdır. İkinci hissə Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» qaz boru kəməridir. Orada da işlər 87 faiz səviyyəsində tamamlanıbdır. Üçüncü və ən əsas hissə TANAP qaz kəməridir. Burada da tamamlanma səviyyəsi 77 faizdir və biz gələn il bu layihənin icrasını qeyd edəcəyik. Nəhayət, dördüncü hissə TAP – Trans–Adriatik kəməridir. Burada da icra 44 faiz səviyyəsindədir. Bütün bu 4 önəmli layihə «Cənub Qaz Dəhlizi»ni təşkil edir. Bu layihənin icrası üçün 40 milyard dollar sərmayə tələb olunur, onun böyük hissəsi artıq qoyulubdur.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Gələcək onilliklər ərzində Azərbaycan qazı həm region, həm də Avropa ölkələrinin tələbatını ödəyəcəkdir.

«Cənub Qaz Dəhlizi» layihəsinin icrasında 7 ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Üç Balkan ölkəsi də gələcəkdə «Cənub Qaz Dəhlizi»nə qoşula bilər. Bu istiqamətdə də müvafiq işlər aparılır. Yəni biz bu layihənin coğrafiyasını genişləndiririk, gələcəkdə daha da genişləndirə bilərik. Çünki bu hər bir ölkəyə fayda gətirən təşəbbüsdür. Bu layihənin icrası onu göstərir ki, burada iştirak edən bütün ölkələr və şirkətlər qazanc əldə edirlər. Biz elə bir gözəl əməkdaşlıq formatı yaratdıq ki, həm

hasilatçılar – yəni Azərbaycan, həm tranzit ölkələr, həm də istehlakçılar burada ortaq maraqlar əsasında çalışırlar. Məhz bu maraqlar balansı bu böyük layihənin uğurlu icrasına gətirib çıxarıbdır. Çünki burada texniki, maliyyə, iqtisadi, siyasi məsələlər kifayət qədər çoxdur. Artıq bu gün, demək olar ki, «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir.

Bu gün qaz amili dünyada enerji təhlükəsizliyini təmin edən əsas şərtdir. Bu baxımdan Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində öz töhfəsini verməkdədir. Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir. Çünki qalan bütün qaz mənbələri fəaliyyətdədir. Artıq yeni mənbə aşkarlanıb. Bu qaz ehtiyatları yeni xətlə Avropa bazarlarına çıxarılacaqdır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, burada hər iki amil var. Bu da enerji şaxələndirilməsi istiqamətində çox ciddi bir addımdır.

Azərbaycan öz məsuliyyətini dərk edir. Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcəkdir. Biz bu məsuliyyəti öz üzərimizə götürərək, ümid edirəm ki, yaxşı nəticələr göstəririk. Bu konqresdə, əlbəttə ki, neft, qaz məsələləri diqqət mərkəzindədir. Mən çıxışımın sonunda bir məsələyə də toxunmaq istəyirəm. Adətən, neftlə zəngin olmayan ölkələr düşünürlər ki, kaş bizdə də neft olaydı, biz də bundan istifadə edə biləydik. Amma mən deyə bilərəm ki, neft həm fayda gətirə bilər, həm də problem, başağrısı yarada bilər. Baxır neftdən necə istifadə edirsən. Biz Azərbaycanda çalışırdıq və hesab edirəm, buna nail olduq ki, «qara qızıl»ı insan kapitalına çevirək. Biz neftdən əldə edilən gəlirləri ilk növbədə, çox şəffaf şəkildə qoruyuruq. Azərbaycan Dövlət Neft Fondu dünyada mövcud olan neft fondları arasında ən şəffaflarından biridir və Birləşmiş Millətlər Təşkilatının da mükafatına layiq görülübdür. Yəni birinci şərt budur – tam

şəffaflıq. Bizim Neft Fondumuzda yığılan vəsaitlə bağlı məlumatlar mütəmadi qaydada ictimaiyyətə çatdırılır.

İkinci məsələ, neftdən əldə edilən gəlirlərdən düzgün istifadə olunmalıdır. Biz neftdən əldə edilən gəlirləri ilk növbədə infrastruktur layihələrinə yönəltdik. Bu gün biz nəinki nefti, qazı, eyni zamanda, son illər ərzində tikdiyimiz onlarla elektrik stansiyasının istehsal etdiyi enerjini də ixrac edirik. Biz sosial infrastruktur layihələrinə böyük vəsait qoyduq – məktəb, xəstəxana tikintisi. Yoxsulluqla çox ciddi mübarizə aparılır. Neft sektoru əslində çox iş yeri yaradan sektor deyil. Amma buna baxmayaraq, biz neftdən əldə olunan gəlirləri digər sektorlara yönəldərək, yoxsulluğu, işsizliyi aşağı səviyyəyə sala bildik və bu gün bu, təxminən 5-6 faiz səviyyəsindədir. Yəni düzgün siyasət və düzgün atılan addımlar nefti həm faydaya çevirə bilər, həm də bu sərvət ölkələr üçün problem yarada bilər.

Hesab edirəm ki, Azərbaycan təcrübəsi uğurludur. Bizim ölkəmizə xarici sərmayə də böyük həcmdə qoyulur. Öz növbəmizdə, biz də xarici ölkələrə sərmayə qoyuruq. Burada da birinci yerdə qardaş ölkə Türkiyədir. Türkiyənin enerji sektoruna bu günə qədər 10 milyard dollar sərmayə qoyulub. Növbəti illərdə bu rəqəm təxminən 2 dəfə artacaqdır.

Bir sözlə, əziz dostlar, bu gün biz enerji təhlükəsizliyi deyəndə, əlbəttə ki, icra etdiyimiz layihələr yada düşür. Bir daha çıxışımın əvvəlinə qayıtmaq istəyirəm. Türkiyə–Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri vardır. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır.

Əziz qardaşım, dəvətə və mənə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Konqresin işinə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Türkiyənin malik olduğu neft-qaz kəmərləri sistemindən, bu ölkənin enerjidən təhlükəsizlik və sülhün təmin olunması istiqamətində necə yararlanması ilə bağlı videoçarxın nümayişindən sonra Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.*

*İstanbulun bu konqresə ev sahibliyi etməsindən məmnun olduğunu vurğulayan Türkiyə dövlətinin başçısı müasir dövrdə sülhün və rifahın təməli olan karbohidrogen resurslarının münaqişələrə səbəb olmasından təəssüfləndiyini söylədi, Türkiyənin dünyanın enerji xəritəsində mühüm rol oynadığını, yeni layihələrin də bu mövqeni gücləndirəcəyini diqqətə çatdırdı. Bu çərçivədə Rusiya ilə birgə həyata keçirilən «Türk axını» layihəsinin də əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan enerjinin sülh və təhlükəsizlik vasitəsinə çevrilməsi istiqamətində səylərin artırılmasının vacibliyini bildirdi. 2050-ci ilə qədər enerjiyə olan tələbatın bu günlə müqayisədə 2 dəfə artacağını qeyd edən Türkiyə Prezidenti dünya enerji siyasətinin hazırda enerji qaynaqlarını şaxələndirməyə yönəldiyini diqqətə çatdırdı.*

*«Bölgəmizin sülhə və əməkdaşlığa ehtiyacı var» – söyləyən Rəcəb Tayyib Ərdoğan Körfəz böhranı da daxil olmaqla, Suriya və digər regionlarda baş verən qarşıdurmaların tezliklə həll olunmasının vacibliyini vurğuladı. Avrasiyada enerji siyasətində mühüm oyunçulardan olan Türkiyənin enerji qaynaqlarının təhlükəsizliyinin təmin olunması, bu sahədə terror təşkilatlarının fəaliyyətinin qarşısının alınması istiqamətində bundan sonra da qərarlı siyasət yürüdəcəyini bəyan etdi.*

**Rəcəb Tayyib Ərdoğan:** Azərbaycan neftinin Aralıq dənizinə çatdırılmasını təmin edən Bakı–Tbilisi–Ceyhan, həmçinin Azərbaycan təbii qazının ölkəmizə və Avropaya nəqlini mümkün edən Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin inşasını uğurla başa çatdırdıq.

Hazırda Türkiyə üçün yeni layihələr sırasında prioritet bir az əvvəl deyildiyi kimi, «Cənub Qaz Dəhlizi»dir. «Cənub Qaz

Dəhlizi»nin əsas hissələrindən biri olan Trans–Anadolu qaz boru kəməri, yəni TANAP vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazı ixrac olunacaq. TANAP kəmərinin gələn ilin ortalarında fəaliyyətə başlaması ilə Azərbaycanla yanaşı, Xəzər və hətta gələcəkdə Orta Şərq regionundan da ölkəmizə və Avropaya təbii qaz nəqlinin imkanları yaranacaqdır. TANAP xəttinin davamı olan Trans–Adriatik qaz boru kəməri layihəsinin–TAP-ın da planlaşdırıldığı kimi, inşallah, 2020-ci ildə istismara verilməsi gözlənilir.

Bu məsələdə həm dostum cənab prezident İlham Əliyevin, həm də «Cənub Qaz Dəhlizi» layihəsində iştirak edən digər ölkələrin və şirkətlərin rəhbərlərinin tam qətiyyətli mövqeyini məmnuniyyətlə görürük.

* * *

*Qeyd edək ki, Ümumdünya Neft Konqresinin əsas təşkilatçısı olan Ümumdünya Neft Şurası neft və qaz sənayesi üzrə mühüm məsələlərin müzakirə olunduğu və vacib qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bitərəf və qeyri-siyasi qurum olan Ümumdünya Neft Şurası bu sahədə elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi, dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması istiqamətlərində fəaliyyət göstərir. 70 üzv ölkəni birləşdirən Ümumdünya Neft Şurası dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri iyulun 10-da başa çatdı.*

*Azərbaycanın və Türkiyənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsini salamladı.*

*Azərbaycan Prezidentini Türkiyənin rəsmi şəxsləri yola saldılar.*

**MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Monteneqronun milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Monteneqro dostluğu və əməkdaşlığının daha da möhkəmləndirilməsi və inkişafı yolunda atılan addımlar bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 iyul 2017-ci il*

**MONQOLUSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB XALTMAAQİYN BATTULQAYA**

Hörmətli cənab Prezident!

Monqolustanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan ilə Monqolustan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək, ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2017-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz zəngin ənənələrə malik Azərbaycan–Fransa münasibətlərinə xüsusi əhəmiyyət veririk. Məmnunluqla qeyd etmək istərdim ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illik tarixi ərzində ikitərəfli münasibətlərimiz yeni məzmun kəsb etmiş, dinamik inkişaf yolu keçmişdir. Bu gün siyasi, iqtisadi, mədəni əlaqələrimiz müvəffəqiyyətlə inkişaf edir və genişlənir.

Biz həmçinin Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoyulması, işğal nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox soydaşımızın öz doğma yurd-yuvasına qayıtması üçün Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli həllində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2017-ci il*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupovu və Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmonxon Alimovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli münasibətlərin yaxşı perspektivlərə malik olduğunu qeyd etdi. Özbəkistan prezidenti Şavkat Mirziyoyevlə bu yaxınlarda Səudiyyə Ərəbistanında qısa söhbətini xatırladan prezident İlham Əliyev bildirdi ki, bu görüş zamanı əlaqələrimizin gələcəyi müzakirə olundu və diqqətə çatdırıldı ki, Azərbaycan dost Özbəkistan ilə bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlıdır. Dövlətimizin başçısı dini qurumlar sahəsində də təcrübə mübadiləsi və əməkdaşlıq ilə əlaqədar müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda «İslam həmrəyliyi ili» çərçivəsində bu il Özbəkistanda keçiriləcək islam həmrəyliyinə həsr edilmiş konfransın böyük əhəmiyyətə malik olduğunu vurğuladı və bildirdi ki, bu konfrans xalqlarımızın və ölkələrimizin daha da yaxınlaşması baxımından önəm daşıyır. Dövlətimizin başçısı onu da qeyd etdi ki, Azərbaycanda digər mötəbər beynəlxalq tədbirlərlə yanaşı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də bir çox konfranslar keçirilir.*

*Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov ilk*

*növbədə, Özbəkistan prezidenti Şavkat Mirziyoyevin ən səmimi salamlarını prezident İlham Əliyevə çatdırdı. Qardaş Özbəkistan və Azərbaycan xalqlarının tarixi dostluq telləri ilə bir-birinə bağlı olduğunu bildirən Artukbek Yusupov Özbəkistanın ilk prezidenti İslam Kərimovla Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasında sıx dostluq münasibətlərinin olduğunu dərin ehtiram hissi ilə qeyd etdi. O bildirdi ki, Azərbaycandakı inkişaf prosesləri və dost Azərbaycan xalqının uğurları ölkəsində maraqla izlənilir.*

*Dövlətimizin başçısı Özbəkistan prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA * İŞTİRAK

*12 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyulun 12-də Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

İlin birinci yarısı arxada qalıb. Bu gün biz 6 ayda görülən işlərə yekun vuracağıq, eyni zamanda, görüləcək işlər haqqında danışacağıq. Bütövlükdə Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz daha da güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşibdir. Əfsuslar olsun ki, 2017-ci ildə dünyada

* Nazirlяr Kabinetinin 2017-ci ilin birinci yarысынын sosial-iqtisadi inkiшафынын yekunlarына vя qarшыda duran vяzifяlяrя hяsr olunмуш iclasында Ekologiya vя Тяbii Sяrvяtlяr naziri Hüseynqulu Bağırov, Яmlak Мяsяlяlяri Dюvlяt Komitяsinin sяdri Kərəm Həsənov və Azяrbaycan Meliorasiya vя Su Тяsяrrцfatы» Ачыq Sяhmdar Cяmiyyяtinin sяdri Əhməd Əhmədzadə çıxış etdilər.

çox təhlükəli meyillər daha da güclənir. Həm bizim bölgəmizdə, həm də dünyada narahatedici məqamlar kifayət qədər çoxdur.

Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar – əfsuslar olsun ki, bugünkü beynəlxalq mənzərənin əlamətləri bunlardır. Azərbaycan isə uğurla inkişaf edir. Azərbaycanda sabitlik möhkəmlənir. Sabitliyin mənbəyi Azərbaycan xalqıdır, xalq–iqtidar birliyidir.

Azərbaycanda bütün sosial-iqtisadi məsələlər uğurla öz həllini tapır, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Azərbaycan bu bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. Əlbəttə, belə bir şəraitdə həm investisiyaların qoyuluşu üçün maraq göstərilir, həm də xalqımız rahat yaşayır, əhalimizin rifah halı yaxşılaşır. Azərbaycan xalqı öz gələcəyini təhlükəsizlik, əmin-amanlıq şəraitində qurur.

Bu ilin 6 ayında beynəlxalq əlaqələrimiz daha da fəallaşıb. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Dostlarımızın sayı artır və beynəlxalq təşkilatlarda da fəaliyyətimiz çox müsbətdir. Mən ilin 6 ayında 10 xarici səfər etmişəm – 5 Avropa ölkəsinə, 5 müsəlman ölkəsinə. Davos və Münhendə keçirilən dünyanın aparıcı iqtisadi, siyasi və təhlükəsizlik konfranslarında Azərbaycan ləyaqətlə təmsil olunubdur. Mənim Avropa Komissiyasına çox uğurlu səfərim olubdur, Fransaya və Polşaya rəsmi səfərlər etmişəm. Müsəlman ölkələrinə gəldikdə isə İrana, Qətərə, Pakistana, Səudiyyə Ərəbistanına, Türkiyəyə səfərlər etmişəm. Azərbaycan səfər etdiyim bu ölkələrlə əlaqələrini daha da genişləndirir, möhkəmləndirir. Bu səfərlərimin coğrafiyası əslində bizim xarici siyasətimizin nə qədər düzgün və milli maraqlara xidmət edən siyasət olduğunu bir daha təsdiqləyir. Bununla bərabər, bu ilin birinci yarısında 9 xarici dövlət və hökumət başçısı Azərbaycana səfər edibdir. Bu da çox gözəl göstəricidir.

Bu il Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilibdir. Əlbəttə, mötəbər beynəlxalq tədbirlərin keçirilməsi

hər bir ölkə üçün önəmlidir. Bu tədbirlər əslində ölkəyə olan münasibəti, hörməti əks etdirir. Azərbaycanda keçirilən mötəbər tədbirlər ən yüksək səviyyəli tədbirlərdir. Onların arasında əsaslarını qeyd etmək istərdim. Bu il Bakıda V Qlobal Forum keçirilibdir. Bu, artıq dünya miqyasında çox dəyərli, səviyyəli bir tədbirdir. Əgər Davosda daha çox iqtisadi, Münhendə təhlükəsizlik məsələləri müzakirə olunursa, Qlobal Bakı Forumunda daha çox siyasi və digər məsələlər müzakirə edilir. Forumda bir neçə ölkənin dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, ictimai xadimlər iştirak etmişlər. Qlobal Bakı Forumu artıq dünya xəritəsində özünə layiq yerini tuta bilibdir.

Bu il IV Mədəniyyətlərarası Dialoq Forumu keçirilibdir. Bu da bizim təşəbbüsümüzlə ilk dəfə bir neçə il bundan əvvəl keçirilmiş bir tədbirdir. Builki tədbirdə Azərbaycanla bərabər, dünyanın 6 beynəlxalq təşkilatı forumun təşkilatçısı kimi çıxış etdi. Forumda aparılan müzakirələr və qəbul edilən qərarlar, əlbəttə, multikulturalizm dəyərlərinin möhkəmlənməsinə xidmət edir. Azərbaycan forum çərçivəsində bir daha multikulturalizmin mərkəzlərindən biri kimi qeyd olundu. Belə tədbirlərin ölkəmizdə keçirilməsi həm bizim beynəlxalq nüfuzumuzu artırır, həm də bu tədbirlər dünyada gedən müsbət proseslərə öz töhfəsini verməkdədir.

Bu il Bakıda IV İslam Həmrəyliyi oyunları keçirilibdir. Bu da qlobal tədbirdir. Biz həm Avropa oyunlarını, həm İslam Həmrəyliyi oyunlarını ən yüksək səviyyədə keçirdik, minlərlə idmançı, qonaq bizim gözəl Bakı ilə tanış oldu, şəhərimizə, ölkəmizə heyran qaldı. Bizim təşkilatçılıq qabiliyyətimiz də ən yüksək səviyyədədir. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan milli komandası bu oyunlarda 1-ci yeri tuta bildi. Bu da bir daha onu göstərir ki, Azərbaycan güclü idman ölkəsidir. Azərbaycan Avropa oyunlarında 2-ci, İslam Həmrəyliyi oyunlarında isə 1-ci yerdədir. O ki qaldı Olimpiya oyunlarına, son Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü ölkə idi.

Bu il XXIV «Xəzər neft və qaz» sərgi və konfransı keçirilibdir. Bu sərgi və konfrans dünya miqyasında enerji sektorunda seçilmiş tədbirlərdən biridir. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, bu tədbirə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Tramp məktub göndərmişdir. Mənə ünvanlanan məktub, əlbəttə, «Xəzər neft və qaz» sərgi və konfransının əhəmiyyətini artırır, eyni zamanda, Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycanın icra etdiyi uğurlu enerji layihələrinə göstərilən növbəti dəstəkdir. Belə xoş münasibət Amerika–Azərbaycan əlaqələrinin uğurlu inkişafı üçün yeni zəmin yaradır. Bir neçə gün bundan əvvəl Amerikanın Dövlət katibi ilə İstanbuldakı görüşüm bir daha bizim strateji əlaqələrimizi təsdiqlədi və bu gün Amerika–Azərbaycan əlaqələri yeni mərhələyə qədəm qoyur.

Ölkəmizdə keçirilmiş bu tədbirlər – mən ancaq əsas tədbirləri qeyd etdim – əslində Azərbaycanın dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini, rəğbətini göstərir.

Bizim xarici siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu ilin birinci yarısında bu istiqamətdə – danışıqlar istiqamətində heç bir nəticə əldə edilməyibdir. Bununla bərabər, hesab edirəm ki, 2017-ci ildə münaqişənin həlli ilə bağlı önəmli hadisələr baş veribdir və Azərbaycanın haqlı mövqeyi daha da böyük dəyər qazanıbdır.

Mən bir neçə faktı Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. İlk növbədə, bu il qondarma separatçı rejim Ermənistanın siyasi rəhbərliyinin təhriki ilə Dağlıq Qarabağda növbəti qondarma, qanunsuz, dırnaqarası referendum keçiribdir. Bu «referendum»un keçirilməsi əslində onların böyük səhvidir, daha doğrusu, axmaqlığıdır. Onların bir qədər ağlı olsaydı, heç vaxt buna getməzdilər. Çünki bəri başdan bəlli idi ki, dünya birliyi bu qondarma tədbiri tanımayacaq. Belə də oldu. Minsk qrupu bəyanat verdi, onun həmsədrləri – Amerika, Fransa,

Rusiya «referendum»u tanımadılar. Avropa İttifaqı «referendum»u tanımadı. Qonşu ölkələr – İran, Gürcüstan «referendum»u tanımadı. Digər ölkələr də oxşar bəyanatlarla çıxış etdilər. Bu qondarma «referendum»un tanınmaması Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu bir daha təsdiqləyir. Bütün dünya və münaqişənin həlli ilə bilavasitə məşğul olan ölkələr bu münasibətləri ilə bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu həqiqətdir, bu, tarixi həqiqətdir və bu həqiqət bir daha qeyd olundu. Bu, Ermənistanın növbəti biabırçılığı idi.

Bilirsiniz ki, aprel hadisələrindən sonra Ermənistan danışıqların bərpa edilməsi üçün bir neçə şərt qoyurdu və bunu açıq şəkildə bəyan edirdi. Mən o vaxt yenə də görürdüm, bilirdim ki, bu, növbəti axmaqlıqdır. Çünki gec-tez onlar danışıqlar masasına qayıdacaqlar, sadəcə olaraq, özlərini növbəti dəfə olmayan hörmətdən salacaqlar. Belə də oldu. Dünən Azərbaycan və Ermənistanın Xarici İşlər nazirləri görüşüblər. Heç bir şərt Azərbaycan tərəfindən qəbul edilməyib, danışıqlar prosesi qeyd-şərtsiz bərpa edilibdir.

Bu bizim mövqemizdir, biz həmişə demişik ki, belə olmalıdır. Bu, Minsk qrupunun həmsədr ölkələrinin də mövqeyidir. Ona görə işğalçını məcbur etdilər və o, danışıqlar masasına qayıtdı. İndi məsələ ondan ibarətdir ki, tezliklə substantiv, yəni mənalı, konkret danışıqlar bərpa edilməlidir. Danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad edilməlidir, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bizim mövqemiz bundan ibarətdir. Bundan kənarda heç bir həll yolu mümkün deyildir.

Ermənistan isə həmişə çalışırdı ki, danışıqları pozsun və onlara təzyiq artdıqca təxribat törətsin. Bunu biz yaxın tarixdən yaxşı bilirik. Hələ ötən əsrin 90-cı illərinin sonlarında Ermənistan parlamentində terror aktı törədilmişdir və bu da ovaxtkı Ermənistan rəhbərliyi üçün bir bəhanə idi ki, danışıqlar pozulsun. Belə də oldu. 2014-cü ildə Fransada keçirilmiş danışıqlardan

dərhal sonra Ermənistan növbəti hərbi təxribata əl atdı, Ağdam rayonunda hərbi təlimlər təşkil etdi. Bizim mövqelərimizə helikopterlər hücuma keçdi və onlardan biri Azərbaycan Ordusu tərəfindən məhv edildi.

2016-cı il martın sonunda Vaşinqtonda Nüvə Sammitində mən də iştirak edirdim, Ermənistan prezidenti də. O vaxt Ermənistan prezidentinə təzyiqlər göstərilirdi ki, məsələ tezliklə həllini tapsın. Danışıqları pozmaq üçün aprel hadisələri törədildi – bizə qarşı təxribat törədildi. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. Bu cavab nəticəsində bu gün bizim bayrağımız Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır.

O vaxtdan bu günə qədər danışıqlar aparılmırdı və Ermənistana təzyiq artırdı. Danışıqlara başlamamaq üçün onlar keçən ay növbəti hərbi təxribat törətdilər, 1 əsgərimiz həlak oldu. Yenə də Azərbaycan Ordusu onları cəzalandırdı. Azərbaycan Ordusunun zərbəsi nəticəsində bir çox işğalçı məhv edildi. Növbəti təxribat bu ayın 4-də Füzuli rayonunun Alxanlı kəndində baş verdi. Bu, hərbi cinayətdir. Bu, erməni faşizminin təzahürüdür və bu cinayətə görə Ermənistan öz cavabını aldı. Bu, misli görünməmiş vəhşilikdir. Balaca Zəhranın və nənəsinin öldürülməsi erməni faşizminin eybəcər sifətini bütün dünyaya göstərdi.

Bu cinayət cavabsız qalmadı. Azərbaycan ictimaiyyəti də bunu bilir. Baxmayaraq ki, Ermənistan öz itkilərini həmişə gizlətmək istəyir, amma bütün itkiləri gizlədə bilmir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Bu zərbələr nəticəsində bir çox işğalçı məhv edildi. Balaca Zəhranın, nənəsinin qanı yerdə qalmadı. Həmişə də belə olacaq. Nəyə hesablanmışdı bu cinayət? İlk növbədə, bu, Ermənistan siyasi rəhbərliyinin xislətini göstərir. Xocalı qatilindən, uşaq, qadın qatilindən başqa bir şey gözləmək mümkün deyil. Bu, erməni faşizmidir, bütün dünya da bunu belə qəbul etməlidir. Bu, birincisi. İkincisi, iyulun 11-də Xarici İşlər nazirlərinin görüşü

nəzərdə tutulmuşdu. Bu tarix bəlli idi, sadəcə olaraq, son günlərdə açıqlandı. Bu təxribatı törətməklə, onlar hesab edirdilər ki, Azərbaycan danışıqlardan imtina edəcək. Biz imtina edə bilərdik, əgər onlara layiqli cavab verməsəydik. Cavablarını verdik, işğalçıları məhv etdik, onları cəzalandırdıq, sonra da danışıqlara getdik.

Budur Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan əsas məsələlər. Ona görə mən deyirəm ki, bu il Azərbaycan mövqeləri daha da möhkəmlənib. Alxanlı kəndində törədilmiş hərbi cinayətin dünyada böyük əks-sədası vardır. Yəni Ermənistan gördü ki, Azərbaycan böyük beynəlxalq dəstəyə malikdir. Bütün qurumlarımız çox fəal, operativ işlədilər, bu məlumatı dünya ictimaiyyətinə çatdırdılar. Dövlət qurumları, səfirliklər, diaspor təşkilatları, ictimai təşkilatlar, bizim xaricdəki dostlarımız öz səslərini ucaltdılar və Ermənistana, onun faşist xislətli siyasi rəhbərliyinə dünyada nifrət daha da artdı. O ki qaldı danışıqların perspektivlərinə, bir daha demək istəyirəm ki, danışıqlar bərpa edilir, bu, müsbət haldır. İndi əsas vəzifə tezliklə məsələni həll etməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Əminəm ki, belə də olacaqdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır.

Həmişə olduğu kimi, biz bu il də hərbi potensialımızın gücləndirilməsinə böyük diqqət göstərmişik. Yeni silahlar, ən müasir texnika alınır. Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu bizim hərbi potensialımızı daha da artıracaqdır. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Bu il Azərbaycanda 2 yeni hərbi zavod fəaliyyətə başlayıbdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah və sursatla təmin

edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir. Məcburi köçkünlərin problemləri həmişəki kimi, bu il də diqqət mərkəzində olubdur. Son illər ərzində 100-ə yaxın qəsəbə salınıbdır. Ancaq onların arasında bu il açdığımız Cocuq Mərcanlı qəsəbəsi xüsusi yer tutur. Bu, tarixi hadisədir. Bu bizim şanlı tariximizə «qızıl» hərflərlə yazılan hadisədir. Biz işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini bərpa etdik. Orada 50 ev, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilib, yol çəkilib, bütün infrastruktur yaradılıb. Ailələr oraya qayıdır. Açılışdan sonra mən növbəti sərəncam imzaladım. Növbəti 100 evin, tibb məntəqəsinin və digər lazımi obyektlərin tikintisi üçün də vəsait ayrıldı. Əminəm ki, gələcək aylarda Cocuq Mərcanlı kəndi tam bərpa ediləcək və bu kəndə tam həyat qayıdacaqdır.

Digər layihələr icra edilir. Tərtər rayonunda böyük şəhərcik salınır. Sumqayıt və Bakı şəhərlərində həm yeni şəhərciklər tikilir, həm köçkünlər üçün mənzillər alınır və onlara verilir. Masazırda, Sumqayıtda, Qaradağ rayonunda belə təşəbbüslər irəli sürülür. Onların arasında «Qaradağ» layihəsini xüsusilə qeyd etmək istərdim. Çünki bu, bir yenilikdir, yeni təşəbbüsdür. Bu, özəl sektor tərəfindən inşa edilən böyük şəhərcikdir. Orada 1000 köçkün ailəsi məskunlaşacaq və bu çox gözəl nümunədir.

Bu gün Azərbaycanda yaratdığımız şərait nəticəsində yüzlərlə, minlərlə sahibkar öz fəaliyyətini genişləndirir. Bizim sahibkarlarımız böyük imkanlara malikdirlər. Sahibkarların sosial məsuliyyəti də yüksək səviyyədə olmalıdır. Bu şəraiti onlar üçün biz yaratmışıq. Çünki indi Azərbaycanda sabitlik, sürətli inkişaf olmasaydı, bizim sahibkarlar bu qədər inkişaf edə bilməzdilər. Dövlət onlara güzəştli şərtlərlə kreditlər verir, onların məsələləri həll olunur. Mən sahibkarlarla dəfələrlə görüşmüşəm. Hər il bir neçə dəfə görüşürəm və onlara tam dəstək göstərilir. Onlar da öz növbəsində, sosial məsuliyyəti dərk etməlidirlər. Ona görə Qaradağ rayonunda sahibkarlar tərəfindən öz vəsaitləri hesabına 1000 mənzillik şəhərciyin tikil-

məsi çox yaxşı təşəbbüsdür. Mən bunu bəyənirəm, alqışlayıram. Bu, bütün sahibkarlara nümunə olmalıdır. Mən bundan sonra sahibkarların fəaliyyətini, o cümlədən bu göstəriciyə görə də qiymətləndirəcəyəm.

Əlbəttə, bütün məsələlərin həll edilməsi dövlətimizin siyasətini, niyyətini ortaya qoyur. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Bu il bu məsələlərlə bağlı ciddi addımlar atılıbdır. 5 milyondan çox insan bu il pulsuz müayinədən keçibdir. Bilmirəm, hansı ölkədə belə bir təşəbbüs var ki, insanlar, əhalinin böyük əksəriyyəti il ərzində pulsuz müayinədən keçsin?!

Sosial infrastruktur obyektlərinin tikintisi aparılıb və aparılacaqdır. Birinci 6 ayda 26 tibb müəssisəsi tikilib və təmir edilibdir. 20-dən çox modul tipli məktəb tikilibdir. İlin sonuna qədər onların sayı 100-ə çatmalıdır. Yəni sosial infrastruktur məsələlərinin həlli daim diqqət mərkəzindədir.

Əlbəttə ki, bütün bu uğurlara nail olmaq üçün bizim güclü iqtisadi potensialımız olmalıdır. 6 ayın göstəriciləri məni çox qane edir. Qeyri-neft iqtisadiyyatımız 6 ayda 1,7 faiz artıb. Bu çox yaxşı göstəricidir. Mən xüsusilə qeyri-neft iqtisadiyyatını qeyd edirəm, çünki ümumi iqtisadi göstərici, yəni ümumi daxili məhsulun göstəriciləri daha çox neftin hasilatına və neftin qiymətinə bağlıdır. Bu da dəyişir. Ona görə bu bizim gördüyümüz işlərə qiymət vermək üçün əsas amil kimi qəbul edilə bilməz.

Qeyri-neft iqtisadiyyatımızda 1,7 faiz artım bizim apardığımız iqtisadi islahatların nəticəsidir. Hesab edirəm ki, bu xüsusilə indiki şəraitdə çox yaxşı göstəricidir. Qeyri-neft sənayesi daha çox artıb. Burada artım 4,4 faizdir. Hesab edirəm ki, bu da mümkün olan ən gözəl göstəricidir. Bu onu göstərir ki, islahatlar və apardığımız siyasət öz nəticəsini verir. Bu ilin 6 ayında ölkə iqtisadiyyatına 5 milyard dollar sərmayə qoyulub. Bu gün sərmayə qoyuluşu, demək olar ki, bütün ölkələrdə

azalır. Çünki maliyyə sıxıntıları, problemlər vardır. Amma Azərbaycana sərmayə qoyulur və bu sərmayənin böyük hissəsi xarici sərmayədir. Yəni xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Nəyə görə? Təkcə ona görə yox ki, bizdə yaxşı investisiya iqlimi vardır. Ona görə ki, Azərbaycan bu gün sabitlik məkanıdır və investorlar ancaq sabit olan yerlərə sərmayə qoyurlar. Sabit olan ölkələrin sayı kəskin azalır. Ona görə əminəm ki, gələcəkdə daha çox xarici sərmayədar Azərbaycana investisiya qoymaq üçün bizə müraciət edəcəkdir.

Bizim valyuta ehtiyatlarımız artıb və bu günə 40,6 milyard dollar təşkil edir. Bu da çox gözəl göstəricidir. Çünki ilin əvvəlindən bu günə qədər valyuta ehtiyatlarımız təxminən 3 milyard dollar artıb. Baxın, neftin qiyməti kəskin şəkildə düşüb. Sonra isə müəyyən dərəcədə qalxıb. Yenə də düşmə ehtimalı var. Amma bizim valyuta ehtiyatlarımız artır. Nəyə görə? Düşünülmüş siyasətə görə. Ona görə ki, biz heç vaxt populist işlərlə məşğul olmamışıq. Biz hər zaman ölkəmizin uzunmüddətli inkişafı ilə məşğul olmuşuq. Biz həm qənaət edirik, həm islahatlar aparırıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə vəsait ayırdıq. Əlbəttə ki, biz idxalı azaltmışıq, ixracı isə artırmışıq. Büdcə ilə bağlı heç bir problem yoxdur. Ona görə Neft Fondundan büdcəyə transfertlər də azalıb. İlin 6 ayında valyuta ehtiyatlarının 3 milyard dollar artması mükəmməl nəticədir.

Bu il 122 min yeni iş yeri açılıbdır ki, onlardan 101 mini daimi iş yeridir. Onu da qeyd etməliyəm ki, 24 min iş yeri bağlanıbdır. Bunun da həm obyektiv, həm də subyektiv səbəbləri vardır. Bu əslində daimi prosesdir. Ancaq biz rəqəmlərə baxanda – 122 min iş yeri açılıb, 24 min iş yeri isə bağlanıb – əlbəttə, görürük ki, yenə də iş yerlərinin açılması prosesi uğurla gedir. Ona görə də bizdə işsizlik aşağı səviyyədədir.

Xarici ticarət dövriyyəsinin göstəriciləri də müsbətdir. Bu ilin 6 ayında ixrac 36 faiz artıbdır. Burada da ən önəmlisi qeyri-neft ixracıdır. Qeyri-neft ixracı 6 ayda 27 faiz artıbdır. Bax, budur

gördüyümüz işlərin nəticələri. Bununla bərabər, idxal 15 faiz azalıbdır. Müsbət saldo 1,9 milyard dollar təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, ən arzuolunan nəticələrdir. Kənd təsərrüfatı da 2,2 faiz artıbdır.

Bu göstəricilər – yəni bunlara heç bir şərh verməyə ehtiyac yoxdur – dünya miqyasında bu gün ən gözəl göstəricilərdəndir. Bunu o ölkə əldə edib ki, hələ enerji amilindən asılıdır. O ölkə əldə edib ki, onun gəlirləri son 2 il ərzində 3-4 dəfə azalıbdır. Budur bizim siyasətimiz, gördüyümüz işlər və əldə etdiyimiz nəticələr!

## YEKUN NİTQİ

Mən ilin əvvəlində demişdim ki, 2017-ci il iqtisadi inkişaf ili olmalıdır. Belə də oldu. Artıq bunu demək olar. Düzdür, biz hələ gələcək aylarda fəal işləməliyik və işləyəcəyik. Ancaq artıq əldə edilmiş nəticələr və giriş sözümdə səsləndirdiyim rəqəmlər deməyə əsas verir ki, bu il inkişaf ili olacaqdır. Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili olmuşdur. Bu il isə inkişaf ili olacaqdır. Əminəm ki, bundan sonrakı illərdə də Azərbaycan öz iqtisadi potensialını daha da gücləndirəcəkdir. Uğurlu iqtisadi islahatları və iqtisadi siyasətimizi davam etdirmək üçün, əlbəttə ki, maliyyə və iqtisadi sabitlik olmalıdır. Bu, əldə edilibdir. İlin əvvəlindən makroiqtisadi vəziyyət sabitdir. Düzdür, ilin ilk aylarında qiymət artımı müşahidə olunurdu. Ancaq son aylar ərzində, demək olar ki, qiymətlər sabitləşib. İstehlak qiymətlərinə daim nəzarət olmalıdır ki, süni qiymət artımına yol verilməsin. Buna heç bir əsas yoxdur. Çünki makroiqtisadi sabitlik təmin olunur. Manatın məzənnəsi neçə aydır ki, sabitdir. İdxaldan asılılıq azalır və tələbat daha çox yerli istehsal hesabına ödənilir. Bir sözlə, makroiqtisadi sabitlik məsələləri həmişəki kimi, diqqət mərkəzində olacaq və əminəm ki, ilin sonuna qədər hər hansı bir problem olmayacaqdır. Mən artıq qeyd etdim, valyuta ehtiyatlarımız artır, xarici ticarət dövriyyəsinin müsbət saldosu 6

ayda təxminən 2 milyard dollara yaxındır. Ona görə bizim kifayət qədər güclü iqtisadi imkanlarımız və valyuta ehtiyatlarımız vardır. Azərbaycan adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə qabaqcıl ölkələr sırasındadır. Valyuta ehtiyatlarının xarici dövlət borcuna olan nisbəti də Azərbaycanı dünya miqyasında ön sıralara çıxarır. Bizdə valyuta ehtiyatları xarici dövlət borcundan 4-5 dəfə çoxdur.

Növbəti dövr üçün prioritetlər dəyişməz olaraq qalır. Qeyri-neft sektorunun inkişafı bizim prioritetimizdir. Səsləndirdiyim rəqəmlər məhz bu siyasətin təzahürüdür. Sənaye istehsalı, kənd təsərrüfatının inkişafı istiqamətində çox ciddi addımlar atılır, proqramlar icra edilir. Əvvəlki dövrdə proqram kimi təqdim etdiyim layihələr artıq reallaşır. Xüsusilə sənaye parklarının yaradılması uğurla gedir. Sumqayıt sənaye parklarında rezidentlərin sayı, investisiyaların həcmi artır və maraq da çox böyükdür. Orada böyük sənaye kompleksləri yaradılır və dövlət öz tərəfindən lazım olan bütün infrastruktur layihələrini icra edib.

Mingəçevir Sənaye Parkında 9 zavod tikiləcək. Bu zavodların fəaliyyəti nəticəsində 5000-dən çox iş yeri yaradılacaq. Ümid edirəm ki, ilin sonunda birinci zavodun açılışı da olacaq və Mingəçevir böyük sənaye şəhəri kimi, özünün imkanlarını genişləndirəcəkdir. Balaxanı parkında 5 zavod fəaliyyətə hazırdır. Neftçala sənaye zonasında yaxın vaxtlarda 2 müəssisə fəaliyyətə başlayacaq. Pirallahı adasında 2 dərman zavodunun təməli qoyuldu. Masallı sənaye zonasında isə artıq torpaq sahəsi ayrılıb və 30 milyon manatdan çox investisiya təklifi qəbul edilib. Bu, artıq gördüyümüz işlərin gözəl təzahürüdür. Əminəm ki, bütün rayonlarımızda tapşırıq verdiyim kimi, tezliklə sənaye zonaları yaradılacaqdır.

Aqrar sahədə yeni aqroparkların yaradılması sürətlə gedir. Bu proses geniş vüsət alıbdır. Bu günə qədər bizim təşəbbüsümüzlə və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılıbdır. İndi 38 böyük aqropark yaradılır. Özəl sektor bizim

təşəbbüsümüzə çox məsuliyyətlə yanaşdı. Tezliklə 38 aqroparkın yaradılması bizim ixrac potensialımızı xeyli artıracaqdır.

Biz pambıqçılığın şöhrətini bərpa etdik. Artıq pambıqçılıqla məşğul olmaq istəyənlərin sayı artır. Bu, pambıqçılıq rayonlarında işsizliyi, demək olar ki, tamamilə aradan qaldırmaq üçün yaxşı şərait yaradır. Əgər 2015-ci ildə 35 min ton pambıq tədarük edilmişdisə, keçən il bu rəqəm təxminən 90 min tona çatıbdır. Keçən il 51 min hektarda pambıq əkilmişdisə, bu il 136 min hektarda pambıq əkilibdir. Biz əkin sahələrini təqribən 3 dəfə artırmışıq. Əgər biz orta məhsuldarlığı 20 sentner götürsək, bu il 260–270 min ton pambıq gözlənilə bilər. Bu çox da ola bilər, az da. Hava şəraitindən və o cümlədən texniki xidmətdən asılıdır. Amma hər halda, biz artıq pambıqçılıqda çox ciddi dönüş yarada bildik. Pambıq həm gözəl ixrac məhsuludur, dünya birjalarında satılır, eyni zamanda, Mingəçevir Yüngül Sənaye Parkının fəaliyyəti üçün də resurs bazasıdır. Biz, əlbəttə, çalışacağıq ki, hazır məhsulu ixrac edək.

20-dən çox rayonda pambıq becərilir. Bir daha qeyd etməliyəm ki, həmin rayonlarda bizim üçün ənənəvi olan bu sahəyə böyük maraq vardır. Bizim bu təşəbbüsümüz çox yüksək qiymətləndirilir.

Biz keçən ildən baramaçılıqla çox ciddi məşğul olmağa başlamışıq. Biz əvvəlki illərdə bu sahəni, demək olar ki, itirmişdik. 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdi. Bu sahənin itirilməsi çox böyük problemlər yaratdı. Həm Şəki İpək kombinatı, demək olar ki, fəaliyyətini dayandırdı – orada yüzlərlə insan işləyirdi – həm də kəndlərdə yaşayan, baramaçılıqla məşğul olan kəndlilər bu imkanlardan məhrum oldular. Biz keçən il bu sahədə operativ qaydada ciddi dönüş yarada bildik. Lazımi materialları idxal etdik, tinglər gətirdik. Keçən il 70 ton barama tədarük edilmişdir. 200 kiloqram hara, 70 ton hara?! Bu proses davam etdirilir. Mənə verilən məlumata görə, bu il 244 ton yaş barama tədarük edilibdir. Yəni keçən ilə nisbətən 3,4 dəfə artım var. 30 rayonda

baramaçılıq inkişaf edir və 739 kənddə insanlar baramaçılıqla məşğul olurlar. Bu çox gəlirli sahədir, o qədər də böyük zəhmət tələb edən sahə deyil. Qısa müddət ərzində insanlar yaxşı pul qazanırlar və yerində də pulunu alırlar. Ona görə baramaçılığın inkişafına verdiyimiz təkan əminəm ki, çox böyük nəticəyə gətirib çıxaracaqdır. Bizim təbii şəraitimiz elədir ki, ölkəmizin əksər yerlərində baramaçılığın yaxşı perspektivləri vardır. Dövlət öz dəstəyini bundan sonra da göstərəcək. Bu il mənim sərəncamımla Prezidentin ehtiyat fondundan 4,5 milyon manat vəsait ayrılıb. Bu vəsaitlə ilin sonuna qədər Qax Barama Damazlıq Mərkəzi yaradılacaqdır. Vaxtilə Qaxda belə mərkəz olubdur. İndi o, yararsız vəziyyətə düşüb, həm dağılıb, həm də orada heç bir avadanlıq yoxdur. İndi ən müasir damazlıq mərkəzi yaradılacaq ki, biz lazım olan o materiallardan da, onların idxalından da asılılığı aradan götürək.

Şəki İpək kombinatı indi daha böyük həcmlə işləyir. Elə etməliyik ki, Şəki İpək kombinatı tam gücü ilə və ilboyu işləsin. Əkilən tut tingləri və apardığımız siyasət əminəm ki, yaxın gələcəkdə ona gətirib çıxaracaq ki, Azərbaycanda 1000 tondan çox barama tədarük ediləcəkdir. Yenə də deyirəm, bunun çox böyük perspektivləri vardır. Mən indi rəqəm səsləndirmək istəmirəm. Hər halda, dövlət öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetiribdir.

Bununla bərabər, biz, demək olar ki, böyük hissəsi itirilmiş tütünçülüyü də bərpa edirik. 13 rayonda tütünçülüklə məşğul olurlar. Keçən ilə nisbətən tütünçülük üçün nəzərdə tutulan əkin sahələri 35 faiz artıb. İndi 3200 hektarda tütün becərilir. Bu sahə daha da geniş ola bilər. Çünki tütünçülüklə məşğul olan bu 13 rayonda kifayət qədər böyük torpaq sahələri vardır. Tütünçülük də çox gəlirli sahədir. Dövlət yenə də öz dəstəyini göstərir, subsidiyalar verilir. Eyni zamanda, tütünün ixracı ilə bağlı dövlət öz imkanlarını ortaya qoyur. Mən əvvəllər də demişəm, biz, əlbəttə, tütünü ixrac etməliyik. Ancaq hazır məhsulu ixrac etsək daha yaxşı olar. Bu məqsədlə işlər gedir. İndi yeni tütün

fabriklərinin yaradılması istiqamətində addımlar atılır. Ümid edirəm ki, bu addımlar uğurlu olacaqdır və biz hazır məhsulu dünya bazarlarına çıxaracağıq.

Çayçılığın bərpası istiqamətində də işlər gedir. Düzdür, Azərbaycan çayı bu gün xarici ölkələrdə tanınır. Biz çayı ixrac edirik. Ancaq onu da bilməliyik ki, biz xammalı idxal edirik. Ona görə yeni çay plantasiyalarının salınması və müasir texnologiyaların gətirilməsi nəticəsində biz daxili xammal hesabına daha çox çay istehsal edə biləcəyik. Yeni texnologiyalar məhsuldarlığı bir neçə dəfə artıra bilər. Bu sahəyə də cənub zonasında çox böyük maraq vardır.

Cənub zonasında hazırda çəltikçilik də çox geniş vüsət alıb və buna da çox böyük maraq vardır. Dövlət xüsusi texnika alıbdır. Çünki çəltikçilik çox böyük əziyyət, zəhmət tələb edən bir sahədir. Fermerlərin işini yüngülləşdirmək üçün müasir texnika alınıb gətirilibdir ki, çəltikçilik sahəsi əziyyətsiz inkişaf etsin.

Burada artıq zeytunçuluqla bağlı məlumat verildi. Biz keçən il 300 ton zeytun ixrac etmişik. Ancaq zeytun ixracı, əlbəttə ki, 50 milyon dollar səviyyəsində ola bilər. Bizim təbii iqlimimiz, şəraitimiz və ənənələr buna imkan verir. Sadəcə olaraq, işlər düzgün qurulmalıdır və qurulur. Əgər ehtiyac olarsa, yeni zeytun emalı fabrikləri yaradılmalıdır. Biz ən yüksəkkeyfiyyətli məhsulları dünyanın aparıcı ölkələrinin bazarlarına çıxarmalıyıq.

Mən əvvəlki çıxışlarımda qeyd etmişdim ki, kənd təsərrüfatı məhsullarının arasında bizə ən çox gəlir gətirən sahə fındıqçılıqdır. Bizim hazırda fındıq bağlarımızın sahəsi təqribən 30 min hektardır, bəlkə də bir qədər çox. Qarşıya vəzifə qoyulub ki, əlavə 40 min hektarda fındıq bağları salınsın. Bu proses gedir və bu 40 minin 18 mini artıq əkilib. Əlbəttə ki, bu bağlar bir neçə ildən sonra məhsul verəcək. Ancaq bu bağlar məhsul verəndən sonra biz fındıq istehsalını 2 dəfədən çox artıra bilərik. Əgər hazırda fermerlər 100 milyon dollar həcmində

fındıq ixrac edirlərsə, bu, 2 dəfədən çox artacaq, həm fermerlərə, həm də dövlətə xeyir gətirəcəkdir.

Ən gəlirli sahələrdən biri də kartofçuluqdur. Bu sahəyə də maraq böyükdür. Əfsuslar olsun ki, biz hələ böyük ixrac potensialına malik deyilik, bu, mövsümdən-mövsümə dəyişir. Statistik göstəricilərə diqqət yetirəndə görürəm ki, biz bəzi illərdə öz tələbatımızı ödəyə bilmirik, bəzi illərdə isə başabaş çıxırıq. Ona görə kartofçuluğun da inkişafı prioritet olmalıdır. Çünki kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən sahələrdən biri də kartofçuluqdur. Bu sahəyə də xüsusi diqqət göstərilməlidir.

Heyvandarlığın inkişafı bizə imkan verəcək ki, özümüzü süd məhsulları ilə, ətlə tam təmin edək. Biz o rəqəmlərə yaxınlaşırıq. Ancaq heyvandarlığın müasir texnologiyalar əsasında, iribuynuzlu mal-qaranın qapalı şəraitdə yetişdirilməsi həm torpaqlara qənaət edəcək, həm də ki, nəticələr daha yaxşı olacaqdır. Əlbəttə, cins mal-qaranın alınması və süni mayalanma mərkəzinin yaradılması burada dönüş yaradacaqdır. Heyvandarlıq 2 faizdən çox artıb. Onu da deyim ki, yaradılan 38 aqroparkın içində, o cümlədən heyvandarlıq kompleksləri də vardır. Ümid edirəm ki, onların fəaliyyəti nəticəsində kəskin artım olacaqdır.

27 rayonda 14 min hektarda şəkər çuğunduru əkilibdir. Bu, rekord göstəricidir. Azərbaycanda heç vaxt bu qədər şəkər çuğunduru əkilmirdi. Bunun da başlıca səbəbi İmişli Şəkər zavodunun yerli xammal əsasında işləməsidir. Çünki daha çox xaricdən gətirilən şəkər qamışı emal olunurdu. İndi isə şəkər çuğunduru İmişlidəki zavoda veriləcək. Hər il ölkədən təqribən 200 milyon dollar valyuta gedir ki, xam şəkər gətirilsin. Biz ona qənaət edəcəyik. Beləliklə, bizim idxalımız daha da azalacaq, ixrac isə artacaqdır. Bu sahənin çox böyük perspektivləri vardır. Mən bunu da tapşırıq kimi verirəm.

Bir müddət əvvəl verdiyim tapşırıq isə soya ilə bağlıdır. Əvvəlki illərdə Azərbaycanda soya əkilmirdi. Biz soyanı idxal

edirik. Hər il buna on milyonlarla dollar pul xərcləyirik. Ona görə soya əkilməsi ilə bağlı göstəriş vermişdim və bu il biz artıq bunun nəticəsini görürük. 19 rayonda 9300 hektarda soya əkilib. Bu hələ ki, tələbatımızı tam ödəməsə də, xarici valyutaya xeyli qənaət edəcəyik. Çalışmalıyıq ki, soya üçün nəzərdə tutulmuş əkin sahələrini getdikcə genişləndirək.

500 hektar badam bağlarının salınması nəzərdə tutulur. Nəzərə alsaq ki, bizdə cəmi 1000 hektar badam bağları var, onların da 900 hektarı Naxçıvan Muxtar Respublikasındadır, 500 hektar birinci mərhələdə yaxşı göstəricidir. Badam Emalı zavodunun tikintisi də nəzərdə tutulmalıdır. Mən bu tapşırığı da verirəm.

Taxılçılıqla bağlı məsələlər daim gündəlikdədir. Mənim göstərişimlə Prezident Administrasiyasında xüsusi müşavirə keçirilib, məsələlər təhlil edilibdir. Biz gərək bu sahədə daha da yaxşı nəticələr əldə edək ki, idxaldan asılılığı azaldaq və məhsuldarlığı artıraq. Məhsuldarlıqla bağlı mən bəzi rəqəmləri səsləndirmək istəyirəm, həm bunlar təhlil edilsin, həm də ictimaiyyət bilsin ki, vəziyyət necədir. Buğda ilə bağlı deməliyəm ki, hələ biçin aparılır. Amma bu günə orta məhsuldarlıq 28,8 sentnerdir. Prinsipcə bu rəqəm o qədər də aşağı rəqəm deyil, amma bundan da çox ola bilər. Çünki indi rayonlar üzrə səsləndirəcəyim rəqəmlər göstərir ki, daha da böyük məhsuldarlıq mümkündür. Ən böyük məhsuldarlıq aşağıdakı rayonlardadır: Saatlı–42 sentner, Ağcabədi–38 sentner, Sabirabad–40 sentner, Beyləqan–33 sentner, Bərdə–40 sentner, Ağdam–39 sentner, Hacıqabul–32 sentner, Qax–31 sentner, Xaçmaz–32 sentner, Yevlax–38 sentner, Tərtər–38 sentner, Şəmkir–33 sentner, İsmayıllı–40 sentner, Qəbələ–32 sentner, Cəbrayıl–32 sentner, Gəncə–32 sentner. Bunlar yaxşı rəqəmlərdir və bu, deməyə əsas verir ki, biz daha da böyük məhsuldarlıq əldə edə bilərik. Amma bəzi suallar da var.

İndi mən aşağı məhsuldarlığı olan rayonların adlarını çəkəcəyəm və bu məsələ sonra təhlil edilməlidir. Bir-birinin yanında yerləşən rayonlarda məhsuldarlıq fərqi bizi düşünməyə vadar

edir, o da araşdırılmalıdır. Məsələn, Kürdəmir rayonunda məhsuldarlıq 21 sentnerdir. Ancaq qonşu rayonlarda – Saatlıda 42 sentner, Sabirabadda isə 40 sentnerdir. Bəs nə üçün bu qədər fərq var?! Eyni zona, eyni iqlim, eyni şərait, suvarma işlərinə gəldikdə təxminən eyni layihələr icra edilir. Mən hələ ki, buna qiymət vermək istəmirəm. Ancaq tapşırıram ki, bu araşdırılsın və mənə məlumat verilsin ki, bunun səbəbi nədir. Qax rayonunda məhsuldarlıq təqribən 32 sentnerdir, Şəkidə isə 22 sentner. Nə üçün? Özü də Şəki əkin sahələrinə görə Cəlilabaddan sonra 2-ci yerdədir, 47 min hektar əkin sahəsi var, məhsuldarlıq isə 22 sentnerdir. Qonşu Qax rayonunda isə 32 sentnerdir. Səbəb nədir? Araşdırılmalıdır, məruzə edilməlidir və ölçü götürülməlidir.

Mən aşağı məhsuldarlığı olan rayonların da adlarını çəkmək istəyirəm ki, görək orada gələcəkdə də bu səviyyədə olan əkin sahələrini buğda üçün nəzərdə tutaq, yoxsa başqa nəyəsə üstünlük verək. Dediyim kimi, Kürdəmir–21 sentner, Masallı–22 sentner, Ucar–23 sentner, Şamaxı–17 sentner. Özü də Şamaxıda 14 min hektar torpaq sahəsi var və əlbəttə, biz bu məhsuldarlığın nə qədər məqsədəmüvafiq olmasına baxmalıyıq. Qobustan–19 sentner, Şabran–21 sentner, Siyəzən–23 sentner, Xızı–19 sentner, Yardımlı–18 sentner və sairə. Buna çox ciddi baxmaq və ciddi təhlil aparmaq lazımdır.

Meliorativ tədbirlər haqqında məruzə edildi. İlin əvvəlində qarşıya vəzifə qoyulmuşdu ki, biz 100 min hektardan çox yeni torpaq sahələrinin suvarılmasını təşkil edək və bu istiqamətdə işlər gedir. Biz buna nail olacağıq. Biz yeni layihələr üzərində işləyirik. Elə etməliyik ki, suvarma işlərini maksimum dərəcədə yüksək səviyyədə aparaq. Çünki bu, məhsuldarlığa bilavasitə təsir göstərir. Subartezian quyularının qazılması davam etdirilir. 2013–2016-cı illərdə 1000-ə yaxın subartezian quyusu qazılıbdır. İyun ayında yeni sərəncam imzalamışam. Bu sərəncam əsasında 36 rayonun 136 yaşayış məntəqəsində 150 subartezian quyusu qazılacaq və deməli, 375 min insan bundan istifadə edəcəkdir.

Əvvəlki illərdə qazılmış quyuların hesabına 1 milyon 300 min insan bu imkanlardan istifadə edibdir.

İnşaat sektorunun canlanması müşahidə olunur. İndi Bakıda 100-dən çox hündürmərtəbəli bina tikilir. Qəzalı binaların yerində yeni binalar tikilir. Onların sayı 80-ə yaxındır. Bu, şəhərimizi daha da gözəlləşdirir, abadlaşdırır. Yararsız, qəzalı binalardan vətəndaşlar köçürülür. Müvəqqəti olaraq onlara kirayə pulu verilir. Tikiləcək yeni binalarda onlara daha da böyük ölçüdə mənzillər veriləcək. Bu qəzalı binaların hər birinin yerində tikilən binanın 1-ci mərtəbəsində uşaq bağçası da nəzərdə tutulur. Bu mənim xüsusi göstərişim idi. Beləliklə, ancaq bu yolla Bakı şəhərində 1-2 ilə 80-dən çox uşaq bağçası istifadəyə veriləcəkdir.

Mənzil İnşaatı Dövlət Agentliyinin xətti ilə 29 bina tikilir. «Ağ şəhər»də onlarla bina inşa olunub. Bu 3 istiqamətdə artıq 100-dən çox binanın inşaat işləri aparılır. Bakının digər yerlərində, digər şəhərlərimizdə mənzil tikintisi geniş vüsət alıb, inşaat sektoru artıq bərpa edilir, canlanma vardır. Əlbəttə, bunun tikinti materialları sektoruna da müsbət təsiri var və olacaqdır. Mən iş adamlarına məsləhət görərdim ki, bu sahəyə daha da böyük diqqət yetirsinlər, sərmayə qoysunlar. Çünki bundan sonra inşaat işləri Azərbaycanda daha sürətlə aparılacaq, tikinti materiallarına böyük ehtiyac olacaq.

Mən sərmayə qoyuluşu ilə bağlı rəqəmləri səsləndirdim, 5 milyard dollar sərmayə qoyulub. Ancaq bunun böyük hissəsi xarici sərmayədir. Biz çalışmalıyıq ki, daxili sərmayəni də cəlb edək. Daxili sərmayə deyəndə, mən dövlət investisiyalarını nəzərdə tutmuram. Onsuz da biz bunu edirik, Dövlət İnvestisiya Proqramı uğurla icra olunur və tam icra edilməlidir. Buraya məktəb, xəstəxana, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, infrastruktur layihələri, yol salınması və sair daxildir. Mən özəl sərmayəni nəzərdə tuturam. Özəl sərmayənin cəlb edilməsi üçün təkcə mərkəzi icra orqanları məsuliyyət daşımır, yerli icra orqanları da, mən bunu demişəm, bir daha demək

istəyirəm ki, daha fəal olmalıdır. Xüsusilə bölgələrdə investisiyaları cəlb etmək üçün icra başçıları gərək fəal olsunlar. Bəzi yerlərdə bu fəallıq, nəticələr var, amma bəzi yerlərdə bu fəallıq yoxdur, biganəlik vardır. Bəzi hallarda investorlara kömək etmək əvəzinə problemlər yaradılır. Bunlara son qoyulmalıdır. İlin sonunda – dekabr ayında Prezident Administrasiyası və İqtisadiyyat Nazirliyi mənə məlumat, siyahı verməlidir ki, hansı rayonda nə qədər özəl sərmayə cəlb olunub. Hər bir icra başçısının işinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcəkdir. Mən müşavirələrin birində də bunu demişəm. Bir daha deyirəm ki, dekabrın 15-də mənə geniş arayış təqdim edilsin və ondan sonra ya yüksək qiymət veriləcək, ya da cəza tədbirləri görüləcəkdir. Mən dövlət məmurlarının davranış normaları ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm. Hər bir dövlət məmurunu işə təyin edəndə verdiyim tapşırıqlar arasında bunlar da var ki, məmur təvazökar olmalı, xalqa xidmət etməli, xalqla bir yerdə olmalı, özünü xalqdan yuxarı tutmamalıdır. Məmur özü və onun ailə üzvləri təkəbbürlü davranmamalıdırlar. Ancaq buna baxmayaraq, bəzən hələ də görürük ki, həm məmurlar özlərini apara bilmirlər, kobud səhvlər buraxırlar, həm də ailə üzvləri hesab edirlər ki, onların xüsusi imtiyazları var. Azərbaycanda heç kimin heç bir imtiyazı yoxdur. Mən demişəm: o dövlət məmuru ki, öz ailə üzvlərini idarə edə bilmir, vəzifədən çıxarılacaq və belə də oldu. Azərbaycanda xuliqanlıqla, özbaşınalıqla məşğul olanlar cəzalandırılır və cəzalandırılmalıdır. Heç kimə heç bir güzəşt edilmir və mənim son qərarlarım bunu bir daha təsdiqləyir, hamı nəticə çıxarsın.

Bu il infrastruktur layihələrinin icrası davam etdirilmişdir. Qazlaşdırma səviyyəsi artıq 93 faizə çatıbdır. Biz qarşıya 95 faiz hədəfi qoymuşduq. Ölkəmizin relyefini nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı rəqəmdir. Biz bu hədəfə çatırıq. Digər infrastruktur layihələri də icra edilir, elektrik təsərrüfatı yenilənir. Kənd yolları layihələri icra edilir. Şərti olaraq, biz bu

layihəni «40 kənd yolu» layihəsi adlandırdıq, ancaq hər bir layihənin əhatə dairəsi daha genişdir. Yəni 40 deyəndə, əslində bu, 200, bəlkə də daha çox kəndi əhatə edir. Çünki hər bir layihə 4-5 kəndi əhatə edir və bu çox gözəl nəticə verir, bölgələrdə də vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İçməli su layihələri icra edilir. Kifayət qədər vəsait var və gələn il də bu proses davam etdiriləcək. Artıq bir çox şəhərlərimizdə içməli su məsələsi həll olunubdur.

Bakı şəhərində böyük yol infrastrukturu layihələri icra edilir, yeni yollar salınır. Bu yaxınlarda da yeni yol açılıbdır. «Sovetski» adlanan ərazidə müasir yol infrastrukturu artıq istismara verilibdir. O ərazidə böyük abadlıq işləri aparılır. İndi Təzəpir məscidinin önü açılıbdır, orada park olacaq. Digər tərəflərində də ictimai yerlər yaradılacaq ki, Təzəpir məscidinin hər tərəfdən görünməsi mümkün olsun. Azərbaycan Dövlət Dram Teatrının arxasında – yol infrastrukturu yaradılan ərazidə ictimai yerlər, parklar, bağlar salınacaq, ağaclar əkiləcək ki, bunlar Bakı şəhəri üçün, necə deyərlər, yeni bir «ağ ciyər» olacaq. Bu ərazi yaşıllıq zonası olacaq və bu bizə çox lazımdır. Son illər ərzində bir çox ictimai yerlər açılıb, parklar, bağlar yaradılıb. Elə bulvarın özü böyük ictimai istirahət zonasıdır və bu proses davam etdirilməlidir. Hacı Cavad məscidinin yeni binasının tikintisi gedir, daha da sürətlə getməlidir ki, yaxın aylarda bu məscid istifadəyə verilsin.

Qeyd etdiyim kimi, qeyri-neft sektorunun ixracının artırılması istiqamətində işlər gedir, artım yaxşıdır, 27 faiz təşkil edib. Biz ixracın coğrafiyasını da genişləndirməliyik. Ənənəvi bazarlar var. Biz o bazarlarda varıq, mövqelərimizi daha da gücləndirməliyik, yeni bazarlara da çıxmalıyıq. Bu istiqamətdə görülən işlər artıq nəticə verir. Biz indi bir neçə Körfəz ölkəsinə öz kənd təsərrüfatı və emal məhsullarımızı ixrac etməyə başlamışıq. Bunu genişləndirmək lazımdır. Körfəz ölkələrinin bazarı kifayət qədər böyükdür və məsafə baxımından yaxındır. İlkin layihələrin icrasına başlanılıb. Biz artıq məhsul ixracına

başlamışıq. Bunu daha da genişləndirməliyik. Dövlət qurumları, İqtisadiyyat Nazirliyi sahibkarlara öz köməyini göstərir. Biz artıq Asiya ölkələrinin bazarlarına çıxırıq və çalışmalıyıq ki, Avropa İttifaqı ölkələrinin bazarlarına da çıxaq. Mən, demək olar ki, bütün xarici səfərlərim çərçivəsində və xarici həmkarlarım Bakıda olanda bu məsələni qaldırıram, siyahını onların qarşısına qoyub deyirəm ki, biz bu məhsulları ixrac edə bilərik, siz də bunları alırsınız, gəlin bizdən alın. Biz də sizin ixrac etdiyiniz məhsulları alaq. Ona görə indi biz bütün görüşlərə bu siyahı ilə gedirik və bunun gözəl nəticələri var. Avropa ölkələrində, Körfəz ölkələrində, Asiya ölkələrində bizim məhsullara maraq var, sadəcə olaraq, bu günə qədər onlarda məlumat yox idi. «Azexport» portalının yaradılması da bu istiqamətdə atılan çox ciddi addımdır. İndi portala bütün dünyadan sifarişlər gəlir. Amma əvvəllər heç kim bilmirdi ki, biz nə istehsal edirik. İndi bilirlər, müraciət edirlər, elektron qaydada müqavilələr bağlanılır. Bu, böyük hadisədir və belə addımların atılması görün sahibkarların işini nə qədər yüngülləşdirir. Əsas bazarlar olan bütün ölkələrə indi dövlət və özəl sektorun nümayəndələrindən ibarət ticarət missiyaları göndərilir. Biz öz məhsullarımızı xaricə ixrac etməliyik.

Mən burada da bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bu həm ictimaiyyət üçün maraqlı olar, həm də bizim sahibkarlar və dövlət qurumları bilsinlər ki, bu, yaxşı nəticələrdir. Amma biz bu istiqamətdə işləri davam etdirməliyik. Kənd təsərrüfatı və emal məhsullarının ixracı ilə bağlı bəzi rəqəmləri səsləndirmək istəyirəm: bu il pomidor ixracı 55 faiz, kartof 63 faiz, soğan 1100 faiz, pambıq 154 faiz, pambıq lifi 650 faiz, süd məhsulları təqribən 400 faiz, meyvə və tərəvəz emalı məhsulları 54 faiz, emal olunmamış dəri 38 faiz, spirtli və spirtsiz içkilər 16 faiz, o cümlədən şərab 13 faiz, alma təxminən 200 faiz, xurma 14 faiz, nar 106 faiz, çay 50 faiz, şokolad 50 faiz, tütün məmulatları 5 faiz, bitki-heyvan mənşəli yağlar 7 faiz artıb. Bax, bunlar görülən işlərin nəticəsidir. Sənaye məhsullarının ixracı: qızıl 64

faiz, elektrik enerjisi 300 faiz – biz indi elektrik enerjisini satırıq və birinci 6 ayda 25 milyon dollar dəyərində satmışıq. Nəyə görə? Çünki biz xətləri tikdik, birləşdirdik, bütün qonşu ölkələrlə bizim yüksəkgərginlikli xətlərimiz vardır və elektrik enerjisini ixrac edirik – alüminium 30 faiz, plastik məmulatlar 22 faiz, avadanlıqlar, mexaniki qurğular 50 faiz, mis 67 faiz, mis-filiz konsentratlar 100 faiz, qatran yağları 56 faiz, bentonit gili 255 faiz, toxuculuq məmulatları 73 faiz, daş, gips, sement 3000 faiz, kimya sənayesi məhsulları 8 faiz, qurğuşun 123 faiz artıbdır.

Bunlar görülən işlərin ən gözəl göstəriciləridir. Bununla bərabər, bəzi məhsullar var ki, ixracı azalıb. Bunu da hamı bilməlidir, həm araşdırılsın ki, nə üçün azalıb, həm də ölçü götürülsün. Misal üçün, albalı və gilasın ixracı 22 faiz azalıb. Şəkər 11 faiz, fındıq 9 faiz azalıb. Sənaye məhsulları arasında isə azalan yeganə pozisiya qara metal və ondan hazırlanan məmulatlardır. Bu məhsulun ixracı 11 faiz azalıb. Yəni azalan siyahı 3 pozisiyadan ibarətdir, artan isə baxın nə qədərdir və bizim imkanlarımız nə qədər genişlənibdir. Mən bu rəqəmləri ona görə səsləndirdim ki, bu çox gözəl nəticələrdir, bizim işimizin təzahürüdür. Bu, gələcək üçün də bir nümunədir. Bu pozisiyalar üzrə istehsalımızı artırmalıyıq və ixracın coğrafiyasını da genişləndirməliyik.

Sahibkarlara 6 ayda güzəştli şərtlərlə 63 milyon manat kredit verilib. Ümumiyyətlə, bütövlükdə güzəştli şərtlərlə 2 milyard manat kredit verilib. İnvestisiya təşviqi mexanizmi özünü tam doğruldub. Bu çox düzgün addım idi. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra məhz bu təşəbbüsə görə Azərbaycana 1,6 milyard manat dəyərində investisiya qoyulub. Əgər bu mexanizm olmasaydı, bu 1,6 milyard manat investisiya da olmayacaqdı. Biz bunu etdik. Baxmayaraq ki, bu məsələ ilə bağlı müxtəlif fikirlər var idi. Amma mən dedim ki, biz buna getməliyik və nəticə də göz qabağındadır. İnvestisiya təşviqi mexanizmi qədər bizə investisiya gətirən ikinci amil yoxdur.

Sahibkarlar da bunu yüksək qiymətləndirirlər. İş yerləri də açılır və gözəl iqtisadi sənaye potensialı yaranır. İxracın təşviqi mexanizmi də fəaliyyət göstərir. Bunun da yaxşı təsiri vardır.

Bu il turizmin inkişafı da bizi sevindirir. Turistlərin sayı 25 faiz artıbdır. Əlbəttə ki, bunun səbəbləri bəllidir. Azərbaycanı daha çox tanıyırlar. Azərbaycan dünyada təhlükəsiz, sabit ölkə kimi tanınır. Ölkəmizdə keçirilən beynəlxalq yarışlar, tədbirlər, əlbəttə ki, marağı artırır. Xüsusilə o yarışlar arasında mən «Formula-1»i qeyd etməliyəm. Bu yarışın auditoriyası dünya miqyasında 500 milyon insandır. 500 milyon insan Bakını, şəhərimizin gözəlliyini görür. Bakıda o yarışlarda iştirak edən idmançılar, nümayəndə heyətinin üzvləri, qonaqlar, əlbəttə ki, qayıdandan sonra xoş təəssüratlarını öz dostları ilə bölüşürlər. Ona görə turist axını daha da çox olacaqdır. Biz buna hazır olmalıyıq. Xüsusilə Bakıda və bölgələrdə yeni hotellərin tikilməsinə böyük ehtiyac vardır. Mən sahibkarlara məsləhət görərdim ki, bu sahəyə investisiya qoysunlar. Çünki bu, gəlirli sahədir və yaxşı nəticə verəcəkdir.

Qeyd etmək istədiyim sonuncu məsələ də yenilikdir, yeni təşəbbüsdür. Bunun da çox böyük perspektivi və artıq yaxşı nəticələri var. Bu, özünü məşğulluq proqramıdır. Biz bu yaxınlarda bu proqrama start verdik. İlkin vəsaiti mən Prezidentin ehtiyat fondundan ayırdım. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi treninqlər keçiribdir, ailələr müəyyən edilibdir. Artıq bir çox ailələrə dövlət tərəfindən maliyyə dəstəyi göstərilir və tövsiyələr verilir ki, onlar öz ailə biznesini necə qursunlar və onların ünvanlı dövlət sosial yardımına ehtiyacı qalmasın, özləri üçün yaxşı şərait yaratsınlar. Bu istiqamətdə qanunvericilikdə də müvafiq dəyişikliklər edildi. Bu dəyişikliklər nəticəsində gələn ildən başlayaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öz vəsaiti yaradılacaq və biz o vəsaitlə minlərlə ailəni özünü məşğulluq proqramı ilə əhatə edə bilərik. Mən hesab edirəm ki, birinci mərhələdə hər il 5–10 min ailə dövlətdən bu dəstəyi almalıdır. Əgər nazirliyin buna vəsaiti çatmasa, müraciət etsinlər, mən əlavə vəsait ayıraram. Beləliklə, əgər biz hər il 5–10 min ailəni əhatə

etsək, 5-6 faiz səviyyəsində olan işsizlik də aradan götürüləcək və ünvanlı yardıma da ehtiyac qalmayacaqdır.

Beləliklə, bir daha qeyd etmək istəyirəm ki, bu ilin 6 ayının yekunları məni sevindirir. Nazirlər Kabinetinin iclası, o cümlədən xalqa verilən hesabatdır. Biz bunu müntəzəm olaraq edirik. Eyni zamanda, verdiyim tapşırıqlar yerinə yetirilməlidir ki, biz müsbət dinamikanı daha da artıraq.

Sağ olun.

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MEKAN İŞANQULİYEV İLƏ GÖRÜŞ

*13 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Türkmənistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mekan İşanquliyevin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Mekan İşanquliyev Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Mekan İşanquliyev etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı qardaş türkmən və Azərbaycan xalqlarının əsrlərdən bəri dostluq və əməkdaşlıq etdiklərini vurğuladı. Prezident İlham Əliyev bu gün müstəqil Azərbaycanın və Türkmənistanın dövlətlərarası əlaqələri fəal şəkildə möhkəmləndirdiklərini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan tərəfi əlaqələrimizin siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə möhkəmləndirilməsində maraqlıdır. Hazırda ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir və nümunəvi xarakter daşıyır.*

*Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı və Mekan İşanquliyevin diplomatik fəaliyyəti dövründə ölkələrimizin bir-birinə daha da yaxınlaşması və əlaqələrin bütün istiqamətlərdə inkişafı işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Mekan İşanquliyev prezident İlham Əliyevə Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarını çatdırdı. O, səfir təyin olunduğu vəzifədə qardaş ölkələrimiz və*

*xalqlarımız arasında əlaqələrin daha da genişləndirilməsi və gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi. Xalqlarımız arasında tarixən mehriban qonşuluq əlaqələrinin mövcud olduğunu bildirən Mekan İşanquliyev siyasi, iqtisadi, diplomatik, ticarət və mədəni sahələrdə əməkdaşlığımızın möhkəmləndirilməsi üçün bütün lazımi potensialın olduğunu vurğuladı. Səfir qeyd etdi ki, nəqliyyat sahəsi əməkdaşlığımızın əsas istiqamətidir. Ölkələrimizin coğrafi yerləşməsinin bu işə xidmət etdiyini qeyd edən səfir bildirdi ki, tarixən ticarət yolları bizim ölkələrimizdən keçib və ölkələrimizin müvafiq qurumları arasında beynəlxalq əməkdaşlıq məsələləri fəal müzakirə olunub. Səfir vurğuladı ki, əməkdaşlığın fəallaşdırılması üçün əsas amil Türkmənistan və Azərbaycan prezidentləri arasında keçirilən görüşlərdir. Sentyabrın 17-də Türkmənistanda Asiya oyunlarının açılacağını deyən səfir Türkmənistan Prezidentinin və xalqının Azərbaycan prezidenti İlham Əliyevin həmin tədbirdə iştirakını səbirsizliklə gözlədiklərini nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin fəal inkişaf etdiyini qeyd edərək, yüksək səviyyədə görüşlərin əlaqələrimizin möhkəmləndirilməsində önəmini diqqətə çatdırdı və bildirdi ki, ölkələrimizin müvafiq qurumları, o cümlədən dövlət və özəl şirkətlər arasında da əməkdaşlıq əlaqələrin bu səviyyəsinə uyğun olmalıdır. Dövlətimizin başçısı Türkmənistanda Asiya oyunlarının keçirilməsi münasibətilə təbriklərini səfirə çatdırdı və gələcək fəaliyyətində ona uğurlar arzuladı.*

*Prezident İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Möhtərəm cənab Prezident!

Əziz qardaşım!

İyulun 15-də Türkiyə Cümhuriyyətində qanuni hakimiyyəti zorakılıqla devirmək cəhdinin qarşısının alınmasının 1 ili tamam olur. O gecə yaşanan qanlı hadisələr, ölkənin Konstitusiya quruluşunu fədakarlıqla qoruyan türk xalqının mətinliyi və insanların öz canını qurban verməsi Azərbaycanda əsl qəhrəmanlıq nümunəsi kimi böyük ehtiramla xatırlanır. Həmin gün demokratiya və qanunçuluğun müdafiəsinə qalxmış milyonlarla vətəndaş bir daha sübut etdi ki, xalqın iradəsinə heç kim qalib gələ bilməz və dövlətçiliyə qarşı yönəlmiş istənilən cəhd iflasa məhkumdur.

Hadisə haqqında xəbər tutan kimi, mən dərhal Türkiyənin legitim hakimiyyətinə öz dəstəyimi ifadə edərək, ölkənin Konstitusiya quruluşuna qəsd edən Vətən xainlərini birmənalı şəkildə pislədim və bununla bağlı Azərbaycanın hökumət üzvlərinə müvafiq tapşırıqlarımı verdim.

Əminəm ki, dövlətçiliyi, demokratik dəyərləri və Sizin rəhbərliyinizlə cəmiyyət həyatının bütün sahələrində əldə olunmuş uğurları yaşatmaq üçün sarsılmaz iradə nümayiş etdirən vətəndaşların rəşadəti və şəhidlərin unudulmaz xatirəsi hamımızın qəlbində daim yaşayacaqdır. Sizin liderliyiniz, türk xalqının həmrəyliyi və qətiyyəti sayəsində xain niyyət-lərin qarşısına keçilməz sipər çəkildi, Türkiyə dövləti böyük təhlükələrdən xilas oldu. Ötən dövrdə Siz əhalini səfərbər etməklə, ölkənizin inkişafı və dünya dövlətləri sırasında nüfuzunun güclənməsi istiqamətində böyük işlər gördünüz, şəxsi məq-

sədlərini xalqın iradəsindən üstün tutan antimilli qüvvələrə qalib gəldiniz. Bütün bunlar qardaş Türkiyə vətəndaşları kimi, bizi də ürəkdən sevindirir. Bu günlərdə İstanbulda baş tutmuş Ümumdünya Neft Konqresində Sizinlə keçirdiyimiz görüşü məmnuniyyətlə xatırlayır, apardığımız müzakirələrin gələcək əlaqələrimizin daha da möhkəmlənməsinə ciddi təsir göstərəcəyinə inandığımı bildirirəm.

Əziz qardaşım, bir daha 15 iyul şəhidlərinin ruhuna rəhmət, onların yaxınlarına səbir, qardaş türk xalqına dözüm arzulayaraq, bütün taleyüklü məsələlərdə Sizinlə həmrəy olduğumu ifadə edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 iyul 2017-ci il*

## YASAMAL RAYONUNDA YENİ SALINMIŞ PARKLA TANIŞLIQ

*15 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də paytaxtın Yasamal rayonunun Mətbuat prospektində yeni salınmış parkla tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, antisanitariya mənbəyinə çevrilən ərazi tam təmizlənərək, müasir layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb. Burada çoxillik ağaclar əkilib, yaşıllıqlar salınıb. Parkda müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb. Ətrafdakı yaşayış binaları ilə əlaqə qurulması, eləcə də insanların buraya rahat gediş-gəlişini təmin etmək üçün parkın yuxarı hissəsində yeni pilləkənlər tikilib və əlil arabaları üçün xüsusi yol salınıb. Əhalinin mədəni istirahətini təmin etmək məqsədilə çoxlu sayda oturacaq və parkın ərazisinin bir hissəsində idman qurğuları quraşdırılıb. Bundan əlavə, avtonəqliyyat vasitəsilə istirahət parkına gələn əhalinin rahatlığı üçün yeni parklanma sahəsi yaradılıb. Beləliklə, yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıbdır.*

*Xatırladaq ki, bundan əvvəl parkın yerləşdiyi ərazidə «Böyük Plaza» yaşayış və ticarət mərkəzinin inşası aparılırdı. Lakin tikintini həyata keçirən şirkət qanunları pozaraq, ərazidəki 54 ağacı və yaşıllıqları tamamilə məhv etmişdi. Bu məsələyə prezident İlham Əliyev dərhal və kəskin reaksiya verdi. Dövlət başçımızın göstərişi ilə «Ovçular evi» ərazisində inşa olunan*

*həmin binanın tikintisi dayandırıldı, məsələ nəzarətə götürüləTrək, araşdırılmağa başlandı. Əraziyə baxış keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların məhv edilməsi barədə akt tərtib edərək, tikintini həyata keçirən şirkəti 130 min manat məbləğində cərimələdi və fakt üzrə cinayət işi açıldı.*

*Prezident İlham Əliyev ağacların qanunsuz kəsilməsinin yolverilməz olduğunu dəfələrlə bildirib, belə hallara qarşı daim ciddi tədbirlərin görülməsini, buna yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini tapşırıb. Azərbaycanı yaşıl diyara çevirməyi, paytaxtda və bölgələrdə ekoloji tarazlığı qorumağı daim diqqətdə saxlayan dövlət başçımızın bu sahəyə göstərdiyi qayğının nəticəsidir ki, 2010-cu il ölkəmizdə «Ekologiya ili» elan edilmişdi. Bu sahədə vəziyyətin daim nəzarətdə saxlanması istiqamətində prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, dövlət proqramları xüsusi rol oynayıb. Odur ki, Yasamal rayonunun «Ovçular evi» adlanan ərazisində yaşayış binasının tikintisi zamanı ağacların qanunsuz kəsilməsi və yaşıllıqların tamamilə məhv edilməsi faktına prezident İlham Əliyevin dərhal və kəskin reaksiyası bir daha təsdiqlədi ki, ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması hər zaman onun diqqətindədir. Dövlət başçımızın tapşırıqlarına əsasən ərazidə salınan yeni park bunu bir daha təsdiq edir.*

*Parkla tanışlıqdan sonra prezident İlham Əliyev Bakı Dövlət Universitetinin professor və müəllim heyəti üçün tikilən binanın və ətrafdakı evlərin sakinləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün şəhərimizdə yeni park açılır. Bu, gözəl hadisədir və burada yaşayan insanlar üçün gözəl hədiyyədir. Son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılıbdır. İndi Bakı parklar, bağlar şəhəridir. Həm şəhərin mərkəzində, həm də digər ərazilərdə yeni ictimai yerlər yaradılır.

Bu parkın da xüsusi tarixçəsi vardır. Bu ərazidə heç vaxt park olmamışdır. Burada bir çox hündürmərtəbəli binanın tikin tisi nəzərdə tutulurdu. Əfsuslar olsun ki, bu işləri görən insanlar

buradakı ağacları da kəsiblər. Mən bütün dövlət məmurlarına, özəl qurumlara dəfələrlə xəbərdarlıq etmişəm ki, ağaclar kəsilməməlidir, ağacları kəsmək olmaz. Ancaq bir şərtlə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəy versin və əgər hansısa dövlət əhəmiyyətli bir layihə üçün ağaclar götürülmə lidirsə, onların yeri dəyişdirilməli və yeni ağaclar əkilməlidir. Ona görə mən bu məsələdən xəbər tutan kimi, dərhal göstəriş verdim, şəhər icra hakimiyyətinin başçısını bura göndərdim və nəticədə belə bir gözəl ictimai yer yaradıldı. Yeni park bu binalarda yaşayan vətəndaşlar üçün istirahət yeridir. Əlbəttə ki, burada hündürmərtəbəli böyük binalar tikilsəydi, bu, ətrafda yaşayan insanlar üçün də problem yaradardı. Ona görə şəhərimizin bu ərazisində yeni park salınıb və hesab edirəm ki, bu çox əlamətdar hadisədir. Bir daha demək istəyirəm, bu parkın xüsusi tarixçəsi vardır və bütün qurumlara da, şirkətlərə də, iş adamlarına da dərs olacaq ki, əgər ağacı kəsirsənsə, cəzan cərimə ilə bitməyəcəkdir.

Qaldı ki, şəhərimizin abadlaşmasına, görülən bütün işlər göz qabağındadır. Mən bir daha qeyd etmək istəyirəm ki, indi Bakı gözəl parklar şəhərinə çevrilibdir. Bizim mövcud parklarımızın, demək olar ki, hamısı son illər ərzində əsaslı şəkildə bərpa edilib, yeni istirahət zonaları yaradılıbdır. Bizim ən böyük parkımız Dənizkənarı bulvardır. Onun uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırılıb, burada idman, incəsənət şəhərcikləri, ictimai yerlər yaradılıbdır. Diqqət çəkən digər layihələr arasında Heydər Əliyev sarayının arxasındakı yeri də qeyd edərdim. Orada gözəl park yaradılıb. Dövlət Dram Teatrının arxasında da yeni park salınır. «Sovetski» adlanan ərazidə həm yol infrastrukturu, həm ictimai yerlər, gözəl yaşıllıqlar salınacaqdır. İndi işlər o qədər sürətlə gedir ki, bəzən əvvəlki görüntülər yaddan çıxır. Misal üçün, siz yaxşı xatırlayırsınız ki, aeroportun ətrafında yarmarka var idi. Bu səliqəsiz antisanitariya mərkəzinin mənzərəsi hamımızı incidirdi. O yarmarka başqa

əraziyə köçürülüb, yerində meşəlik salınıbdır. İndi o yerdən keçəndə bəziləri unudur ki, burada əvvəllər mənzərə necə idi.

Böyükşor gölünün bir hissəsi təmizlənib, onun ətrafı abadlaşdırılıb, 1 kilometr uzunluğunda yeni bulvar salınıb. Bibiheybət ərazisində indi gözəl park salınır. Yəni görülən bütün bu işlər bir daha onu göstərir ki, vətəndaşların rahat istirahəti üçün şəhərimizdə çox böyük tədbirlər görülür. Yeni parkların salınması baxımından hesab edirəm ki, Bakı şəhəri bu gün dünyada 1-ci yerdədir. Bunu siz də yaxşı bilirsiniz, şəhərimizin digər vətəndaşları da görürlər, əgər harada söküntü gedirsə, o yerdə mütləq ictimai guşələr, parklar yaradılır, yeni geniş yollar salınır ki, tıxaclar azalsın. Növbəti böyük park Yusif Səfərov küçəsində salınır, ümid edirəm ki, yaxın aylarda istifadəyə veriləcək. Onun yanında olan park artıq fəaliyyətdədir, Heydər Əliyev Mərkəzinin ətrafında böyük park xidmət göstərir, gənclər, uşaqlar hər həftə orada müxtəlif tədbirlər keçirirlər. Bakı Konqres Mərkəzinin ətrafında yeni park salınıb. Keçmiş Səttarxan adına zavodun ərazisi olan bu yer ekoloji fəlakət zonası idi. Balaxanı zibilxanası təmizlənib, orada abadlıq işləri aparılıb, şəhərimizin vətəndaşlarına problem yaradan tüstünün qarşısı alınıb. Mən bu sahəyə xüsusi diqqət yetirirəm. Çünki istəyirəm ki, Bakı daha da gözəlləşsin və şəhərimizin ekoloji vəziyyəti daha da yaxşılaşsın. Biz artıq buna nail ola bilmişik. Havanın, suyun keyfiyyəti yaxşılaşıb. Bu, insan sağlamlığı üçün əsas amillərdir.

Bilirəm ki, bu binalarda ziyalılar, alimlər yaşayır. Sizin üçün burada gözəl park salınıb ki, ailə üzvlərinizlə birlikdə istirahət edəsiniz. Bu münasibətlə sizi – burada yaşayan vətəndaşları təbrik edirəm.

**Cahangir Məmmədli** *(Bakı Dövlət Universitetinin professoru):* Cənab Prezident, bu gün burada Sizinlə görüşmək bizdə qürur hissi doğurur. Bakı Dövlət Universitetinin 22 min nəfərlik kollektivi Sizi alqışlayır. Bu gün çox rəmzi bir gündür – ulu

öndərin hakimiyyətə gəldiyi günün səhərisidir, özü də səhər çağıdır.

Mən o günü gözəl xatırlayıram. Ulu öndər hakimiyyətə gəldiyi ildə Bakı Dövlət Universitetinin heç vaxt qeyd olunmayan yubileyini – 50 illik yubileyini keçirdi. Sonrakı illərdə də universitetə çox böyük məhəbbətlə yanaşdı. O, mükəmməl idarəçilik məktəbi yaratdı. Allaha çox şükür ki, bu gün bu məktəb etibarlı əllərdədir. Biz bununla qürur duyuruq.

İndi Siz Bakıdan danışdınız. Amma biz bu gün Azərbaycandan danışa bilərik. Mən ömrüm boyu Parisin tağlı giriş qapısına həsəd aparmışam. İndi biz, misal üçün, Qubaya daxil olarkən görürük ki, Parisin tağlı qapısından da qəşəng bir giriş qapısı düzəldilib. Bütün rayonlarımızda belədir.

Ulu öndərimizin universitetin 50 illik yubileyində söylədiyi qiymətli fikirlər həmişə yadımızdadır. Deyib ki, mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam. Sonra qeyd edib ki, Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir. Biz müəllimlər də Bakı Dövlət Universitetini bitirməyi ilə fəxr edən ulu öndərimizin adına layiq işləməyə çalışırıq.

Cənab Prezident, Siz də Bakı Dövlət Universitetinə Azərbaycan xalqının milli sərvəti kimi yanaşırsınız. Yadımızdadır, universitetin 90 illik yubileyi yaxınlaşanda Siz bizim ali məktəbə gəlmişdiniz. O vaxt universitet üçün 10 mərtəbəli yeni tədris korpusu tikilirdi. Ancaq binanın inşası ləngiyirdi. Siz ertəsi gün sərəncam verdiniz, vəsait ayırdınız və o bina tezliklə tikilib istifadəyə verildi. İndi o gözəl bina universitetimizin loqosudur. O binaya daxil olanda, dəhlizlərdən keçəndə, auditoriyalara girəndə həmişə Siz yadımıza düşürsünüz. Allah Sizi qorusun.

Bu binalar universitetimizdə çalışan müəllimlər üçün Bakıda ən ucuz qiymətə tikilmiş kooperativ evlərdir. Kvadratmetri 260 manata inşa olunub. Mənzillər ona görə ucuz başa gəlib ki, Sizin tapşırığınızla torpaq sahəsi üçün rüsum tutulmayıb. Sizə

təşəkkür edirik. Biz Sizi çox istəyirik. Azərbaycan məhz Sizin rəhbərliyinizlə belə inkişafa nail olub. Tanrı Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Sizə təşəkkür edirəm.

## LATVİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*16 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Latviya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Latviyanın Dövlət bayraqlarının dalğalandığı Riqa Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Latviya Prezidenti Ofisinin rəhbəri Arnis Salnajs və digər rəsmi şəxslər qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 17-də Latviya Respublikası Prezidentinin iqamətgahında – «Riqa» qəsrində rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı qəsrin qarşısında Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Latviya prezidenti Raymonds Veyonis Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Latviyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Latviya prezidenti Raymonds Veyonisə təqdim olundu.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev «Riqa» qəsrinin «Gerblər» zalında Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra hədiyyələr təqdim edildi.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin iyulun 17-də Riqada rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycan Prezidentinin Latviyaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin hazırkı vəziyyəti, inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparıldı, bu əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə edildi.*

*Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin iyulun 17-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində, o cümlədən Şərq–Qərb, Şimal–Cənub dəhlizlərində, Asiya ilə Avropa arasında yükdaşımalarda önəmli rolu qeyd edildi. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat əməkdaşlığı sahəsində gördüyü işlərdən danışdı.*

*Görüşdə Azərbaycan Prezidentinin Latviyaya rəsmi səfəri çərçivəsində imzalanacaq sənədlərin əhəmiyyəti qeyd olundu, bu sənədlərin əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəyinə əminlik bildirildi. Həmçinin təhsil sahəsində əməkdaşlıq müzakirə edildi və bu sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu nəzərə çatdırıldı.*

*Söhbət zamanı Azərbaycan–Latviya münasibətlərinin Azərbaycan–Avropa İttifaqı münasibətləri çərçivəsində önəmi qeyd edildi. Hökumətlərarası birgə Komissiyanın fəaliyyəti, ticarət dövriyyəsinin artırılması üçün imkanların araşdırılması, ixrac-idxal potensialının müəyyənləşdirilməsi, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Prezident Raymonds Veyonis vurğuladı ki, Latviya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və bundan sonra da dəstəkləyəcəkdir. Latviya dövlətinin başçısı ölkəsinin gələcəkdə də Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının möhkəmləndirilməsi işinə töhfə verəcəyini vurğuladı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin iştirakı ilə iyulun 17-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev və prezident Raymonds Veyonis «Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə»-ni imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Latviya Respublikasının Nəqliyyat Nazirliyi arasında beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən İqtisadi, Elmi-Texniki və Mədəni Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri, Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Latviyanın Nəqliyyat naziri Uldis Auqulis imzaladılar.*

*«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Latviya Respublikasının İqtisadiyyat Nazirliyi arasında tikintidə təhlükəsizliyə dövlət nəzarəti sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan tərəfindən İqtisadi, Elmi-Texniki və Mədəni Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri, Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Latviyanın Təhsil və Elm naziri Karlis Şadurskis imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Təhsil naziri Mikayıl Cabbarov və Latviyanın Təhsil və Elm naziri Karlis Şadurskis imzaladılar.*

# LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonis iyu- lun 17-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Latviya prezidenti Raymonds Veyonisin bəyanatı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi bu gün burada, Riqada rəsmi səfəri çərçivəsində qəbul edirəm. Azərbaycan Latviyanın mühüm tərəfdaşıdır və bizim ikitərəfli münasibətlərimiz çox sıx dostluq əlaqələrinə əsaslanır.

Biz bu gün Birgə Bəyannamə imzaladıq. Bu, Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Bəyannamədir və bu sənədin bizim ikitərəfli münasibətlərimizin genişləndirilməsinə müsbət təsiri olacaqdır. Əminəm ki, bu gün imzalanan digər sənədlər – təhsil, tikintiyə nəzarət və digər sahələrdə olan razılaşmalar bizim ikitərəfli əlaqələrimizi daha da gücləndirəcəkdir.

Qeyd etmək istəyirəm ki, ikitərəfli münasibətlər baxımından bu il Latviya ilə Azərbaycan arasında çox fəal il olubdur və biz

bir çox addımları atmışıq ki, əməkdaşlığımız daha da gücləndirilsin. Həm hökumətlərimiz, həm də bələdiyyələr səviyyəsində əlaqələr daha da genişlənibdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəsmi səfəri çərçivəsində biznes-forum da keçiriləcək. Həmçinin iyun ayında bizim hökumətlərarası birgə Komissiyanın iclası keçirilib. Mənə elə gəlir ki, bunlar bizim həm iqtisadi, həm qarşılıqlı ticari imkanlarımızı genişləndirəcək. Beləliklə, bizim Azərbaycan ilə əməkdaşlığımız nəqliyyat, xüsusən də beynəlxalq Şimal–Cənub nəqliyyat dəhlizi baxımından daha sıx olacaqdır.

Əlbəttə, Latviya Azərbaycanı, onun suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Dağlıq Qarabağ münaqişəsi yalnız sülh və danışıqlar yolu ilə həll oluna bilər və bu, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır.

Söhbətimiz zamanı biz həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərə toxunduq. Latviya bu iki tərəf arasında – Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin gücləndirilməsinə hər zaman öz dəstəyini verib. Bu, müxtəlif formatlarda olub. Həm «Şərq Tərəfdaşlığı» çərçivəsində, həm də digər çərçivələrdə. Biz bilirik ki, bu ilin sonunda «Şərq Tərəfdaşlığı» proqramı ilə bağlı növbəti toplantı keçiriləcək və bununla əlaqədar müxtəlif çevik yollar tapılacaq ki, məhz bizim tərəfdaşımızla – Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq daha da genişləndirilsin. Bildiyiniz kimi, bu ilin noyabrında bu məqsədlə sammit keçiriləcək və bu bizim qarşılıqlı əməkdaşlığımızın uzunmüddətli perspektivlərini müəyyənləşdirəcək, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələr bütövlükdə müəyyən olunmuş daha konkret formasını tapacaqdır. Azərbaycanın bu istiqamətdə göstərdiyi səylər yüksək dəyərləndirilməlidir. Mən ümidvaram ki, bu ilin noyabrında Estoniyada keçiriləcək Tərəfdaşlıq üzrə Sammit çərçivəsində Azərbaycan və Avropa İttifaqı ilə əməkdaşlıq edən

digər tərəfdaş ölkələr nəqliyyat və iqtisadiyyat sahələrində daha böyük imkanlar əldə edəcəklər.

Mən Azərbaycanın «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində, təbii qazın Avropa İttifaqındakı istehlakçılara çatdırılmasında göstərdiyi səyləri, apardığı işi yüksək dəyərləndirirəm. Zənnimcə, biz daha sıx işləməliyik ki, bu istiqamətdə daha böyük irəliləyiş əldə edə bilək.

Bizim əməkdaşlığımız çoxtərəflidir. Biz Azərbaycanda insan hüquqlarını müzakirə etdik, qanunun aliliyinə toxunduq və qeyd etdik ki, bu sahələr hər hansı bir ölkənin inkişafı üçün mühüm amillərdir.

Mən həmçinin qeyd etmək istəyirəm ki, ölkəmiz Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin daha da inkişafına öz töhfəsini verməkdə davam edəcəkdir.

Yekunda bildirmək istəyirəm ki, mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin Latviyaya rəsmi səfərindən çox məmnunam. Əminəm ki, bu səfər Latviya ilə Azərbaycanın əlaqələrini, ikitərəfli münasibətlərini daha da genişləndirəcək və bizim dostluğumuz, tərəfdaşlığımız daha da inkişaf edəcəkdir. Mən, sözün əsl mənasında, çox ümid edirəm ki, biznes-forum çərçivəsində biz, həmçinin ölkələrimiz, işgüzar dairələrimiz arasında yeni formatları, yeni imkanlarımızı müəyyən edə biləcəyik.

Zati-aliləri, çıxışımın sonunda bu səfərinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm, çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, cənab Prezident!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən Latviyada olmağımdan çox məmnunam. Biz bu gün Sizinlə həm təkbətək görüşdə, həm heyətlərin iştirakı ilə keçirdiyimiz görüşdə Latviya–Azərbaycan əlaqələrinin müxtəlif aspektlərini

müzakirə etdik. Bu müzakirələr çox konstruktiv şəkildə aparıldı. Əminəm ki, səfərin nəticələri də çox müsbət olacaq, Latviya–Azərbaycan əlaqələri yeni pilləyə qalxacaqdır.

Siz də qeyd etdiyiniz kimi, bu gün imzalanan sənədlər çox önəmlidir. Onların içində xüsusilə Latviya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu çox ciddi, sanballı sənəddir, demək olar ki, əlaqələrimizin bütün sahələrini əhatə edir.

Siz də qeyd etdiniz ki, Azərbaycanın ərazi bütövlüyü məsələləri Latviya tərəfindən dəstəklənir və deyə bilərəm ki, bütün dünya tərəfindən dəstəklənir. Bu Bəyannamədə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox önəmli məsələlər əksini tapıb. Qeyd olunur ki, bu məsələ BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, Azərbaycan sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini tapmalıdır. Bu, ədalətli mövqedir, bu mövqeyə görə mən Sizə minnətdaram. Biz bu gün regional problemlərə də toxunduq, təhlükəsizlik məsələləri müzakirə edildi. Biz indi strateji tərəfdaşlar kimi, bütün məsələləri çox açıq, səmimi şəkildə müzakirə edirik.

İqtisadi sahəyə xüsusi diqqət göstərildi. Əlbəttə, biznes-forum çərçivəsində aparılacaq diskussiyalar əminəm ki, yaxşı nəticələrə gətirib çıxaracaq. Bizə verilən məlumata görə, biznes-forum çərçivəsində artıq bir neçə biznes müqaviləsi də imzalanacaq. Beləliklə, bu, ölkələrimiz arasında o qədər də yüksək səviyyədə olmayan ticarət dövriyyəsinə müsbət təsir göstərəcəkdir.

Bizim konkret təkliflərimiz var ki, hansı məhsulları Latviyaya ixrac edə və hansı məhsulları Latviyadan idxal edə bilərik. Bizim iqlim şəraitimiz elədir ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır. Odur ki, biz istehsal etdiyimiz bir çox məhsulları Latviyaya ixrac edə bilərik və əksinə. Ona görə qarşılıqlı ticarət əlaqələrinin inkişafı üçün çox gözəl imkanlar vardır. O cümlədən biz turizm sahəsində əməkdaşlığa da

toxunduq və belə qərara gəldik ki, Riqa–Bakı reysləri müntəzəm olaraq həyata keçirilməlidir, müvafiq göstərişlər də verildi.

Mən hökumətlərarası birgə Komissiyanın fəaliyyətini qeyd etmək istərdim. Komissiya qısa müddət ərzində çox böyük işlər görüb. Bu gün çox mühüm sənədlər imzalandı. Həm siyasi, həm iqtisadi, həm digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində Komissiyanın çox böyük rolu vardır. Komissiyanın gələcək işinə uğurlar arzulamaq istərdim.

Əlbəttə ki, təhsil sahəsində, humanitar sahədə əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Verilən məlumata görə, bu gün 150 Azərbaycan gənci Latviyanın ali məktəblərində oxuyur. Mən istərdim ki, onların sayı daha çox olsun.

Nəqliyyat sahəsində çox ümidverici əməkdaşlıq imkanları vardır. Azərbaycan hazırda Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı çox ciddi fəaliyyət göstərir və bu məqsədlər üçün çox böyük maliyyə vəsaiti ayırıb. Latviya bu dəhlizin üzərində yerləşən ölkələrdən biri kimi, bizimlə bərabər işləyir. Biz qərara gəldik ki, növbəti mərhələdə müvafiq qurumlar artıq öz aralarında məsləhətləşmələrə başlasınlar.

Cənab Prezidentin qeyd etdiyi kimi, Avropa İttifaqı–Azərbaycan əlaqələri də uğurla inkişaf edir. Bu ilin əvvəlində mən Avropa Komissiyasına çox uğurlu səfər etmişəm. Səfərdən bir gün sonra Avropa Komissiyası ilə Azərbaycan arasında yeni saziş üzərində işlər başlanmışdır. Əlbəttə, strateji tərəfdaşlıq haqqında bu gün imzalanan Birgə Bəyannamə hesab edirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sənəd üçün də gözəl əsas yaradır. Onu da qeyd etməliyəm ki, Avropa İttifaqının üzvü olan 11 ölkə ilə artıq Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu əslində bizim strateji əməkdaşlığımızı əks etdirir.

Əlbəttə, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələrdə enerji məsələləri ön plandadır. Burada da Azərbaycan etibarlı tərəfdaş kimi, Avropanın enerji təhlükəsizliyinin təmin

edilməsində öz rolunu oynayır və oynayacaqdır. Azərbaycan qazı Avropa məkanına çatdırılacaq yeganə yeni qaz mənbəyidir, yeni marşrutdur və yeni mənbədir. Bizim üstünlüyümüz, bax, bundan ibarətdir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Dəhlizin yaradılması üçün 40 milyard dollar vəsait tələb olunur. Onun böyük hissəsi qoyulubdur. Azərbaycan milyardlarla dollar sərmayə qoyub və qoyur ki, bu dəhliz tezliklə reallaşsın. Əminəm ki, 1-ci mərhələ gələn il, 2-ci və sonuncu mərhələ isə 2020-ci ildə başa çatacaqdır. Beləliklə, bizim Avropa ilə strateji əlaqələrimiz daha da yüksək pilləyə qalxacaqdır.

Latviyanın bu əlaqələrin inkişafında çox böyük rolu vardır. Həmçinin Azərbaycan–NATO əlaqələrinin uğurla inkişafında da biz hər zaman Latviyanın dəstəyini hiss etmişik. Bu gün NATO–Azərbaycan əlaqələri – həm Əfqanıstan Respublikasında fəaliyyətimiz, həm logistika və nəqliyyat dəhlizi, ümumiyyətlə, bütün bu məsələlər, əlbəttə ki, NATO-ya üzv olan ölkələrlə bizim əlaqələrimizi gücləndirir.

Cənab Prezident, dəvətə və qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Öz növbəmdə, Sizin üçün münasib olan vaxtda Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Sağ olun.

## **RİQA ŞƏHƏRİNDƏ «AZADLIQ» ABİDƏSİNİ ZİYARƏT**

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonis iyu- lun 17-də Riqa şəhərində «Azadlıq» abidəsini ziyarət etmişlər.*

*Abidənin ucaldıldığı mərkəzi meydanda Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçıları abidənin önünə əklil qoydular, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad etdilər.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın Dövlət himnləri səsləndirildi.*

## LATVİYA RESPUBLİKASININ SEYMİNDƏ GÖRÜŞ

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Latviya Respublikasının Seymində olmuşdur.*

*Latviya Respublikası Seyminin Sədri İnara Murnietse Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*İnara Murnietse Seymin bir qrup deputatını prezident İlham Əliyevə təqdim etdi.*

*Latviya Seyminin Sədri prezident İlham Əliyevə Seymin fəaliyyəti barədə məlumat verdi və iclas zalı ilə tanış etdi.*

*Sonra xatirə şəkilləri çəkdirildi.*

*Dövlətimizin başçısı Latviya Seyminin Fəxri qonaqlar kitabını imzaladı.*

*Daha sonra prezident İlham Əliyevin Latviya Seyminin Sədri İnara Murnietse ilə görüşü oldu.*

*Latviya Seyminin Sədri ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. Bakıya səfərini məmnunluqla xatırladan İnara Murnietse Azərbaycan prezidenti İlham Əliyevin Latviyaya rəsmi səfərinin də ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açacağını vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan–Latviya əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırdı. Latviya parlamentinin sədri ilə Bakıda görüşünü məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini, parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərə böyük töhfə verdiyini bildirdi. Ölkələri-*

*mizin iqtisadi əlaqələrinin genişlənməsi üçün yaxşı imkanların olduğunu vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, mədəniyyət, humanitar və turizm sahələrində də əməkdaşlıq üçün böyük imkanlar vardır. Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən siyasi-iqtisadi islahatlar və beynəlxalq nəqliyyat layihələri barədə məlumat verdi. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə Latviyanın uğurla əməkdaşlıq etdiklərini qeyd edən prezident İlham Əliyev Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxundu, bu əlaqələrin dinamik inkişaf etdiyini bildirdi, Avropa İttifaqının Azərbaycanın enerji, qaz, nəqliyyat sahələrində irəli sürdüyü layihələri dəstəklədiyini vurğuladı.*

*Latviya Seyminin Sədri Avropa İttifaqında Azərbaycanı daim dəstəklədiklərini bildirdi. Latviyanın mövqeyinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməsindən ibarət olduğunu nəzərə çatdıran İnara Murnietse cəbhə xəttində 2 azərbaycanlı mülki şəxsin – nənə və nəvənin qətli ilə nəticələnən son hadisədən və cəbhə bölgəsində bu cür vəhşilik hallarının davam etməsindən təəssüfləndiyini bildirdi.*

*Prezident İlham Əliyev təmas xəttində mülki əhalinin qətli ilə nəticələnən son hadisələrdən danışdı, bu hadisə, həmçinin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı Latviyanın mövqeyinə görə minnətdarlığını bildirdi.*

## LATVİYA–AZƏRBAYCAN BİZNES-FORUMUNDA İŞTİRAK

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonis iyulun 17-də Riqada keçirilən Latviya–Azərbaycan biznes-forumunun açılışı mərasimində iştirak etmişlər.*

**Andris Ozols** *(Latviyanın İnvestisiya və İnkişaf Agentliyinin direktoru)*: Zati-aliləri Latviya Respublikasının Prezidenti cənab Raymonds Veyonis!

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev!

Hörmətli xanımlar və cənablar, nazirlər, səfirlər!

Bu gün dostlarımız burada – Riqadadırlar. Bu, ölkələrimizin birlikdə biznes əlaqələrini yaxşılaşdıra biləcəkləri gözəl fürsətdir. Mən bu forumun təşkilinə görə Azərbaycanın İqtisadiyyat Nazirliyinə və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonduna da təşəkkür etmək istəyirəm. Burada şirkətlərin nümayəndələri çoxdur, çünki bizim əməkdaşlığımıza çoxları maraq göstərir. Biznes-forumda 100-dən çox Latviya sahibkarı iştirak edir. Onlar yeyinti məhsulları istehsalı, kənd təsərrüfatı, turizm və digər sahələri təmsil edirlər.

Azərbaycanda deyirlər ki, etibarlı dost heç vaxt yada çevrilməyəcəkdir. Biz Azərbaycan ilə yaxşı dostlarıq. Bu il Latviya Prezidenti Azərbaycana səfər edib və onu çox mehriban qarşılayıblar. Biz əməkdaşlığımızla fəxr edirik.

## Latviya prezidenti Raymonds Veyonisin çıxışı

Zati-aliləri cənab Prezident!

Hörmətli sahibkarlar, xanımlar və cənablar!

Salam, hörmətli dostlar!

Mən sizi Riqada Latviya–Azərbaycan biznes-forumunda salamlayıram. Mənim bir neçə dəfə Azərbaycana səfər etmək, zəngin ənənələri olan bu ölkənin insanlarını tanımaq fürsətim olub. Bu ilin martında Bakıya səfərim yaxşı yadımdadır. Biz cənab İlham Əliyevlə görüşərək, Latviya ilə Azərbaycan arasında siyasi və iqtisadi əməkdaşlığı müzakirə etmişik.

Mən vurğulamaq istəyirəm ki, Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından ötən 23 ildən çox müddət ərzində biz fəal diplomatik və siyasi dialoqu, güclü iqtisadi əməkdaşlığı inkişaf etdirmişik. Bunu dövlətlərimizin nümayəndələrinin tez-tez səfərləri, habelə çoxlu sayda yüksək səviyyəli tədbirlər, nəqliyyat, tikinti, təhsil və elm sahələrində imzaladığımız müqavilələr təsdiq edir. Biz çox iş görmüşük. Amma qarşıda hələ daha çox iş var. Biz qarşıya iddialı məqsədlər qoymalı və imkanlardan tam istifadə etməliyik. Bu xüsusən, məhsulumuzun Azərbaycana ixracının təşviqinə, habelə informasiya texnologiyaları, əczaçılıq, turizm, o cümlədən müalicəvi turizm sahələrində əməkdaşlığa aiddir. Latviyada yüksək inkişaf etmiş kommersiya bankları şəbəkəsini nəzərdə tutaraq, biz peşəkar və müasir maliyyə xidmətləri təklif edə bilərik.

Eyni sözləri nəqliyyat sahəsi haqqında da demək olar. Latviya çox əlverişli coğrafi mövqeyə malikdir. Ölkəmizdə nəqliyyat infrastrukturu inkişaf edib. Donmayan limanlar, dəmir yolları, aeroportlar bizi Baltik regionu üçün mühüm nəqliyyat qovşağına çevirib.

Artıq bu gün Azərbaycan nəqliyyat sahəsində Latviyanın mühüm tərəfdaşıdır və biz burada əməkdaşlıq üçün, xüsusən

Avrasiya nəqliyyat dəhlizinin və aviasiya əlaqələrinin inkişafında böyük iqtisadi potensial görürük. Biz Latviya ilə Azərbaycan arasında biznes əlaqələrinin inkişafına kömək edəcək müntəzəm hava nəqliyyatına böyük maraq göstəririk. Sahibkarlıq fəaliyyəti turizmin inkişafının yaxşı təməli olacaqdır. Biz iqlim dəyişmələri sahəsində əməkdaşlıq imkanlarını nəzərdən keçiririk. Bizim ekologiya, habelə tullantıların təkrar emalı, innovativ yaşıl texnologiyalar sahələrində yaxşı təcrübəmiz var. Latviya bərpa olunan enerji resurslarının istehsalı üzrə Avropa İttifaqında liderlərdən biridir. Bizim sərvətimiz insanlarımız, onların bilikləri və elmdir. Biz gələcəyimizi iqtisadiyyatın rəqəmsallaşdırılması, müasir elektron idarəetmə və yeni texnologiyalarla bağlayırıq. Bizim ambisiyalarımız təməlində gələcək onilliklərdə inkişafımızı müəyyən edəcək müasir texnologiyalar duran dövlətə çevrilməkdir. Mən ümid edirəm ki, bu biznes-forum gələcək əməkdaşlıq üçün yeni əlaqələr qurmaq, fikir və yeni ideya mübadiləsi aparmaq üçün gözəl fürsətdir. Çox sağ olun.

* * *

**A n d r i s  O z o l s:** Cənab Prezident, ruhlandırıcı sözlərə görə çox sağ olun. İndi isə çıxış üçün Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi dəvət edirəm. Buyurun, cənab Prezident, söz Sizindir.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Prezident, hörmətli xanımlar və cənablar!

Əvvəlcə Latviya Prezidentinə bu gözəl ölkəyə məni səfərə dəvət etdiyi üçün bir daha təşəkkürümü bildirmək istəyirəm. Mənim səfərim ikitərəfli münasibətlərimizin inkişafında çox mühüm addımdır. Bu gündən etibarən Latviya və Azərbaycan strateji tərəfdaş hesab olunurlar. Bu gün biz ölkələrimiz ara-

sında strateji tərəfdaşlığa dair Birgə Bəyannaməni imzaladıq. Bu çox yüksək səviyyəli əməkdaşlıqdır və Bəyannamədə bir çox sahələr, o cümlədən iqtisadi və ticari əməkdaşlıq əhatə olunur.

Prezident, Baş nazir və Seymin Sədri ilə aparılan danışıqların bir qismi ticari və iqtisadi əməkdaşlığımıza həsr olunmuşdur. Böyük potensial mövcuddur. Cənab Prezident bizim ticarət dövriyyəsini çox asanlıqla artıra biləcəyimiz mühüm əhəmiyyət kəsb edən sahələri artıq qeyd etdi. Hesab edirəm ki, növbəti illərdə ticarət dövriyyəsinin artırılması prioritet məsələlərdən biri olacaqdır.

Bilirəm, biznes-forum zamanı bir neçə biznes müqaviləsi imzalanacaqdır. Bu müqavilələr isə bizim bu səhər cənab Prezidentlə müzakirə etdiklərimizi əks etdirəcəkdir. İqlim şəraitimizin müxtəlifliyinə görə bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparan iqtisadiyyatlar deyil. Bunlar bir-birini müxtəlif mallarla təmin edə biləcək iqtisadiyyatlardır. Bizim Latviyaya ixracımızı və Latviyadan Azərbaycana idxalı artırmaq üçün yaxşı fürsətlər vardır. Biz əsasən sizin istehsal və ixrac etdiyinizi idxal edirik, siz də bizim istehsal və ixrac etdiyimizi idxal edirsiniz. Bu, ticarət dövriyyəsini artırmaqla bağlı konkret layihələr üzərində işləmək üçün fəaliyyəti hökumətlərarası birgə Komissiya tərəfindən əlaqələndirilən biznes qruplarının işidir.

İqtisadi əməkdaşlığımızın digər vacib hissəsi qarşılıqlı sərmayə qoyuluşu ola bilər. Beləliklə, biz çox vacib məqama gəlib çatırıq. Bu barədə daha çox informasiyaya malik olmaq lazımdır. Çünki yaxşı investisiya portfelinə malik olmaq üçün bizim bütün əsas ilkin şərtlərimiz vardır. Bu isə güclü siyasi əlaqələrdir. Biznes çox həssasdır və biznesmenlər, adətən, sabit mühitə investisiya qoyurlar. Buna görə də ölkələrimiz arasında güclü siyasi və dost münasibətlər investisiyaların qoyuluşunu çox cəlbedici edir. İndi biz potensial investisiya sahələrini müəyyənləşdirməli və biznes qruplarının yerli tələbata uyğun planlarını koordinasiya etməliyik. Zənnimcə, bu böyük auditoriyanı nəzərə alaraq, bunu

etmək asan olacaqdır. Əminəm ki, bu gün bir çox yeni biznes əlaqələri qurulacaqdır.

Əlbəttə, mən Latviya şirkətlərini Azərbaycanda podratçı qismində işləməyə bir daha dəvət etmək istəyirəm. Azərbaycanda müxtəlif layihələri icra etmiş bir neçə Latviya şirkəti olubdur. Bu layihələr çox uğurlu və yüksək səviyyədə icra edilibdir. Buna görə də şirkətlərinizin yaxşı ekspert biliyi, nüfuzu və peşəkar səviyyəsi vardır. Biz Azərbaycanda sizin şirkətlər üçün maraqlı ola biləcək bir çox infrastruktur layihələrini həyata keçiririk. Ümumiyyətlə, Azərbaycanda investisiya mühiti çox müsbətdir. Son 20 il ərzində Azərbaycana 200 milyard dollardan çox investisiya qoyulmuşdur. İqtisadiyyatımız rəqabətqabliyyətlidir. Davos Dünya İqtisadi Forumuna əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətlilik indeksinə görə 37-ci yerdə qərarlaşıb. Ölkə siyasi və iqtisadi cəhətdən sabitdir. Bir çox infrastruktur layihələri həyata keçirilməkdədir. Avropada və dünyanın digər yerlərində olan bir çox şirkətlər bu layihələrin icrasında bizim tərəfdaşlarımız qismində çıxış edirlər. Enerji amilindən asılılığı azaltmaq üçün Azərbaycanın iqtisadi gündəliyi indi iqtisadiyyatın şaxələnməsinə yönəlibdir. Bu, artıq baş verir. Ümumi daxili məhsulun ən böyük hissəsi qeyri-enerji sektorunun payına düşür. Bu bizə qeyri-enerji sektorumuzu 27 faizdən daha çox artırmağa, idxalı isə 50 faiz azaltmağa imkan verdi.

Bizim iqtisadiyyatı sabit və proqnozlaşdırılan edə bilən əsaslı maliyyə resurslarımız var və maliyyə resursları xarici borcdan 5 dəfə çoxdur. Buna görə də ölkəmiz Latviyaya, Avropaya dost ölkədir. Avropa ölkələri ilə çoxlu biznes əlaqələri var və bu gün imzalanan strateji tərəfdaşlığa dair Birgə Bəyannamə bu qəbildən olan 11-ci Bəyannamədir. Azərbaycanın Avropa İttifaqının üzvü olan 11 ölkə ilə strateji tərəfdaşlıq üzrə əməkdaşlıq formatı vardır. Bu gün biz əsasən meqalayihə olan Şimal–Cənub nəqliyyat şəbəkəsinin həyata keçirilməsi ilə yaranacaq imkanları müzakirə etdik. Bu layihə nəinki təkcə inşaat zamanı iş yerlərini yaradacaq, eyni zamanda, Cənubdan Şimala və Şimaldan Cənuba gedən, ərazilərimizdən

keçən yükdaşımalarının həcmini əhəmiyyətli dərəcədə artıracaqdır. Biz tranzit üçün daha önəmli ölkələrə çevrilərək, daha çox faydalar qazanacağıq və əlbəttə ki, bu, biznes şirkətləri üçün çoxlu fürsətlər yaradacaqdır. Həmçinin Azərbaycanın hazırda icra etdiyi vacib layihə və birbaşa Avropa maraqlarına və əlbəttə ki, bizim maraqlara yönələn enerji şaxələnməsi layihəsi olan «Cənub Qaz Dəhlizi»dir. Bu indi ola bilsin ki, Avropada icra edilməkdə olan ən böyük infrastruktur layihəsidir. Layihənin ümumi dəyəri 40 milyard dollardır. Bu, Avropa İttifaqı bazarını yeni marşrutla və yeni mənbədən Azərbaycan qazı ilə təchiz edəcək layihədir. Bu, həqiqi şaxələnmədir. Çünki enerjinin şaxələnməsi təkcə marşrutların şaxələnməsi demək deyil, bu əsasən mənbələrin şaxələnməsi deməkdir. Bizim layihədə bu məhz belədir. Enerji təhlükəsizliyi bizim hamımızın bildiyi kimi, hər bir ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Buna görə də Azərbaycanda icra etdiyimiz bir çox layihələr sərhədlərimizin hüdudlarından xeyli kənara uzanır.

Bizim Latviya ilə elə güclü əməkdaşlıq formatımız var ki, daha geniş tərəfdaşlığa başlamaq təbii olardı. Bu gün biz, həmçinin biznes, turistlər, xalqlar arasında əlaqələr üçün çox vacib məsələni müzakirə etdik. Söhbət il ərzində fəaliyyət göstərəcək Bakı və Riqa arasında birbaşa uçuş reysindən gedir. İndi bizim mövsümi reysimiz var, biz onu daimi etmək istəyirik. Bu, əlbəttə ki, əlavə fürsətlər yaradacaq və eyni zamanda, biznes ictimaiyyətinin nümayəndələri bir-birini ziyarət etmək üçün bu reysdən daha müntəzəm istifadə edərlərsə, bu, həmin reysi kommersiya cəhətdən də çox cəlbedici edəcəkdir. Beləliklə, reys təkcə ölkə rəhbərliyinin qərarı ilə deyil, eyni zamanda, kommersiya cəhətdən də əsaslandırılmış olardı.

Sizin diqqətinizi yönəltmək istədiyim sonuncu məsələ turizmdir. Bizim iqlimlərimiz və hava şəraitimiz də çox fərqlidir. Hesab edirəm ki, bu bir üstünlükdür. Bizim insanlar qızmar yayda sərinləməyə üstünlük verirlər, latviyalılar isə çox güman ki, qış və digər mövsümlərdə daha çox günəşli havaya can atırlar. Buna görə də turizmə investisiya qoymaq və bizim məkanları turizm şirkətlərinə daha çox cəlbedici etmək üçün böyük potensial

mövcuddur. Lakin bunun üçün daha çox əlaqələrimiz olmalıdır. Biz bir-birimizi daha yaxşı tanımalıyıq, daha çox təqdimatlar, daha çox belə forumlar keçirməliyik və bu bizim münasibətlərimizi gücləndirəcəkdir. Bizim etdiklərimizin hamısı Latviya və Azərbaycan arasında münasibətlərin gücləndirilməsinə yönəlib və mənim bu səfərim buna çox vacib bir töhfədir.

Çox sağ olun.

* * *

*Sonra biznes-forum işini müzakirələrlə davam etdirdi.*

*Azərbaycanın İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Latviyanın İnvestisiya və İnkişaf Agentliyinin təşkil etdiyi biznes-forumda hər iki tərəfdən 120-dən çox şirkəti təmsil edən 200-dək sahibkar iştirak edirdi.*

*Latviya–Azərbaycan biznes-forumunda ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə dair təkliflər irəli sürüldü.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*Riqa*

*17 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə iyulun 17-də Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin adından rəsmi ziyafət verilmişdir.*

*Əvvəlcə Azərbaycanın və Latviyanın Dövlət himnləri səsləndirildi.*

*Sonra dövlət başçıları rəsmi ziyafətdə çıxış etdilər.*

### Latviya prezidenti Raymonds Veyonisin çıxışı

Zati-aliləri cənab Prezident!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Bu axşam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamlamaqdan şərəf duyuram.

Hörmətli cənab Prezident, Sizin Latviyaya səfəriniz qarşılıqlı anlaşmanın dərinləşdirilməsi və ölkələrimiz arasındakı yüksək səviyyəli dialoqun davam etdirilməsi istiqamətində birgə səylərimizin təzahürüdür.

Fürsətdən istifadə edərək, 2017-ci ilin mart ayında Bakıda Latviya nümayəndə heyətinə göstərilmiş qonaqpərvərliyə görə dərin minnətdarlığımı ifadə etmək istərdim. Bu illər ərzində mən bir neçə dəfə Azərbaycanda səfərdə olmuşam və Sizin qonaqpərvərliyiniz bizi heyran etməkdə davam edir. Həmin illər ərzində mən Azərbaycanın dinamik inkişafının şahidi olmuşam.

Latviya ilə Azərbaycan arasındakı əməkdaşlıq bənzər talelər və hər iki xalqın sınaqdan keçdiyi çətin dönəmlər kimi tarixi bağlara əsaslanır. 1918-ci il Azərbaycanın və Latviyanın müstəqilliyə qovuşduğu il olmuşdur. Gələn il biz hər iki ölkənin müstəqilliyinin 100 illiyini qeyd edəcəyik. O zaman Azərbaycan cəmi 2 il müstəqil yaşamışdı, lakin ölkəniz islam dünyasının ilk parlamentli respublikası olmuşdur. Azərbaycan Latviya üçün mühüm tərəfdaşdır. Latviya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Bu səfər çərçivəsində Latviya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın yaradılması haqqında Bəyannamənin imzalanmasını məmnunluqla qeyd edirik.

Əminəm ki, bizim müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsində birgə marağımız var. Dövlət başçıları, parlament, hökumət, bələdiyyə və digər dövlət qurumları arasında sıx əməkdaşlıq qurulubdur. Parlamentlər arasında fəal əməkdaşlığı qeyd etmək, yerli hakimiyyət orqanları arasında artmaqda olan təmasları xüsusi vurğulamaq istərdim. Latviyanın və Azərbaycanın yerli hakimiyyət orqanları arasında 13 əməkdaşlıq sazişi imzalanıbdır.

Ümidvaram ki, Sizin səfəriniz çərçivəsində təşkil olunmuş biznes-forum və hökumətlərarası birgə Komissiyanın iyun ayında keçirilmiş iclası iqtisadi əməkdaşlığın və qarşılıqlı ticarətin artmasına səbəb olacaq yeni layihələrin yaranmasına xidmət edəcəkdir. Coğrafi məsafəyə baxmayaraq, Latviyanın və Azərbaycanın paytaxtlarını mövsümi uçuşlar birləşdirir və həmin uçuşların müntəzəm olması üçün potensialımız vardır. Latviya Azərbaycan ilə nəqliyyat sahəsində, xüsusilə də beynəlxalq Şimal–Cənub nəqliyyat dəhlizi layihəsi çərçivəsində əməkdaşlığı gücləndirmək niyyətindədir.

Fəal siyasi və iqtisadi münasibətləri, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və rəğbəti məmnunluqla qeyd edirik. Ölkəmizdə müxtəlif mədəni və ictimai tədbirlər təşkil edən və Latviya Respublikasına sadiq olan azərbaycanlı icmanın fəaliyyətini xüsusi qeyd etmək istərdim.

Ali təhsil sahəsində əməkdaşlığımız və hər il Azərbaycandan olan 150 tələbənin Latviyanın ali təhsil ocaqlarında təhsil alması sevindirici haldır. Əminik ki, səfər çərçivəsində imzalanmış əməkdaşlıq Sazişi bu sahədə yeni əməkdaşlıq imkanlarını yaradacaqdır.

Hörmətli cənab Prezident, Latviyanın Avropa İttifaqına və NATO-ya üzv olması ölkələrimiz arasında əməkdaşlıq üçün yeni imkanlar yaradıbdır. Bu təşkilatlara üzv olmaq üçün Latviya müasir, demokratik və firavan dövlət yaratmaq məqsədilə əsaslı islahatlar həyata keçiribdir. Bu sahədə təcrübəmizi Azərbaycanla bölüşməyə hazırıq.

Latviya hər zaman Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsini dəstəkləyibdir. Biz iqtisadiyyat, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində imkanlar açacaq yeni Avropa İttifaqı –Azərbaycan tərəfdaşlıq Sazişi ilə bağlı danışıqları alqışlayırıq.

Azərbaycanın enerji sahəsində Avropa İttifaqının mühüm tərəfdaş olması faktını xüsusi vurğulamaq istərdim. Latviya Azərbaycanın «Cənub Qaz Dəhlizi» layihəsindəki rolunu və Avropa İttifaqının enerji təchizatının şaxələndirilməsi sahəsinə yatırdığı sərmayələri yüksək qiymətləndirir.

Hörmətli qonaqlar, gündəliyimizin fəal və işgüzar xarakteri əməkdaşlıqla bağlı hər iki tərəfin səmimi marağını təsdiq edir. Əminəm ki, bu səfər Latviya və Azərbaycan arasında münasibətləri fəallaşdıracaq və onlara güclü təkan verəcəkdir. Xalqlarımızı sülh və harmoniyada yaşamaq, dostluq və əməkdaşlıq etmək arzusu birləşdirir. Ölkələrimiz arasındakı dostluğun və ikitərəfli əməkdaşlığın uğurlu inkişafı bu arzuya xidmət edir.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Zəngin tarixi və mədəniyyəti ilə seçilən dost ölkənizə yenidən səfər etməyimdən çox məmnunam. Sizinlə cari ilin mart ayında V Qlobal Bakı Forumu çərçivəsində keçirdiyimiz görüşü və apardığımız fikir mübadiləsini xoş təəssüratlarla xatırlayıram.

Ölkələrimizin tarixində oxşar məqamlar çoxdur. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin və Latviyanın nümayəndə heyətləri yeni yaradılmış dövlətlərin «de-yure» tanınmaları ilə bağlı Paris Sülh Konfransına müraciət ünvanladılar. Bir il sonra isə Azərbaycan parlamenti Latviyada nümayəndəliyin açılması ilə bağlı qərar qəbul etdi.

Müstəqilliyin bərpasına eyni vaxtda nail olmuş dövlətlərimiz qarşıdan gələn ildə dövlət quruculuğunun 100 illiyini qeyd edəcəklər. Dövlət müstəqilliyimizi bərpa etdikdən sonra ikitərəfli münasibətlərimizin tarixində yeni səhifə açıldı. Ölkələrimiz bu illərdə böyük uğurlar qazanıb, xalqlarımız isə sabitlik və təhlükəsizlik şəraitində rahat yaşayırlar.

Bu gün ölkələrimiz arasında energetika, nəqliyyat, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Əminəm ki, Sizinlə apardığımız danışıqlar, iştirak etdiyimiz biznes-forum, əldə olunan razılaşmalar və imzalanan sənədlər, xüsusilə də «Azərbaycan Respublikası və Latviya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə» əlaqələrimizin inkişafına mühüm təkan verəcəkdir.

Humanitar əlaqələrimizin də zəngin tarixi vardır. XX əsrin əvvəllərində Bakıda Latış Cəmiyyəti fəaliyyət göstərirdi. Bu cəmiyyət 2013-cü ildən fəaliyyətini bərpa edibdir. Məşhur latış

yazıçıları Ernest Birznieks-Upitis, Yanis Vainovskis, Auqustus Bertse, rəssam və yazıçı Yanis Yaunsudrabinş, Bakı Opera Teatrının dirijoru, bəstəkar Yazeps Medinş, memar Ervins Paumbats və başqaları Azərbaycanda yaşayıb yaratmışlar.

Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, humanitar, enerji sahələrində və digər sahələrdə yaxşı tərəfdaşlıq əlaqələri mövcuddur. Bu ilin əvvəlində Brüsselə etdiyim səfərdən sonra biz yeni tərəfdaşlıq Sazişi üzərində işləməyə start verdik.

Azərbaycan iqtisadi, ticari və nəqliyyat sahələrində əlaqələrin genişlənməsi üçün böyük imkanlar yaradan Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünyanın ən böyük enerji layihələrindən biri olan «Cənub Qaz Dəhlizi» həm Avropanın enerji təhlükəsizliyində, həm də ikitərəfli və çoxtərəfli formatda Avropa dövlətləri ilə əməkdaşlıqda mühüm rol oynayır.

Azərbaycan regionda təhlükəsizliyə, sabitliyə, inkişafa və əməkdaşlığa mühüm töhfə verir. Lakin regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi – tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunub, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirilib, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Beynəlxalq təşkilatlar münaqişə ilə bağlı öz mövqelərini bildiriblər. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Eyni zamanda, ATƏT, Avropa Parlamenti, AŞPA, NATO, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində

beynəlxalq hüquq normalarına uyğun həll olunmalıdır. Bu gün imzaladığımız Birgə Bəyannamədə də göstərilir ki, bu münaqişə beynəlxalq norma və prinsiplər əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll olunmalıdır. Bu ədalətli mövqeyə görə Sizə minnətdaram.

Hörmətli cənab Prezident, Latviyada olmağımdan bir daha məmnunluğumu bildirirəm. Əminəm ki, Azərbaycan ilə Latviya arasında dostluq və əməkdaşlıq uğurla inkişaf edəcəkdir.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri iyulun 18-də başa çatdı.*

*Azərbaycanın və Latviyanın Dövlət bayraqlarının dalğalandığı Riqa Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Latviya Prezidenti Ofisinin rəhbəri Arnis Salnajs və digər rəsmi şəxslər yola saldılar.*

**BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ**

Əlahəzrət!

Belçika Krallığının milli bayramı – Kralın Andiçmə Günü münasibətilə Sizi və Sizin simanızda bütün belçikalıları öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Belçika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2017-ci il*

## AVSTRİYA RESPUBLİKASININ FEDERAL AİLƏ VƏ GƏNCLƏR NAZİRİ SOFİ KARMASİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Avstriyanın Federal Ailə və Gənclər naziri xanım Sofi Karmasinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avstriyanın Federal Ailə və Gənclər naziri Sofi Karmasin ölkəmizə səfərinin uğurlu olduğunu, nazirliklərdə və təşkilatlarda keçirilən çoxsaylı məhsuldar görüşləri və onlara göstərilən qonaqpərvərliyi məmnunluqla qeyd etdi. Azərbaycanın çox maraqlı və əməkdaşlıq üçün açıq ölkə olduğunu vurğulayan avstriyalı nazir ölkəmizdə müxtəlif layihələrin həyata keçirilməsi üçün geniş imkanların mövcud olduğunu bildirdi. Sofi Karmasin bildirdi ki, ölkəsi Azərbaycana müvafiq nou-hauların həyata keçirilməsi işində dəstək verməyə hazırdır. O, iyulun 17-də Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində olarkən ona ölkəmizdə «Elektron hökumət»lə bağlı maraqlı layihələr barədə məlumat verildiyini qeyd etdi. Qonaq bu layihələrin Avstriya üçün çox böyük maraq doğurduğunu və gələcəkdə həmin layihələrin öyrənilməsində və tətbiq edilməsində maraqlı olduqlarını bildirdi.*

*Avstriyanın Federal Ailə və Gənclər naziri Sofi Karmasin SOCAR-da keçirdiyi görüşlərdən də məmnunluq ifadə edərək, orada da ətraf mühitin qorunması ilə bağlı maraqlı layihələrlə tanış olduqlarını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasında tərəfdaşlıq əlaqələrinin yeni sahələri əhatə etmək məqsədilə əməkdaşlıq formatının genişləndirilməsinin vacibliyini bildirdi. Dövlətimizin başçısı Avstriyanın Federal Ailə və Gənclər naziri Sofi Karmasinin Azərbaycana səfərinin məhsuldar olacağına və yaxşı nəticələr verəcəyinə əminliyini ifadə edərək, bu səfərin əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*18 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini, Xarici İşlər naziri Rəşid Meredovu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Rəşid Meredovun ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Türkmənistan ilə bərqərar olmuş qardaşlıq münasibətlərinə böyük önəm verir və bütün sahələrdə əlaqələrimizin genişləndirilməsində maraqlıdır. Prezident İlham Əliyev qeyd etdi ki, bunu həm xalqlarımız arasında mövcud olan tarixi əlaqələr, həm də bugünkü reallıqlar zəruri edir və biz belə münasibəti Türkmənistan tərəfindən də görürük. Dövlətimizin başçısı bu baxımdan qarşıdakı illərdə əməkdaşlığımızın və tərəfdaşlıq əlaqələrimizin daha da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edən prezident İlham Əliyev qardaş və qonşu ölkələrimiz arasında qarşılıqlı fəaliyyət üçün yeni imkanların yaradılması, əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səyləri əsirgəməyəcəyini bildirdi. İyulun 19-da ölkəmizdə Azərbaycan, Türkmənistan və Türkiyə Xarici İşlər nazirləri arasında keçiriləcək görüşə toxunan prezident İlham Əliyev bunun yaxşı əməkdaşlıq formatı olduğunu vurğulayaraq, bu*

*formatın üçtərəfli əlaqələr və regional məsələlərin müzakirəsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini, Xarici İşlər naziri Rəşid Meredov dedi:*

– İlk növbədə, icazə verin qardaşınız, Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun adından səmimi salamları və dərin ehtiramı Sizə çatdırım. Mən Bakıya gələrkən o bildirdi ki, Türkmənistan ilə Azərbaycan arasında əlaqələr bu gün fəal şəkildə yüksələn xətlə inkişaf edir və bu inkişaf dinamikası, ilk növbədə, iki dövlət başçısı arasında mövcud olan açıq, səmimi və dostluq xarakteri daşıyan siyasi təmaslara əsaslanır.

*Rəşid Meredov qeyd etdi ki, Türkmənistan və Azərbaycan prezidentlərinin görüşləri və təmasları ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə genişləndirilməsi işinə güclü təkan verir. Bu münasibətlər siyasi, diplomatik dəyərləndirmə baxımından nümunəvi xarakter daşıyır. O vurğuladı ki, əlaqələrimizin gündəliyində duran məsələlər həm ikitərəfli münasibətlər baxımından, həm də regional və qlobal baxımdan aktualdır.*

*Dövlətimizin başçısı Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2017-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*19 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Prezident İlham Əliyev bu gün Bakıda keçiriləcək Azərbaycan, Türkmənistan və Türkiyə Xarici İşlər nazirlərinin görüşünün önəmini qeyd edərək, bu tədbirdə əməkdaşlıqla bağlı məsələlərin müzakirə olunacağına, üçtərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün müvafiq qərarların qəbul ediləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev XXII Ümumdünya Neft Konqresinin İstanbul toplantısının bu təşkilatın nüfuzunun artmasında mühüm rol oynadığını vurğuladı və tədbir çərçivəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı qeyd etdi ki, Türkiyə Xarici İşlər nazirinin ölkəmizə səfəri bir daha ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyev Azərbaycan–Türkiyə əlaqələrinin gündən-günə daha da gücləndiyini və bütün istiqamətlər üzrə yaxşı nəticələrin olduğunu vurğuladı.*

*Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilk növbədə, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlət başçımıza çatdırdı. O qeyd etdi ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan prezident İlham Əliyevin İstanbulda keçirilən XXII Ümumdünya Neft Konqresində iştirakından dərin məmnunluq hissi keçirib. Mövlud Çavuşoğlu Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd hadisələri ilə bağlı Azərbaycanda keçirilən tədbirlərin ölkəsində*

*böyük razılıq hissi ilə qarşılandığını vurğuladı. Türkiyənin Xarici İşlər naziri bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində təmas xəttində Azərbaycanın mülki şəxslərinin həlak olması ilə bağlı prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığı verdi. Mövlud Çavuşoğlu bildirdi ki, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar Türkiyə xalqı tərəfindən böyük sevinclə qarşılanır. Mövlud Çavuşoğlu Azərbaycan, Türkmənistan və Türkiyə Xarici İşlər nazirləri arasında bu gün keçiriləcək görüşə toxunaraq, bu tədbirin regional əməkdaşlıq və ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ JURNALİSTLƏR ÜÇÜN TİKİLMİŞ NÖVBƏTİ BİNADA MƏNZİLLƏRİN PAYLANMASI MƏRASİMİNDƏ İŞTİRAK

*20 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də jurnalistlər üçün tikilmiş növbəti binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etmişdir.*

*Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dövlət başçısına yeni bina barədə ətraflı məlumat verdilər. Bildirildi ki, jurnalistlər üçün inşa edilən 2-ci binada 255 mənzil vardır. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında» 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 birotaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil vardır. Binanın həyatində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülübdür.*

*Sonra prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz mətbuat işçiləri!

Qarşıdan jurnalistlərin peşə bayramı gəlir. Bu münasibətlə bütün Azərbaycan jurnalistlərini ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram.

Bu gözəl peşə bayramı ərəfəsində biz jurnalistlər üçün tikilmiş yaşayış binasının açılışına toplaşmışıq. Bu, sayca ikinci binadır. Birinci binada artıq neçə ildir ki, jurnalistlər yaşayır. İndi də biz ikinci binanın açılışını qeyd edəcəyik. Birinci binada 156, ikinci binada isə 255 mənzil var və bu gün biz üçüncü binanın təməlini qoyacağıq. Üçüncü binada da 255 mənzil nəzərdə tutulur. Beləliklə, qısa müddət ərzində yüzlərlə jurnalistə dövlət tərəfindən mənzil verilir. Bu, dövlət tərəfindən Azərbaycan jurnalistikasına göstərilən növbəti diqqətin təzahürüdür.

Azərbaycan jurnalistikası inkişaf edir və cəmiyyətdə çox müsbət rol oynayır. Azərbaycanda bütün azadlıqlar təmin olunur, o cümlədən söz azadlığı və siz jurnalistlər bunu yaxşı bilirsiniz. Azərbaycanda minlərlə mətbuat orqanı var ki, qeydiyyatdan keçib sərbəst fəaliyyət göstərir. Bu gün Azərbaycan jurnalistikası cəmiyyəti narahat edən problemləri üzə çıxarır, çox dəyərli təhlillər aparır və ümumiyyətlə, ölkəmizin inkişafında çox müsbət rol oynayır.

Mən həmişə çalışmışam və çalışıram ki, jurnalistlərə dəstəyimi əsirgəməyim. Mənim jurnalistlərlə çoxsaylı görüşlərim, səmimi söhbətlərim bunu təsdiq edir. Xüsusilə jurnalistlər üçün binaların tikilməsi bu siyasətin bir təzahürüdür. Bu təşəbbüs bir neçə il bundan əvvəl irəli sürülmüşdü, jurnalistlər bu məsələni qaldırmışdılar, mən də buna müsbət reaksiya verdim və nəticə etibarilə artıq biz burada ikinci binanın açılışını qeyd edirik.

Xatırlayıram, 4 il bundan əvvəl 1-ci binanın açılışında mən demişdim ki, yəqin gələcəkdə bu əraziyə «Jurnalistlər şəhərciyi» deyiləcək və bu belə də oldu. Artıq bu gözəl yer «Jurnalistlər

şəhərciyi»dir, burada 3-cü bina da tikiləcəkdir. Əlbəttə ki, biz jurnalistlərin məişət problemlərinin həlli üçün gələcəkdə əlavə tədbirlər görəcəyik. Mənə deyiblər ki, burada yeni yola ehtiyac var. Çünki indi yol bir tərəfdən çəkilibdir, ona görə də müvafiq göstəriş verilibdir ki, hər 2 tərəfə çıxış olsun, insanlar burada daha da rahat yaşasınlar.

Hər bir şəhərin ən qiymətli, ən prestijli yerləri vardır. Adətən, bu, şəhərlərin mərkəzi olur və dəniz kənarında yerləşən şəhərlərdə dəniz mənzərəli binalar daha da prestijli sayılır. Bax, bu binalar həm dəniz mənzərəlidir, həm də ki, şəhərin mərkəzində yerləşir. Buradan «Azneft» meydanına maksimum 5 dəqiqəlik yoldur. Bu bir daha onu göstərir ki, biz çalışırıq jurnalistlər üçün ən yaxşı şəraiti yaradaq. Binalar da çox gözəldir, genişdir, işıqlıdır, rahatdır. Əminəm ki, jurnalistikada böyük xidmətlər göstərmiş, Vətən qarşısında böyük xidmətləri olmuş insanlar burada rahat yaşayacaqlar.

O ki qaldı jurnalistikanın gələcək inkişafı ilə bağlı məsələlərə, sizə deyə bilərəm ki, Azərbaycan dövləti azad mətbuatın inkişafında bundan sonra da fəal olacaq. Jurnalistlər üçün bütün şərait yaradılıb. Bu gün Azərbaycan cəmiyyəti rahat şəraitdə, təhlükəsizlik, sabitlik şəraitində yaşayır. İndiki zəmanədə bu özlüyündə bir nailiyyətdir və biz ölkəmizi bütün mümkün olan risklərdən qoruyuruq. Ölkəmizin daxilində, demək olar ki, risk mənbələri yoxdur. Xaricdən özümüzü qorumaq üçün kifayət qədər ciddi siyasət aparılır, həm ideoloji sahədə, həm sərhədlərimizin qorunmasında və ümumiyyətlə, biz həmişə çalışırıq və hesab edirəm, buna nail olmuşuq ki, Azərbaycanı mümkün risklərdən qoruyaq, Azərbaycan xalqı rahat, sülh şəraitində yaşasın.

Bu binalarda yaşayan və bundan sonra yaşayacaq jurnalistlər müxtəlif siyasi spektrə aiddir və burada da heç bir ayrı-seçkiliyə yol verilmədi. Müxtəlif siyasi baxışları, müxtəlif partiyaların üzvləri olan insanlar burada bir yerdə bir ailə kimi yaşayacaqlar. Əslində Azərbaycan cəmiyyəti də bu istiqamətdə inkişaf edir.

Azərbaycanda milli həmrəylik vardır. Azərbaycan cəmiyyəti vahid amal ətrafında birləşibdir. Bizdə olan inkişaf, sabitlik, əmin-amanlıq bu gün siz də yaxşı bilirsiniz ki, dünyanın bir çox yerlərində öyrənilir, bəzən təəccüblə qarşılanır və bunun da çox sadə səbəbi vardır. Çünki Azərbaycanda çox gözəl, demokratik şərait var. Azərbaycanda iqtisadi inkişaf var. Azərbaycan müstəqil siyasət apararaq, həm bölgədə, həm dünyada öz mövqelərini möhkəmləndirib. Bizim təsir imkanlarımız genişlənir, böyüyür və Azərbaycan xoşniyyətli siyasət aparır. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır. Hesab edirəm ki, bu iki əsas amil Azərbaycanda artıq çox güclü dayaqlara malikdir. Həm sosial, həm iqtisadi, həm də xarici siyasətlə bağlı atdığımız addımlar bizə böyük uğur gətirib və dünyada Azərbaycana çox böyük rəğbət vardır.

Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən, o cümlədən təbii resurslarla zəngin ola bilər, lakin cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

Azərbaycanda həm demokratik, həm də sosial-iqtisadi inkişaf paralel gedir. Buna görə hesab edirəm ki, bizim cəmiyyətimizdə islahatlar təkamül yolu ilə aparılır və dərinləşir. Siyasi və iqtisadi islahatlar daha da dərinləşməlidir. Söz azadlığı Azərbaycanda tam təmin edilibdir, heç bir məhdudiyyət yoxdur. Mənə verilən son məlumata görə, Azərbaycan əhalisinin təxminən 80 faizi internet istifadəçisidir. Belə olan halda, söz azadlığı ilə bağlı heç bir problem ola bilməz. Düzdür, bəzi hallarda

bizi bəzi qeyri-hökumət təşkilatları tənqid və hətta ittiham edir. Amma bu ittihamların heç bir əsası yoxdur. Bu sadəcə olaraq, qərəzli mövqedir. Bunun səbəbi də bəllidir. Amma real vəziyyətə baxdıqda biz hamımız görürük ki, Azərbaycanda söz azadlığı və bütün başqa azadlıqlar tam təmin olunur. Sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı, vicdan azadlığı, söz azadlığı, mətbuat azadlığı Azərbaycanda təmin olunur və təmin olunacaqdır.

Azərbaycan bundan sonra da iqtisadi və siyasi inkişaf yolu ilə getməlidir. Hesab edirəm, bizim qısa müstəqillik tariximiz onu göstərir ki, bu, yeganə düzgün yoldur. Çünki o qədər də asan olmayan geosiyasi vəziyyətdə Azərbaycan ilk növbədə, öz müstəqil siyasətini qoruya və möhkəmləndirə bilib, heç bir xarici təsir altına düşməyibdir. Azərbaycan dövlətinin inkişafı Azərbaycan xalqının əlindədir. Ölkəmiz Azərbaycan xalqının iradəsi ilə idarə olunur. Biz böyük iqtisadi inkişafa nail olduq. Biz böyük meqalayihələri icra etdik. Biz özümüzü dünyada artıq multikulturalizmin mərkəzi kimi tanıda bildik və bu gün bu sahədəki uğurlarımız bir çox ölkələrdə öyrənilir. Yəni əldə edilmiş bütün bu uğurların təməlində düşünülmüş siyasət və o cümlədən demokratik cəmiyyətin formalaşmasıdır.

Jurnalistlər isə, əlbəttə, fəaliyyətləri ilə bu inkişafa öz töhfələrini verirlər. Cəmiyyəti incidən, narahat edən problemləri üzə çıxarırlar. Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm. Düzdür, mənə müxtəlif mənbələrdən hər gün müxtəlif məlumatlar gəlir. Mənə həm xarici, həm daxili siyasətlə, həm də təhlükəsizliklə bağlı əsas məsələlər məruzə edilir. İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər alıram və dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa səhvi buraxsınlar. Jurnalistlər bəlkə özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər

haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz.

Bu gün peşə bayramı ərəfəsində jurnalistikanın inkişafı ilə bağlı bəzi fikirlərimi bildirmək istərdim. Əlbəttə, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da jurnalistika həqiqəti əks etdirməlidir. Bu gün siz də yaxşı bilirsiniz ki, dünya miqyasında bu barədə danışmaq lazımdır, çünki heç də hər zaman belə deyil. Dünyanın bir çox ölkələrində informasiya kampaniyaları aparılır. Bu kampaniyalar həm xarici, həm daxili xarakter daşıyır. Baxır gündəlikdə hansı məsələ dayanır və təşkil edilmiş informasiya kampaniyaları hansı məqsədləri güdür. Bu məqsədlər bir çox hallarda həqiqətdən daha önəmli amil kimi qəbul edilir. Ona görə hesab edirəm ki, jurnalistikada ilk növbədə, həqiqət prinsipləri üstünlük təşkil etməlidir.

Azərbaycan jurnalistikasına gəldikdə, deyə bilərəm ki, yoxlanılmamış, yaxud da yalan, qərəzli məlumatların sayı kəskin şəkildə aşağı düşüb. Bunu cəmiyyət də görür, jurnalistlər də. Bu, jurnalistlərin fəaliyyəti nəticəsində mümkün olub. İlk növbədə, jurnalistlərin məsuliyyətinin artması nəticəsində baş verib. Hər bir mətbu orqan yaxşı başa düşməlidir ki, ən azı 1, lap 3 dəfə yalan danışmaq olar. Amma ondan sonra həmin orqana heç kim inanmayacaq və o, hörmətdən düşəcək. Ona görə jurnalistikada həqiqət prinsiplərinin bərqərar olması prosesi, əlbəttə, diqqətəlayiqdir və hesab edirəm ki, son illərdə Azərbaycanda bu istiqamətdə müsbətə doğru irəliləyiş vardır.

Əlbəttə, jurnalistika mümkün qədər obyektiv olmalıdır. Çünki tam obyektivliyə nail olmaq çətindir. Hər bir insan istər-istəməz subyektivliyə yol verir və jurnalistlər də istisna deyil. Ancaq jurnalistlərin üzərində çox böyük məsuliyyət var. Onların sözü incidə, problem yarada, yaxud da ki, məsələni həll də edə bilər. Ona görə xahiş edirəm ki, jurnalistikada məsuliyyət məsələsinə daha da böyük diqqət göstərilsin. Bu da həqiqətlə, obyektivliklə paralel istiqamətdə gedən proseslərdir.

Son illər mən görürəm ki, Azərbaycan jurnalistikası bu istiqamətdə daha da məsuliyyətli, daha da təmkinli olub. Artıq nadir hallarda hansısa məsuliyyətsiz məlumata, insanları alçaldan, ləyaqətini aşağılayan, təhqiredici yazılara rast gəlmək olur. Bu baxımdan bizim jurnalistlərimiz bəzi dırnaqarası siyasətçilərdən daha öndədirlər. Hesab edirəm ki, jurnalistikamızda bu istiqamətdə müşahidə olunan islahatlar davam edəcək. Biz keçən əsrin 90-cı illərində jurnalistikamızda hansı meyillərin hökm sürdüyünü yaxşı xatırlayırıq. Biz o vaxt çox üzücü bir mənzərə ilə üzləşmişdik. Bəzi mətbuat orqanlarında təhqir, böhtan və şər amilləri əsas rol oynayırdı. Ancaq indi həm cəmiyyətimiz, həm də jurnalistikamız inkişaf edib. Bu gün jurnalistlərin məsuliyyəti yüksək səviyyədədir və Azərbaycan jurnalistikasının mütləq əksəriyyəti sağlam jurnalistikadır.

Digər məsələlərə gəldikdə, hesab edirəm ki, jurnalistikamız xarici təsirdən azad olmalıdır, xarici təsir altına düşməməlidir. Azərbaycan getdikcə daha da güclənir, Azərbaycanın rolu nəinki bölgədə, dünyada artır. Bölgədə bizim iştirakımız, razılığımız olmadan heç bir layihə, yaxud siyasi, iqtisadi və digər təşəbbüs reallaşa bilməz. Biz müstəqil siyasət aparırıq. Bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz.

Ancaq Azərbaycan daha önəmli ölkə olduğu üçün bizə təsir etmək cəhdləri də artır. Onlar özünü yeni formalarla büruzə verir. Siyasi hakimiyyətə təsir etmək mümkün deyil. Yəni ictimai rəyə, ictimai fikrə təsir etmək cəhdləri çoxalır. Bunu necə etməli? Jurnalistika vasitəsilə. Ona görə Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır. Ölkəmizdə kifayət qədər problemlər, çatışmayan cəhətlər, qüsurlar var. Siz bunu işıqlandırırsınız və işıqlandırmalısınız. Dövlət orqanlarını, məmurları tənqid edirsiniz və tənqid etməlisiniz. Bu, təbii prosesdir. Hamımız bilməliyik ki, bura bizim ölkəmizdir. Azərbaycanı bizdən çox sevən insan, ya qurum, ya ölkə yoxdur, ola da bilməz. Ona görə biz özümüzü xarici təsirdən qorumalıyıq. Gənc nəsli qorumalıyıq ki, Azərbaycan daim müstəqil dövlət kimi inkişaf etsin. Çünki

bizim tariximiz, əfsuslar olsun, elədir ki, biz müxtəlif dövrlərdə müxtəlif dövlətlərin, imperiyaların tərkibində yaşamışıq, müstəqil olmamışıq. Bu, istər-istəməz bizim psixologiyamıza da müəyyən dərəcədə təsir edib.

Bu gün biz müstəqil, azad dövlət və xalq kimi yaşayırıq, ləyaqətlə yaşayırıq. Həmişə belə olmalıdır. Həmişə ölkəmizin taleyi Azərbaycan xalqının əlində olmalıdır. Ona görə özümüzü xarici təsirdən qorumaq üçün Azərbaycan dövləti çox ciddi və uğurlu siyasət aparır. Deyə bilərəm ki, bizə təzyiq etmək, bizi nəyəsə sövq etmək, məcbur etmək cəhdləri kəskin şəkildə azalıb. O cümlədən ona görə ki, bu səylərin heç bir nəticəsi yoxdur. Biz informasiya məkanımızı qorumalıyıq. Bunu etmək çətindir. Çünki biz bu gün internet dövründə yaşayırıq. Hansısa yalan, böhtan, təxribat xarakterli məlumat dərhal özünə yer tapır. Milli jurnalistikamız, Azərbaycan jurnalistikası vətənpərvər olmalıdır, milli maraqlar hər şeydən üstün olmalıdır.

Biz xarici informasiya məkanına çıxışımızı daha da genişləndirməliyik. Bu istiqamətdə yaxşı nəticələr vardır. Mən xatırlayıram, jurnalistlərlə əvvəlki görüşlərimdə də demişdim ki, daha çox xarici dillərdə saytlar açılsın, biz daha çox xarici informasiya məkanına çıxaq. Bizim imkanımız olsun ki, vacib informasiyanı dərhal aparıcı media qurumlarına çatdıra bilək. Əvvəllər belə imkanlar bizdə yox idi və bu bizim üçün problem yaradırdı. Çünki əvvəlki illərdə bizə qarşı koordinasiya edilmiş çox ciddi və çirkin informasiya kampaniyaları aparılırdı ki, guya Azərbaycan geridə qalmış dövlətdir, Azərbaycanda inkişaf, demokratiya yoxdur. Bunun məqsədi bəllidir – həm bizi öz təsiri altına salmaq, nəyəsə məcbur etmək və ümumiyyətlə, ölkə haqqında mənfi imic yaratmaq və ondan sonra öz maraqlarını rahatlıqla təmin etməkdir. Ona görə biz çalışırdıq ki, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdıraq, lakin buna o qədər də geniş imkanlarımız yox idi. Bu gün artıq bu imkanlar vardır. Yaxın tarix onu göstərir ki, biz bu istiqamətdə kifayət qədər geniş imkanlara malikik. Həm dövlət, həm də

media orqanları bu istiqamətdə fəal işləyirlər. Məni sevindirən hal odur ki, biz vahid siyasət aparırıq. Çünki dövlət və media milli maraqları müdafiə edir. Çünki ümummilli məsələlərdə heç bir kənar fikir ola bilməz. Ona görə biz bundan sonra da çalışmalıyıq ki, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdıraq, ölkəmizi daha yaxşı tanıdaq, daha çox hörmət qazanaq. Bizi nə qədər çox tanısalar, bizə rəğbət də o qədər çox artar. Çünki ilk dəfə Azərbaycana gələn və mənimlə görüşən hər hansı bir xarici nümayəndə heyəti öz təəccübünü gizlədə bilmir. Deyirlər ki, bəs biz tam başqa fikirdəydik, bizə başqa şeylər deyirdilər. Amma biz gəldik, gördük ki, Azərbaycan nə qədər inkişaf edib, Azərbaycan necə gözəl ölkədir, Azərbaycan vətəndaşları necə qonaqpərvər və gözəl insanlardır. Çoxları bir məsələni də xüsusilə qeyd edir ki, cəmiyyətdə çox gözəl ab-hava vardır. Bu doğrudan da belədir. Biz buna öyrəşmişik, bu bizim üçün adi haldır. Bəzi başqa ölkələrlə müqayisədə Azərbaycanda ictimai vəziyyət, fikir azadlığı və cəmiyyətdə hökm sürən ab-hava doğrudan da çox müsbətdir.

Biz Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə daha geniş şəkildə çatdırırıq və çatdırmalıyıq. Mən burada medianın rolunu yüksək qiymətləndirirəm, işlər davam etdirilməlidir. Əlbəttə, mən görürəm, bilirəm və buna sevinirəm ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi dönüş yarada bildik. Əvvəlki dövrlərdə vəziyyət belə idi – hökumətlərarası, dövlətlərarası münasibətlərdə, mənim həmkarlarımla çoxsaylı görüşlərimdə hamı bilirdi, etiraf edirdi və xəritəyə baxanda hər şey bəlli idi ki, kim işğalçıdır, kim isə işğalın qurbanıdır. Ancaq bu məlumat, demək olar ki, siyasi elitanın inhisarında qalırdı. Xarici ölkələrin media nümayəndələri ya bilməyərəkdən, ya da qəsdən ictimai fikrə bu münaqişə ilə bağlı yalan və təhrifedilmiş informasiyalar ötürürdülər. Burada, əlbəttə ki, erməni lobbisinin də böyük rolu vardır. Onlar hər gün bizim əleyhimizə işləyirlər, hər dəqiqə onlar üçün birinci hədəf Azərbaycandır. Çünki bilirlər ki, Azərbaycan güclənir,

Azərbaycanın böyük imkanları var, Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq, öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Ona görə erməni lobbisi və onlara yaxın olan siyasi xadimlər, xüsusilə erməni lobbisinin pulu ilə idarə olunan dırnaqarası siyasətçilər ictimai fikrə Azərbaycanla və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yalan informasiyalar ötürürlər.

Biz bu meyili sındıra bildik. Bu gün həm dövlətlərarası münasibətlərdə, həm ictimai rəydə Azərbaycanın mövqeyi daha çox dəyər qazanır. Təsadüfi deyil ki, mənim son səfərlərim çərçivəsində imzalanan sənədlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xüsusi müddəa var və orada göstərilir ki, ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir. Bu, artıq o ölkələrin ictimai fikrində yaranmış dönüşün təzahürüdür. Biz də ilk növbədə, çalışırıq və çox israrla, təkidlə deyirik ki, sənədlərdə mütləq bu bənd olmalıdır. Yəni ictimai fikirdə bu dönüş yaradıldı, münaqişə ilə bağlı Azərbaycanın haqq işi, haqlı mövqeyi daha da böyük üstünlük təşkil edir. Düşmən bundan çox narahatdır, demək olar ki, təşvişdədir, döyüş meydanında məğlubiyyətə uğrayıb, hüquqi müstəvidə bizim mövqemiz çox möhkəmdir. Tarixi ədalət də bizim tərəfimizdədir. Çünki Dağlıq Qarabağ və nəinki Dağlıq Qarabağ, hətta indiki Ermənistanın ərazisi də bizim tarixi torpağımızdır. İqtisadi cəhətdən zəif, yoxsul, xarici ianələrlə güclə dolanan Ermənistan ilə bugünkü inkişaf edən güclü Azərbaycanı müqayisə etmək olmaz. Bizim yeganə zəif yerimiz media məkanı idi. Bu zəifliyin təbii səbəbləri var idi. Çünki erməni diasporu aparıcı ölkələrdə, xüsusilə münaqişə ilə bağlı ölkələrdə güclü imkanlara malikdir. Böyük biznes şəbəkələri vardır. Onlar bəzi siyasətçiləri ələ alıblar, dövlət qurumlarına soxulublar və bu imkanlardan istifadə edib münaqişə ilə bağlı öz mövqelərini işıqlandırırlar. Artıq bu istiqamətdə də dönüş yarandı. Biz gərək öz səylərimizi

daha da gücləndirək. Həm dövlət qurumları, həm ictimai qurumlar, həm də media qurumları bu məsələ ilə bağlı vahid siyasət çərçivəsində fəaliyyət göstərməlidir. Bu gün bu belədir və mən çox istəyirəm ki, bu siyasət daha da gücləndirilsin.

Bir sözlə, əziz dostlar, mən bu gün bu fürsətdən istifadə edərək, jurnalistikamızın inkişafı ilə bağlı bəzi fikirlərimi sizinlə bölüşmək istədim. Bir daha demək istəyirəm ki, prezident kimi, mən azad medianın inkişafı üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm. Jurnalistlərin məişət problemlərinin həlli üçün bundan sonra da biz öz addımlarımızı atacağıq. Çünki mən yaxşı başa düşürəm ki, jurnalist biznesmen, iş adamı deyil. Jurnalistika ilə məşğul olan insan üçün mənzil almaq o qədər də asan məsələ deyil və dövlət burada həmişə sizin yanınızdadır. Azərbaycan dövləti güclü dövlətdir, sosial dövlətdir. Siz bilirsiniz ki, biz sosial məsələlərin həlli üçün bütün lazımi tədbirləri görürük. Neftin qiymətinin qalxmasına, düşməsinə baxmayaraq, sosial proqramların icrasında heç bir geriləmə, yubanma yoxdur. İkinci binanın tikintisinə 4 il vaxt gedib. Bu üçüncü binanı da biz maksimum 3 ilə tikməliyik. Qaldı maliyyə vəsaitinə, burada da heç bir problem olmayacaq ki, biz sizinlə tezliklə üçüncü binanın açılışında görüşək. Sağ olun.

*** 

**İ l h a m  Q u l i y e v** *(«Kaspi» qəzetinin baş redaktoru)*: Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Bu gün Azərbaycan jurnalistikası, bütün cəmiyyətimiz üçün çox əlamətdar bir gündür – 255 jurnalist ailəsinə yeni mənzil verilir. Bu, jurnalistlər üçün elə möhtəşəm hadisədir ki, onun əhəmiyyətini qısa şəkildə ifadə etmək olduqca çətindir. Biz jurnalistlər uzun illər belə bir sevincin həsrəti ilə yaşamışıq, onu gerçəkliyə çevirmək üçün müxtəlif yollar aramışıq.

Yeddi il bundan əvvəl Mətbuat Şurasında kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə, möhtərəm cənab Prezident, məhz Siz yüzlərlə jurnalist ailəsini sevindirə biləcək

təşəbbüs irəli sürdünüz və qərar qəbul etdiniz. Dörd il bundan öncə 156, bu gün isə 255 həmkarımız yeni mənzillərin sevincini yaşayır. Mənim təmsil etdiyim qəzetin də əməkdaşları Sizin yaratdığınız imkanlardan bəhrələnmək şansı əldə ediblər. Cənab Prezident, biz yaxşı başa düşürük ki, jurnalist maaşı ilə şəhərin mərkəzinə yaxın bir yerdə, bu cür gözəl binadan mənzil almaq çox çətindir, bəlkə də mümkünsüzdür. Amma Sizin Azərbaycan jurnalistikasına diqqətiniz, dəstəyiniz sayəsində bizim üçün mümkünsüz olan bir məsələ, uzun illərdir ürəyimizdə gəzdirdiyimiz arzu reallığa çevrildi. Bütün bunlara görə zati-alinizə sonsuz təşəkkür edirik.

Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabi, «Kaspi» qəzetini öz pulu ilə alıb Azərbaycan ziyalılarına hədiyyə etmiş Hacı Zeynalabdin Tağıyev, uzun müddət «Kaspi» qəzetinin baş redaktoru olmuş Əlimərdan bəy Topçubaşov kimi dəyərli azərbaycanlılar bu gün Sizin jurnalistlərə ev vermə mərasiminə şahidlik etsəydilər, görən hansı hissləri keçirərdilər. 1998-ci il avqustun 6-da Azərbaycan mediası üzərindən senzuranı birdəfəlik ləğv edən, onun inkişafı üçün böyük işlər görən ümummilli lider Heydər Əliyev həyatda olsaydı, indi nə qədər sevinərdi.

Mən jurnalistika sahəsində fəaliyyətə başlayandan sonra xeyli müddət Prezident Administrasiyasında akkreditə olunmuş müxbir kimi çalışmışam və ümummilli liderin müxtəlif tədbirlərində iştirak etmişəm. Həmin illərdə bu tədbirlərdə mənimlə bərabər iştirak edən jurnalist həmkarlarımla həmişə Heydər Əliyevin – o böyük insanın jurnalistlərə xüsusi münasibətinin şahidi olmuşuq. Ulu öndər imkan düşən kimi bizimlə təmas qurur, əhvalımızla, iş şəraitimizlə maraqlanır, problemlərimizin həlli ilə bağlı tapşırıqlar verirdi. Ümummilli lider həmişə arzulayırdı ki, Azərbaycan jurnalistləri maddi cəhətdən təminatlı olsunlar, yaxşı yaşasınlar. Cənab Prezident, bu gün Siz həm də ümummilli liderimizin həmin arzularını reallaşdırmısınız.

Əsası ümummilli liderimiz tərəfindən qoyulmuş və ənənəyə çevrilmiş mediaya dövlət dəstəyi siyasəti Sizin rəhbərliyiniz dövründə özünün ən yüksək zirvəsinə çatıb. Siz 2008-ci ildə «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası»nı təsdiq edərək, qarşıdakı dövr üçün Azərbaycan mediasının inkişaf istiqamətlərini müəyyənləşdirdiniz. 2009-cu ildə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunu yaratmaqla, mediaya dövlət dəstəyini sistem halına saldınız, onu şəffaflaşdırdınız. 2005-ci ildən başlayaraq, Milli Mətbuat Günü hər il dövlət səviyyəsində qeyd olunur, redaksiyalara yardımlar ayrılır, yüzlərlə jurnalist dövlət mükafatları ilə təltif edilir, onlara fəxri adlar verilir. Qəzet kağızının qiymətlərinin artdığı zamanlarda Siz redaksiyalara çox vacib olan əlavə yardım haqqında qərar qəbul etdiniz. Sizin bu yardımınız olmasaydı, kütləvi informasiya vasitələri arasında öz dəst-xətti olan və təmsil etdiyi xalqın, millətin, dövlətin yazılı salnaməsini yaradaraq, gələcək nəsillərə çatdıran qəzetlər yəqin ki, bağlanmışdı. Çox şükürlər olsun ki, Sizin yardımınız nəticəsində Azərbaycan mətbuatı dövlətin yazılı salnaməsini yaratmaqda davam edir və böyük əminlik var ki, bundan sonra da davam etdirəcəkdir.

Biz həm də tövsiyənizlə qəzetlərin müxtəlif dillərdə onlayn resurslarını yaradırıq və cəmiyyətin operativ məlumatlandırılması, Azərbaycan həqiqətlərinin daha tez və dolğun şəkildə dünya ictimaiyyətinə çatdırılması işinə öz töhfəmizi verməyə çalışırıq.

Cənab Prezident, bir vacib məsələyə də Sizin ali diqqətinizi çəkməyi özümə borc bilirəm. İyulun 4-də Ermənistan hərbi birləşmələrinin Füzuli rayonunun Alxanlı kəndini iriçaplı silahlardan atəşə tutması nəticəsində biri azyaşlı uşaq, biri yaşlı qadın olmaqla, 2 nəfər qətlə yetirildi, bir nəfər yaralandı, insanların mülkünə xeyli ziyan dəydi. Bu hadisə dünya miqyasında böyük əks-səda doğurdu və işğalçı dövlətin, ona

rəhbərlik edənlərin əsl cani, faşist simasını beynəlxalq aləmə nümayiş etdirdi. Bizim apardığımız araşdırma onu deməyə əsas verir ki, beynəlxalq ictimaiyyətin belə güclü reaksiya verməsində Azərbaycan mediası da ciddi rol oynayıb. Çünki dünyanın Associated Press, Reuters, Le Monde, Euronews, BBC, Əl-Cəzirə, TRT, Anadolu Agentliyi və digər bu kimi nüfuzlu kütləvi informasiya vasitələri hadisə barədə ilk informasiyanı operativ və ardıcıl məlumatlar yayan Azərbaycan mediasından alıb, onu inkişaf etdirib yüz milyonlarla insanın diqqətinə çatdırıbdır. Əminəm ki, Siz «Azərbaycan mediası vətənpərvər olmalıdır, haqq səsimizi dünyaya çatdırmağı bacarmalıdır» – deyəndə məhz belə fəaliyyəti nəzərdə tuturdunuz. Təbii ki, biz əlimizdən gələni edirik, amma şəxsən Sizin dəstəyiniz, diqqətiniz olmasaydı, bu işləri görmək mümkün olmazdı. Bütün bunlara görədir ki, Azərbaycan jurnalistləri, media ictimaiyyəti Sizi həmişə özünə yaxın dost hesab edib və bundan sonra da edəcəkdir. Əslində bir media nümayəndəsi kimi, əminliklə deyə bilərəm ki, Sizin səyləriniz nəticəsində bu gün güclənən, inkişaf edən və yeni uğurlar qazanan təkcə jurnalistika deyil, bütövlükdə dövlətimiz və cəmiyyətimizdir. Son illər Azərbaycan öz inkişaf göstəriciləri, beynəlxalq aləmdə nüfuzu ilə dillər əzbərinə çevrilib, ölkəmizə gələn turistlərin sayı artıb. Düşünürəm ki, Azərbaycana gələn xarici qonaqları təkcə gözəl təbiətimiz, qonaqpərvərliyimiz cəlb etmir. Onlar həm də keçən əsrin 90-cı illərinin əvvəllərində dağılmaq, dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmiş bir ölkənin 25 ildə yaratdığı möcüzəni öz gözləri ilə görmək istəyirlər. Heydər Əliyev Mərkəzi, «Alov qüllələri» kompleksi, Bakının, regionlarımızın yeni, müasir simasıdır onları cəlb edən. Siz həm də bu möcüzənin müəllifisiniz, cənab Prezident!

Siz «Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır» devizinizi əməli fəaliyyətinizlə təsdiq etmisiniz. Bütün cəmiyyətimiz, o cümlədən də biz jurnalistlər bu siyasətin təntənəsindən bəhrələnirik. Hesab edirik

ki, bu işlərdə Sizin ən yaxın köməkçiniz ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevadır. Bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada mərhəmət, humanizm, qayğıkeşlik kimi dəyərlərin ünvanına çevrilən Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın fəaliyyəti dövlətimizin həyata keçirdiyi sosial siyasətə xüsusi dinamizm gətirib və cəmiyyətimizdə sosial rifahın daha da yüksəlməsinə böyük töhfələr verir. Siz hər zaman, hər yerdə, hətta ən mürəkkəb vəziyyətlərdə də Azərbaycanın maraqlarını, dövlətimizin mənafelərini müdafiə edirsiniz. Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsi, nüfuzunun yüksəlməsi, ümummilli problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində yaranmış yeni vəziyyət də Sizin prinsipial, milli maraqlara hesablanmış siyasətinizin nəticəsidir. 2016-cı ilin tarixi aprel qələbəsi hər bir vətəndaşımızda, bütün dünya azərbaycanlılarında ruh yüksəkliyi yaratdı. İndi biz özümüzü güclü, öz sözünü deyən, mövqeyini müdafiə etməyi bacaran bir ölkənin vətəndaşları hesab edirik. Bu isə gələcəyimizlə bağlı daha nikbin olmaq üçün ciddi əsaslar yaradır. Biz inanırıq ki, bu gün Ali Baş Komandanı İlham Əliyev olan ordumuzun gücündən, düşmənə vurduğu zərbələrdən yazan mətbuatımız yaxın gələcəkdə daha böyük qələbələrdən yazacaq, işğal olunmuş torpaqlarımızdan reportajlar hazırlayacaq, düşmənin düşdüyü rəzil durumu vətəndaşlarımıza və bütün dünyaya çatdıracaqdır. Bütün Azərbaycan jurnalistləri bu xəbəri vermək arzusu ilə yaşayırlar. Cənab Prezident, biz harada oluruqsa olaq, hansı addımı atırıqsa ataq, məhz həmin günü düşünürük! Heç bir şübhəmiz yoxdur ki, Sizin rəhbərliyiniz, ordumuzun gücü ilə çox yaxın vaxtlarda bu arzumuz da reallaşacaqdır.

Bu müqəddəs işdə Tanrı yardımçınız olsun, cənab Prezident!

**Mehriban Məmmədova** *(«Azərbaycan Televiziya və Radio Verilişləri» QSC-nin informasiya proqramları studiyasının direktoru*): Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Bu gün burada jurnalistlərin peşə bayramı ərəfəsində, günləri kamera qarşısında, qəzet, kitab-dəftərlə keçən jurnalistlərin yaşayacağı bu möhtəşəm binanın açılışında Sizin qarşınızda çıxış etmək, nə gizlədim, çox həyəcanverici, o dərəcədə də qürurvericidir.

Cənab Prezident, Sizin bir dövlət başçısı kimi, ölkəmizin hər bir vətəndaşına göstərdiyiniz böyük diqqət və qayğı hamımıza yaxşı məlumdur. Lakin mən öz şəxsi həyatımın timsalında konkret bir nümunə göstərmək istərdim. Səkkiz yaşım olarkən ailəmlə birlikdə doğulduğum, uşaqlığımı keçirdiyim Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən məcburi köçkün düşmüşəm. Yaşım az olsa da, o ağrılı, faciəli günlərin şahidi olmuşam. 24 il əvvəl erməni vandallarının viranə qoyduğu həmin kənd Sizin böyük əzminiz, siyasi iradəniz sayəsində bu gün yeni həyatına qovuşdu. Bu gün az qala modern bir şəhəri xatırladan Cocuq Mərcanlı Qarabağa «böyük qayıdış»ın simvoluna çevrilib. Vaxtilə Cocuq Mərcanlıdan qaçqın düşən o körpə qız indi dövlətin bütün qayğısı ilə əhatə olunub və ev alır.

Bu gün mən kəndimizə qayıdışdan sonra həyatımın ən böyük növbəti sevincini yaşayıram. 255 həmkarımla birlikdə bu yaraşıqlı binada – Jurnalistlər evində mən də mənzil alıram. Jurnalistlər evi! Jurnalistlər şəhərciyi! Elə bir ev və şəhərcik ki, pəncərədən baxanda dünyanın ən hündür bayraq dirəyindən asılmış müqəddəs bayrağımızın dalğalandığını görəcəyik. Elə bir ev ki, pəncərələri dünyanın ən böyük gölünə – Xəzərə açılır. Bu böyüklüklər yalnız fiziki, coğrafi anlamda qalmayıb, mahiyyətcə böyüklük, dərinlik daşıyır. O böyük bayraq dirəyini Siz ucaltmısınız, o əzəmətli bayrağı ora Siz qaldırmısınız. Xəzəri əməkdaşlıq hövzəsinə Siz çevirmişiniz, cənab Prezident!

Bütün bunlar, ümummilli liderimizin müəyyənləşdirdiyi, Sizin isə yüksək səviyyədə davam və inkişaf etdirdiyiniz parlaq milli dövlətçilik siyasətinin təntənəsidir. Bu gün Siz yalnız

jurnalistlər üçün ev tikdirmirsiniz, Siz ümumən qurucu, yaradıcı lidersiniz.

Prezident kimi, ölkəmizi, Ali Baş Komandan kimi, Silahlı Qüvvələrimizi, dünya azərbaycanlılarının lideri kimi, dünyanın hər yerindəki soydaşlarımızı, bir sözlə, Azərbaycan adına, vətəndaşlıq ruhuna aid olan bütün mənəvi ünvanları alovlu vətənpərvərliklə sevməyin örnəyini yaradırsınız. Sizin əlinizdən yaşayacağımız mənzilin açarını almaq nə qədər bəxtiyarlıqdır.

Heç kəsə sirr deyil ki, Jurnalistlər evində, Jurnalistlər şəhərciyində yaşayacaq, içi mən qarışıq, çoxumuz paytaxtımızın önəmli gələcəyi olan bu məkanda təmirli ev almaq üçün ancaq xəyallar qura bilərdik. Siz xəyalları gerçək edən dövlət başçısı oldunuz. Şübhəsiz ki, burada yaşamağın mənəvi dəyəri maddi dəyərindən qat-qat yüksəkdir.

Bu evdə yeni qonşuluqlar, yeni qohumluqlar yaranacaq, qızlar köçürüləcək, gəlinlər gətiriləcək, övladlar dünyaya gələcək... və bu ünvanda yaşanacaq bütün gözəlliklərin savabı məhz Sizin adınıza yazılacaq, cənab Prezident!

Təməlini qoyduğunuz və getdikcə genişlənən Jurnalistlər şəhərciyində Azərbaycanın bəlkə gələcək qurucuları da dünyaya gələcək, böyüyəcək, bağçaya və məktəbə gedəcək, sağlam tərbiyə alacaq, öz xalqına və dövlətinə xidmət göstərəcəklər. Onlar da bu günü məmnuniyyətlə xatırlayacaqlar və «mən prezident İlham Əliyevin jurnalist valideynlərimə bağışladığı evdə doğulmuşam» – söyləyəcəklər. Bu işlərlə Siz adınızı müstəqil Azərbaycanın tarixinə «qızıl hərflər»lə yazdırdınız, cənab Prezident!

Bu şəhərcik sakinlərinin təbii əsaslarla formalaşdıracağı yaradıcı mühitin məhsulu olacaq yeni-yeni əsərlər, kitablar jurnalistikamızı, söz sənətimizi, bir sözlə, mədəniyyətimizi zənginləşdirəcəkdir.

Siz, cənab Prezident, bu gün yalnız mətbuatımıza, jurnalistlərimizə dəstək vermirsiniz, həm də «keçmişə ehtiram, bu günə dəyər, gələcəyə inam» düsturu ilə milli jurnalistikamızın

yeni zirvələri fəth etməsi üçün öz yüksək ziyalılığınız, kübar nümunənizlə mənəvi standartlar yaradırsınız.

2001-ci ildə ulu öndər Heydər Əliyevin jurnalistlərlə bir görüşünü xatırlayıram. O səmimi görüşü efirdən izləmişdim. Ulu öndər həmin görüşdə Azərbaycan Prezidenti kimi, mətbuat azadlığının təminatçısı olduğunu xüsusi vurğuladı. Bu gün Siz həmin missiyanı şərəflə davam etdirirsiniz. 2005-ci ildə «Əməkdar jurnalist» adını bərpa etdiniz, həmin dövrdən sonra yüzlərlə jurnalistə fəxri adlar və dövlət mükafatları verdiniz. Bu gün «Jurnalistlərin dostu» seçilməyiniz qətiyyən təsadüfi deyil. 2010-cu ildə həmin mükafatın təqdimat mərasimində jurnalistlərin dostu olmağın böyük şərəf olduğunu və məsuliyyət yaratdığını bildirdiniz. Biz də çox xoşbəxtik ki, Sizin kimi xeyirxah bir dostumuz, dünyada böyük nüfuz və söz sahibi olan Prezidentimiz vardır.

Sizinlə hər bir görüş bizdə ruh yüksəkliyi, işləmək əzmi yaradır. Ölkəmizin son illər əldə etdiyi mühüm nailiyyətlər də bizim jurnalist kimi, öz missiyamızı həvəslə, şövqlə yerinə yetirməyimizdə böyük rol oynayır. Çünki indi Azərbaycan dünyada böyük nüfuza malik olan ölkələrdəndir. Məmləkətimiz artıq beynəlxalq tədbirlərin, forumların, yarışların keçirildiyi məkandır. Biz mühüm beynəlxalq tədbirləri işıqlandırarkən ölkəmizə gələn əcnəbilərin əksəriyyəti ilə ünsiyyətdə oluruq, müsahibələr götürürük. Sevindiricidir ki, əcnəbi qonaqlar Azərbaycanın sürətli inkişafına, iqtisadi uğurlarına, xüsusən paytaxtımızın təmizliyinə, gözəlliyinə, təhlükəsizliyinə, xalqımızın qonaqpərvərliyinə, qədim və müasir memarlığın özünəməxsus harmoniyasına heyranlıqlarını gizlədə bilmirlər. Bütün bu böyük uğurlara müasir Azərbaycanın qurucusu Heydər Əliyevin layiqli davamçısı kimi, Sizin misilsiz fəaliyyətiniz, məqsədyönlü daxili və xarici siyasətiniz sayəsində nail olunubdur.

Onu da qeyd etmək yerinə düşər ki, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım

Əliyeva da Sizinlə birlikdə xalqımızın rifahı naminə yorulmadan çalışır, qədim və zəngin mədəniyyətimizin dünyada təbliği işinə böyük töhfələr verir. Mehriban xanım Əliyevanın qaçqın və məcburi köçkünlərin, aztəminatlı ailələrin həyat şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi mühüm tədbirlər, icrasına başlanılan sosial layihələr cəmiyyətimizin hər bir üzvü tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanır. Biz jurnalistlər isə Azərbaycan naminə, xalqımızın xoşbəxt gələcəyi naminə həyata keçirilən layihələri, tədbirləri işıqlandırmaqdan hədsiz zövq alırıq.

Bir daha Sizə, zati-aliləri, ev verdiyiniz Azərbaycan Televiziyasının 20, bütövlükdə ev alan 90-a yaxın teleradio işçisi və veteranı adından könül dolusu minnətdarlığımı bildirir, şərəfli işinizdə böyük uğurlar diləyirəm. Allah Sizi və xalqımızı qorusun!

**Əflatun Amaşov** *(Mətbuat Şurasının sədri)*: Möhtərəm cənab Prezident! Əziz dostlar, dəyərli həmkarlar!

Bugünkü hadisənin əhəmiyyəti barədə dolğun fikir yürütmək üçün çox düşündüm. İlk baxışdan asan olmayacağını bilirdim. Ancaq indi burada 255 jurnalistin, o cümlədən 20 jurnalist ailəsinin gözlərindəki hədsiz minnətdarlığı, ruh yüksəkliyini müşahidə edərkən anlayıram ki, cənab Prezident, Sizin jurnalistlərimizə bəxş etdiyiniz bugünkü sevinci heç bir sözlə ifadə etmək mümkün deyil.

Bəli, peşəsindən asılı olmayaraq, hər bir insanın, o cümlədən hər bir jurnalistin mənzil sahibi olması, öz doğma ocağının istisinə sığınması, rahat məkanda yaşayıb-yaratması çox vacibdir. Düşünürəm ki, Bakının bu gözəl guşəsində, belə möhtəşəm binada dövlət başçımızın misilsiz hədiyyəsinə layiq görülmüş qələm sahibi fəaliyyətinə verilmiş bu yüksək qiyməti həyatı boyu unutmayacaqdır.

Cənab Prezident, Azərbaycan jurnalistlərinə belə böyük, heyrətamiz sevinc hissini yaşatdığınıza görə Sizə dərin minnətdarlığımızı bildirir və mediamıza verdiyiniz yüksək dəyərdən son

dərəcə məmnun olduğumuzu tam səmimi şəkildə ifadə edirik. Biz bilirik ki, beynəlxalq aləmin diqqətini cəlb edən bir çox məsələlərdə olduğu kimi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması istiqamətində atdığınız addımlar da dünyada ilk təcrübədir.

Möhtərəm cənab Prezident, Siz jurnalistlərlə dostluğa sadiqliyinizi dəfələrlə sübut etmisiniz. Bu bizim üçün olduqca vacibdir. Ancaq bizim Sizinlə dostluğumuzu şərtləndirən amil təkcə milli jurnalistikamızın inkişafına göstərdiyiniz diqqət və qayğı ilə bağlı deyil. Məlumdur ki, həqiqi jurnalist cəmiyyətin nəbzini tutur, ölkədə və dünyada baş verən hadisələri insanlara çatdırır, onu öz təfəkkürünə və dünyagörüşünə uyğun şəkildə süzgəcdən keçirir, təhlillər aparır. Bəs 25 illik müstəqillik tarixinə malik dövlətimizin keçdiyi inkişaf yolunu qiymətləndirən jurnalist hansı gerçəklikləri görür?

Mən həm sovet dövrünü, həm müstəqilliyimizin ilk illərini, həm ümummilli lider Heydər Əliyevin, həm də Sizin Azərbaycana rəhbərlik etdiyiniz mərhələləri yaşamış bir qələm sahibi kimi, haradan başlayıb hara gəldiyimizi aydın görürəm və həqiqətən, bu günümüzün reallığı ilə qürur duyuram. Azərbaycan dövləti bütün məsələlərə sistemli yanaşır, hər bir konkret sahə ilə bağlı müvafiq dövlət proqramları qəbul olunur və icra edilir. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu 1995-ci il Konstitusiyasında demokratik azadlıqların təsbit olunması və daha sonra 1998-ci ildə senzuranın ləğvi bu yanaşmanın əsasını təşkil edir. Siz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi media siyasətini yeni dəyərlərlə zənginləşdirdiniz. Bu gün «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası» kimi fundamental sənədimiz var, mediaya dövlət dəstəyini həyata keçirən Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu uğurla fəaliyyət göstərir. Bu dəstəyin, diqqət və qayğının nəticəsidir ki, jurnalistikamız nüfuzlu və aparıcı peşəyə çevrilib, bu sahəyə güclü axın var. Ən

əsası, Sizin müəyyən etdiyiniz istiqamətlərə uyğun olaraq, Azərbaycan mediası qarşısında duran ən mühüm vəzifənin həyata keçirilməsi – Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması sahəsində ciddi uğurlar əldə etməyə başlayıb. Ancaq etiraf etməliyəm ki, jurnalistikamızın uğurları Sizin rəhbərliyinizlə ölkəmizin əldə etdiyi nailiyyətlərdən təəssüf ki, xeyli geri qalır. Bu gün Azərbaycanın adı dünyada tanınır və hörmətlə çəkilir. Paytaxtımız Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, mötəbər beynəlxalq tədbirlərin, idman yarışlarının keçirildiyi məkana çevrilib. Magistral, şəhərlərarası, kəndlərarası yollar ən müasir standartlara uyğun yenidən qurulub. Baxın, regionlarımıza nə qədər turist axını var. Çünki Azərbaycanın bölgələri öz müasirliyi, gözəlliyi, zəngin infrastrukturu ilə diqqəti cəlb edir. Qlobal iqtisadi böhran illərində belə, Azərbaycanda əhalinin sosial tələbatı ən yüksək səviyyədə təmin olundu. İqtisadiyyat dirçəlib, kənd təsərrüfatının inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirlər yüz minlərlə insanın işlə təmin olunmasına, məhsul bolluğunun yaranmasına və ölkənin ixrac potensialının yüksəlməsinə şərait yaradıb. XXI əsrin layihəsi olan «Cənub Qaz Dəhlizi» Azərbaycanın enerji strategiyasına yeni nəfəs verib. Azərbaycan Şərq–Qərb və Şimal–Cənub qlobal nəqliyyat dəhlizlərinin yaradılmasında ən fəal ölkələrdən biridir və faktiki olaraq, bu layihələrin təkanverici qüvvəsidir.

Bu gün Azərbaycan güclü, istənilən vəzifəni icra etməyə qadir olan orduya malikdir. 2016-cı ilin aprel hadisələri – bu tarixi və şanlı qələbəmiz, ən əsası isə Sizin, cənab Prezident, qətiyyətli, cəsarətli addımlarınız, prinsipial mövqeniz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə əminliyi artırıb.

Dünyada multikulturalizm mərkəzi və tolerantlıq məkanı kimi tanınan ölkəmizdə bütün xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir milli və ya dini ayrı-seçkilik yoxdur. Bu gün dünyanı cənginə almış qlobal iqtisadi böhrana qarşı

Azərbaycanın güclü immuniteti formalaşıb, planetin ayrı-ayrı bölgələrində qarşıdurma, müharibə, müxtəlif kataklizmlər fonunda ölkəmizdə təhlükəsizlik, sabitlik ən yüksək səviyyədə təmin olunub. Azərbaycan jurnalistləri bütün bunları Sizin düzgün, ölçülüb-biçilmiş idarəçiliyinizin nəticəsi kimi qiymətləndirirlər. BMT Təhlükəsizlik Şurasındakı təmsilçilikdən tutmuş, əldə edilən hər bir uğurun qayəsini gərgin əməyiniz, misilsiz Vətən sevginiz təşkil edir.

Əlbəttə, qısa bir çıxışda Sizin rəhbərliyinizlə əldə etdiyimiz uğurları sayıb qurtarmaq mümkün deyil. Amma bütün bunlar həm Azərbaycan vətəndaşlarının, həm də dünya ictimaiyyətinin gözündə yeni Azərbaycan obrazını canlandırıb. İnkişaf, müasirlik, sosial ədalət, vətəndaşa diqqət və qayğı, güclü ordu, güclü və nüfuzlu dövlət – budur bu günün Azərbaycanı! Hesab edirəm ki, ürəyi cəmiyyətin nəbzi ilə vuran hər bir jurnalist bu reallığı görür, onu yüksək qiymətləndirir. Bütün bunlara görədir ki, cənab Prezident, jurnalistlərimiz Sizi özlərinə dost hesab edir və mən əminliklə deyə bilərəm ki, bu, artıq əbədi dostluqdur.

Möhtərəm cənab Prezident, 2 gün sonra Milli Mətbuatımızın yaranmasının 142-ci ildönümünü qeyd edəcəyik. Bu gördüyümüz möhtəşəm binanı həm də peşə bayramı hədiyyəsi kimi qəbul edirik. Jurnalistlərimiz Sizin sayənizdə zəhmətlərinin müstəsna bəhrəsini görürlər. Vətəndaş üçün dövlətinin, Prezidentinin onu qiymətləndirməsindən gözəl yaşantı və qürur ola bilməz. Jurnalistlərimizə bu hissi yaşatdığınıza görə çox sağ olun, cənab Prezident! Sizə möhkəm cansağlığı, ölkəmizin çiçəklənməsinə yönəlmiş yorulmaz fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Bir daha təkrar etmək istəyirəm ki, Siz jurnalistlərimizin əbədi dostusunuz. 2017-ci ildə «Jurnalistlərin dostu» mükafatının qalibinin müəyyənləşdirilməsi üçün keçirilmiş sorğunun nəticələri də bunu bir daha təsdiq edir.

Cənab Prezident, icazə verin, mükafatın diplomunun mətni ilə Sizi tanış edim.

*Mətbuat Şurasının sədri Əflatun Amaşov diplomun mətnini oxudu və «Jurnalistlərin dostu» mükafatını prezident İlham Əliyevə təqdim etdi.*

**İ l h a m Ə l i y e v:** Bu yüksək ada görə bütün Azərbaycan jurnalistlərinə minnətdarlığımı bildirmək istəyirəm. Mən də tam əminəm ki, bizim dostluğumuz əbədi olacaq. Sizi bir daha qarşıdan gələn peşə bayramınız münasibətilə təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Daha sonra prezident İlham Əliyev binanın istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi və mənzillərdə yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, mənzillərin hamısı müasir tələblər səviyyəsində təmir edilib, sürətli internet, İPTV və fərdi isitmə sistemləri ilə təchiz olunub.*

*Müstəqil Azərbaycanda milli mətbuatın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın tələbi ilə o zaman hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ölkənin üzləşdiyi ağır ictimai-siyasi şəraitdə, iqtisadiyyatın iflic vəziyyətə düşdüyü bir dövrdə söz və mətbuat azadlığının təmin edilməsi, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması məsələlərini daim diqqət mərkəzində saxladı. 2003-cü ildən isə bu proses yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İlham Əliyevin hərtərəfli qayğısı nəticəsində «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası» əsasında mühüm layihələr icra edildi. Bu gün Azərbaycanda bütün azadlıqlar, o cümlədən mətbuat, söz və fikir azadlıqları tam təmin edilib. Azərbaycanda genişzolaqlı internet sərbəst şəkildə fəaliyyət göstərir. Ölkəmizdə KİV nümayəndələrinin rahat və təhlükəsiz fəaliyyət göstərmələri üçün bütün şərait vardır. Son illərdə isə jurnalistlərin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra edilibdir. Belə ki, 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna ilkin olaraq 5 milyon manat vəsait ayrıldı. Ötən müddətdə həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olundu və bütün mənzillər yüksək səviyyədə*

*təmir edildi. Bu binanın tikintisinə və ətraf ərazidə abadlıq işlərinin aparılmasına 22 milyon manatdan artıq vəsait sərf olundu. Bu bir daha sübut edir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həllinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Ən əsası isə odur ki, bu tədbirlər ardıcıl xarakter daşıyır.*

*Sonra prezident İlham Əliyev jurnalistlər üçün inşa ediləcək 3-cü yaşayış binasının təməlini qoydu.*

*Dövlətimizin başçısı binanın texniki-iqtisadi göstəricilərini əks etdirən stendə baxdı.*

*Diqqətə çatdırıldı ki, Azərbaycan Prezidentinin sərəncamına əsasən inşa ediləcək bu binada da 255 mənzil olacaq. Beləliklə, 2010–2017-ci illərdə tikilib istifadəyə verilmiş 2 və hazırda təməli qoyulan 3-cü binada mənzillərin ümumi sayı 666-ya çatacaqdır.*

## PİRALLAHI RAYONUNUN «NƏRƏKƏND» KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Bakının Pirallahı rayonunda balıq yetişdirmə fermasi, park, iaşə, əyləncə və istirahət mərkəzini əhatə edən «Nərəkənd» kompleksində yaradılan şəraitlə tanış olmuşdur.*

*Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov prezident İlham Əliyevə rayonda görülən işlər və kompleksdə yaradılan şərait barədə ətraflı məlumat verdi.*

*Qeyd edildi ki, «Nərəkənd» kompleksində inşa olunacaq qapalı və açıq tipli fermalarda yetişdirilən, habelə qanunvericiliyin tələblərinə zidd olmayan qaydada balıqçılar tərəfindən dənizdə tutulan balığın və balıq məhsullarının burada satışının təşkil olunması məqsədilə ərazidə balıqçı qayıqları üçün yanalma pontonları və zəruri normativlərə cavab verən ticarət məntəqəsi – balıq bazarı yaradılıb. Bu məntəqə 4 pavilyondan ibarətdir. Pavilyonlarda balığın satışı və saxlanması üçün lazımi şərait yaradılıb və müvafiq avadanlıq qurulub. Bundan başqa, kompleksdə «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin «Dənizçi» İdman Klubunun yaradılması və yelkənli qayıqlarla üzmənin təşkil olunması nəzərdə tutulubdur.*

*Bildirildi ki, kompleksin ətrafındakı ərazi yaşıllaşdırılıb, sahil zonası abadlaşdırılıbdır. Burada park salınıb, əhalinin istirahəti üçün yüksək şərait yaradılıbdır. Parkda oyun və idman meydançaları, uşaq guşəsi, sinema-kafe və digər istirahət obyektləri mövcuddur.*

*İndi Pirallahı rayonunun simasının mühüm elementinə çevrilən bu parkda yaradılan şərait bir daha təsdiqləyir ki, əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkil olunması, onların sosial tələbatının nəzərə alınması hər zaman diqqət mərkəzindədir və bununla bağlı ardıcıl tədbirlər görülür.*

## PİRALLAHI RAYONUNUN İÇMƏLİ SU TƏCHİZATI LAYİHƏSİNİN AÇILIŞI MƏRASİMİ

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Bakının Pirallahı rayonunun içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**S a k i n l ə r:** Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, sizi görməyimə şadam. Bu gün Pirallahı rayonunun həyatında çox əlamətdar bir gündür, içməli su layihəsi istifadəyə verilir. İndi həm Pirallahı qəsəbəsinə, həm Gürgan qəsəbəsinə təmiz içməli su veriləcəkdir. Bu çox böyük hadisədir. Siz yaxşı bilirsiniz ki, həmişə burada su problemi insanları çox narahat edib, incidib. İndi isə vətəndaşlara sutka ərzində 24 saat təmiz, bütün ekoloji standartlara uyğun, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su veriləcəkdir.

Bu çox böyük layihədir, böyük vəsait tələb edən və sırf sosial xarakter daşıyan layihədir. Vətəndaşlara təmiz içməli suyun verilməsi çox önəmlidir, çünki su insan həyatında əsas amillərdən biridir. Su sağlamlıqdır, təmizlikdir və təmiz içməli su hər bir insanın həyatında xüsusi yer tutur.

Son illərdə həm Bakıda, həm də, demək olar ki, bütün bölgələrdə içməli su layihələri uğurla icra edilir. Bakı şəhərinin içməli su ilə təminatı yaxşılaşır. Hələ gələcəkdə görüləcək çoxlu işlər var. Buraya çəkilən 80 kilometr uzunluğunda su

xətti, əlbəttə ki, böyük vəsait tələb edən layihədir. Çünki Ceyranbatandan Pirallahıya, Gürgana, eyni zamanda, Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinə su xətti çəkilib. Bir neçə il bundan əvvəl Ceyranbatan su anbarında böyük təmizləyici qurğular kompleksi istifadəyə verilmişdir. Bu da dünya miqyasında ən böyük təmizləyici qurğudur. Pirallahıya da içməli suyun gətirilməsi doğrudan da böyük layihədir – həm texniki, həm maliyyə cəhətdən böyük zəhmət və vəsait tələb edən layihədir. Ancaq bu layihə artıq reallaşıb. Biz bunu etmişik və burada yaşayan vətəndaşlar üçün bu çox gözəl hədiyyədir.

Bununla bərabər, biz Pirallahı rayonunun inkişafı ilə bağlı bütün digər məsələlərə kompleks şəkildə yanaşdıq. Burada bütün infrastruktur məsələləri həll olunur. Gözəl körpü tikilib. Həmin körpünün tikilməsi də bu bölgənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına hesablanıb. İndi Xəzər dənizinin təbii axını təmin olunub. Əvvəllər burada, dənizdə müəyyən durğunluq var idi. İndi isə bu körpünün altından dəniz suları axır və gələcəkdə gəmilərlə, yaxtalarla Bakıdan buraya gəlmək mümkün olacaqdır. Körpü də nəhəng bir infrastruktur layihəsidir, uzunluğu 700 metrdən çoxdur. Aeroport yolundan Pirallahıya dördzolaqlı geniş, gözəl yol salınıb. Bu da ən yüksək standartlara cavab verir. İndi bu yolla gəldim, adamın gözünü oxşayır. Əvvəlki yol nə vəziyyətdə idi, siz hamıdan yaxşı bilirsiniz.

Ona görə bu əsas infrastruktur layihələrinin icrası, əlbəttə ki, yeni imkanlar yaradır. Qazlaşdırma tam təmin olunub, elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün biz yeni Günəş Elektrik Stansiyasının açılışını qeyd edəcəyik. Sosial infrastruktur yaradılır, 85 yerlik xəstəxana, bir neçə məktəb, istilik təchizatı, 70-dən çox yaşayış binası təmir olunub, parklar salınır, yeni müəssisələr yaradılır.

Azərbaycanda əvvəllər də, elə bu gün də dərman istehsalı fabrikləri, demək olar ki, yoxdur. Biz birinci fabrikləri buraya saldıq. İki fabrikin tikintisi gedir. Oraya qoyulacaq sərmayənin

həcmi təqribən 100 milyon dollara bərabərdir. Burada iş yerləri, yeni istehsal sahələri yaradılacaq. İndi balıqyetişdirmə müəssisəsinin təməli qoyulacaq, balıq bazarı tikilib. Baxın, bu günə qədər Bakı şəhərində balıq bazarı olmayıb. Bu, böyük çatışmazlıqdır. Çünki dəniz kənarında yerləşən şəhərlərin əksəriyyətində balıq bazarları var. Bu balıq bazarları həm vətəndaşlara xidmət edir, eyni zamanda, bir növ, turizm zonasına çevrilir. İndi burada gözəl kiçik bir bulvar salınıb, balıq bazarı var, balıqyetişdirmə müəssisəsi yaradılır. Turizmin inkişafı bundan sonra sürətlə gedəcək. Gürgan qəsəbəsində böyük turizm layihəsi vardır. İndi Pirallahı da gözəl bir cənnət yerə çevrilibdir. Burada həm Pirallahı, həm bütün Bakı sakinləri, həm də Azərbaycan vətəndaşları və qonaqlar üçün çox gözəl şərait yaradılıbdır.

Bütün bu gözəl hadisələr münasibətilə sizi təbrik edirəm. Pirallahı gənc rayondur, 5 ildir ki, yaradılıb. Yaranan gündən burada quruculuq-abadlıq işləri aparılıb. Sizi bir daha təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

**Ülkər Şirinova** *(rayon sakini):* Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz! Böyük qürur hissi ilə demək istəyirəm ki, şəxsən Sizin təşəbbüsünüzlə yaradılmış Pirallahı rayonu bu gün doğma Bakımızın hər gün çiçəklənən rayonlarından birinə çevrilməkdədir. Qeyd etmək istəyirəm ki, 150 ildən artıq yaşayış olan adada içməli suyun yoxluğu, Zirədən gələn, son zamanlar tamamilə şoranlaşmış texniki suyun gün ərzində cəmi 1 saat verilməsi, içməli suyun isə maşınlardan alınması biz rayon sakinləri üçün çox ciddi problem idi. Şükürlər olsun ki, Sizin diqqət və qayğınız sayəsində rayonumuza içməli su xəttinin çəkilişi tam başa çatıb. Artıq hər bir Pirallahı sakininin mənzilinə sutkada 24 saat yüksəkkeyfiyyətli su veriləcəkdir. Bununla Siz bizim rayonumuza yeni həyat bəxş etdiniz. Möhtərəm Prezident, rayonumuzun hər bir sakini istərdi ki, hazırda mənim yerimdə dayanıb buna görə Sizə dərin təşəkkürünü bildirsin. Bu gün bu şərəf mənə nəsib

olub, ona görə də mən bütün rayon sakinləri adından Sizə dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, ötən əsrin 80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin Pirallahıya səfərindən sonra burada yeni məktəb, uşaq bağçası, musiqi məktəbi açılmış, neft sektorunun inkişafına yeni nəfəs verilmişdir. Lakin sonrakı dövrlərdə diqqətdən kənarda qalan Pirallahıda azacıq külək əsən kimi, işıqlarımız sönür, qazımız kəsilir, yağış yağanda küçələrimiz keçilməz olur, ada ilə şəhər arasında əlaqə tamamilə kəsilirdi. Sizin rayonumuza göstərdiyiniz diqqət və qayğı sayəsində isə Pirallahı başdan-başa yenidən qurulmağa başlandı. Magistral və qəsəbədaxili yollar yeniləndi, müasir dayanacaqlar, işıqlandırma sistemləri quruldu, işıq, qaz, elektrik sistemləri təchizatı tamamilə yeniləndi, ən başlıcası isə müasir tipli yeni körpü tikildi.

Möhtərəm Prezident, IDEA İctimai Birliyinin yaxından dəstəyi ilə rayonumuzda geniş yaşıllıq zolaqları salınıb, on minlərlə ağac və gül kolu əkilibdir.

Cənab Prezident, 35 ildən artıqdır ki, rayonumuza çörək Bakının digər rayonlarından gətirilirdi. Yenə də Sizin dəstəyiniz sayəsində artıq bir neçə gündür ki, qəsəbəmizdə Çörək zavodu işə düşübdür və biz yüksəkkeyfiyyətli müxtəlif çeşidli məhsulla təmin olunuruq. Bilirik ki, bu işlər də məhz Sizin qayğınız sayəsində öz həllini tapıbdır.

Fürsətdən istifadə edib, Mehriban xanıma da dərin minnətdarlığımı bildirirəm. Məhz Mehriban xanımın sayəsində rayonumuzun xəstəxanası, şəxsən mənim çalışdığım orta məktəb, eləcə də Mədəniyyət Mərkəzi əsaslı təmir olunub, uşaq bağçaları tikilibdir. Buna görə də bütün rayon sakinləri adından hamımızın sevimlisi Mehriban xanıma bir daha təşəkkürlərimi çatdırıram.

Cənab Prezident, Sizin çıxışlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, Pirallahı sənaye zonasına çevrilməklə yanaşı, turizmin inkişafı üçün də nadir coğrafi zonada yerləşir. İnanırıq ki, Siz

bu sahəni də diqqətinizdə saxlayacaqsınız və yaxın zamanlarda Pirallahı doğma Bakımızın turizm mərkəzlərindən birinə çevriləcəkdir.

Hörmətli Prezident, Siz bizim rayonumuz üçün hər şey etmisiniz. Bu, göz qabağındadır. Sizin sayənizdə abad yolumuz, müasir körpümüz, təmirli binalarımız, geniş parklarımız, dadlı çörəyimiz və xüsusilə qeyd etmək istəyirəm ki, içməli suyumuz vardır. Buna görə də biz Pirallahı sakini olmaqdan qürur hissi duyur, Sizə dərin hörmət və ehtiramımızı çatdırırıq. Tanrı Sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun.

* * *

*Sonra Azərbaycan Prezidenti «Pirallahı qəsəbəsinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.*

*Bildirildi ki, qəsəbənin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin və 84 kilometr uzunluğunda Ceyranbatan–Zirə magistral su kəmərinin istismara verilməsi Pirallahı qəsəbəsinin sakinlərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etməyə imkan yaradıb. Pirallahı rayonunun Pirallahı, Gürgan və Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinin dayanıqlı su təchizatı üçün 10 min kubmetr tutumu olan Zirə su anbarı tikilib. Pirallahı qəsəbəsini Abşeron yarımadası ilə birləşdirən yeni yolötürücüsünün tikintisi ilə əlaqədar Zirə–Pirallahı magistral su xəttinin körpü ərazisinə düşən hissəsi yenidən qurulub. Gəmilərin maneəsiz hərəkəti üçün körpünün alt hissəsində hər bir istiqamət üzrə xüsusi konstruksiyalı keçid quraşdırılıb,*

*yeni su və kanalizasiya xətləri onun üzərindən çəkilib. Layihə çərçivəsində Pirallahı qəsəbəsində 65 kilometr uzunluğunda yeni paylayıcı su şəbəkəsi inşa olunub, eyni zamanda, çoxmənzilli 35 yaşayış binasının daxili su təchizatı sistemləri yenidən qurulub. Zirə–Pirallahı xəttindən Gürgan qəsəbəsinin sakinləri də içməli su ilə təmin ediliblər. Hazırda Pirallahı və Gürgan qəsəbələrinin sakinləri sutkaboyu fasiləsiz, keyfiyyətli içməli su ilə təmin olunurlar. Qeyd edildi ki, Pirallahı qəsəbəsində mərkəzləşmiş su təchizatı sistemi ötən əsrin ortalarında yaradılıb. Bu layihənin icrasına qədər isə Zirə quyu zonasından qəsəbəyə həftədə cəmi 1 gün olmaqla, qrafik əsasında su verilirdi.*

*Prezident İlham Əliyev Pirallahı rayonuna təmiz içməli suyun verilməsini bildirən düyməni basdı.*

*Sonra xatirə şəkli çəkdirildi.*

*Sakinlər Pirallahı adasını sahillə birləşdirən yeni müasir körpünün inşasına görə dövlət başçısına bir daha minnətdarlıq etdilər.*

**V a s i f İ m a n o v** (*Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, buradakı damba üzərindən dəfələrlə maşınlar aşaraq dənizə düşüb. Damba 1946-cı ildə tikilmişdi.

**İ l h a m Ə l i y e v:** Çox təhlükəli idi, həm də ki, Xəzəri iki yerə bölürdü. Dənizdə həm durğunluq, həm də bataqlıq yaranırdı. İndi su tərtəmizdir.

**S a k i n:** Yeni körpü dəniz səviyyəsindən 11 metr yüksəklikdədir.

**İ l h a m Ə l i y e v:** Bəli, ona görə planlaşdırdıq ki, tam təhlükəsiz olsun.

**V a s i f İ m a n o v:** Siz tapşırıq verdiniz ki, körpünün altından gəmilər keçə bilsin. Hər bir şəraitə, görülən işlərə görə Sizə təşəkkür edirik.

## «PİRALLAHI» GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də «Pirallahı» Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidenti stansiyanı işə saldı.*

*Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov dövlətimizin başçısına «Pirallahı» Günəş Elektrik Stansiyası layihəsinin texniki-iqtisadi göstəriciləri haqqında ətraflı məlumat verdi.*

*Bildirildi ki, layihənin məqsədi Pirallahı rayonunda əhalinin və sosial obyektlərin yerli alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji ilə təminatından ibarətdir. Ümumi layihə gücü 12/8 MVt olan layihənin icra müddəti 2014–2020-ci illəri əhatə edir. Birinci mərhələdə 2,8 MVt gücündə «Pirallahı» Günəş Elektrik Stansiyası layihəsinin 1,1 MVt-lıq hissəsi üzrə Pirallahı rayonunun şimal-şərq hissəsində 2 hektar torpaq sahəsində tikinti-quraşdırma işləri başa çatdırılıb. Hazırda stansiya istismar təlimatına uyğun olaraq test rejimində fəaliyyət göstərir və bu il iyunun 1-i tarixinə 1,5 milyon kVt/s elektrik enerjisi istehsal edilib ki, bunun sayəsində 330 min kubmetr təbii qaza qənaət olunubdur.*

*Qeyd olundu ki, burada ümumilikdə 4400 günəş paneli quraşdırılıb. Layihə çərçivəsində «Bir ev–bir elektrik stansiyası» prinsipi əsasında Pirallahıda 235 saylı məktəbdə 25 kVt-lıq günəş elektrik stansiyası quraşdırılıb və Dövlət Agentliyi tərəfindən test rejimində istismar olunur. Növbəti illərdə bu stansiyanın məktəbin balansına verilməsi də nəzərdə tutulub. Bundan əlavə, ərazidə 85 metr hündürlüyündə stasionar və «KamAZ» av-*

*tomobilinin bazasında səyyar inteqrə olunmuş Ölçü-Müşahidə Nəzarət Kompleksi yaradılıb. Bu kompleksə günəş müşahidə stansiyası, mobil külək müşahidə stansiyası, küləyin sürətini və istiqamətini ultrasəs metodu ilə ölçən «Dopler SODAR» daxildir. Kompleks ölkə üzrə istənilən ərazidə stasionar rejimdə hər 20 metr məsafədə və 20–300 metr hündürlükdə bütün geofiziki-meteoroloji parametrləri ölçməyə və təhlil etməyə imkan verir.*

*Prezident İlham Əliyevə «Azgüntex» zavodunda istehsalı nəzərdə tutulan günəş və külək texnologiyaları əsasında hazırlanan qurğu və avadanlıqlar barədə məlumat verildi. Dövlət başçısına, həmçinin Dövlət Agentliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə olaraq günəş texnologiyasına əsaslanan küçə və istirahət parkları üçün «Smart» işıqlandırma sistemləri haqqında məlumat və nümunələr təqdim olundu. Bildirildi ki, bu sistemlər stasionar xarakter daşımaqla, müstəqil rejimdə işləməyə qadirdir.*

*Alternativ və bərpa olunan enerji mənbələrinin geniş tətbiqi enerji təhlükəsizliyinin yüksəldilməsində, təbii qaza qənaət olunmasında, atmosferə atılan zərərli tullantıların azalmasında, ekoloji tarazlığın təmin olunması ilə innovativ inkişafın sürətlənməsində və yeni iş yerlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir.*

## PİRALLAHI RAYONUNDA BALIQYETİŞDİRMƏ FERMALARININ TƏMƏLQOYMA MƏRASİMİ

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı rayonunda «Nərəkənd» layihəsi çərçivəsində yaradılacaq «CMS Properties» MMC-nin balıqyetişdirmə kompleksində qapalı və açıq tipli fermaların təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısına müəssisə barədə məlumat verildi. Bildirildi ki, qapalı tipli fermada ildə 75 ton rus nərəsinin və 25 ton çökə ətinin, habelə 4 ton kürünün istehsalı nəzərdə tutulub. Həmin fermada dənizdən nəql olunan su süzgəcdən keçirilərək duruldulacaq, duzluluğu müvafiq səviyyəyə çatdırılacaq və qapalı sistemdə təkrar istifadə ediləcəkdir. İlkin mərhələdə kompleksin fəaliyyətinin xaricdən alınacaq kürü hesabına, növbəti mərhələlərdə isə bu sistemdə cinsi yetkinliyə çatmış dişi nərə balıqlarından alınacaq kürü hesabına təmin olunması nəzərdə tutulub. Qapalı sistemdə yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdırılacaq. Çökə balığından kürünün çıxarılması müddəti isə təxminən 3 il təşkil edəcək. Qapalı tipli ferma Avropa ölkələrində istehsal edilən ən son texnologiyalarla təchiz olunacaqdır.*

*Açıq tipli fermada isə ildə 50 ton rus nərəsinin yetişdirilməsi nəzərdə tutulub. Balıqyetişdirmə fermalarının 9 aya işə salınması planlaşdırılır.*

*Prezident İlham Əliyev balıqyetişdirmə fermalarının təməlini qoydu.*

## PİRALLAHI RAYONUNUN MƏRKƏZİ HİSSƏSİNDƏ HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏRLƏ TANIŞLIQ

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı qəsəbəsinin mərkəzi hissəsində görülmüş işlər və həyata keçiriləcək layihələrlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə Pirallahı qəsəbəsinin baş planı haqqında ətraflı məlumat verildi.*

*Bildirildi ki, dövlət başçımızın tapşırıqlarına uyğun olaraq yeni yaranan rayonda müxtəlif nazirlik, komitə və baş idarələrin yerli qurumlarının təşkili prosesinə start verilib. Buna görə Pirallahı qəsəbəsinin baş planı hazırlanıb. Plana əsasən Pirallahı qəsəbəsində inzibati mərkəz üçün ayrılan ərazidə rayon icra hakimiyyəti, Heydər Əliyev Mərkəzi və Yeni Azərbaycan Partiyası rayon təşkilatı üçün binaların inşası davam etdirilir. Səməd Vurğun küçəsində Gənclər Əyləncə Mərkəzi üçün ayrılan sahədə yeraltı və yerüstü kommunikasiya xətləri inşaat sahəsindən kənarlaşdırılıb. Rayonda müxtəlif nazirlik və komitələrin aidiyyəti struktur vahidlərinin yerləşdirilməsinə başlanılıb. Rayon Polis Şöbəsinin müasir binası istifadəyə verilib. Baş plana uyğun olaraq, Pirallahı qəsəbəsində sahil xətti boyunca sakinlərin və turistlərin istirahətini təmin etmək məqsədilə yeni dənizkənarı bulvarın və çimərliyin salınması nəzərdə tutulubdur.*

*Məlumat verildi ki, Pirallahı qəsəbəsinin müfəssəl planlaşdırma layihəsinin 2033-cü ilədək həyata keçirilməsi nəzərdə tutulur. Beləliklə, qəsəbədə 35 min sakinin məskunlaşması mümkün olacaqdır. Burada ümummilli lider Heydər Əliyevin həm Neft Daşlarına, həm də Pirallahıya səfərlərini əks etdirən*

*fotostend də vardır. Belə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə – 1979-cu ildə Pirallahı qəsəbəsinə gəlmiş və buradakı bir sıra sənaye müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmuşdu.*

*Qeyd edildi ki, Pirallahı rayonunda ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyi, insanların sağlamlığının təmin edilməsi, yaşıllıqların artırılması, yeni ağacların əkilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Rayonda ekoloji mühiti yaxşılaşdırmaq məqsədilə baxımsız qalmış sahələr təmizlənir, antisanitar vəziyyət aradan qaldırılır.*

*Pirallahı rayonunun coğrafi mövqeyi və iqlim şəraiti turizmin inkişafı üçün olduqca əlverişlidir. Rayon ərazisinin əsasən adalardan ibarət olması buna daha çox zəmin yaradır. Pirallahı adasının sahilboyu ən əlverişli yerləri ayrılmaq şərti ilə həmin ərazilərdə dənizkənarı bulvar, attraksionları olan istirahət parkı, hotel, kafe, kütləvi çimərliklər, idman-konsert kompleksi, yaxt-klub, sörfinq klubu yaradılması üçün əlverişli şərait vardır. Yenidən qurulan Qala–Pirallahı yolu və Pirallahı körpüsü qəsəbə sakinlərinin, həmçinin turistlərin Heydər Əliyev prospekti ilə Bakının mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh, Binə və digər qəsəbələrə rahat çıxışına imkan yaradır. Turizmin inkişaf perspektivlərinin yüksək qiymətləndirildiyi Pirallahı, Gürgan və Çilovda inşa ediləcək istirahət mərkəzləri və komplekslər, hotel və mehmanxanalar, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Əyləncə Mərkəzi ilə yanaşı, yeni tikilmiş körpünün altındakı 120 metrlik keçidin açılması ilə su idmanı növlərinin, o cümlədən yelkənli qayıqsürmə və avarçəkmənin inkişafı, yeni müasir çimərliyin, skuter gəzintilərinin, ada ətrafında gəmi kruizlərinin təşkili üçün əlverişli imkanlar yaranıbdır.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*21 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Soçi Beynəlxalq Aeroportunda Azərbaycan prezidenti İlham Əliyevi Rusiya Federasiyası Krasnodar vilayətinin qubernatoru Veniamin Kondratyev və Soçi şəhərinin meri Anatoli Paxomov qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Soçi*

*22 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

**V l a d i m i r P u t i n**: Hörmətli İlham Heydər oğlu, Sizi Soçidə görməyimə çox şadam! İndicə bizim yeni «Sirius» təhsil mərkəzinin uşaqları ilə görüşdüm. Bu layihənin inkişafından çox şad oldum və Sizə böyük məmnuniyyətlə bu barədə danışacağam. Sizinlə həm bizim ikitərəfli münasibətlərimiz, həm də regionda yaranan vəziyyət barədə danışmaq imkanından məmnunam. Regiondakı vəziyyət sadə deyil. Ümid edirəm ki, bizim bugünkü görüşümüz bütün mürəkkəb problemlərin həlli yollarını tapmağa imkan yaradacaq və əlbəttə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin necə inkişaf etməsindən də danışacağıq. Bizim böyük həcmdə işlərimiz və gələcək üçün çoxlu birgə planlarımız vardır. Sizinlə görüşmək və bütün bu istiqamətlər üzrə danışmaq imkanına şadam.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən də bizim yeni görüşümüzə çox şadam. Biz mütəmadi olaraq görüşürük. Bu görüşlər çox uğurla davam edən ikitərəfli münasibətlərimizin inkişafına yaxşı impuls verir. Biz münasibətlərimizin səviyyəsindən – yüksək səviyyəsindən məmnunuq. Siyasi, ticari-iqtisadi, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Nəqliyyat və energetika sahələrində yaxşı

perspektivlər vardır. Bizim münasibətlərimiz çoxşaxəlidir, həyatımızın praktiki olaraq, bütün sahələrini əhatə edir. Əlbəttə ki, vacib məsələlər – regional, dünya siyasəti, ikitərəfli münasibətlər və bizim regionda təhlükəsizliyin möhkəmləndirilməsi məsələləri üzrə vaxtaşırı məsləhətləşmələrə ehtiyac vardır.

Bir daha Sizi görməyə çox şadam. Əminəm ki, bu görüşümüz də dostluq münasibətlərimizin inkişafına yaxşı impuls verəcəkdir.

* * *

*Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğunu bir daha təsdiqlədilər, ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi aparıldı. Hər iki dövlət başçısı Rusiya–Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri iyulun 22-də başa çatdı.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLA YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2017-ci il*

**LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM ELLEN CONSON-SERLİFƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2017-ci il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PEDRO PABLO KUÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasındakı dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2017-ci il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT
VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeş Krallığının milli bayramı – Taxt-Tac Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Mərakeş arasındakı münasibətlər ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2017-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAM NATH KOVİNDƏ**

Hörmətli cənab Prezident!

Hindistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin davamlı inkişafı və daha da möhkəmləndirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Hindistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2017-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM DORİS LOYTHARDA**

Hörmətli xanım Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–İsveçrə əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2017-ci il*

## BURKİNA-FASO DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AMADOU DİKO İLƏ GÖRÜŞ

*31 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Burkina-Faso dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Amadou Dikonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Amadou Diko etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Amadou Diko Burkina-Faso dövlətinin Azərbaycanda səfiri kimi fəaliyyətə başlamasından sevinc hissi keçirdiyini bildirərək, ölkəsini təmsil etmək üçün gözəl Azərbaycana səfər etməsindən şərəf duyduğunu dedi.*

*Prezident İlham Əliyev Azərbaycanla Burkina-Faso arasında siyasi, iqtisadi, ticari, sərmayə qoyuluşu və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edərək, bu baxımdan ölkələrimizin və xalqlarımızın bir-birini daha yaxından tanımasının vacib olduğunu nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı səfir Amadou Dikonun bu istiqamətdə səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.*

## ABŞ-ın ARİZONA ŞTATININ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ CAVAN MESNARD İLƏ GÖRÜŞ

*31 iyul 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnardı qəbul etmişdir.*

*ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnard artıq bir neçə gündür Azərbaycana gəldiyini, Bakı və regionlarımız ilə tanış olduğunu qeyd edərək dedi:*

– Sizin ecazkar ölkənizdə olmağımdan çox məmnunam. Azərbaycan çox gözəl ölkədir. Mən ilk dəfədir ki, buradayam. İnsanlar hər yerdə dostluq və qonaqpərvərlik nümayiş etdirirlər. Mən ABŞ-a geri döndükdə bu təəssüratlarımı hamı ilə bölüşəcəyəm. *Cavan Mesnard Arizona ştatının qanunvericilərinin əksəriyyətinin Azərbaycan haqqında çox eşitdiyini bildirdi.*

*Prezident İlham Əliyev qonağın Bakıda və regionlarda olmasının ölkəmiz haqqında daha geniş informasiya əldə edilməsi işinə kömək edəcəyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ABŞ-dan Azərbaycana daha çox səfərlərin həyata keçirilməsi insanlar arasında təmasların genişləndirilməsi və xalqlarımızın bir-birini daha yaxından tanıması baxımından önəmlidir və bu həm də ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəkdir. Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin və eləcə də ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları ilə əməkdaşlığının çox yaxşı səviyyədə olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı eyni zamanda,*

*ABŞ-ın bəzi regionlarında ictimaiyyətin ölkəmiz haqqında bir o qədər də dolğun məlumata malik olmadığını vurğulayaraq, Azərbaycan haqqında həqiqətlərin daha çox yayılmasının önəmini qeyd etdi.*

## TƏMİR İŞLƏRİNDƏN SONRA PİRŞAĞI–NOVXANI VƏ BİNƏQƏDİ–NOVXANI–CORAT YOLLARININ AÇILIŞI MƏRASİMİ

*2 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də təmir işlərindən sonra Pirşağı–Novxanı dənizkənarı və Binəqədi–Novxanı–Corat avtomobil yollarının açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlət başçısına görülən işlərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, Pirşağı–Novxanı avtomobil yolu dənizkənarı dairəvi yola birləşməklə, Sumqayıt şəhərindən Abşeron yarımadasının şimal və şimal-şərq hissələrinə rahat və maneəsiz gediş-gəlişi təmin edəcəkdir. Beləliklə, layihənin həyata keçirilməsi nəticəsində Abşeron yarımadasının şimal-şərq hissəsindən şəhərə daxil olmadan Bilgəh, Nardaran, Kürdəxanı, Pirşağı, Fatmayı, Goradil, Novxanı, Saray, Masazır, Xırdalan və Sumqayıt istiqamətlərində hərəkət etməklə, avtomobillərin Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi və Bakı–Şamaxı–Yevlax magistral yollarına çıxışı təmin ediləcək, bu da Bakıda avtonəqliyyat sıxlığının azalmasına müsbət təsir göstərəcəkdir.*

*Bu yol Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»-na uyğun olaraq Abşeron yarımadasının şimal hissəsində sahil boyunca salınıb. Yolun uzunluğu 13,5 kilometrdir. Layihəyə*

*uyğun olaraq ikizolaqlı yolun hərəkət hissəsinin eni 9 metrdir. Sahil boyunca bəzi ərazilərdə mövcud yolun eni genişləndirilib. Yolun həm Novxanı, həm də Pirşağı qəsəbələrindən keçən hissələrində eni 3-4 metrdən 9 metrə çatdırılıb. Bəzi ərazilərdə isə yol tamamilə yeni yataq üzrə inşa olunub. Vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yol boyunca yeni piyada səkiləri də tikilib. Yolun belə müasir səviyyədə inşası ilk növbədə, nəqliyyatın hərəkətinin yüksək səviyyədə təmini, baş verə biləcək tıxacların qarşısının alınması, Bakı şəhərinin qəsəbələrinin və kənd sakinlərinin sosial məsələlərinin həlli baxımından böyük rol oynayır. Layihənin icrası həm də paytaxtın dənizkənarı turizm məkanlarına daha tez və rahat çatmaq, turizm sektorunun inkişafına dəstək vermək baxımından mühüm əhəmiyyət daşıyır.*

*Pirşağı–Novxanı avtomobil yolu Azərbaycan prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, bu il reallaşdırılacaq 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələrindən biridir. Avtomobil yolunun tikintisi texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb.*

*Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi və yeni yolda avtomobili idarə etdi.*

*Daha sonra dövlətimizin başçısı Binəqədi–Novxanı–Corat avtomobil yolunun açılışında iştirak etdi.*

*Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq bu il ölkəmizdə reallaşdırılan 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələri çərçivəsində bu yol da müasir səviyyədə yenidən qurulub. Layihəyə uyğun olaraq yolun hərəkət hissəsi 12,5 metrədək genişləndirilib. Yol 2 gediş, 2 gəliş olmaqla, 4 hərəkət zolağından ibarətdır. Layihə çərçivəsində Novxanı qəsəbəsindən keçən hissədə yeni su və kanalizasiya xətlərinin çəkilişi işləri də aparılıb. Yolun müxtəlif hissələrindəki kəsişmələrdə yeni dairələr inşa olunub. Bu isə hərəkətin intensivliyini və təhlükəsizliyini təmin etmək üçün mühüm rol oynayır. Bundan başqa, Novxanı qəsəbəsində dəmir yolu və su kanalı üzərində yerləşən*

*mövcud körpülər də əsaslı şəkildə təmir edilib, onların eni 7 metrdən 12,5 metrə qədər genişləndirilibdir. Qeyd edək ki, bu avtomobil yolu uzun müddət təmir olunmadığı üçün deformasiyaya uğramışdı və yol boyunca dağılmış hissələr yaranmışdı. Üstəlik, bəzi ərazilərdə piyada səkilərinin olmaması vətəndaşların normal və təhlükəsiz hərəkətinə də çətinlik yaradırdı. Avtomobil yolunun tikintisi ilə bu problemlər əsaslı surətdə aradan qaldırılıb. Bu layihənin icrası nəticəsində 5 yaşayış məntəqəsinin 72 min nəfər əhalisinin gediş-gəlişi xeyli asanlaşıb.*

*Dövlətimizin başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## BALAKƏN RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev prezident İlham Əliyevə parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Bildirildi ki, bu park həm rayon sakinlərinin, həm də qonaqların asudə vaxtlarını səmərəli keçirmək üçün üz tutduqları gözəl məkanlardan biridir. Burada istirahət üçün hər cür şərait yaradılıbdır.*

### Balakən Su-Elektrik Stansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*Son illər ölkə iqtisadiyyatının bütün sahələri kimi, elektroenergetika sistemi də ən müasir tələblər səviyyəsində yenidən qurulub, bu istiqamətdə köklü dəyişikliklər aparılıbdir. İcra edilən layihələr arasında yeni su-elektrik stansiyalarının inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Balakəndə yeni inşa edilən su-elektrik stansiyası da bu baxımdan böyük rol oynayır. Belə layihələrin icrası bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır. Regionların inkişafına təkan verməklə, əlavə iş yer-*

*lərinin açılmasına səbəb olur. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində onlarla kiçik su-elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Kiçik su-elektrik stansiyalarının tikintisi bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən isə ətraf mühitə heç bir zərər yetirmədən istehlakçıları elektrik enerjisi ilə təmin edir.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiya barədə məlumat verdi.*

*Bildirildi ki, Balakən çayı üzərində tikilmiş və ümumi gücü 1,5 meqavat olan bu stansiyanın təməlini prezident İlham Əliyev 2010-cu ildə qoyub. Stansiya texniki göstəricilərinə görə olduqca səmərəli və müasirdir. Layihə çərçivəsində burada hündürlüyü 5,6 metr olan bənd tikilib. Bəndin maksimum eni 28, qaşının eni isə 4 metr təşkil edir. Burada saniyədə 63 kubmetr suburaxma qabiliyyəti olan sutullayıcı, saniyədə 23 kubmetr suburaxma qabiliyyəti olan suqəbuledici yaradılıb. Stansiyanın inşası zamanı uzunluğu 2000 metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan 3 hidroturbin və hidrogenerator quraşdırılıb. Bundan başqa, ərazidə turbin zalı və stansiyanın idarəetmə binası da inşa edilibdir.*

*Qeyd edildi ki, bu layihə olduqca əhəmiyyətlidir. İldə 10 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malik stansiya rayonun tələbatının 15 faizini, Balakən şəhərinin tələbatının isə 25–30 faizini ödəyəcəkdir.*

*Dövlətimizin başçısı Balakən Su-Elektrik Stansiyasını işə saldı.*

*Azərbaycan Prezidentinin 2009-cu ildə imzaladığı sərəncama əsasən, respublikada kiçik su-elektrik stansiyalarının geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanıb. Bu günədək ümumi gücü təqribən 150 meqavat olan 12 su- elek-*

*trik stansiyası istifadəyə verilib. Hazırda ümumi gücü təqribən 18 meqavat olan 5 stansiyanın inşası davam etdirilir. Stansiyanın tikintisində 100 nəfər çalışıb. Ərazidə geniş abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb, yaşıllıq zolaqları salınıbdır.*

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən şəhərində inşa olunmuş Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev Balakən Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı muzeylə tanış oldu. Məlumat verildi ki, muzeyin tikintisinə 2017-ci ilin fevralında başlanılıb və bu ilin iyulunda başa çatdırılıb. Balakən Rayon İcra Hakimiyyətinin sifarişi əsasında inşa edilən muzey binasının ümumi sahəsi 510 kvadratmetrdir. Binada zallar və konfrans otağı yaradılıb. Ekspozisiya zalında maraqlı eksponatlar sərgilənir. Burada müxtəlif dövrlərdə Azərbaycanda atribut kimi qəbul edilmiş bayraqlar, gerblər, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzalarının və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Muzeydə Azərbaycanın Səfəvilər, Ağqoyunlu, Qaraqoyunlu və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918–1920-ci illərdəki və 1991-ci ildəki xəritələri də vardır. Güc strukturlarının geyimlərinin, tarixin müxtəlif dövrlərində ölkəmizdə istifadə edilən sikkələrin, pulların nümayiş olunduğu ekspozisiyalar da maraq doğurur.*

*Belə layihələrin həyata keçirilməsi, həmçinin milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.*

*Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin atributlarından biri olan üçrəngli, ay-ulduzlu bayrağımızla hər bir azərbaycanlı fəxr edir. Xalqımız həmişə bu bayrağa böyük sevgi, dərin ehtiramla yanaşıb. Hər bir azərbaycanlı Dövlət bayrağını özünün milli qürur mənbəyi hesab edir.*

*Üçrəngli bayrağımız ötən əsrin sonlarında yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrildi. Bu məsələdə ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri vardır. Bu tarixi iş ümummilli liderin dahiyanə ideyalarından biri idi. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırıldı. Bu, dünya şöhrətli siyasi xadimin Azərbaycan dövlətçiliyi və xalqımız üçün gördüyü tarixi əhəmiyyətli işlərdən biri idi. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında və mötəbər məclislərində qürurla dalğalanır. Vətənə və dövlətin atributlarına hörmət və ehtiram ulu öndərin bizə ən böyük əmanətidir.*

*Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Bu gün paytaxtla yanaşı, respublikanın bölgələrində də Dövlət Bayrağı meydanlarının və muzeylərinin inşası dövlətimizin bu sahədə həyata keçirdiyi siyasətin nəticəsidir. Balakən şəhərində inşa edilən Bayraq Muzeyi də bu istiqamətdə görülən tədbirlərin davamıdır.*

## Balakən–Sarıbulaq–Qabaqçöl–Xalatala avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən–Sarıbulaq–Qabaqçöl–Xalatala avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verildi.*

*Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən bu il istifadəyə verilməsi nəzərdə tutulan və kəndlərarası 40*

*avtomobil yolu layihələrindən biri olan Balakən–Sarıbulaq–Qabaqçöl–Xalatala avtomobil yolunun uzunluğu 24,5 kilometr, eni isə 10 metrdir. Avtomobil yolu texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə inşa edilib. İki hərəkət zolaqlı yol dördüncü texniki dərəcəyə uyğun yenidən qurulub. Tikinti işləri zamanı yolboyu zəruri olan yerlərdə yararsız qrunt təbəqəsi qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək, bərkitmə işləri aparılıb və yeni yol yatağı inşa olunub. Daha sonra yolun 150 min kvadratmetr sahəsinə ikiqat asfalt-beton örtük döşənib. Layihə çərçivəsində yol boyunca 14 suötürücü boru və uzunluğu 18, eni isə 7 metr olan körpü tikilib, yol təhlükəsizlik dirəkləri, yol nişanları və məlumatverici lövhələr quraşdırılıbdır.*

*Diqqətə çatdırıldı ki, Balakən–Sarıbulaq–Qabaqçöl–Xalatala avtomobil yolunun tikintisi 15 yaşayış məntəqəsinin 44 min nəfər əhalisinin gediş-gəlişini xeyli rahatlaşdıracaq. Bundan başqa, bu yol yük və sərnişin daşınmasının da yaxşılaşmasına imkan yaradacaq, turizm bölgələrimizdən olan Balakənə gələn turistlərin rahat və təhlükəsiz hərəkətini təmin edəcəkdir.*

*Prezident İlham Əliyev yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## «ABAD» MƏRKƏZİNİN AÇILIŞINDA BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakəndə «ABAD» Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə rayonun Katex kəndində yerləşən «Balxurma» müəssisəsinin 2016–2017-ci illər üzrə fəaliyyəti və gələcək planları ilə bağlı məlumatları əks etdirən stendlərə baxdı. Qeyd edildi ki, «Balxurma» müəssisəsinin işçilərinin sayı 15 nəfərdən 85 nəfərə çatdırılacaq. İlkin 5 milyon manat kapital qoyulan müəssisəyə əlavə olaraq 12 milyon manat investisiya cəlb ediləcək. Məhsul daxili bazardan əlavə, MDB, Avropa və ərəb ölkələrinə ixrac olunacaq. «Balxurma» müəssisəsinin gələcək planlarına yeni korpusların tikintisi, gündəlik istehsal sayının 45 min ədəd xurmadan 150 min ədəd xurmaya, iş yerlərinin sayının isə 200 nəfərə çatdırılması daxildir.*

*«ABAD» layihəsi çərçivəsində görülən işlər barədə dövlət başçısına məlumat verildi.*

*Son illərdə ölkəmizdə kiçik ailə biznesinin və təsərrüfatlarının inkişafını təşviq etmək və regional inkişafa töhfə vermək məqsədilə icra olunan layihələr arasında «ABAD» layihəsinin xüsusi yeri vardır. «ABAD» Azərbaycan prezidenti İlham Əliyev tərəfindən irəli sürülən və 2016-cı il sentyabrın 23-də yaradılan hüquqi şəxsdir. O, Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına dəstək verməyi nəzərdə tutan yeni sosial innovasiya konsepsiyasıdır. Layihənin məqsədi kiçik və orta sahibkarlığın*

*inkişafına, məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına, ölkədə regionların və kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Qeyri-kommersiya və sosialyönümlü qurum olan «ABAD» yeganə ictimai təşkilatdır ki, ailə təsərrüfatının «ideyadan rəflərə» daşınmasına kömək edir. «ABAD» istehsalın planlaşdırılmasından məhsulların satışına qədər olan bütün biznes prosesinin idarə edilməsini həyata keçirir, yığılan gəlirin ailələrə köçürülməsini təmin edir. Ailələr öz bizneslərini qurmaq üçün ictimai və özəl qurumlarla birbaşa qarşılıqlı əlaqə saxlamır. Bu funksiya «ABAD» tərəfindən həyata keçirilir. «ABAD» ailələr üçün bacarıqların inkişaf etdirilməsi təlimlərini də təşkil edir, «vahid pəncərə» prinsipindən istifadə edərək, ailə məhsullarının sertifikatlaşdırılmasını təmin edir. Layihənin mütəxəssisləri ailələrə bazaryönümlü qablaşdırma həlləri və məhsulların dizaynı ilə bağlı kömək göstərirlər, supermarket şəbəkəsində ailə məhsullarının satışını, habelə onların daşınması və saxlanılmasını idarə edirlər. «ABAD» əl işlərinin satışını öz incəsənət mərkəzlərində təşkil edir. Bu ilin martında İçərişəhərdə «ABAD»-ın ilk incəsənət mərkəzi açılıb, iyunda isə ikinci incəsənət mərkəzi Heydər Əliyev Beynəlxalq Aeroportunda istifadəyə verilibdir. Balakəndə «ABAD» Mərkəzinin yaradılması da olduqca önəmlidir.*

*Bildirildi ki, ötən ilin oktyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında «ABAD» mərkəzlərinin fəaliyyət sahələrində Korporativ Əməkdaşlıq Sazişi imzalanıb. Əməkdaşlıq çərçivəsində Balakən rayonunun «ABAD» layihəsi 2-ci pilot layihə olaraq müəyyən edilib. SOCAR-ın dəstəyi ilə 12 ailəyə 9 meyvə, 2 süd və 1 ət emalı üçün xüsusi istehsal avadanlığı ilə təchiz edilmiş konteynerlər təhvil verilibdir.*

*Prezident İlham Əliyev «ABAD» layihəsi çərçivəsində Balakəndə və digər rayonlarda istehsal edilən məhsullara baxdı.*

*Balakən rayonundan əl işləri hazırlayan 4 sənətkar «ABAD» layihəsinin iştirakçısıdır. Ümumilikdə Balakənin və qonşu rayonların potensialını, layihəyə olan marağı, bu səbəbdən də artan iş həcmini nəzərə alaraq, Balakəndə regional «ABAD» Mərkəzinin təsis edilməsi məqsədəuyğun hesab olunub. Burada layihə çərçivəsində 280 kvadratmetrə yaxın sahəsi olan ikimərtəbəli inzibati bina inşa edilib. Binadakı iş otaqları zəruri avadanlıqlarla təchiz olunub. Burada, həmçinin təqdimat və görüş zalları, laboratoriya da fəaliyyət göstərəcəkdir. Binada ümumi sahəsi 640 kvadratmetrdən çox olan müxtəlif temperaturlu anbar kompleksi də yaradılıbdır.*

*«ABAD» Mərkəzi ilə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Tədbir iştirakçılarını salamlayan dövlətimizin başçısı çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Mən yenidən Balakən rayonunda səfərdəyəm. Çox məmnunam ki, növbəti dəfə Balakənə səfər edirəm. Bu mənim sayca 5-ci səfərimdir. Bu onu göstərir ki, Azərbaycan dövləti Balakən rayonunun inkişafına çox böyük diqqət göstərir. Bu diqqət və qayğı nəticəsində Balakən rayonunda işlər yaxşı gedir, rayon inkişaf edir, bir çox önəmli sosial, iqtisadi layihələr, biznes, infrastruktur layihələri icra edilir. Bir sözlə, Balakəndə hərtərəfli inkişaf təmin olunur və əlbəttə ki, gələcək illərdə bu inkişaf daha da sürətlə gedəcəkdir.

Bu günə qədər rayonda bir çox önəmli sosial layihələrin icrası təmin edilibdir. Bölgələrimizdə ən böyük xəstəxanalardan biri Balakəndə bir neçə il bundan əvvəl tikilibdir, təxminən 200 çarpayılıq gözəl xəstəxanadır. Olimpiya Mərkəzi, Gənclər evi, digər sosial obyektlər inşa olunubdur, məktəb tikintisi sürətlə gedir. Mənə verilən məlumata görə, 26 yeni məktəb tikilib, bir neçə məktəb təmir edilib. Bu çox önəmli sosial sahədir və bu

sahə çox böyük vəsait tələb edir, Azərbaycan dövləti bu vəsaiti təmin edir.

Balakən rayonunda qazlaşdırma 100 faiz səviyyəsindədir. Biz hələ ki, heç ölkə üzrə bu səviyyəyə çatmamışıq. Ölkə üzrə qazlaşdırmanın səviyyəsi 93 faizdir, Balakəndə isə 100 faiz. Elektrik enerjisi ilə bağlı problemlər həllini tapır, kənd yolları salınır. Biz artıq bu gün növbəti kənd yolu layihəsinin açılışını qeyd etdik. Növbəti illərdə digər kəndlərə də yollar salınacaqdır.

Siz yaxşı bilirsiniz ki, zəlzələdən sonra Azərbaycan dövləti zərərçəkmiş vətəndaşlara öz maddi yardımını göstərdi, 7000-dən çox fərdi ev ancaq Balakən rayonunda dövlət hesabına tikildi, 2000-dən çox ev əsaslı təmir edildi. Hesab edirəm ki, bu bir göstəricidir. Çünki ağır vəziyyətə düşən soydaşlarımızın problemlərinin həlli üçün dövlət öz dəstəyini əsirgəmədi və bu gün Balakən rayonunda sosial-iqtisadi inkişaf yaxşı səviyyədədir. «ABAD» Mərkəzinin yaradılması da bunun bariz nümunəsidir. Bu, sayca ikinci «ABAD» Mərkəzidir. Birincisi Masallıda yaradılıb, ikinci isə Balakən rayonunda. Bu mərkəzin fəaliyyəti nəticəsində minlərlə insan işlə təmin olunacaq, özünü məşğulluq proqramı sürətlə icra ediləcəkdir. Mən bu barədə artıq bütün müvafiq tapşırıqları vermişəm ki, növbəti illərdə özünü məşğulluq proqramı Azərbaycanda geniş vüsət almalıdır, dövlət isə öz növbəsində, bu şəraiti yaradır. Mənə verilən məlumata görə, Balakən rayonunda vətəndaşlara 12 konteyner təqdim edilib və o konteynerlərdə indi artıq məhsul istehsal olunur. Bu mürəbbələr sizin məhsulunuzdur, gözəl qablaşdırılıb və həm daxili bazara çıxarılır, həm də xarici bazarlara çıxarılacaqdır.

Bu gün mənə daha bir gözəl layihə haqqında məruzə edildi, əvvəllər də məruzə edilmişdi. Bu, indi sizin gördüyünüz paketlənmiş quru xurma məhsuludur ki, bunun da xarici bazarlara çox böyük çıxış imkanı var və indi bir çox ölkələrdən sifarişlər verilib. Bu istehsal geniş vüsət alacaq və nəinki

Balakən rayonunun, bütün ətraf rayonların xurması, yəni bazara çıxarılmayan xurma məhsulu buraya gətiriləcək, emal olunacaq və belə gözəl şəkildə xaricə ixrac ediləcəkdir. Vətəndaşlar yaxşı pul qazanacaqlar, ölkəmizə valyuta gələcək və bu, xurma istehsalının inkişafına növbəti təkan verəcəkdir. «ABAD» Mərkəzinin yaradılması Azərbaycanda sosial xidmətlər sahəsində aparılan islahatların nəticəsidir. Bilirsiniz ki, bir neçə il əvvəl Azərbaycanda «ASAN xidmət» mərkəzləri yaradıldı. İndi bu mərkəzlərə 16 milyon 500 min müraciət olunubdur. Növbəti mərhələdə «ASAN kommunal» və «ABAD» ailə biznesinə dəstək mərkəzlərinin – ikinci mərkəz burada açılır – əlbəttə, sahibkarlığın, qeyri-neft sektorunun inkişafına çox böyük müsbət təsiri olacaq və Balakən rayonunun sosial-iqtisadi inkişafı, ixrac potensialı xeyli artacaqdır.

İndi siz yaxşı bilirsiniz ki, biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik. Bu bölgənin imkanları, iqlim şəraiti və ənənələri nəzərə alınır. Bölgədə çox geniş vüsət alan sahələr fındıqçılıqla, baramaçılıqla, tütünçülüklə bağlıdır. Siz – burada yaşayan insanlar yaxşı görürsünüz ki, son 1-2 il ərzində bu sahədə çox böyük artım var və bu, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına birbaşa müsbət təsir göstərir. Bir il ərzində Balakən rayonunda 2200 hektarda yeni fındıq bağları salınıb və bağların sahəsi 7000 hektara çatıbdır. Ancaq növbəti illərdə əlavə minimum 3000 hektarda fındıq bağları salınacaq və bütün bunlar dövlət hesabına olan məsələlərdir. Yəni dövlət lazım olan tingləri gətirir, suvarma işlərini təşkil edir, kəndlilərə şərait yaradır ki, onlar bu ağaclara qulluq edərək, öz maddi vəziyyətlərini daha da yaxşılaşdırsınlar və xaricə valyuta gətirən məhsullar çıxara bilsinlər.

Buna görə növbəti illərdə bu bölgənin – həm Balakən rayonunun, həm qonşu rayonların ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı üçün daha da ciddi addımlar atılacaqdır. Balakən rayonunda hər dəfə olarkən burada gedən quruculuq, abadlıq işləri məni çox sevindirir. Məni daha çox sevindirən

odur ki, Balakən rayonunda yaşayan insanlar Vətənə bağlı insanlardır, vətənpərvər insanlardır. Azərbaycanda əsrlərboyu yaşayan bir çox xalqların nümayəndələri Balakən rayonunda bir ailə kimi, dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşayır və bu bizim böyük sərvətimizdir. Azərbaycanda milli və dini zəmində mövcud olan çox gözəl vəziyyət bir çox ölkələr üçün maraq doğurur və indi bizim təcrübəmiz öyrənilir. Bizim siyasətimiz isə çox aydındır, açıqdır, Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir. Bizim həmrəyliyimiz, milli müxtəlifliyimiz böyük sərvətimizdir. Təsadüfi deyil ki, keçən il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdir. Hesab edirəm ki, tarixdə ilk dəfə olaraq, belə bir təşəbbüs Azərbaycanda irəli sürüldü. Bu əslində daha çox xaricə bir mesaj idi ki, birgə yaşamaq, qurmaq, müxtəlif xalqların nümayəndələrinin dostluq, mehribanlıq şəraitində yaşaması mümkündür və bunu Azərbaycanın timsalında hər kəs görə bilər. Bu il isə «İslam həmrəyliyi ili»dir. Bu da yenə bir çağırışdır. Çünki Azərbaycanda nə multikulturalizmlə, nə də islam həmrəyliyi ilə bağlı heç bir problem yoxdur. Biz sadəcə olaraq, bu çağırışları etməklə, bir mesaj veririk, əgər belə demək mümkündürsə, yol göstəririk ki, bütün müsəlman xalqları birləşsin, onların arasında heç bir qarşıdurma, anlaşılmazlıq olmasın və biz Azərbaycanın timsalında görürük ki, buna nail olmaq mümkündür. Azərbaycan böyük coğrafiyanın bir hissəsidir, Qafqazın bir parçasıdır, Qafqaz vahid orqanizmdir. Qafqazda yaşayan bütün xalqlar arasında bir-biri ilə tarixi əlaqələr, qohumluq əlaqələri, dostluq, qardaşlıq olub. Hesab edirəm ki, Azərbaycan bütün Qafqaz üçün də çox önəmli bir ölkəyə çevrilibdir. Balakəndə həm bu sahədə, həm də iqtisadi, sosial, kənd təsərrüfatı, emal sənayesi sahələrində çox gözəl nəticələr vardır. Rayon gündən-günə gözəlləşir, abadlaşır, turistlərin sayı artır. Mən Bakıya qayıdan kimi, rayonun inkişafı ilə bağlı əlavə tapşırıqlar verəcəyəm ki, hələ icra olunmayan

layihələr də tezliklə icra olunsun və növbəti açılışlarda biz bir daha görüşək.

* * *

**X a n ı m  Z u r n a y e v a** (*rayon sakini*): Möhtərəm cənab Prezident!

Rayonumuzun bütün əhalisi, «ABAD» ailələri adından Sizi salamlayıram, Balakənə xoş gəlmisiniz!

Cənab Prezident, xalqımız Sizin uğurlu siyasətinizi dəstəkləyir, ölkəmizin inkişafı üçün həyata keçirdiyiniz tədbirləri alqışlayır. Siz hər zaman çıxışlarınızda qeyd edirsiniz ki, siyasətinizin mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır. Məhz bu gün Sizin təşəbbüsünüzlə Azərbaycan ailəsinə asan dəstək olan «ABAD»-ın yaradılması da bunun əyani sübutudur. Azərbaycan dövlətinin, cənab Prezidentin daim Azərbaycan vətəndaşının, Azərbaycan ailəsinin yanında olduğunu göstərən «ABAD» layihəsinin Balakəndə yaradılmasını eşidəndə çox sevindik.

Mən Şambul kəndində yaşayıram, kənd məktəbində müəllim işləyirəm. Buna baxmayaraq, əlavə təsərrüfat işləri ilə də məşğul oluram. Həyətimizdə fındıq, meyvə bağlarımız var. Əvvəllər meyvələrimiz ağaclardan tökülür, xarab olurdu. Meyvələrdən məhsul istehsal etmək olmurdu, avadanlığımız yox idi, şəraitimiz buna imkan vermirdi. Gün ərzində təxminən 15–20 kiloqram mürəbbə, cem hazırlayırdıq ki, bunun da satışı çətinliklər törədirdi. Buna görə də «ABAD»-a müraciət etdim və qısa zaman ərzində «ABAD»-çı oldum. Rayonumuza gətirilən 12 konteynerdən biri bizim həyətimizə qoyuldu. Deyə bilərəm ki, indi əvvəlki kimi, gün ərzində 15–20 deyil, 200–300 kiloqram məhsul istehsal edirik. Nəinki öz bağımızdan, hətta qohum-qonşudan, kənd camaatından da məhsul alıb istehsal edirik. Bizim ailəmiz üçün meyvə bağı brendi yaradılıb, məhsulumuzun satışından alınan vəsait isə birbaşa bank

hesabımıza köçürülür. Məhsulların satışında, qablaşdırılmasında, daşınmasında, reklamında, dizayn işində «ABAD» bizə dəstək olur. Bizim üzərimizə düşən yeganə vəzifə isə bir «ABAD»-çı kimi yüksəkkeyfiyyətli məhsul hazırlamaqdır.

Möhtərəm cənab Prezident, biz hər zaman Sizin Azərbaycan qadınına olan diqqət və qayğınızı hiss edirik. Kiçik sahibkarlıqla məşğul olan bir qadın kimi, dövlətimizin mənə göstərdiyi dəstək bunun bariz nümunəsidir. Azərbaycan qadınına diqqət və qayğının ən böyük göstəricilərindən biri isə Sizin sərəncamınıza əsasən, bizim güvənc yerimiz, Azərbaycan qadınına örnək, nümunə olan Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunmasıdır. Bizə arxa-dayaq olan Mehriban xanım Əliyevanın belə yüksək vəzifəyə təyin edilməsi məhz Sizin Azərbaycan qadınına etibarınız və inamınızın ən yüksək göstəricisidir.

Cənab Prezident, Sizin uğurlu siyasətiniz nəticəsində Azərbaycanımız gündən-günə gözəlləşir, inkişaf edir, çiçəklənir, yüksək zirvələri fəth edir. Biz Sizin rəhbərliyiniz ilə gələcəyə böyük ümidlərlə baxırıq. Bütün bunlara görə Sizə bir daha minnətdarlıq edirik. Allah Sizi qorusun! Allah Sizin ailənizi qorusun!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**M ə h ə m m ə d B a z a r o v** *(rayon sakini)*: Cənab Prezident, Balakən zəhmətkeşləri adından Sizi salamlayıram. Balakənə xoş gəlmisiniz! Mən Qaysa kəndində yaşayıram, meyvəçiliklə məşğul oluram. 15 hektar meyvə bağımız var. Hər hektardan 40–45 ton bol məhsul yığırıq. Məhsulumuzun bir hissəsini bazarda satırdıq, bir hissəsi isə satılmadığı üçün xarab olurdu. Balakəndə yaradılmış «ABAD» Mərkəzinə müraciət etdim. Bizim üçün konteyner ayırdılar. Konteynerdə yüksək səviyyəli avadanlıqlar yerləşdirilib. Məhsullarımız – mürəbbə, cem artıb, «Bal Məkan» brendi ilə Azərbaycanın daxili

bazarında böyük supermarketlərə və xarici bazara çıxmaq imkanı qazanmışıq.

Cənab Prezident, təsərrüfatımız həm də tingçiliklə məşğul olur. Biz meyvə tingləri yetişdiririk. Bu tinglər Azərbaycanın daxili bazarı ilə yanaşı, xarici bazara da çıxarılır. Biz 2016-cı ildə Rusiya Federasiyasına 15 mindən çox alma tingi satmışıq. Bu işi dövlətimizin qayğısı ilə daha da inkişaf etdirmək fikrindəyik.

Möhtərəm Prezident, bilirsiniz ki, Balakən kənd təsərrüfatı rayonudur. Burada fındıqçılıq, baramaçılıq, tütünçülük ənənəvi sahələrdir və bunlar inkişaf etdirilir. Sizin diqqət və qayğınızla Balakəndə fındıq bağları, tütün plantasiyaları daha da genişləndirilir. Baramaçılığın inkişafı üçün xaricdən gətirilmiş yeni tut tingləri əkilir, bunlar öz keyfiyyətinə, yarpağın çoxluğuna görə seçilir. Bu da Azərbaycanda baramaçılığın inkişafı üçün stimul yaradacaqdır.

Balakən zəhmətkeşləri gündən-günə firavan, gözəl yaşayır, həyat şəraiti yaxşılaşır.

Cənab Prezident, Sizin Azərbaycan brendi kimi yaratdığınız «ASAN xidmət» insanlara asanlıq, rahatlıq gətirir. Yəqin ki, «ABAD» da biz sahibkarlar üçün abadlıq yaradacaqdır. Bizə göstərdiyiniz bu qayğıya, diqqətə görə Sizə həm Balakən zəhmətkeşləri, həm də «ABAD»-çılar adından təşəkkürümü bildirirəm. Çox sağ olun. Allah-Taala Sizə və ailənizə cansağlığı versin.

**İlham Əliyev:** Çox sağ ol.

* * *

*Sonra prezident İlham Əliyev «ABAD» layihəsinin iştirakçıları ilə söhbət etdi.*

**İlham Əliyev:** Bunlar sənin məhsullarındır?

**Məhəmməd Bazarov:** Bəli, cənab Prezident.

**İlham Əliyev:** Çox gözəl. Siz artıq konteynerin avadanlığını işlədirsiniz?

**Məhəmməd Bazarov:** Bəli, çox rahatdır. Əvvəllər əziyyət çəkirdik, ev şəraitində işləmək çox çətin idi. Amma indi çox rahatdır. Artıq 10 adamın işini görən avadanlıqlarımız vardır. Daha gözəl, dünya standartlarına uyğun keyfiyyətli məhsul istehsal etmək imkanımız yaranıbdır.

**İlham Əliyev:** Qabları haradan götürürsünüz?

**İnam Kərimov:** Cənab Prezident, qablar Azərbaycanda istehsal olunur.

**İlham Əliyev:** Sifariş əsasında alırsınız?

**İnam Kərimov:** Bəli, alırıq, təhvil veririk.

**İlham Əliyev:** Sonra bu məhsullar laboratoriyada yoxlanılır?

**İnam Kərimov:** Bəli, yoxlanılır, sonra da sertifikat alınır.

**İlham Əliyev:** Çox gözəl. Əminəm ki, dadı da gözəldir. Balakəndə arıçılıqla bağlı vəziyyət necədir, inkişaf edir? Mən gələndə yolda gördüm.

**Məhəmməd Bazarov:** Bəli, cənab Prezident, arıçılıq burada çox sürətlə inkişaf edir.

**İlham Əliyev:** Artıq burada satıla bilməyən meyvə batmayacaq. Bizim mürəbbələr də çox dadlıdır, keyfiyyətlidir. Burada təbiət də gözəldir, ona görə meyvə də çox şirindir. Sizi bir daha təbrik edirəm. Əminəm ki, Balakəndə «ABAD»-çıların sayı çoxalacaqdır.

# ZAQATALA RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən rayonuna səfərini başa çatdıraraq, Zaqatala rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkında dahi şəxsiyyətin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə prezident İlham Əliyevə abidənin ətrafında və parkda görülən işlər barədə məlumat verdi. Bildirildi ki, parkda geniş abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün hərtərəfli şərait yaradılıbdır.*

## «Azərtütün» MMC-nin Tütün Emalı zavodunun fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatalada «Azərtütün» MMC-nin Tütün Emalı zavodunun fəaliyyəti ilə tanış olmuşdur.*

*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və «Azərtütün» MMC-nin İdarə Heyətinin sədri Fazil Rüstəmov dövlət başçısına zavod barədə ətraflı məlumat verdilər. Bildirildi ki, müəssisənin illik gücü bir növbədə 3300–3600 tondur. «Azərtütün» MMC 2007-ci ildə təsis edilib. Cəmiyyətin bu zavodu isə 2010-cu ildə istifadəyə verilibdir. Zavod ABŞ, İtaliya və Bolqarıstan istehsalı olan müasir avadanlıqlarla təchiz olunub. Hazırda Zaqatala, Şəki və Qax rayonlarında Bolqarıstandan alınmış hər*

*birinin tutumu 10 ton yaş tütün olan cəmi 180 tütünqurutma kamerasından ibarət 3 tütün qəbulu-qurudulması məntəqəsi fəaliyyət göstərir. Hər məntəqə mövsüm ərzində 10 min ton yaş tütün qəbulu və 1000 tona yaxın quru tütün əldə etmək gücünə malikdir. Məntəqələrdə qurudulmuş tütün emal olunmaq üçün «Azərtütün» MMC-nin Tütün Emalı zavoduna təhvil verilir. Hər bir məntəqədə 90 nəfər çalışır ki, onların da 25 nəfəri daimi işçidir.*

*Diqqətə çatdırıldı ki, şitil yetişdirilməsi üçün ABŞ texnologiyası ilə işləyən 14 istixana quraşdırılıb. «Azərtütün» MMC-nin müasir şum texnikası, tütün şitilini basdırmaq, əkinə qulluq, kultivasiya işlərini aparmaq üçün mexanizmləri və tütün yarpaqlarını yığan xüsusi kombaynları da vardır. 2016-cı ildə tədarük olunmuş 1039 ton «Virciniya» sortlu quru tütün bu müəssisədə emal olunaraq satılıb. 2017-ci ildə isə zavodda 2300 ton tütünün emal olunması nəzərdə tutulubdur.*

*Dövlət başçısına müəssisə barədə məlumat verildi. Bildirildi ki, müəssisənin ümumi ərazisi 3 hektardır. Burada istehsalat bölməsi, anbar, ofis və digər infrastruktur obyektləri tikilib. Ərazidə suvarma məqsədləri üçün su tutumu 5000 kubmetr olan süni göl yaradılıb, damcı suvarma sistemi qurulub, kənd təsərrüfatı texnikaları alınıb, Türkiyədən bu sahədə təcrübəli aqronomlar dəvət edilibdir. Ərazidə 3 artezian quyusu qazılıb, qaz və elektrik xətləri çəkilib, müasir işıqlandırma sistemi qurulub və yaşıllıq zolaqları salınıbdır.*

*Diqqətə çatdırıldı ki, 2016-cı ilin oktyabr–noyabr aylarında Türkiyədən və Bolqarıstandan dəvət olunmuş mütəxəssislərin tövsiyələri əsasında Zaqatala rayonunun Aşağı Tala kəndində gülçülüyün inkişaf etdirilməsi məqsədilə 107 hektar torpaq sahəsi müəyyənləşdirilib. Bolqarıstandan gətirilmiş tinglərdən 82 hektarda «Dəməşq qızılgülü» və 25 hektarda «Lavanda» gülü növləri üzrə gül plantasiyaları salınıb. Bu plantasiyalarda ilkin mərhələdə təxminən 600 ton gül ləçəyinin toplanması nəzərdə tutulub. «Dəməşq qızılgülü»ndən istehsal olunan yağ*

*həm məhsuldarlığına, həm də keyfiyyətinə görə ən yaxşısı hesab olunur. Bolqarıstandan gətirilmiş «Lavanda» gülü növünün Fransa və Türkiyə «Lavanda» növlərindən yağlılıq dərəcəsi 20 faiz çoxdur. İllik gücü 1250 ton yaş gül, 250 litr qızılgül və 6000 litr «Lavanda» gül yağı olan müəssisədə istehsal edilən yağlar «AzRose» adı ilə bazarlara çıxarılacaqdır. Gələcəkdə isə həmin yağlardan istifadə etməklə, müxtəlif ətriyyat, yuyucu, məişət və qida sənayesində istifadə olunan məhsulların istehsalı nəzərdə tutulur. Gül yağı istehsalı avadanlıqları Türkiyədən gətirilib. Müəssisədə 31 daimi və 600-ə yaxın mövsümi iş yeri açılacaq. Layihə gələcəkdə yerli əhalinin öz pay torpaqlarında qızılgül əkməklə, bu sahənin daha da inkişaf etdirilməsinə şərait yaradacaq. Beləliklə, əhali yığdığı gül ləçəklərini müəssisəyə təhvil verməklə, əlavə gəlir əldə edəcəkdir.*

*Qeyd edək ki, dünya üzrə ildə 3 ton qızılgül yağı istehsal olunur ki, bunun da 50 faizi Türkiyə, 40 faizi Bolqarıstan, 10 faizi isə digər ölkələrin payına düşür. Azərbaycanda ilk mərhələdə istehsal olunacaq 125 litr qızılgül yağı dünya üzrə istehsalın 5 faizini təşkil edəcək. 2016-cı ildə dünya bazarında 1 litr qızılgül yağının qiyməti 10–12 min avro təşkil edib. Eyni zamanda, müəssisədə 3000 litr «Lavanda» yağının istehsalı nəzərdə tutulub. Ötən il dünya bazarında 1 litr «Lavanda» yağının qiyməti 100–130 avro təşkil edib. Müəssisənin məhsulları 2018-ci ildən dünya bazarına çıxarılacaqdır. Gələcəkdə digər bitki növlərinin efir yağlarının da istehsalı mümkün olacaqdır. Beləliklə, «Made in Azerbaijan» brendi ilə dünya bazarlarına çıxarılacaq məhsullarımızın sayı və çeşidi xeyli artacaqdır.*

*Müəssisə ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

*Qeyd edək ki, son illərdə ölkəmizdə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının ənənəvi sahələri yeni inkişaf mərhələsinə qədəm qoyub. «Azərtütün» MMC-nin Zaqatala Tütün Emalı zavodu da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Belə layihələrin uğurla icrasının təməlində Azərbaycan dövlətinin iş adamlarına göstərdiyi diqqət və qayğı durur. Bölgələrdə yeni*

*zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu müəssisələr həm də daxili tələbatı ödəməklə yanaşı, ixrac potensialımızı artırır. Beləliklə, «Azərtütün» MMC-nin Zaqatala Tütün Emalı zavodunun yaradılması bir daha sübut edir ki, prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq ölkəmizdə mühüm işlər görülür və bu işlər iqtisadiyyatın bir çox sahələrini əhatə edir.*

## «AZƏRTÜTÜN » MMC-nin TÜTÜN EMALI ZAVODUNUN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ ZAMANI ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatala rayonunda «Azərtütün» MMC-nin Tütün Emalı zavodunun fəaliyyəti ilə tanışlıq zamanı rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Mən sizi ürəkdən salamlayıram. Zaqatala rayonunda yeni kənd təsərrüfatı və emal sənayesi sahəsi yaradılıb. Mən buna çox şadam. Çox yaxşı inkişaf göstəricisidir. Çünki Azərbaycanın hər bir bölgəsi, hər bir sahəsi uğurla inkişaf etməlidir.

Ölkəmizdə qızılgül istehsalı, xüsusilə Zaqatala rayonunda qızılgül yağının istehsalı əsrlərboyu inkişaf edib. Sovet dövründə bu sahəyə böyük diqqət göstərilbdir. Ondan sonrakı illərdə nədənsə bu sahəyə o qədər də böyük diqqət göstərilmirdi. İndi mənim göstərişimlə bu sahə bərpa edilir. Yeni müasir müəssisə tikilir, yaxın vaxtlarda istifadəyə veriləcəkdir. 100 hektardan çox sahədə qızılgül əkilib. Burada istehsal olunacaq qızılgül yağı həm daxili bazara, həm də xarici bazarlara ixrac ediləcək. Beləliklə, mənə verilən məlumata görə, artıq burada yüzlərlə insan işlə təmin edilib. 500-dən çox daimi və mövsümi iş yeri yaradılıb. Burada işləyənlər yaxşı maaş alacaqlar və ölkəmizə xeyir gətirəcəklər. Çünki indi əsas vəzifəmiz təbii imkanlarımızdan, iqlim şərai-

timizdən istifadə edərək, maksimum dərəcədə kənd təsərrüfatını inkişaf etdirməkdir.

Zaqatala rayonunda və qonşu rayonlarda hazırda çox sürətli inkişaf gedir. Ənənəvi kənd təsərrüfatı sahələri bərpa edilir, o cümlədən tütünçülük, baramaçılıq, fındıqçılıq geniş vüsət alıb. Biz gələcək illərdə dövlət proqramlarının qəbulu və icrası nəticəsində əkin sahələrini böyük dərəcədə artıracağıq və beləliklə, çox güclü kənd təsərrüfatı potensialı yaradılacaqdır. Qızılgül yağı isə bizim üçün ənənəvi olan sahədir. Mütəxəssislərin rəyinə görə, bu yağı istehsal etmək üçün ən münbit şərait, torpaq, iqlim məhz Zaqatala rayonundadır. Ona görə bu gözəl yeni müəssisə burada yaradılıbdır. Görürəm ki, artıq böyük sahədə qızılgül kolları əkilib. Əminəm ki, siz – burada işləyənlər yaxşı çalışacaqsınız, həm özünüz, həm də dövlət üçün xeyir gətirəcəksiniz.

Ümumiyyətlə, Zaqatala rayonunun çox böyük sənaye, kənd təsərrüfatı potensialı vardır. Rayonun inkişafına xüsusi diqqət göstərilir. Bu mənim prezident kimi, Zaqatala rayonuna 8-ci səfərimdir və hər bir səfər zamanı önəmli obyektlərin açılışında iştirak etmişəm. Burada həm sosial obyektlər, həm sənaye müəssisələri istifadəyə verilib, Zaqatala aeroportu tikilib. İndi aeroportun zolağı uzadılır ki, böyük təyyarələr də enə bilsin. Diaqnostika Mərkəzi, Rayon Mərkəzi Xəstəxanası, Olimpiya Kompleksi, məktəblər, zəlzələdən sonra 8000-dən çox ev tikilib və təmir edilibdir. Yollar salınır, istehsalat sahələri istismara verilir. Tütün Emalı fabrikinin yenidən qurulması nəticəsində həm istehsal gücü artıb, həm də indi bu müəssisədə son məhsul istehsalını təmin etmək mümkündür. O cümlədən qızılgül sahəsində də yaxşı inkişaf vardır.

Mən əminəm ki, bu müəssisənin çox böyük və uğurlu fəaliyyəti olacaq. Dünyada qızılgül yağı istehsalı o qədər də geniş vüsət almayıb. Əsas istehsalçılar Türkiyə və Bolqarıstandır. Mənə verilən məlumata görə, istehsalın təqribən 90 faizi onların payına düşür. Biz isə bu müəssisənin və bu sahələrin yaradılması

ilə birinci mərhələdə təqribən dünya istehsalının 5 faizini öz üzərimizə götürəcəyik. Əminəm ki, gələcəkdə bu sahələr daha da genişlənəcək. Müəssisənin fəaliyyəti də imkan verəcək ki, biz daha da böyük həcmdə qızılgül yağı istehsal edək. Yəni hazırda bizim üçün ənənəvi olan və sovet vaxtında kəndlərə böyük xeyir gətirən sahələri, demək olar ki, sürətli şəkildə bərpa edirik.

Mən sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram ki, burada yaxşı işləyəsiniz və dövlətimizə, xalqımıza xeyir gətirəsiniz. Bir daha təbrik edirəm.

* * *

**İlhamə Mehdiyeva** *(rayon sakini):* Möhtərəm cənab Prezident. Sizin rəhbərliyinizlə son dövrlər ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət, keçmiş ənənəvi sahələrin yenidən bərpası ilə bağlı gördüyünüz işlər hər bir Azərbaycan vətəndaşı kimi, biz zaqatalalıları da çox sevindirir. Ölkəmizin hər bir bölgəsində ənənəvi sahələr olan pambıqçılıq, üzümçülük, tütünçülük və bu gün burada şahidi olduğumuz gülçülük yenidən bərpa olunur.

Möhtərəm cənab Prezident, Zaqatala hər zaman qızılgül diyarı kimi tanınıb. Lakin əvvəlki dövrlərdə bu sahə baxımsızlıqdan öz şöhrətini itirmişdi. Sizin qayğınızla bu gün Zaqatala öz keçmiş şöhrətini, «qızılgül diyarı» adını geri qaytarır. Sizin tapşırığınızla 100 hektardan çox ərazidə qızılgül və lavanda əkilib. Müasir tələblərə cavab verən zavod tikilir. Layihəyə əsasən ilkin dövrlərdə 100 ton gül ləçəyindən 30–35 kiloqram, gələcəkdə isə 500 ton gül ləçəyindən 125–130 kiloqramadək gül yağı istehsalı nəzərdə tutulub. Bu da öz növbəsində, 600-dən çox yeni iş yerinin yaradılması deməkdir. Hazırda işin həcminə görə burada 100–150 nəfər işçi çalışır. İşçilərimiz hər bir şəraitlə, yüksək əməkhaqqı ilə təmin olunublar və bu da bizim sosial təminatımızın yaxşılaşmasında böyük rol oynayır.

Cənab Prezident, müəssisəmizdə xarici mütəxəssislərlə yanaşı, yerli kadrlar da işləyir. Mən Moskva Texnologiya İnstitutunun məzunuyam. Ağlıma belə gətirməzdim ki, bu gün doğma diyarımda belə gözəl müəssisə açılacaq və mən burada işləyəcəyəm. Möhtərəm cənab Prezident, biz zaqatalalılara yaratdığınız bu şəraitə, göstərdiyiniz diqqətə və qayğıya görə Sizə və Mehriban xanıma dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun. Siz özünüz buralısınız, Moskvada oxumusunuz. Bu ixtisas üzrə təhsil almısınız?

**İlhamə Mehdiyeva:** Bəli.

**İlham Əliyev:** Çox yaxşı.

**Xəzangül Zeynalova** (*müəssisənin işçisi*): Möhtərəm Prezidentimiz, qızılgül diyarı olan Zaqatala rayonuna xoş gəlmisiniz!

**İlham Əliyev:** Burada necə işləyirsiniz? Maaş necədir?

**Xəzangül Zeynalova:** Yaxşı işləyirik, maaş da yaxşıdır, güzəranımız da yaxşılaşır.

**İlham Əliyev:** Əvvəllər haradasa işləyirdiniz?

**Xəzangül Zeynalova:** Xeyr, işləmirdim.

**İlham Əliyev:** Yəni bu iş yaranandan sonra buraya cəlb olunmusunuz?

**Xəzangül Zeynalova:** Bəli. Buna görə Zaqatala rayonunun Tala kəndinin camaatı adından Sizə dərin təşəkkürümü bildirirəm. Burada təkcə Tala kəndindən deyil, yaxın kəndlərdən də insanlar işləyirlər. Ümumilikdə burada 150-dək işçi çalışır. Maaşımız da bizi qane edir.

**İlham Əliyev:** Bu, mövsümi işdir, yoxsa burada daimi işləyirsiniz?

**Xəzangül Zeynalova:** Daimi işləyirik. Cənab Prezident, Siz ölkəmizdə, rayonlarımızda, kəndlərimizdə yeni iş yerləri açmısınız. Kəndimizdə Tütün Emalı zavodu, Fındıq zavodu, bu gül bağları, gül yağı müəssisəsi buna nümunədir. İşləmək

istəyənlər üçün kəndimizdə iş yerləri vardır. İşləmək istəməyənlər, boş-boş gəzənlər üçün iş yeri yoxdur.

**İ l h a m  Ə l i y e v:** İşləmək istəyən özünə iş tapar.

**X ə z a n g ü l  Z e y n a l o v a:** Cənab Prezident, Allah Sizi qorusun. Siz bizim üçün çox iş görürsünüz.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Zaqatala rayonunda son vaxtlar o qədər sürətli inkişaf gedir ki, indi doğrudan da işləmək istəyən özü üçün iş tapar. Fındıq bağlarının sahələri artırılır, rekord həddə çatıb. Mənə verilən məlumata görə, 17 min hektara çatıbdır. Sovet dövründə fındıqçılıq üçün heç vaxt bu qədər əkin sahələri olmayıbdır.

Tütünçülük inkişaf edir, istehsal artır və daha da artacaqdır. Fabrik ən son texnologiyalara əsaslanır. Biz bu ənənəvi sahəni bərpa etdik. Digər sənaye müəssisələri, Süd zavodu, başqa istehsalat sahələri vardır. İndi nəinki Zaqatalada, ümumiyyətlə, hər bir bölgədə kənd təsərrüfatına maraq artır. İnsanlar, hətta şəhərlərdə yaşayan insanlar da kəndlərə, torpağa qayıdırlar. Çünki qayğı var, diqqət var, vəsait ayrılır, suvarma işləri aparılır. Dövlət bu işləri öz üzərinə götürür. Misal üçün, fındıqçılığın, baramaçılığın inkişafı sırf dövlət siyasəti hesabına təmin edilir. Çünki dövlət həm tingləri, pöhrələri, həm də baramaçılıq üçün xaricdən ipəkqurdu alır, kümçülərə pulsuz verir. Sadəcə olaraq, kümçülər gərək 1 ay, 40 gün əziyyət çəksinlər, məhsul yetişdirsinlər və ondan sonra böyük vəsait əldə etsinlər. İndi kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi proqramlar icra edilir. Siz də qeyd etdiniz ki, pambıqçılıq sürətlə inkişaf edir. Biz pambıqçılığın əkin sahələrini 2 il ərzində yüksək dərəcədə artırmışıq. Bu il 136 min hektarda pambıq əkilib. İki il bundan əvvəl cəmi 17 min hektarda əkilmişdi. Görün nə qədər insan işlə təmin edilib. Bütün bu işləri dövlət görür, texnikanı alır, o cümlədən tütünçülük, baramaçılıq, fındıqçılıq, pambıqçılıq üçün fermerlərə subsidiyalar verir. Həmçinin suvarma işlərini aparır, kreditlər verir. Sahibkarlara elə şərait yaradıb ki, onlar gəlib böyük sərmayə qoyurlar. Bu gülçülük sahəsinə qoyulan

sərmayə də böyük sərmayədir. Baxın, ən müasir texnologiyalarla təmin edilmiş zavod – bu, böyük vəsait tələb edir. Xaricdən mütəxəssislər cəlb edilib. İndi xarici bazarlara çıxmaq üçün araşdırmalar aparılır. Dövlət hər zaman sahibkarların, kəndlilərin yanındadır. Mən çox şadam ki, belə gözəl sahə yaradılıb. Bu günə qədər işlə təmin olunmayan yüzlərlə insan burada işləyir, pul qazanıb evinə aparır, özü də razıdır, dövlət də razıdır. Sizə uğurlar arzulayıram. Yaxşı işləyin ki, işlər daha yaxşı getsin.

* * *

*Sonra prezident İlham Əliyev qızılgül sahələrinə baxdı.*

## «Bəhmətli» elektrik yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatalada 110/35/10 kV-luq «Bəhmətli» elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlət başçısına yarımstansiyanın texniki göstəriciləri barədə məlumat verdi. Stansiyanın ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıbdır.*

*Stansiyanın binasında ümummilli lider Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycanda elektroenergetika sahəsinin inkişafındakı xidmətlərindən bəhs edən fotostend yaradılıb. Binada işçilərin yüksək səviyyədə fəaliyyəti üçün otaqlar bütün zəruri avadanlıqlarla təchiz edilibdir.*

*Bu yarımstansiya Zaqatala rayonunun elektrik təchizatının yaxşılaşdırılması, rayonun elektrik enerjisi verilişində yaranan fasilələrin qarşısının alınması məqsədi ilə tikilib. Əvvəllər 110 kV-luq ikinci Zaqatala hava xəttindən budaqlanma vasitəsilə qidalanan 1x6,3 MVA gücündə olan «Bəhmətli» yarımstansiyası*

*Bəhmətli və digər kəndləri elektrik enerjisi ilə təmin edərkən ciddi problemlər yaşanırdı. Yarımstansiyanın bir transformatorla qidalanması elektrik enerjisinin verilişində fasilələrin yaranmasına səbəb olurdu. Bunu nəzərə alaraq, 110 kV-luq ikinci Zaqatala hava xəttindən qidalanan 1 kilometr uzunluğunda birdövrəli «Bəhmətli» budaqlanması ikidövrəli budaqlanma xəttinə çevrilərək, yenidən qurulub. Yarımstansiyada 2x10 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 və 35 kV-luq açıq paylayıcı şəbəkə inşa edilib. Həmçinin yarımstansiyadan 35/10 kV-luq «Muğanlı» və 35/6 kV-luq «Qaraçay» yarımstansiyalarını qidalandıran 35 kV-luq «Muğanlı» hava xəttinin çıxışı kabellə əvəzlənib. Tam yenidən qurulan yarımstansiyadakı qurğularda müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli «rele» mühafizə və avtomat sistemləri, yarımstansiyanın məsafədən idarə olunması üçün SCADA dispetçer sisteminə qoşulmasını təmin edən avadanlıqlar quraşdırılıb. «Bəhmətli» yarımstansiyası Bəhmətli, Suvagil, Dağlı, Mosul, Yengiyan, Lahıc, Kürdəmir, Muğanlı, Qandax, Kəpənəkçi, Çüdülübinə kəndlərinin və Əliabad qəsəbəsinin 9000-ə yaxın abonentini keyfiyyətli elektrik enerjisi ilə təmin edəcəkdir. Bu stansiyadan əlavə, Zaqatala Elektrik Şəbəkəsinin xidməti ərazisində əvvəllər adı «Ulduz» olan 35/10 kV-luq yarımstansiya tam sökülərək, yerində müasir tipli qapalı «Danaçı» yarımstansiyası da tikilibdir.*

*Dövlət başçımızın müəyyənləşdirdiyi «İşıqlı Azərbaycan» layihəsinə uyğun olaraq, «Azərişıq» ASC ölkənin bütün regionlarında olduğu kimi, şimal-qərb bölgəsində də istehlakçıların dayanıqlı, fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində genişmiqyaslı tikinti, yenidənqurma və bərpa işləri həyata keçirir. Zaqatalada inşa edilən 110/35/10 kV-luq «Bəhmətli» yarımstansiyası da bu istiqamətdə icra edilən layihələrdəndir. Ümumilikdə son illərdə «Azərişıq» ASC tərəfindən bu bölgədə çox mühüm işlər görülüb. «Azərişıq» ASC yaradıldıqdan sonra turizm və kənd təsərrüfatı zonası sayılan şimal-qərb*

*bölgəsində müasir standartlara cavab verən 110/35/10 kV-luq 4 yarımstansiya tikilib və yenidən qurulub. 35/10 kV-luq yarımstansiyalar üzrə 3 yarımstansiya istifadəyə verilib, 5 yarımstansiyada isə işlər yekunlaşmaq üzrədir. Bütün bunlarla paralel olaraq, Şimal-Qərb RETSİ-nin xidməti ərazisində 287 transformator məntəqəsi quraşdırılıb. Region üzrə 300 kilometr izolyasiyalı naqil və 310 kilometr naqil xətləri çəkilib, 27 min yeni dayaq basdırılıb və dəyişdirilibdir. İki il ərzində Qax, Qəbələ, İsmayıllı, Şəki və Oğuz rayonlarında müasir və bir-birindən fərqli memarlıq üslubunda yeni ofis binaları tikilərək, istifadəyə verilibdir. Əməkdaşların operativ fəaliyyəti üçün hər cür şərait yaradılan ofis binalarında abonentlərə xidmətin keyfiyyətinin artırılması, enerji satışı, qəza xidməti, müştəri xidmətləri üçün xüsusi otaqlar yaradılıb. Şimal-Qərb RETSİ üzrə 150-yə yaxın kənd və qəsəbədə yenidən qurulma işləri aparılıb və aparılmaqdadır. 8 rayon üzrə ümumilikdə 7225 yeni sayğac quraşdırılıb, 14025 sayğac yenisi ilə əvəz edilibdir. Ümumilikdə istismar müddətini başa vurmuş elektrik şəbəkələrində görülən işlər nəticəsində texniki itkilər azalıb, elektrik enerjisinin yığımı artıbdır. «Azərişıq» ASC yaradılandan sonra Şimal-Qərb RETSİ üzrə rayonların ümumi qoyuluş gücü 131,5 MVA artırılıbdır.*

*Sonra prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## QAX RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Zaqatala rayonuna səfərini başa vuraraq, Qax rayonuna gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev rayonda görülən işlər, həyata keçirilən layihələr barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, son illər rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda bir çox sosial infrastruktur obyektləri tikilib, kənd təsərrüfatı sahəsində istehsal müəssisələri yaradılıbdır.*

### Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax şəhərində Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, inşasına 2016-cı ildə başlanılan Bayraq Meydanı Kompleksi istifadəyə tam hazırdır. Ərazisi 3 hektar olan kompleksin inşası rayonun daxili imkanları hesabına həyata keçirilib. Azərbaycan Respublikasının Dövlət bayrağı hündürlüyü 62 metr olan bayraq dirəyində dalğalanır. Geniş yaşıllaşdırma işlərinin görüldüyü kompleksdə müasir işıqlandırma*

*sistemi quraşdırılıb. Bundan əlavə, Bayraq Meydanının ərazisində ümumi sahəsi 730 kvadratmetr olan muzey binası inşa edilibdir.*

*Muzeydə milli bayrağımızın təbliği ilə bağlı xüsusi eksponatlar və dövlət atributları sərgilənir. Ekspozisiya zalında Azərbaycanda mövcud olmuş dövlətlərin bayraqlarına və bayraqla bağlı atributlara geniş yer verilib. Bu eksponatlar Azərbaycan dövlətçiliyinin keçdiyi tarixi yolu əks etdirməklə yanaşı, həm də gənc nəsil üçün xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı irəli sürdüyü təşəbbüslərə dəstək baxımından regionlarda həyata keçirilən belə layihələr bir daha əminlik yaradır ki, Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir və onun gələcəyi parlaqdır.*

*Qeyd edək ki, ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır və hər bir azərbaycanlı Dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Bu layihələrdən biri də bayraq muzeylərinin təşkilidir. Ölkəmizdə ilk Bayraq Muzeyi paytaxtımızda fəaliyyətə başlasa da, indi bu layihənin davamı olaraq regionlarda da belə muzeylər yaradılır. Qaxda yaradılan Bayraq Muzeyi də bu sırada xüsusi yeri ilə seçilir.*

## Alatəmir–Marsan–Tasmalı–Zəyəm–Lələli avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Alatəmir–Marsan–Tasmalı–Zəyəm–Lələli avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, rayonun Fıstıqlı, Marsan və Cüdüllü kəndlərinə gedən 7 kilometrlik giriş yolları ilə bərabər, avtomobil yolunun ümumi uzunluğu 23,5 kilometrdir. Əvvəllər torpaq-çınqıl örtüklü olan 2 hərəkət zolaqlı avtomobil yolu hazırda asfalt-beton örtüklüdür. Layihəyə uyğun olaraq, yol genişləndirilərək, 10 metr enində yeni yol yatağı inşa edilibdir. Təmir işləri zamanı Fıstıqlı, Marsan və Cüdüllü kəndlərinə gedən yolların üzərində yeni körpülər də inşa olunubdur. Körpülərin uzunluğu 9,5 və 24 metr təşkil edir. Hər iki körpünün eni isə 11 metrdir. Bundan başqa, yolboyu 102 metr uzunluğunda müxtəlif diametrli 9 suötürücü dəmir-beton borular quraşdırılıb. Layihə çərçivəsində yol boyunca 468 təhlükəsizlik dirəyi, 166 müxtəlif yol nişanı və 16 məlumatverici lövhə quraşdırılıb, yolun üfüqi nişanlanma xətlərinin çəkilişi işləri aparılıbdır.*

*Prezident İlham Əliyevin 2016-cı il 22 avqust tarixli Sərəncamına əsasən inşa edilən Alatəmir–Marsan–Tasmalı–Zəyəm–Lələli avtomobil yolu 7000-dən çox əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirir. Yolun yenidən qurulması ilə bu ərazidə yük və sərnişin daşınması xeyli yaxşılaşıb, yetişdirilən məhsulların rayon mərkəzlərinə rahat daşınmasına imkan yaranıbdır. Bu, kənd təsərrüfatının inkişafına müsbət təsir etməklə, yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə şərait yaradır.*

*Bu avtomobil yolu prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən bu il reallaşdırılan kəndlərarası 40 avtomobil yolu layihəsindən biridir.*

*Dövlətimizin başçısı yeni yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Lələpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Lələpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına təsərrüfat barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, 3,4 hektar sahədə salınan bağda 130 fındıq ağacı vardır. Böyük məhsuldarlığın gözlənildiyi təsərrüfatda bu il 2 tondan çox məhsulun yığılması planlaşdırılır.*

*Qeyd olundu ki, Qax rayonunda fındıqçılığın tarixi ənənələri vardır. Əhalinin böyük hissəsi bu təsərrüfatlarda çalışır. Son illər təkcə Tasmalı inzibati ərazi dairəsində 800 hektara yaxın sahədə fındıq bağları salınıb. Lələpaşa kəndində isə 150 hektar sahədə fındıq yetişdirilir.*

*Prezident İlham Əliyevin fındıqçılığın inkişafı ilə bağlı tapşırıqlarına əsasən həyata keçirilən tədbirlər nəticəsində bu sahədə böyük irəliləyişə nail olunubdur. Əhalidə ölkəyə ən çox valyuta gətirən strateji məhsullar sırasında olan fındığın becərilməsinə maraq daha da artıbdır. Mövcud imkanlarla kifayətlənməyən şəxsi təsərrüfat sahibləri yeni fındıq bağlarının salınmasına, fındıq pöhrələrinin alınıb becərilməsinə xüsusi maraq göstərirlər. Bunun nəticəsidir ki, indi ərazidə 1,4 və 1,5 hektar sahədə yeni fındıq bağları salınıbdır.*

*Bu il fındıq bağlarından bol məhsul gözlənilir. Avqustun sonlarından başlayaraq, bir ay ərzində məhsulun yığımı həyata keçiriləcəkdir. Bununla da qeyri-neft sektorunun inkişafını qar-*

*şıya əsas məqsəd qoyan dövlət başçımızın irəli sürdüyü təşəbbüslər sayəsində bu sahədə də ciddi nailiyyətlər əldə olunur. Fındıqçılığın inkişafının stimullaşdırılması da bu qəbildəndir. Ümumiyyətlə, fındıq istehsalı ölkəmizdə kənd təsərrüfatının inkişafında önəmli rol oynayır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, Azərbaycan fındıq istehsalı üzrə dünyada 4-cü ölkədir. Respublikamızda təqribən 35 min ton fındıq istehsal olunur və onun 90 faizi xarici ölkələrə ixrac edilir. Təsadüfi deyil ki, 2016-cı ildə Azərbaycandan 25 ölkəyə 100 milyon dollardan çox məbləğdə fındıq ixrac olunub. Bu sahədə təbii ki, dövlət dəstəyi ilə keçirilən təşviq tədbirlərinin də böyük rolu vardır. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq təşkil edilən çoxsaylı biznes-forumlar, ixrac missiyaları və işgüzar görüşlərdə iştirak edən milli istehsalçılar yeni dəstək mexanizmlərindən istifadə edərək, bu sahədə ciddi irəliləyişə nail olublar. Bununla yanaşı, məhsulun artırılması məqsədilə dövlət tərəfindən fındıq istehsalçılarına milyonlarla manat güzəştli kreditlər verilib, fındıq pöhrələri alınaraq, fermerlərə pulsuz paylanılıbdır. Bu isə yeni bağların salınmasına, fındıq istehsalının və ixracının daha da artırılmasına geniş imkanlar açıbdır.*

## Qorağan–Qax–Zaqatala avtomobil yolunun Qorağan–Qax hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qorağan–Qax–Zaqatala avtomobil yolunun Qorağan–Qax hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində inşa olunan Qorağan–Qax–Zaqatala avtomobil yolunun Qorağan–Qax hissəsinin əsaslı təmir işləri uğurla və*

*yüksək keyfiyyətlə aparılıb. Layihənin başlanğıcı Qorağan–Qax–Zaqatala avtomobil yolunun 14-cü kilometri, yəni Qax şəhərinin girişi, sonu isə Yevlax–Zaqatala–Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 125-ci kilometridir. Uzunluğu 29,8 kilometr olan yolun 8,6 kilometrlik hissəsində tikinti işləri tam yekunlaşdırılıbdır.*

*Diqqətə çatdırıldı ki, 2 hərəkət zolaqlı yolda qazma və dolğu işləri, yeni yol yatağının və yol əsasının tikintisi yekunlaşdırılaraq, asfalt döşənməsi işləri görülüb. Yol üzərində suötürücü borular tikilib, beton kanal və drenaj işləri görülüb, rabitə və su xətlərinin yerinin dəyişdirilməsi də yekunlaşdırılıbdır. Yol üzərində biraşırımlı dəmir-beton körpü və Süsgəncçay üzərində uzunluğu 46 metr olan ikiaşırımlı dəmir-beton körpü inşa edilib, dəmir-beton suötürücü boruların da quraşdırılması başa çatdırılıbdır. Qorağan–Qax–Zaqatala avtomobil yolunun Qorağan–Qax hissəsinin tikintisi layihəsi çərçivəsində 5 yeni körpünün inşası, 1 körpünün əsaslı təmiri, suötürücü boruların quraşdırılması nəzərdə tutulubdur.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qax–Zaqatala avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyində yerləşir və ölkənin ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Yol mühüm turizm marşrutuna daxil olmaqla yanaşı, əhatə dairəsinə, xüsusilə Qax və Zaqatala rayonlarının 37 min nəfərdən çox əhalisi olan 22 yaşayış məntəqəsinə nəqliyyat xidmətini yaxşılaşdırmağa imkan verəcək, həmçinin Qax və Zaqatala rayonları arasında hazırda mövcud olan yol məsafəsi xeyli qısalacaqdır.*

## Tütün qəbulu məntəqəsində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də tütün qəbulu məntəqəsində yaradılan şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün də inkişaf etdirilməsi qarşıya məqsəd qoyulub. Qax rayonu bu baxımdan böyük potensiala malik bölgələrimizdən biridir. Bu sahənin inkişafında prezident İlham Əliyevin «Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında» Sərəncamı böyük əhəmiyyət kəsb edir. Sərəncam ölkəmizdə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək, bu sahənin potensial imkanlarından səmərəli istifadə etmək, rəqabət qabiliyyətini yüksəltmək və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahını daha da yaxşılaşdırmaq məqsədi daşıyır. Bu da Azərbaycanda aqrar sektorun ən perspektivli sahələrindən olan tütünçülüyün inkişafı üçün atılan addımların təqdirəlayiq olduğunu göstərir.*

*Təsadüfi deyil ki, dünyada gün ərzində satış dəyəri təxminən 4 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyon dollara çatır. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr sırasında yer alır. Azərbaycanda da tütünçülüyün inkişafı üçün lazım olan bütün şərtlər mövcuddur. Bu sektorda həm böyük ənənə və təcrübə, həm keçmiş strukturdan qalma mütəxəssis bazası, emal fabrikləri, ucuz və yerli xammal əldə etmək və nəhayət, daxili və xarici bazara çıxış imkanları vardır.*

*Dövlət başçısına məlumat verildi ki, sovet dövründə respublika üzrə tütün tədarükünün xeyli hissəsi Qax rayonunun payına düşürdü. Respublikada ən çox tütün tədarükü də həmin dövrə – 1986-cı ilə təsadüf edirdi. Hazırda yeni tütün təsərrüfatlarının salınması, tütünçülüyə dövlət qayğısının getdikcə artması bu sahədə çalışanlara stimul olubdur. Fermerlərlə bağlanan müqavilələrin sayı da bunu təsdiqləyir. Əgər ötən il fermerlər tərəfindən məntəqəyə 30 müraciət daxil olmuşdusa, indi bu göstərici 60-ı keçib. Bu il rayonda 6500–7000 ton yaşıl tütün tədarükü gözlənilir. Artıq məntəqədə tütün qəbuluna başlanılıb.*

*Yerli fermerlər müxtəlif tütün sortları yetişdirirlər. Üstünlük isə əsasən yüksək məhsuldarlığa malik «Virciniya» sortuna verilir. Sahələrdən toplanan yaşıl tütün məntəqəyə qəbul olunduqdan sonra buradakı 60 kamerada bir həftə ərzində qurudulur. Hazırda müəssisədə 90 nəfər işlə təmin olunubdur.*

*Tütünçülüyün inkişafına göstərilən diqqət onu deməyə əsas verir ki, yaxın perspektivdə istehsalı dəfələrlə artırmaq mümkün olacaq. Bu baxımdan satış bazarını tapmaq, ilk növbədə, daxili bazarı tam təmin etmək, sonrakı mərhələdə ixrac imkanlarını genişləndirmək hazırda qarşıda duran əsas vəzifədir. Bu məqsədlərə nail olmaq üçün dövlətimizin başçısı hökumət qarşısında ciddi tələblər qoyub. Çünki tütünçülük post-neft dövründə ölkə iqtisadiyyatının inkişafını təmin edə biləcək əsas sahələrdən sayılır. Ən azı daxili tələbatı yerli məhsul hesabına ödəməklə, idxaldan asılılığı aradan qaldırmaq mümkündür. Şübhə yoxdur ki, tezliklə tütün sektorunun Azərbaycan iqtisadiyyatında çəkisi ciddi şəkildə artacaq. Ölkəmiz tütünçülükdən böyük gəlirlər əldə edəcək, bu sahənin inkişafı həm də on minlərlə yeni iş yerinin yaranmasına səbəb olacaqdır.*

## Yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax rayonunda 110/35/10 kV-luq yeni elektrik yarımstansiyasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Yarımstansiya barədə dövlət başçısına məlumat verən «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev bildirdi ki, «Azərişıq» tərəfindən regionlarda yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi əhalinin elektrik enerjisinə tələbatının ödənilməsində mühüm nailiyyətlərin əldə olunmasına geniş imkanlar açıb. Bu işlər Qax Elektrik Şəbəkəsinin xidməti ərazisindəki yarımstansiyaları da əhatə edib və bü-*

*tövlükdə rayonda genişmiqyaslı tədbirlər həyata keçirilibdir. İstehlakçıların elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq üçün şəhərin Qaxbaş adlanan hissəsində və İlisu kəndində yenidən qurulma işləri aparılır. Bu istiqamətdə yeni müasir tipli komplekt transformator məntəqələri quraşdırılıb, 10 və 0,4 kV-luq şəbəkə yenidən qurulur. Həmçinin Qax şəhərinin Qaxbaşla yanaşı, Beynəlmiləl adlanan ərazisində 15 ədəd 10/0,4 kV-luq transformator məntəqəsinin 10-0,4 kV-luq şəbəkəsinin yenidən qurulması işləri tamamlanmaq üzrədir. Həmin ərazidə 10 kV-luq İlisu, Qaxbaş, Beynəlmiləl hava xətlərində dayaqlar basdırılıb, naqillər və kabellər çəkilib. Rayonun İlisu, Güllük, Qorağan, I və II Şəhər, Qıpcaq, Qaxbaş, Qaşqaçay, Asfaltzavod, Tasmalı hava xətləri yenidən qurulub, müasir komplekt transformator məntəqələri quraşdırılıb, 0,4 kV-luq şəbəkə yenilənərək, müasir kabellərlə əvəzlənib. Ümumilikdə son 2 ildə Qax Elektrik Şəbəkəsinin xidməti ərazisində bir çox hava xətləri dəyişdirilib, köhnə tipli transformator məntəqələri 26 yeni komplekt transformator məntəqələri ilə əvəzlənib. Qax Elektrik Şəbəkəsində 2500-dən çox istismara yararsız sayğac dəyişdirilib, 926 yeni sayğac quraşdırılıbdır.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Diqqətə çatdırıldı ki, Şimal-Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinin (RETSİ) xidməti ərazisində yenidən qurulması vacib olan əsas bölgələrdən biri Qax rayonu idi. Belə ki, ümumilikdə 15402 abonentə və bununla da 56 min insana xidmət edən Qax Elektrik Şəbəkəsinin təchizatı 110/35/10 kV-luq «Şıxlar» yarımstansiyasından çıxan birdövrəli 35 kV-luq Qax hava xəttinin qidalandırdığı 35/10 kV-luq «Qax» yarımstansiyasındakı iki 6,3 MVA gücündə transformatorla təmin edilirdi. Rayonun elektrik enerjisi təchizatının yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməsi zərurətə çevrilmişdi. Ona görə də «Azərişıq» ASC ortaya çıxan problemləri aradan qaldırmaq, güc defisitini minimuma endirmək və istehlakçıları fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etmək məqsədilə yeni*

*110/35/10 kV-luq, iki 40 MVA gücündə «Qax» yarımstansiyasının tikintisinə start verib. Yeni yarımstansiyanın qidalandırılması məqsədilə 110/35/10 kV-luq «Şıxlar» yarımstansiyasının 110 kV-luq açıq paylayıcı quruluşunda yenidən qurulma işləri aparılıb və iki 110 kV-luq yuva quraşdırılaraq, həmin yuvalardan 110/35/10 kV-luq «Qax» yarımstansiyasına 12 kilometr uzunluğunda ikidövrəli hava xətti çəkilib. Paralel olaraq, yeni «Qax» yarımstansiyasında 110, 35 və 10 kV-luq açıq və qapalı paylayıcı qurğular inşa edilib. Bu yarımstansiyada 39/10 kV-luq, 16/35 kV-luq yuva, elektron tipli «rele» mühafizə və avtomatika sistemləri, məsafədən idarə olunmaq üçün SCADA dispetçer sisteminə qoşulmasına lazım olan avadanlıqlar quraşdırılıbdır.*

*Qeyd olundu ki, «Qax» yarımstansiyası rayonun 9000-dən çox abonentini elektrik enerjisi ilə təmin edir. Yeni yarımstansiyanın istifadəyə verilməsi Qax əhalisi ilə yanaşı, mövcud və perspektivdə nəzərdə tutulan iqtisadi, sosial obyektlərin, həmçinin turizm sahəsinin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsinə yönəlmiş çox önəmli hadisədir. Qax rayonunda turizm, kənd təsərrüfatı, iqtisadi və sosial obyektlərin inkişafını nəzərə alaraq, görülən işlər təkcə 110 kV-luq «Qax» yarımstansiyası ilə yekunlaşmır. Məhz turizm obyektlərinin enerji təchizatını yaxşılaşdırmaq üçün İlisu kəndi ərazisində yeni iki 10 MVA gücündə 35/10 kV-luq yarımstansiya tikilib. Bundan başqa, fəaliyyətdə olan 35 kVluq Qax hava xəttindən budaqlanan «Qapıçay» yarımstansiyasının da 110/35/10 kV-luq «Qax» yarımstansiyasından qidalanması nəzərdə tutulur.*

*Qax, Zaqatala, Balakən, İsmayıllı, Qəbələ, Şəki, Oğuz və Şamaxı rayonlarının cəmləşdiyi «Azərişıq» ASC-nin Şimal-Qərb RETSİ-də 8 rayon üzrə 471 kənd, 54 yaşayış məntəqəsi və 14 qəsəbə var və onlar da ümumilikdə 198 min abonent olmaqla, 690 min əhali elektrik enerjisi ilə təchiz edilir. Bu zonada dörd müasir 110/35/10 kV-luq yarımstansiya tikilib, 35/10 kV-luq yarımstansiyalardan isə üçü istifadəyə verilib,*

*beşində işlər yekunlaşmaq üzrədir. 8 rayon üzrə 7200-dən çox sayğac quraşdırılıb, yeni ofis binaları tikilib, texniki itkilər azalıb, Şimal-Qərb RETSİ üzrə rayonların ümumi qoyuluş gücü 131,5 MVA artırılıbdır.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 180 yerlik Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qaxda inşa olunmuş 180 yerlik Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, uşaq bağçasının inşasına 2014-cü ilin iyulunda başlanılıb. Tikinti işləri ötən ay başa çatdırılıb. Ərazisi 2124 kvadratmetr olan bina üçmərtəbəlidir. Müxtəlif yaş qruplarının fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, idman zalı və yeməkxanada da yüksək şərait vardır.*

*Qeyd edək ki, Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət göstərir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil mü-*

*əssisələrinin inkişafı» proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.*

*Körpələr evi-uşaq bağçasının həyətində balacaların istirahəti üçün meydançalar salınıb və attraksionlar quraşdırılıbdır.*

## QAX RAYONUNDA BARAMA, TÜTÜN VƏ FINDIQ İSTEHSALININ İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ* İŞTİRAK

*4 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə avqustun 4-də Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.*

*Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Dünən mən Balakən, Zaqatala, Qax rayonlarında səfərdə olmuşam. Rayonlarda görülən işlərlə tanış olmuşam, əlavə tapşırıq vermişəm və bir daha görürəm ki, bu rayonlarda son illər ərzində çox sürətli inkişaf gedir. Bir çox sosial, infrastruktur, energetika,

---

* Qaxda barama, tцtцn vя fындıq иstehsalынын инкишафы mяsяlяlяrиня daиr respublиka mцшavиrяsində Qax Rayon Иcra Hakиmиyyяtиnиn baшчысы Musa Şəkiliyev, Шяki Шяhяr Иcra Hakиmиyyяtиnиn baшчысы Elxan Usubov, «Шяki Иряk» Aчыq Sяhmdar Cямиyyяtи Idaря Heyяtиnиn sядrи Nizami Qяrиbov, Zaqatala Rayon Иcra Hakиmиyyяtиnиn baшчысы Mübariz Əhmədzadə, Zərdab Rayon Иcra Hakиmиyyяtиnиn baшчысы Lütфəli Babayev, Fындıq Иstehsalчыlarы vя Иxracatчыlarы Assosиasиyasынын sядrи Иsmayıl Orucov, Fцzulи Rayon Иcra Hakиmиyyяtиnиn baшчысы Alı Alıyev, Zaqatala rayonu «Daьlar» kяndlи-fermer tяsяrrцfatынын rяhbяrи Telman Həsrətov və Balakяn Rayon Иcra Hakиmиyyяtиnиn baшчысы İslam Rzayev çıxış etdilər.

nəqliyyat, kənd təsərrüfatı, emal sənayesi obyektlərinin açılışlarında iştirak etmişəm.

Dünənki bütün tədbirlər əslində son illər ərzində bu bölgədə və ümumiyyətlə, Azərbaycanda görülən işləri bir daha əyani şəkildə təqdim edir.

Nəinki bu 3 rayonda, bütün şimal-qərb zonasında çox sürətli inkişaf gedir. Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur. Ancaq, əlbəttə, burada əsas investisiya qoyuluşunun payı dövlətin üzərinə düşür. Son illərdə bu bölgəyə yolların, elektrik stansiyalarının tikintisi, qazlaşdırma, su təchizatı, suvarma məsələləri, sosial obyektlərin inşası ilə bağlı Azərbaycan büdcəsi hesabına çox böyük investisiyalar qoyulubdur. Məktəblər, xəstəxanalar, sosial obyektlər, idman kompleksləri, turizm obyektləri – bir sözlə, bu gün ölkəmizin şimal-qərb zonası öz sürətli inkişaf dövrünü yaşayır, perspektivləri də çox müsbətdir. Əminəm ki, verilən tapşırıqların yerinə yetirilməsi nəticəsində gələcək illərdə bu müsbət dinamika daha da güclənəcəkdir. Bugünkü müşavirə bu bölgəyə xas olan ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafına həsr edilib. Tütünçülük, baramaçılıq, fındıqçılıq bu bölgədə əsrlərboyu inkişaf etmişdir. Bu sahələrin ölkəmizdə çox böyük və zəngin ənənələri vardır. Burada mövcud olan torpaq şəraiti, torpağın münbitliyi, iqlim, coğrafi vəziyyət, xarici bazarlara yaxın olmağımız və qədim İpək yolu üzərində yerləşməyimiz – bütün bunlar bu sahələrin inkişafına təkan vermişdir. Azərbaycan xalqı əsrlərboyu bu sahələrdə çalışıb və yaxşı nəticələr əldə edibdir. Statistikaya baxdıqda görürük ki, tütünçülüyün, baramaçılığın, fındıqçılığın ən uğurlu və sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun fəaliyyəti nəticəsində ötən əsrin 70–80-ci illərinin əvvəllərində bu sahələrdə böyük inkişaf təmin edilmişdir. O vaxt bu sahələrdə görülən işlər deməyə əsas verir ki, biz bu gün bu sahələri uğurla bərpa edə bilərik. Nəinki bu sahələr, kənd təsərrüfatının pambıqçılıq, üzümçülük və digər sahələri də

Heydər Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etmişdir. Biz bu ənənəvi sahələri bu gün bərpa edirik.

Bugünkü müşavirənin əsas məqsədi ondan ibarətdir ki, görülmüş işlərə yekun vuraq – çünki son 2 il ərzində bu sahələrin inkişafı üçün çox böyük işlər görülmüşdür – eyni zamanda, gələcək fəaliyyətimiz üçün konkret tədbirlər planı hazırlayaq. Dövlət proqramları da qəbul ediləcəkdir ki, bu ənənəvi sahələr Azərbaycanda daha geniş vüsət alsın.

Ulu öndər Heydər Əliyev Azərbaycandan Moskvaya gedəndən sonra bu sahələrdə də, bütün digər sahələrdə də Azərbaycan tənəzzüllə qarşılaşdı, iqtisadi, sənaye potensialımız yavaş-yavaş aşağı düşməyə başladı və nəticədə müstəqilliyimizin ərəfəsində ölkə iqtisadiyyatı və sənayesi, demək olar ki, çox ağır vəziyyətdə idi. Müstəqilliyimizin ilk illərində isə antimilli qüvvələr – AXC–Müsavat cütlüyü ölkəmizi, demək olar ki, məhvə aparırdı. Siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi təhlükəsi, torpaqlarımızın işğal altına düşməsi, eyni zamanda, onların səriştəsizliyi və savadsızlığı ucbatından ənənəvi kənd təsərrüfatı sahələri artıq tənəzzülə uğradı, sənaye istehsalı da həmçinin. O vaxt inflyasiya 1000 faizlərlə ölçülürdü və ölkənin perspektivləri çox qaranlıq idi. Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıdandan sonra 1993-cü ildən başlayaraq, ölkəmizdə sabitlik təmin edildi, bütün qanunsuz silahlı birləşmələr tərk-silah edildi, qayda-qanun yaradıldı, xaosa, anarxiyaya, hərc-mərcliyə son qoyuldu və Azərbaycan sabitlik dövrünə qədəm qoydu.

O vaxt, əlbəttə ki, bizim böyük maliyyə imkanlarımız yox idi, Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı. Ona görə ilk növbədə, ölkəmizi dünyada tanıtmaq, investisiyaları cəlb etmək məqsədi qarşımızda durmuşdu və biz bu məqsədə nail olduq. «Əsrin müqaviləsi»nin imzalanması bunun bariz nümunəsidir. O vaxt Azərbaycana böyük investisiya axınını təmin edən bu tarixi layihə ölkəmizin həyatında xüsusi rol oynamışdı. Sənaye istehsalı ilə bağlı da çox ciddi addımlar

atılmışdı. Xüsusilə o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş qərarlar imkan verdi ki, kənd təsərrüfatı inkişaf etməyə başlasın. Kəndlilər, fermerlər yaxşı bilirlər ki, Heydər Əliyevin göstərişi ilə fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmişdi, torpaq islahatı aparılmışdı və inkişafa gedən yolda ilk addımlar atılmışdı. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, ona görə dövlət kənd təsərrüfatına öz maddi dəstəyini lazımi səviyyədə göstərə bilmirdi. Ancaq bazar iqtisadiyyatına keçid nəticəsində kənd təsərrüfatında inkişaf dövrü başlanmışdır.

2004-cü ildə mənim təşəbbüsümlə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildi və bu proqramın ölkə tarixində çox böyük rolu vardır. İndi təsəvvür edin, əgər o proqram qəbul edilməsəydi, bizim bölgələrimiz hansı problemlərlə üzləşə bilərdi. Məhz bu birinci proqramın, ondan sonra ikinci, üçüncü proqramların qəbulu nəticəsində bölgələr dirçəldi, inkişaf etdi, böyük investisiya qoyuluşu təmin edildi. 2004-cü ildən bu günə qədər Azərbaycan bölgələrinin inkişafı hesab edirəm ki, tarixi nailiyyətdir. Heç vaxt Azərbaycan tarixində belə qısa müddət ərzində bu qədər işlər görülməmişdir. Bu gün Azərbaycanın bölgələrində lazım olan bütün infrastruktur layihələri icra edilib və biz sürətli inkişaf dövrünü yaşayırıq.

O vaxt qarşımızda duran əsas vəzifələr infrastruktur məsələlərini həll etmək idi. Yollarımız bərbad idi, elektrik enerjisi ilə özümüzü təmin edə bilmirdik, qaz təchizatı, demək olar ki, bölgələrdə, ümumiyyətlə, yox idi, Bakının yarısı qazsız idi, meliorasiya ilə bağlı olan layihələr sadəcə olaraq, kağız üzərində qalmışdı. Biz onları həyata keçirdik və infrastruktur məsələlərinin həlli nəticəsində bu gün Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, hətta xaricə də böyük miqdarda ixrac edir və xeyli vəsait qazanır. Azərbaycanda tikilmiş 20-dən çox yeni elektrik stansiyası bu imkanları bizə yaratdı. Qazlaşdırılma Azərbaycanda hazırda 93 faiz səviyyəsindədir və biz indi dünya üçün, Avropa üçün, qonşu ölkələr üçün qaz

təchiz edən etibarlı ölkəyə çevrilmişik. 2004-cü ildən bu günədək, yəni 2017-ci ilə qədər 11 min kilometrlik yeni yollar – həm magistral, həm də kənd yolları salınıbdır, böyük meliorasiya layihələri icra edilib, Taxtakörpü, Şəmkirçay su anbarları, digər dəryaçalar yaradılıb, kanallar çəkilibdir və bu proses bu gün də davam etdirilir. Qarşıda duran əsas məsələlərdən biri də fermerləri dayanıqlı su ilə təmin etməkdir.

Sosial infrastruktur yaradıldı, 3000-dən çox məktəb, 600-dən çox xəstəxana, bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi tikildi. Sahibkarlara verilən kreditlər hesabına yüz minlərlə yeni iş yeri yaradıldı. Bütövlükdə 2004-cü ildən bu günə qədər 1 milyon yarım iş yeri açılıbdır ki, bunun böyük əksəriyyəti daimi iş yeridir. Demək olar ki, hazırda Azərbaycanda işsizlik kimi, bir çox ölkələri incidən, boğan sosial amil yoxdur. İşsizlik 5 faiz səviyyəsindədir. Bu gün işləmək istəyən özü üçün iş tapa bilər. Son 2 il ərzində xüsusilə kənd təsərrüfatı, sənaye sahələrində çox böyük işlərin görüldüyünü nəzərə alsaq, Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcəkdir. Biz xalqımızı, dövlətimizi bu böyük bəlalardan qurtara bildik.

2004-cü ildən başlayaraq, infrastruktur layihələrinin icrası ilə bağlı əsas vəzifələrdən biri ərzaq təhlükəsizliyi idi. Biz əsas diqqətimizi bu sahəyə yönəltdik. Çünki bu, prioritet idi. Yaşlı nəslin nümayəndələri yaxşı bilirlər ki, sovet vaxtında Azərbaycan özünü ətlə, yağla, südlə, toyuq əti ilə təmin edə bilmirdi, bu məhsullar başqa respublikalardan gəlirdi. Biz isə öz növbəmizdə, pambıq, üzüm, meyvə, tərəvəz, tütün, fındıq istehsal edib başqa respublikalara göndərirdik. Ancaq müstəqillik dövründə ərzaq təhlükəsizliyi məsələləri ön plana çıxdı. Ona görə biz əsas diqqəti bu sahəyə yönəltdik. Bunun nəticəsində bu gün taxılçılıqda böyük inkişaf vardır. Düzdür, bu hələ ki, bizi tam qane edə bilməz, biz özümüzü hələ tam təmin etmirik, ancaq inkişaf vardır. Ət istehsalı Azərbaycanın tələbatını, demək olar ki, ödəyir. Növbəti illərdə görüləcək tədbirlər nəticəsində biz hətta böyük ixrac potensialına da malik

olacağıq. Biz özümüzü toyuq əti ilə 100 faiz, süd və süd məmulatları ilə təqribən 80 faiz səviyyəsində təmin edirik. Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir. Yəni ərzaq təhlükəsizliyi məsələləri prioritetdir. Deyə bilərəm ki, bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə daha da böyük nəticələr olacaqdır.

O ki qaldı texniki bitkilərə, bu sahəyə o qədər də diqqət göstərilməmişdir. Bunun da səbəbləri onunla bağlı idi ki, investisiyalar ilk növbədə infrastruktura, ərzaq təhlükəsizliyi məsələlərinə qoyulmalı idi. Bizim digər böyük sosial proqramlarımız vardır. Xüsusilə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına milyardlarla vəsait qoyulub. Ordu quruculuğuna milyardlarla vəsait qoyulub. Ona görə texniki bitkilərin inkişafı bir qədər diqqətdən kənarda qalıb. Hesab edilirdi ki, bazar iqtisadiyyatı, özəl sektor bu sahələri də inkişaf etdirəcək. Ancaq gördük ki, dövlətin dəstəyi olmadan bu sahələr inkişaf edə bilmir və bu sahələrdə son illərdə çox böyük tənəzzül müşahidə olunur. Demək olar ki, biz bu sahələri itirirdik. Pambıqçılıq, demək olar ki, məhv olurdu. O cümlədən, tütünçülüyə maraq göstərilmirdi, baramaçılıq isə, ümumiyyətlə, gündəlikdən çıxarılmışdı. Amma bu sahələrə göstərilən diqqət nəticəsində cəmi 2 il ərzində dönüş yarandı. Pambıq istehsalı artdı. 2015-ci ildə cəmi 17 min hektarda pambıq əkilirdisə, bu il əkin sahələri 136 min hektara çatdı, cəmi 2 il ərzində təxminən 10 dəfə artdı. İstehsal da buna uyğun şəkildə artır və artacaqdır. Biz indi böyük ixrac imkanlarımızla xarici bazarlara çıxırıq. Nəinki xam pambıq, mahlıc, Mingəçevirdə yaranmaqda olan böyük Yüngül Sənaye Kompleksinin fəaliyyətə başlaması nəticəsində biz hazır məhsul ixrac edəcəyik. Digər sahələr də, misal üçün, fındıqçılıq müstəqillik dövründə artıb. Tütünçülük, baramaçılıqdan fərqli olaraq fermerlər bu sahəyə maraq göstərmişlər. Çox da olmasa, artım var idi. Ancaq biz bu artımı sürətləndirdik. 2 il ərzində

18 min hektarda yeni fındıq bağları salınıb ki, bir neçə ildən sonra onlar bar verəcək.

Tütünçülüklə bağlı atılmış ilk addımlar öz nəticəsini verir. Bu müşavirədən sonra çox ciddi proqram qəbul ediləcək. Azərbaycanda baramaçılıq çox geniş vüsət alıb. Hesab edirəm ki, fermerlər, kəndlilər tərəfindən ən çox maraq göstərilən sahə də baramaçılıqdır. Çünki dövlət hər şeyi öz üzərinə götürüb, bütün lazımi materialları, tingləri verir, bütün sahələr üzrə subsidiyalar verir. Kümçülər 30–40 gün ərzində yaxşı gəlir əldə edirlər. Bu ənənəvi sahələrin inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Biz bu gün bu barədə də danışacağıq.

O ki qaldı bizim ümumi iqtisadi inkişaf perspektivlərimizə, mən bu perspektivləri yüksək qiymətləndirirəm. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Bu ilin 6 ayının nəticələri bunu deməyə əsas verir. Qeyri-neft iqtisadiyyatımız, qeyri-neft sənayemiz artıb. İxrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb. Biz 6 ayda valyuta ehtiyatlarını nəinki qoruya bilmişik, görülmüş tədbirlər, düşünülmüş iqtisadi siyasət nəticəsində 3 milyard dollar əlavə valyuta gəlib. Azərbaycana birinci 6 ayda 5 milyard investisiya qoyulub. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatını rəqabətqabliyyətliliyinə görə 37-ci yerə layiq görüb. Bu, MDB məkanında birinci göstəricidir. Bu sadəcə olaraq, görülmüş işlərin təzahürüdür. Makroiqtisadi sabitlik təmin edilib. Manatın məzənnəsi sabitdir. Dövlət xətti ilə ölkə iqtisadiyyatına sərmayə qoyulur. Özəl sektor da buna qoşulub. 40-a yaxın aqropark yaradılır. Yaxın 1-2 il ərzində bu aqroparklarda istehsal olunacaq məhsul böyük bazarlara ixrac ediləcək, daxili ərzaq təhlükəsizliyi təmin ediləcəkdir.

Bir sözlə, idxaldan asılılığı azaltmaq, daxili tələbatı daxili istehsal hesabına təmin etmək və ixrac imkanlarımızı genişləndirmək məsələləri Azərbaycanda uğurla təmin edilir. Əminəm ki, bugünkü müşavirənin nəticəsində bizim üçün ənənəvi olan sahələr – baramaçılıq, tütünçülük, fındıqçılıq da uğurla inkişaf

edəcək, fermerlər, kəndlilər daha böyük fayda görəcək, dövlətimiz daha da güclənəcəkdir.

## YEKUN NİTQİ

Bugünkü müşavirə bir daha onu göstərir ki, tütünçülüyün, baramaçılığın, fındıqçılığın inkişafına çox böyük dəstək var və diqqət göstərilir. Əminəm ki, bugünkü müşavirədən sonra bu sahələrdə daha da sürətli işlər aparılacaq. Bu gün səsləndirilən təkliflər təhlil ediləcək və qəbul olunacaq qərarlarda öz əksini tapacaqdır.

İndi isə bu ənənəvi kənd təsərrüfatı sahələri qarşısında duran bəzi vəzifələr haqqında fikirlərimi bildirmək istəyirəm. Əvvəlcə biz tarixə qayıdıb əvvəlki illərdə bu sahədə əldə olunmuş nəticələri təhlil etməliyik. Mən giriş sözümdə qeyd etdiyim kimi, sovet dövründə ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində bu sahələrdə çox sürətli inkişaf gedirdi. Düzdür, müstəqillik dövründə biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında qururuq, o cümlədən kənd təsərrüfatı da bu prinsiplər əsasında inkişaf edir. Sovet dövründən fərqli olaraq, indi plan öhdəliyi yoxdur. Fermerlər onlar üçün sərfəli olan kənd təsərrüfatı məhsullarını yetişdirirlər, bazarlara çıxarırlar. Yaxın tarix göstərir ki, dövlətin ciddi dəstəyi olmadan fermerlər çətinlik çəkirlər. Azərbaycanda kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərilir, deyə bilərəm ki, nadir şərait yaradılıb, vergilərdən azadolma praktikası məncə, ancaq Azərbaycanda tətbiq edilir – digər güzəştlər, subsidiyalar, kreditlər və sair. Buna baxmayaraq, dövlət strateji kənd təsərrüfatı sahələrinin inkişafı üçün öz dəstəyini göstərməlidir və göstərəcək. Onu da bilməliyik ki – mən bunu giriş sözümdə də dedim – biz sovet vaxtında vahid ümumittifaq kənd təsərrüfatı kompleksi çərçivəsində yaşayırdıq və o dövrdə bölgü də Sovet İttifaqının Dövlət Plan Komitəsi tərəfindən aparılırdı, hansı respublikalarda hansı kənd təsərrüfatı məhsulları yetişdiril-

məlidir. Beləliklə, Azərbaycanda bu sahələr plan əsasında inkişaf edirdi. Bu gün isə qeyd etdiyim kimi, ərzaq təhlükəsizliyi məsələləri ön plana çıxır. Ona görə vaxtilə tütünçülükdə, baramaçılıqda əldə edilmiş nailiyyətlər indi böyük rəqəmlərlə ölçülür. Ancaq o torpaqlarda indi digər məhsullar yetişdirilir – daha çox taxıl, qarğıdalı, digər məhsullar. Odur ki, mənim indi gətirəcəyim rəqəmlər bizim üçün tarixə bir ekskursdur. Eyni zamanda, bu rəqəmlərə çatmaq, əlbəttə, mümkün olmayacaq. Ancaq biz çalışmalıyıq ki, bu rəqəmlərə yaxınlaşaq.

Beləliklə, tütünçülüklə bağlı pik dövr 1978-ci ildə olmuşdu. 1970-ci ildə cəmi 14 min hektarda tütün əkilirdisə, Heydər Əliyevin fəaliyyəti nəticəsində 1978-ci ildə bu, 18 min hektara çatmışdı. 1990-cı ildə isə yenə 14 minə düşmüşdü. Ondan sonra da düşmə əmsalı daha sürətlə getmişdi. 2014-cü ildə cəmi 1000 hektarda tütün əkilmişdi. Tədricən biz əkin sahələrini artıra bildik. Xüsusilə 2016-cı ildə 2400 hektarda və 2017-ci ildə 3200 hektarda tütün əkilibdir. Əlbəttə ki, mən növbəti illərdə planlarımızın nədən ibarət olduğunu deyəcəyəm.

O ki qaldı tütün istehsalına, 1970-ci ildə 24 min ton istehsal olunmuşdu, 1980-ci ildə isə 57 min ton. Yəni 2 dəfədən çox tütün istehsal edilmişdi. 2015-ci ildə – mən bunu giriş sözümdə qeyd etdim – biz tütünçülüyü, demək olar ki, itirirdik. 2015-ci ildə cəmi 3 rayonda tütün əkilmişdi – Şəki, Zaqatala və Qax rayonlarında. Bu gün 13 rayonda tütün əkilir. Əgər 2015-ci ildə Şəkidə 600 hektarda tütün əkilmişdisə, hazırda bu, 843 hektara, Zaqatalada əkin sahələri 468 hektardan 744 hektara, Qaxda isə 300 hektardan 600 hektara çatdırılıbdır. Hazırda 3200 hektarda tütün əkilir. Növbəti illərdə əkin sahələrini genişləndirmək lazımdır. Bu məqsədlə dövlət və bələdiyyə mülkiyyətindəki əkinəyararlı və davamlı su təminatı olan torpaq sahələri ayrılmalıdır. Tütün istehsalçılarına güzəştli şərtlərlə kreditlər verilməlidir. Bu, lazımi səviyyədə deyil. Bu sahəyə xüsusi diqqət göstərilməlidir.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə tütünçülüyün inkişafı üçün xüsusi bir plan tərtib edilməlidir. Burada da bu təklif səsləndirildi ki, bizdə qəbul məntəqələri və qurutma kameraları lazımi səviyyədə deyil. Yəqin bunun da səbəbi ondan ibarətdir ki – mən də bunu qeyd etdim – 2 il bundan əvvəl cəmi 3 rayonda tütün istehsal olunurdu, indi isə 13 rayonda. Bu rayonlarda istehsal artacaq. Ona görə hər bir rayonda qəbul məntəqəsi və qurutma kameraları olmalıdır. Dövlət öz dəstəyini göstərməyə hazırdır. Mən İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, Prezident Administrasiyasına tapşırıram ki, bu məsələ ilə məşğul olsunlar, bu kameralar tezliklə alınsın.

Dünən bir qəbul məntəqəsində olarkən mənə məlumat verildi ki, hətta biz bu kameraları Azərbaycanda da istehsal edə bilərik. Hesab edirəm ki, bu mümkündür, burada heç bir çətin məsələ yoxdur. Əgər mümkündürsə, bunun yəqin ki, texnoloji xüsusiyyətləri vardır. Tezliklə bu istehsal sahələri yaradılmalıdır. Çünki mənə dünən verilən məlumata görə, tütünün xüsusiyyəti ondan ibarətdir ki, onu uzaq məsafəyə daşımaq çətindir, keyfiyyət itir. Ona görə tütünçülüklə məşğul olan hər bir rayonda qəbul məntəqələri açılmalı, qurutma kameraları olmalıdır.

Dünən Tütün fabrikinin işi ilə tanış olarkən gördüm ki, orada yeni avadanlıq quraşdırılıb. İndi bu fabrik tam istehsal tsiklini özündə ehtiva edir. Belə olan halda, bizim ixrac imkanlarımız da artacaqdır. Biz həm xam tütün, həm də hazır tütün ixrac edirik və ixracın coğrafiyasını genişləndirməliyik.

Mən bir neçə həmkarımla – xaricdən tütün idxal edən ölkələrin başçıları ilə görüşlər əsnasında bu məsələni qaldırmışdım ki, bu ölkələr tütünü Azərbaycandan alsınlar. Bu da öz nəticəsini verir. Bizim ixrac coğrafiyamız artır. Bizim tütünümüz keyfiyyətlidir. Hesab edirəm, biz növbəti illərdə artan istehsalı gərək indidən planlaşdıraq ki, bunu hansı bazarlara ixrac edək.

Əlbəttə, əsas vəzifələrdən biri də odur ki, Azərbaycanda siqaret istehsalı daha da artsın. Mən bunu əvvəllər də demişəm, bu gün də deyirəm, biz elə etməliyik ki, Azərbaycan vətəndaşları az siqaret çəksinlər. Çünki bu, zərərli vərdişdir və insanın sağlamlığına çox böyük təhlükələr, problemlər yaradır. Ona görə müvafiq tədbirlər görüləcək ki, Azərbaycan vətəndaşları bu vərdişdən tədricən əl çəksinlər. Ancaq bu gün Azərbaycanda siqaret istehlakı var. Mənə verilən məlumata görə, Azərbaycanda 10 milyard siqaret istehlak olunur. Onlardan isə cəmi 1 milyard 600 milyonu Azərbaycanda istehsal edilir, 9 milyard siqaret Azərbaycana idxal edilir və bu məqsədlə Azərbaycandan hər il xaricə təxminən 150 milyon dollar valyuta gedir. Ona görə biz daxili bazarı təmin etmək və xüsusilə xarici bazarlara çıxmaq üçün tezliklə Azərbaycanda siqaret istehsalını inkişaf etdirməliyik. İlk növbədə, daxili bazar idxaldan asılı olmamalıdır ki, valyuta ölkədən getməsin və ondan sonra biz ixrac məsələləri ilə də məşğul olacağıq.

Mövcud siqaret fabriklərinin gücü artırılmalıdır. Bizdə o qədər də çox Siqaret fabriki yoxdur. Hesab edirəm ki, yeni və ən müasir texnologiyalarla təchiz edilmiş siqaret fabrikləri də yaradılmalıdır. Elə ölkələr var ki, orada tütün istehsalı yoxdur. Onların iqlim şəraiti buna imkan vermir. Ancaq orada bir neçə Siqaret fabriki vardır. Onlar xam tütünü bizdən alır, siqaret istehsal edir və sonra bizə satırlar. Bu onu göstərir ki, bu çox gəlirli sahədir. Onsuz da biz bilirdik ki, gəlirli sahədir. Xüsusilə nəzərə alsaq ki, bizim öz tütünümüz var, bu sahənin gəlirliliyi daha da artacaq. Ona görə dövlət öz dəstəyini göstərir. Bu sahəyə çox ciddi təkan verilir, bütün lazımi avadanlıq, qəbul məntəqələri, texnika – hamısı təmin ediləcəkdir. Elə etməliyik ki, son məhsula qədər bu istehsal Azərbaycanda təmin edilsin.

2021-ci ilə qədər tütün istehsalı üçün əkin sahələri 2 dəfə genişləndirilməlidir. İndiki 3200 hektardan təqribən 6000 hektara çatdırılmalıdır. Buna imkan var və aidiyyəti qurumlar bu işlərlə ciddi məşğul olsunlar. Belə olan halda, əgər biz orta məh-

suldarlığı 2 ton götürsək, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəmizə böyük xeyir gətirəcək, valyutamız xaricə getməyəcək, əksinə, ixrac imkanlarımız da yarana bilər.

Tütünçülüyün inkişafına dair Dövlət Proqramı qəbul ediləcəkdir. Proqram, demək olar ki, hazırdır. Bu gün səsləndirilən fikirlər və mənim səfərim nəticəsində apardığım müşahidələr də o proqrama əlavə olunaraq, tezliklə qəbul ediləcək. Bu proqramın qəbulu bir daha onu göstərir ki, dövlət bu sahəyə çox ciddi fikir verir.

Baramaçılıqla bağlı deyə bilərik ki, burada da tarixə ekskurs etməyə ehtiyac var. 1970-ci ildə Azərbaycanda barama istehsalı 3700 ton səviyyəsində idi. Cəmi 10 il ərzində Heydər Əliyevin rəhbərliyi altında bu rəqəm 5000 tona çatmışdı. İndi «Şəki İpək» Səhmdar Cəmiyyətinin rəhbəri burada çıxış etdi. Görürəm ki, təcrübəli adamdır, sovet vaxtında da işləyib. Yaxşı bilir ki, o vaxt minlərlə insan «Şəki İpək»də işləyib. Ondan sonra kombinat, demək olar ki, bağlanmışdı. İndi bərpa etmişik, məlumat verildi ki, orada 600 nəfər işləyir. Amma, əlbəttə ki, potensial daha da böyükdür. Əfsuslar olsun ki, 1991-ci ildən sonra barama istehsalı kəskin şəkildə aşağı düşmüşdür. 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdir. Operativ tədbirlər nəticəsində biz 2 il ərzində bu rəqəmi 244 tona çatdırmışıq və bu hələ başlanğıcdır.

Azərbaycanda 30 rayonda barama istehsal olunur. Mən birinci 10 rayonun adını çəkmək istəyirəm, ictimaiyyət də bilsin ki, harada nə qədər barama tədarük edilir. Birinci yerdə Zərdab rayonudur – 27 ton. Ondan sonra, Füzuli–24, Zaqatala–21, Şəki–18, Ağcabədi təxminən 17, Ağdam–13, Bərdə–12,5, Qax–12,5, Kürdəmir–11,5, Balakən–11 ton. Yəni burada da artım çox sürətlidir və potensial daha da böyükdür. Çünki 30 rayonda baramanı yetişdirmək mümkündür. Dövlət hər şeyi öz üzərinə götürüb. Kümçülərə materiallar, subsidiyalar verilir, «Şəki İpək» bütün baramanı qəbul edir. Ona görə də əminəm ki, bara-

maçılığın inkişafında çox ciddi artım olacaqdır. Hazırda 3000 kümçü ailəsi baramaçılıqla məşğuldur.

Gələcək planlarımıza gəldikdə, real artım tempi göstərir ki, gələn il 500 ton barama tədarük edilə bilər. Əkilən və əkiləcək ağacları nəzərə alsaq, biz 2019-cu ildə ən azı 1000 ton səviyyəsinə qalxa bilərik. Əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6000 ton barama istehsal edə bilərik. Beləliklə, sovet vaxtının ən yüksək səviyyəsinə qalxıb, hətta onu keçə də bilərik. Real imkanlar var. Kütləvi şəkildə ağaclar əkilir. Bizdə 2 il bundan əvvəl təqribən 300 mindən bir qədər çox tut ağacı var idi. Son 1-2 il ərzində isə onların sayı 2 milyon 200 minə çatdırılıb. Bütün tinglər dövlət tərəfindən alınır, özü də xaricdən, valyuta ödənilir, baramaqurdu toxumları da gətirilir və ağac əkmə prosesi kütləvi xarakter alıbdır. Dövlət yenə də əsas yükü öz üzərinə götürür və tapşırıq verilibdir ki, gələn 4 il ərzində əlavə 8 milyon tut tingi əkilsin. İndi bizim 2 milyon 200 min ağacımız var, 8 milyon əlavə əkiləcək. Beləliklə, 10 milyon tut ağacımız olacaqdır. Bu işi Ekologiya və Təbii Sərvətlər Nazirliyi görəcəkdir. Bütün aidiyyəti qurumlar da bu işlərə qoşulsunlar. Eyni zamanda, mən məsləhət görürəm ki, kəndlilər, fermerlər də fərdi qaydada tut ağacları əksinlər ki, istehsal daha da artsın. Beləliklə, Azərbaycanda baramaçılıq kütləvi xarakter alacaqdır. Əgər hazırda 700-dən çox kənddə baramaçılıqla məşğul olurlarsa, bu onu göstərir ki, bu sahəyə çox böyük maraq vardır. Bu çox sevindirici haldır.

Baramaçılığın inkişafı üçün bu il əlavə tədbirlər görülübdür. Vaxtilə burada, Qax rayonunda damazlıq stansiyası fəaliyyət göstərirdi. Onun şəkillərini Kənd Təsərrüfatı naziri mənə göstərmişdir, çox bərbad vəziyyətdədir. Ona görə göstəriş verildi, vəsait də ayrıldı. Prezidentin ehtiyat fondundan 4,5 milyon manat ayrıldı ki, tezliklə Qax Damazlıq İpəkçilik Stansiyası yenidən qurulsun, ən qabaqcıl avadanlıqlarla təchiz edilsin və biz artıq xarici bazarlardan asılılığımızı azaldaq, tədricən aradan götürək. Bizə lazım olan bütün materiallar artıq Azərbaycanda

yetişdiriləcək və bu sahəni müstəqil şəkildə inkişaf etdirmək üçün bizdə yaxşı imkanlar olacaqdır.

Burada qəbul məntəqələri haqqında məsələ qaldırıldı. Tütünçülükdə olduğu kimi, baramaçılıqda da bütün qəbul məntəqələri tezliklə yaradılmalıdır. Qoy təkliflər versinlər, dövlət bunu öz üzərinə götürməyə hazırdır, hesablasınlar nə qədər vəsait, investisiya lazımdır, başqa hansı işlər görülməlidir. Hesab edirəm ki, bu il və gələn il bütün bölgələrdə qəbul məntəqələri yaradılmalıdır.

«Şəki İpək»in fəaliyyəti daha da genişləndirilməlidir. Məndə olan məlumat ondan ibarətdir ki, hazırda «Şəki İpək»in istehsal gücü ildə 135 ton xam ipəkdir. Əgər biz öz hədəfimizə çatsaq və 6000 ton barama tədarük olunsa, 6000 ton yaş baramadan 600 tondan çox xam ipək alınacaqdır. İndi isə istehsal gücü 135 tondur. Bu onu deməyə əsas verir ki, ilk addım olaraq «Şəki İpək»in imkanları genişləndirilməlidir. Baxmaq lazımdır, əgər dövlət vəsaiti lazımdırsa, biz bunu ayırmağa hazırıq ki, tezliklə kombinatın istehsal gücü artsın və təqribən 3000 ton yaş baramanı emal edə bilsin. Çünki bizdə olan məlumata görə, bu rəqəmə sürətlə çatacağıq. Hazırda «Şəki İpək»də üçnövbəli iş rejimində 1300 ton yaş barama emal oluna bilər. Beləliklə, «Şəki İpək»in fəaliyyəti bərpa edildi, hətta tam bərpa edilməlidir, genişləndirilməlidir və 3000 ton yaş barama emal olunmalıdır. Bununla bərabər, biz gərək yeni İpək kombinatının yaradılması haqqında nəinki düşünək, artıq konkret addımlar ataq. 3000 ton emal gücündə olan yeni kombinatın yaradılması zəruridir. Müvafiq dövlət qurumları, Prezident Administrasiyası, nazirliklər, yerli icra orqanları baxsınlar, təkliflər versinlər. Mən hesab edirəm ki, dövlət bu sahədə öz dəstəyini göstərməlidir. Əlbəttə, çox yaxşı olar ki, özəl investorlar da bu işlərə qoşulsunlar. Xarici, yerli investorların marağı olarsa, dövlət də onlara dəstək verməyə hazırdır. Çünki bu da çox gəlirli sahədir. İnvestorlar əmin olmalıdırlar ki, bu sahənin inkişafı ilə bağlı heç bir problem olmayacaq. İndi çoxlu ağaclar əkilir, bu, yeni yara-

nacaq İpək kombinatının resurs bazasıdır. Yəni heç bir problem olmayacaq və beləliklə, ancaq sərmayə qoymaq, ondan sonra hazır məhsul istehsal etmək lazımdır. Aidiyyəti dövlət qurumları investisiya təklifləri ilə əlaqədar işləsinlər və tezliklə mənə təklif versinlər ki, bu yeni kombinatın harada yerləşməsi, fəaliyyət göstərməsi daha məqsədəmüvafiqdir.

Əlbəttə, biz artıq dünya bazarlarına öz ipəyimizlə çıxırıq, daha da geniş şəkildə çıxmalıyıq. Biz gərək ixrac bazarlarını təftiş və təhlil edək. Onu da deməliyəm ki, burada da çox böyük rəqabət vardır. Bazarlar, demək olar ki, artıq bölünübdür və ixrac bazarlarına çıxmaq üçün gərək əlavə səylər göstərilsin. Ona görə bu istehsal sahəsini yaratmaq işin ancaq birinci hissəsidir, bir tərəfidir. Biz xarici bazarlara öz hazır məhsulumuzla – həm ipək ipləri ilə, həm hazır məhsulla çıxmalıyıq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanda ipəkçiliyin qədim tarixi var, kəlağayı bizim milli sənətimizdir, milli sərvətimizdir, ona görə bu məsələlər də geniş şəkildə araşdırılmalıdır. İpəkçilik öz növbəsində, xalçaçılığa da güclü təkan verəcəkdir. İndi biz xalçaçılığın inkişafı ilə də ciddi məşğuluq. «Azərxalça» 13 rayonda öz fabriklərini yaradır, onlardan birincisi keçən il Horadiz şəhərində mənim iştirakımla açılıbdır. Bu il, gələn il daha 12 rayonda yeni xalça fabrikləri açılacaq və o cümlədən biz ipək xalçaların istehsalı üçün bu işləri yerli xammal əsasında qurmalıyıq. Ona görə baramaçılığın inkişafı bir çox istehsalat sahələrinə ciddi təkan verəcək. Tütünçülükdə olduğu kimi, bu sahəni sürətlə inkişaf etdirmək üçün Dövlət Proqramı qəbul edilməlidir.

Baramaçılıqdan və tütünçülükdən fərqli olaraq, fındıqçılıq son illər ərzində Azərbaycanda inkişaf edib. Düzdür, lazım olan səviyyədə inkişaf etməyib, ancaq statistikaya baxsaq görərik ki, 2000-ci ildə Azərbaycanda fındıq bağlarının sahəsi 18 min hektar idisə, 2013-cü ildə bu, 30 min hektara, 2015-ci ildə 32700 hektara çatıbdır. Hazırda 55 min hektarda fındıq bağları salınıb. Bu da onun nəticəsidir ki, dövlət bu sahənin də

inkişafını öz üzərinə götürübdür. Lazım olan bütün texniki tədbirlər dövlət hesabına aparılıb, xaricdən tinglər gətirilib, Azərbaycanda yetişdirilib və qısa müddət ərzində çox böyük işlər görülübdür. Əkin sahələri 32 min hektardan 55 min hektaradək artıb, yəni 23 min hektarda yeni fındıq bağları salınıb. Əlbəttə, bu da son hədəf deyil. Mən bir qədər sonra deyəcəyəm bizim planlarımız nədən ibarətdir. 14800 ton fındıq ixrac edilib. Fındıq ixrac edilən əsas ölkələr bunlardır: İtaliyaya 40 milyon dollar, Rusiyaya 30 milyon dollar və Almaniyaya 24 milyon dollar səviyyəsində. Amma bütövlükdə, 25 ölkəyə fındıq ixrac edilir. Bu onu göstərir ki, həmin ölkələrdə tələbat var, sadəcə olaraq, bu ölkələrə çox az həcmdə fındıq ixrac edilir. Bu statistika bir də onu göstərir ki, fındığın ixracı ilə bağlı gələcəkdə heç bir problem olmayacaqdır. Sadəcə olaraq, biz tezliklə əkin sahələrini genişləndirməliyik və fermerlərə kömək etməliyik.

Qarşıya məqsəd qoyulub ki, biz fındıq bağlarının sahəsini 80 min hektara çatdıraq. Bu, aparılmış təhlil əsasında formalaşmış real rəqəmdir. Əgər biz 1-2 il ərzində 32 min hektardan 55 min hektara qalxa bilmişiksə, 80 min hektarda bağların salınması tam real rəqəmdir. Biz növbəti bir neçə il ərzində buna çatmalıyıq.

Qiymətlərlə bağlı bildiririk ki, fındıq keçən il kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən məhsul olmuşdur. Onu da deyim ki, məncə, fındıqçılıq bu liderliyi saxlaya bilməyəcək. Çünki Azərbaycanda indi çoxlu istixanalar salınır və pomidor istehsalı sürətlə artır. Gəlir gətirən ixrac kənd təsərrüfatı məhsulları arasında pomidor indi birinci yerdədir. Ona görə fındıqçılar gərək çalışsınlar ki, liderliyi əldən verməsinlər. Keçən il fındıq satışından ölkəyə 105 milyon dollar valyuta gəlib. Ancaq satış qiyməti aşağı olub. Məndə olan arayışda göstərilir ki, keçən il 1 kiloqramın qiyməti 4,8 manat olub, 2017-ci ilin aprel ayında 6,2 manata satılıb. Dünya üzrə qiyməti isə hazırda 10 manatdır. Hesab edirəm ki, fındığın satış qiyməti ilə bağlı artım üçün imkanlar vardır. Hazırda fındıqçılıqla 9000 nəfər məşğuldur, yeni bağlar salınandan sonra təqribən 20000

nəfərə çatacaqdır. Bizim tövsiyəmizlə Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası yaradıldı ki, bu işlər mərkəzləşdirilmiş qaydada aparılsın, fermerlərə kömək göstərilsin, onların məhsulu mərkəzləşdirilmiş şəkildə alınsın və ixrac edilsin.

Fındığın əsas alıcıları böyük şokolad fabrikləridir. Biz də fındığı daha çox oraya satırıq. Amma çalışmalıyıq ki, birbaşa müqavilələr bağlansın. Burada vasitəçilər az rol oynasınlar. Çalışmalıyıq ki, fındığın çeşidi də artsın. Çünki biz bunu xaricə daha çox vakuum şəklində satırıq. Xaricdə isə ya fabriklərdə istifadə olunur, ya da orada paketləmə aparılır. Biz paketləməni də, çeşidləməni də Azərbaycanda aparmalıyıq. Ona görə yeni avadanlıq gətirilməlidir ki, biz hazır məhsulu dünya bazarlarına çıxara bilək. Bizdə yetişdirilən fındıq sortları çox keyfiyyətlidir və xarici bazarlarda yüksək qiymətləndirilir.

İndi xarici ölkələrdə bizim ticarət evləri yaradılır. Birinci Ticarət evi yaradılıb. Xarici ölkələrdə ticarət nümayəndəlikləri yaradılır, bir çox ölkələrə ticarət missiyaları göndərilib və fındıq ixracatı orada həmişə qeyd olunur. Ölkələr bu məhsulu qəbul etməyə hazırdır, sadəcə olaraq, biz istehsalı artırmalıyıq və hazır məhsul ixrac etməliyik. Fındıqçılar onu da yaxşı bilirlər ki, Azərbaycan fındıq istehsalı sahəsində dünya miqyasında birinci yerlərdədir. Biz indi görüləcək tədbirlər nəticəsində dünya miqyasında üçüncü yerə çıxa bilərik.

Biz bugünkü müşavirədə bu məsələləri ona görə geniş müzakirə edirik ki, bu sahələrin çox böyük perspektivi vardır. Onu da deməliyəm ki, belə müşavirələrin çox böyük faydası və mənası vardır. Pambıqçılığa dair birinci müşavirədən sonra pambıqçılıqda inqilabi dönüş yarandı. Əkin sahələri 17 min hektardan 136 min hektara çatdırıldı. Əgər orta məhsuldarlıq bu il 20 sentner olarsa, təqribən 260 min ton pambıq istehsalı gözlənilir. Bizim məqsədimiz ondan ibarətdir ki, bu rəqəmi 500 min tona çatdıraq. Biz kompleks tədbirlər nəticəsində qısa müddət ərzində buna nail ola bilmişik. Bu təcrübə göstərir ki, biz tütünçülük, baramaçılıq, fındıqçılıq sahələrində də tezliklə

istədiyimizə nail olacağıq. Müşavirədən sonra bu sahələrə çox ciddi təkan veriləcək, yeni iş yerləri yaradılacaq və kəndlilərin, fermerlərin həyat səviyyəsi yüksələcəkdir. Qeyri-neft sektoru inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcək, idxaldan asılılıq azalacaqdır. Bizim qarşımızda duran əsas vəzifələr bundan ibarətdir.

O ki qaldı kənd təsərrüfatının ümumi inkişafına, Azərbaycan dövləti müntəzəm olaraq bu sahəyə çox böyük vəsait ayırır, investisiyalar qoyulur. Bu gün reallaşan və növbəti illərdə həyata keçiriləcək infrastruktur layihələri, o cümlədən kənd təsərrüfatının inkişafına xidmət göstərir. Biz yol çəkilişi ilə çox ciddi məşğuluq. Bu il şərti olaraq adlandırılan «40 yol layihəsi» – əslində bu, 200-dən çox kəndi əhatə edir – o cümlədən kənd təsərrüfatının da inkişafına xidmət göstərir. Bu nəinki insanlara rahatlıq gətirir, həmçinin fermerlərin, kəndlilərin öz məhsullarını bazarlara çıxarmaları üçün şərait yaradır. Ona görə mən göstəriş vermişəm ki, gələn ildən bu sahəyə çox böyük vəsait ayrılsın, o cümlədən yaşayış məntəqələrinin sayına, orada yaşayan əhaliyə və əkin sahələrinə yaxınlığına görə prioritetlər müəyyən edilsin. Yol çəkilişi kənd təsərrüfatının inkişafında da öz rolunu oynamalıdır.

Digər infrastruktur layihələrimiz də kənd təsərrüfatının inkişafına xidmət göstərir. Əgər elektrik enerjisi, su təminatı olmasa, heç kim heç bir yerdə investisiya qoymaz. Kənd təsərrüfatının inkişafı üçün çox böyük işlər görülür. Qeyd etdiyim kimi, fermerlər bütün vergilərdən azaddırlar. Ölkəmizə xüsusilə son illər ərzində ən müasir texnika alınıb gətirilir. Bu il ölkəmizə 10000 texnika gətiriləcək. Onlardan 7000-i artıq gətirilib, cəmi 1 il ərzində. Azərbaycan dövləti bu məqsədlər üçün yüz milyonlarla dollar vəsait ayırır, sonra da lizinq yolu ilə güzəştli şərtlərlə fermerlərə verir ki, onlar bu texnikadan istifadə etsinlər. Bu yaxınlarda Kənd Təsərrüfatı naziri məlumat vermişdir ki, biz özümüzü kənd təsərrüfatı texnikası ilə, demək olar, təmin etmişik. Əlbəttə, növbəti illərdə yeni texnikalar

alınacaq. Ancaq biz əsas çətinliyi aradan qaldıra bilmişik. Subsidiyalar verilir, o cümlədən bu gün müzakirə etdiyimiz sahələrin inkişafı üçün. Onların da çox böyük mənası var. Güzəştli şərtlərlə gübrələr, yanacaq verilir. Sahibkarlara 2 milyard manat səviyyəsində güzəştli şərtlərlə kreditlər verilir, onların da böyük əksəriyyəti fermerlərin işini yüngülləşdirmək üçün kəndlərə gedir. Sahibkarlara metodik tövsiyələr verilir ki, onlar işlərini daha da yaxşı qursunlar. Yəni Azərbaycanda kənd təsərrüfatının, sahibkarlığın inkişafı üçün görülən işlər inanmıram ki, hansısa başqa ölkədə görülsün. Bəlkə də var, mən eşitməmişəm. Ən gözəl şərait Azərbaycandadır və biz bunun hesabına regionların sosial-iqtisadi inkişafına nail olmuşuq.

Əminəm ki, bugünkü müşavirənin nəticələri çox müsbət olacaq, verdiyim bütün tapşırıqlar yerinə yetiriləcək. Özəl sektor, fermerlər, kəndlilər də, əlbəttə, bu işdə fəal rol oynayacaqlar. Dövlət qurumları – İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyəti bütün bu işlərə rəhbərlik edəcək. Ümumi rəhbərlik isə Prezident Administrasiyası tərəfindən aparılacaqdır.

Mən sizə yeni uğurlar arzulayıram. Əminəm ki, bu sahələrdə çox yaxşı nəticələr olacaqdır. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev Şəki–Zaqatala iqtisadi rayonunda tütünçülüyün, fındıqçılığın və baramaçılığın inkişafını əks etdirən sərgiyə baxdı.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, sərgidə bu regionlarda müşahidə olunan uğurlar öz əksini tapıb. Buradan da görünür ki, son illərdə iqtisadi rayona daxil olan bölgələrdə fındıq, tütün və baramaçılığın inkişafı ilə bağlı xeyli işlər görülüb. Ötən il ölkədə fındıq istehsalı 34,3*

*min ton olub. 55,1 min hektar bağ sahələrində məhsuldarlıq orta hesabla hər hektara 1 ton düşür. İstehsalçılar 25 minə yaxın ev təsərrüfatını və 22 fındıq emalı müəssisəsini əhatə edir. Ötən il Azərbaycanda 70,7 ton yaş barama, 8,3 ton xam ipək istehsal olunub. Bu ilin sentyabrından ipək xalçaları üçün ipliyin istehsalına başlanılacaq. Tütünçülükdə də inkişaf meyilləri sürətlənir. Belə ki, 2016-cı ildə 3,6 min ton tütün tədarük olunubdur.*

**SİNQAPUR RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TONİ TAN KENQ YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 avqust 2017-ci il*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOVUN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun avqustun 8-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkmənistan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan Prezidentinə raport verdi.*

*Türkmənistanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Qurbanqulu Berdıməhəmmədov Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkmənistan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Qurbanqulu Berdıməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Türkmənistan prezidentləri rəsmi foto çəkdirdilər.*

## TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun avqustun 8-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Azərbaycana xoş gəlmisiniz! Sizi səmimiyyətlə salamlayıram. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Türkmənistan–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafında çox mühüm addım olacaq.

Bizim xalqlarımızı tarix birləşdirir. Biz əsrlərboyu bir yerdə yaşamışıq, dostluq etmişik, qardaşlıq şəraitində yaşamışıq. Bu gün isə iki müstəqil dövlət kimi, uğurla inkişaf edirik. Sizin səfəriniz bizim əlaqələrimizə yeni dinamika gətirəcək. Biz bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq dərinləşəcək. Siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanlar vardır.

Sizi bir daha səmimiyyətlə salamlayıram, «Xoş gəlmisiniz!»– deyirəm. Əminəm ki, səfəriniz çox uğurlu olacaq.

**Qurbanqulu Berdıməhəmmədov**: Əziz qardaşım, icazə verin, Azərbaycana səfərə dəvət olunduğumuza görə bizim bütün nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirim.

Bu səfər böyük əhəmiyyət kəsb edir. Siyasətin ən mühüm postulatlarından biri qonşularla yaxşı münasibətləri saxlamaqdır. Bu münasibətlər müxtəlif istiqamətlər üzrə çoxtərəfli əməkdaşlığın və qarşılıqlı fəaliyyətin necə reallaşdırılmasından asılıdır.

Müasir dövrdə Türkmənistan–Azərbaycan münasibətləri özünün yeni mərhələsini yaşayır, yeni məzmun kəsb edir. Bu həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəni və humanitar sahədə müşahidə olunur. Xüsusi qeyd etmək lazımdır ki, həm Türkmənistan, həm də Azərbaycan dünyada təhlükəsizlik, firavanlıq, sabitlik və inkişaf üçün hər şeyi edir. Bizim ölkələrimiz bu siyasəti həyata keçirmək üçün Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət göstərir, bir-birini dəstəkləyir.

Biz Sizə minnətdarıq ki, Siz Türkmənistanın neytral statusa əsaslanan siyasətini həmişə dəstəkləyirsiniz. Ticari-iqtisadi münasibətlərə gəldikdə, bu gün həm Türkmənistan, həm də Azərbaycan energetika, nəqliyyat və digər sahələrdə iri layihələri reallaşdırmaqla, nəinki regionda, həm də dünya miqyasında xüsusi yer tutur. Bu, təkcə 2 ölkənin, yalnız regionun inkişafına töhfə verməklə məhdudlaşmır, ölkələrimizin reallaşdırdığı layihələr böyük əhəmiyyət kəsb edir və dünyada da müəyyən rol oynayır.

Mədəni və humanitar sahəyə gəldikdə, Siz düzgün olaraq qeyd etdiniz ki, bizim dillərimizin, tariximizin, mənəvi dəyərlərimizin kökləri əsrlərin dərinliklərindən başlanır, onlar bir-birinə yaxın və oxşardır. Bütün bunları qoruyub saxlamaq və növbəti nəsillərə çatdırmaq mühüm məqamdır.

Əziz qardaşım, hörmətli cənab Prezident, mən Sizə dövləti fəaliyyətinizdə, Türkmənistan–Azərbaycan münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanın firavanlaşmasına yönəlmiş fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, Sizi Aşqabadda keçiriləcək qapalı məkanlarda döyüş sənəti üzrə V Asiya oyunlarının təntənəli açılışı mərasimində iştiraka dəvət edirəm. Açılış sentyabrın 17-də olacaq. Sizi və Sizin nümayəndə heyətinin üzvlərini böyük ehtiramla dəvət edirəm.

Qardaş Azərbaycan xalqına inkişafda böyük uğurlar və firavanlıq arzu edirəm. Gözəl ölkənizə səfərə dəvət olunduğumuza görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə avqus-tun 8-də geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Hörmətli qonaqlar!

Mən sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər Türkmənistan–Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayacaq. Biz dostuq, qonşuyuq, əsrlərboyu xalqlarımız dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar və bu gün iki müstəqil dövlət kimi, biz əməkdaşlığımızı yeni səviyyəyə qaldırmışıq.

Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik, siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə çox yaxşı nəticələr vardır. Bu gün təkbətək görüşdə müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, bizim mövqemizdə eyni yanaşma vardır. Biz istəyirik ki, Türkmənistan ilə Azərbaycan həmişə olduğu kimi, öz əlaqələrini yüksək səviyyədə saxlasınlar, bu əlaqələr daha da inkişaf etsin. Biz istəyirik ki, bölgədə sabitlik, sülh daim bərqərar olsun. İstəyirik ki, xalqlarımız yaxşı yaşasın, rifah içində yaşasın. Əlbəttə, ikitərəfli əlaqələrimizin inkişafı xalqlarımızın maraqlarına tam cavab verir və həm beynəlxalq arenada, həm regionda, həm ikitərəfli formatda Türkmənistan və Azərbaycan nümunəvi münasibətlər göstərir. Sizin bugünkü səfəriniz bunun növbəti təsdiqidir.

Mən Sizi bir daha səmimiyyətlə Azərbaycanda salamlayıram, bir daha «Xoş gəlmisiniz!» – deyirəm. Əminliyimi ifadə etmək istəyirəm ki, səfər uğurlu olacaq və əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır. Bir daha xoş gəlmisiniz!

**Qurbanqulu Berdıməhəmmədov**: Hörmətli İlham Heydər oğlu, çox sağ olun!

Əvvəlcə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Siz Azərbaycana rəsmi səfərin həyata keçirilməsi üçün məni ölkənizə dəvət etdiniz. Mən öz adımdan və nümayəndə heyətimizin adından Sizə dərin təşəkkürümü bildirirəm. Mənə göstərilmiş səmimi qəbula görə xüsusi təşəkkürümü bildirirəm. Siz qeyd etdiyiniz kimi, biz qonşu dövlətlərik. Burada səmərəli birgə iş üçün çox gözəl şərait yaradılıbdır.

İlk növbədə qeyd etmək istərdim ki, rəsmi səfərin əsas məqsədi dövlətlərimiz və xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətlərinin daha da gücləndirilməsinə yönəlibdir. Bu gün əlaqələrimizin və əməkdaşlığımızın iqtisadiyyat, ticarət və humanitar sahələrdə inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Siyasi istiqamətə gəldikdə, bildirmək istərdim ki, dövlətlərimiz məhz beynəlxalq və regional təhlükəsizliyin qorunub saxlanılmasının tərəfdarıdır. Biz arzu edirik ki, ölkələrimizin sabit inkişafı davam etsin. Bu öz növbəsində, Mərkəzi Asiyada və Xəzər dənizi hövzəsi regionunda siyasi proseslərin cərəyan etməsinə müsbət təsir göstərən bir amildir.

Hazırkı şəraitdə ölkələrimiz nüfuzlu beynəlxalq təşkilatlar – BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar çərçivəsində əməkdaşlığı gücləndirməlidir.

* * *

*Söhbət zamanı dost, qardaş, qonşu dövlətlərimiz arasında əməkdaşlıq əlaqələrinin bütün sahələrdə daha da inkişaf etdirilməsi, genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı. Siyasi, iqtisadi, energetika, nəqliyyat,*

*mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu vurğulandı, bu istiqamətdə imzalanacaq sənədlərin əhəmiyyəti qeyd edildi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun iştirakı ilə avqustun 8-də Azərbaycan–Türkmənistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov imzaladılar.*

*«Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan Respublikası) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu–bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş»ə əlavə və dəyişikliklər edilməsi barədə Protokol»u «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın Dəmir Yolları naziri Deryaqulı Bəşimov imzaladılar.*

*«Azərbaycan Respublikası Vergilər Nazirliyi ilə Türkmənistan Respublikası Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Maliyyə naziri Qoçmırat Mıradov imzaladılar.*

*«Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistan Respublikasının Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmə-*

*nistanın Turizm üzrə Dövlət Komitəsinin sədri Sərdar Çolukov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş»i «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dövlət Dəniz və Çay Nəqliyyatı Xidmətinin sədri Amanmırat Qurdov imzaladılar.*

*«Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Türkmənistan Respublikası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Türkmənistanın Daxili İşlər naziri İsgender Mulikov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Türkmənistanın Kənd və Su Təsərrüfatı naziri Nursaxet Sapardurdıyev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın İqtisadiyyat və İnkişaf naziri Batır Bazarov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Türkmənistanın Müdafiə nazirinin*

*müavini, Fövqəladə Hallar İdarəsinin rəisi Yusup Muhammetqulıyev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Ətraf Mühit və Torpaq Ehtiyatları üzrə Dövlət Komitəsinin sədri Batırmırat Orazmıradov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Mədəniyyət nazirinin vəzifəsini müvəqqəti icra edən Ataqeldı Şamıradov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Maksad Babayev imzaladılar.*

# TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədov avqustun 8-də Azərbaycan–Türkmənistan sənədlərinin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Hörmətli cənab Prezident, mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə «Xoş gəlmisiniz!» – deyirəm.

Sizin səfəriniz Türkmənistan–Azərbaycan əlaqələrinin inkişafında çox mühüm yer tutur. Bu gün apardığımız danışıqlar və imzalanmış sənədlər bir daha onu göstərir ki, Türkmənistan–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu əlaqələrin təməlində xalqlarımızın birliyi, dostluğu, qardaşlığı dayanır. Əsrlərboyu türkmən və Azərbaycan xalqları bir yerdə yaşamışlar, əməkdaşlıq, dostluq etmişlər. Dövlətlərarası münasibətlər bu möhkəm təməl üzərində qurulubdur. Bu il biz diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümünü

qeyd edirik. Bu 25 il ərzində Azərbaycan və Türkmənistan böyük və uğurlu yol keçmişdir.

Cənab Prezident, mən bu gün xüsusilə Sizin rəhbərliyinizlə Türkmənistanın əldə etdiyi uğurlar haqqında danışmaq istərdim. Sizin rəhbərliyinizlə ölkəniz sürətlə inkişaf edir, sosial, iqtisadi məsələlər uğurla həll olunur, vətəndaşların rifah halı yaxşılaşır, Türkmənistan beynəlxalq aləmdə böyük rol oynayır. Sizin neytrallıq siyasətiniz dünya ictimaiyyəti tərəfindən dəstəklənir və Birləşmiş Millətlər Təşkilatı Türkmənistanın neytrallığı ilə bağlı 2 il əvvəl qətnamə qəbul edibdir. Azərbaycan da o qətnamənin həmmüəllifi olubdur.

Bu gün imzalanan sənədlər arasında Birgə Bəyannamə xüsusi yer tutur. Bu, strateji tərəfdaşlıq haqqında imzalanan Bəyannamədir. Yəni bu, əlaqələrin ən yüksək səviyyəsidir. Bu gün Türkmənistan və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu Bəyannamədə gələcək birgə fəaliyyətimizin, demək olar ki, bütün istiqamətləri müəyyən edilib, həm siyasi, həm iqtisadi, o cümlədən humanitar, mədəniyyət, nəqliyyat, energetika, təhlükəsizlik məsələləri öz əksini tapıb. Bəyannamədə hər iki tərəf bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına qətiyyətli dəstək nümayiş etdirir.

Bizim əlaqələrimiz uğurla inkişaf edir. Biz bir çox istiqamətlər üzrə fəaliyyətimizi gücləndirəcəyik. Bu gün beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik – BMT-də, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birimizi dəstəkləyirik. Ticarət sahəsində, iqtisadi sahədə yaxşı nailiyyətlər vardır. Keçən il ticarət dövriyyəmiz artıb.

Bu gün danışıqların böyük hissəsi nəqliyyat məsələlərinə həsr edilib. Həm Türkmənistanda, həm də Azərbaycanda yeni dəniz ticarət limanları tikilir və yaxın zamanlarda istifadəyə veriləcək. Bu, yükdaşımalarının həcminin artırılmasına gətirib çıxaracaq. Eyni zamanda, bu gün müzakirə edilən mövzulardan biri də Bakı–Tbilisi–Qars dəmir yolunun inşasıdır. Bu yol həm

Türkmənistanın, həm də Azərbaycanın tranzit imkanlarını xeyli artıracaqdır.

Energetika sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar vardır. Bu gün imzalanan Memorandum gələcək fəaliyyətimiz üçün yaxşı əsas yaradır. Biz bütün sahələrdə, təbii ki, humanitar sahədə də uğurla əməkdaşlıq edirik. İctimaiyyət onu da görür ki, bizə tərcüməçi lazım deyil. Biz cənab Prezidentlə söhbət əsnasında dedik ki, əgər bizim vətəndaşlar bir ay bir-birinə qonaq getsələr, onda, ümumiyyətlə, tanış olmayan kəlmə də qalmaz. Yəni bu oxşarlıq bizim böyük sərvətimizdir. Tarix, mədəniyyət, etnik köklər birdir və biz fəaliyyətimizi bu möhkəm təməl üzərində qururuq.

Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır. Biz bunu yüksək qiymətləndiririk. Mən xüsusilə prezident Berdıməhəmmədovun fəaliyyətini bir daha qeyd etmək istərdim. Bizim uğurlu əməkdaşlığımızın tarixi hadisəsi 2008-ci ildə baş veribdir. Həmin ilin may ayında ilk dəfə olaraq Türkmənistan Prezidenti Azərbaycana səfər etdi və ondan bir neçə ay sonra – 2008-ci ilin noyabr ayında isə mən Türkmənistana səfər etdim. O səfərlər dönüş nöqtəsi oldu. O səfərlərdən sonra geniş əməkdaşlıq formatı formalaşdı, yaradıldı və biz bu gün onun gözəl bəhrəsini görürük.

Cənab Prezident, mənim dəvətimi qəbul edib Azərbaycana səfər etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminliyimi ifadə etmək istəyirəm ki, səfərinizin çox gözəl nəticələri olacaqdır. Türkmənistan və Azərbaycan bir-birinə daha da yaxın olacaqdır. Sağ olun.

## Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Xanımlar və cənablar!

Əvvəlcə Türkmənistanın nümayəndə heyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə, bütün azərbaycanlı dostlara və həmkarlara göstərilmiş qonaqpərvərliyə, səmimi qəbula və birgə iş üçün gözəl şəraitin yaradılmasına görə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Türkmənistan ilə Azərbaycan arasında ən yüksək səviyyədə danışıqlar aparıldı. Həmin görüşlər zamanı ikitərəfli münasibətlərin durumu və perspektivləri, regional və beynəlxalq siyasət məsələləri müzakirə olundu, gələcək qarşılıqlı fəaliyyətimizin konkret istiqamətləri təyin edildi.

İki ölkə arasında ənənəvi olan qarşılıqlı inam və açıqlıq mühitində keçən danışıqların konstruktiv və məzmunlu xarakterini xüsusilə qeyd edirəm. Görüşlər zamanı bu gün bütün istiqamətlərdə – siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə aparılan ikitərəfli dialoqun indiki səviyyəsini yüksək dəyərləndirirəm.

Azərbaycan ilə əlaqələrimiz qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik və yüksələn xətlə inkişaf edir.

Hörmətli azərbaycanlı dostlarımız, hörmətli qardaşlarımız, Azərbaycan bizim mühüm və etibarlı tərəfdaşımızdır. Biz Mərkəzi Asiya, Xəzər hövzəsi zonasında sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi, burada səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması üçün müvafiq şəraitlərin yaradılması məqsədilə fəal şəkildə birgə çalışırıq.

Türkmənistan və Azərbaycan arasında qarşılıqlı addımlar bu gün strateji sabitlik və regional proseslərin müsbət inkişaf amilidir. Hər iki ölkə Xəzəryanı məkanın Avrasiyada uzunmüddətli sabitliyin mənbəyinə, geniş beynəlxalq tərəfdaşlığın arenasına çevrilməsinin tərəfdarıdır.

Keçirilmiş danışıqlarda iki ölkənin nüfuzlu beynəlxalq və regional strukturlar – Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi,

İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etməsinə hazırlıq vurğulandı.

Hörmətli dostlar, Türkmənistan ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyət Xəzər dənizində «beştərəfli» tərəfdaşlıq çərçivəsində davam edəcək. Mən bir daha təkrar etmək istəyirəm ki, bu əməkdaşlıq «beştərəfli» əməkdaşlıqdır. Biz iqtisadi əməkdaşlıq məsələlərini təfərrüatı ilə müzakirə etdik və iki dövlətin güclü sənaye və infrastruktur potensialına uyğun olaraq bu sahədə qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyi haqqında ümumi rəyə gəldik.

Danışıqlar zamanı Türkmənistan ilə Azərbaycan arasında ticarət sahəsində tərəfdaşlığa, qarşılıqlı mal dövriyyəsinin artırılması və şaxələndirilməsinin zəruriliyinə xüsusi diqqət yetirildi. Biz qarşılıqlı ticarətin genişləndirilməsi, sənaye, xidmətlər və aqrar kompleks sahələrində geniş birgə layihələrin həyata keçirilməsi üçün sərmayə siyasətinin fəallaşdırılması məqsədilə tədbirləri nəzərdən keçirmək barədə razılığa gəldik. Bu baxımdan iki ölkənin biznes qurumlarının xətti ilə qarşılıqlı fəaliyyət mühüm rol oynamalıdır.

Əməkdaşlığımızın strateji istiqamətləri energetika və nəqliyyatdır. Türkmənistan və Azərbaycan enerjidaşıyıcılarının istehsal həcminə görə Avrasiyada lider mövqeləri tutur. Bizim müasir infrastrukturumuz var və söhbət nəinki Avrasiya və regiondan gedir, mən söyləyə bilərəm ki, bütün dünyada ölkələrimiz məhz enerjidaşıyıcılarının istehsal həcminə görə lider mövqedədir. Müvafiq infrastrukturumuz var, enerji və nəqliyyat marşrutlarının konfiqurasiyası ilə bağlı ümumi rəyimiz mövcuddur. Enerji və nəqliyyat axınlarının şaxələndirilməsi baxımından biz öz potensialımızın davamlı istifadəsi, yeni birgə layihələrin reallaşması üçün bütün imkanlardan istifadə edəcəyik.

Danışıqlar zamanı iki ölkə arasında geniş mədəni, humanitar, elmi, təhsil və idman əlaqələrinin daha da inkişafı və həvəsləndirilməsi üzərində ümumi razılıq əldə olunubdur.

Hörmətli azərbaycanlı dostlarımız və qardaşlarımız, nümayəndə heyətimiz bugünkü görüşlərin nəticələrini yüksək dəyərləndirir. Yekun olaraq, böyük ikitərəfli sənədlər paketi imzalandı.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, Türkmənistan Azərbaycan ilə münasibətlərinə xüsusi əhəmiyyət verir, onu qardaş dövlət sayır. Ölkələrimiz və xalqlarımız əsrlərboyu formalaşmış yaxşı qonşuluq, ümumi tarix, mədəniyyət, dil və mənəvi dəyərlər ənənələri ilə bağlıdır. Biz bu irsi xüsusi olaraq qoruyub saxlayırıq, ona müasir reallıqlar ruhunda yeni məzmun gətiririk. Qarşımızda duran əsas məqsəd ənənələrimizin və ən ülvi dəyərlərimizin gələcək nəsillərə çatdırılmasından ibarətdir.

Türkmənistan ilə Azərbaycan arasında əməkdaşlıq bütün istiqamətlər üzrə durmadan inkişaf edəcək. Bu, iki ölkənin və xalqın uzunmüddətli maraqlarına cavab verir, beynəlxalq proseslərin müsbət inkişafının güclü amilidir.

İkitərəfli əlaqələrin gücləndirilməsində, Türkmənistanla əməkdaşlıq məsələlərinə daimi diqqətin göstərilməsində Azərbaycan Prezidentinin böyük şəxsi xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli İlham Heydər oğlu, icazə verin, Azərbaycan ilə Türkmənistan arasında qardaşlıq əlaqələrinin inkişafına göstərdiyiniz yüksək diqqətə görə Sizə dərin minnətdarlığımı bildirim.

Hörmətli iştirakçılar, hörmətli qardaşlar və həmkarlar, sonda qardaş Azərbaycan xalqını bir daha salamlayır, ona sülh, rifah və tərəqqi arzu edirəm. Sizə bu arzularımı bütün türkmən xalqı adından çatdırıram. Diqqətinizə görə minnətdaram.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*8 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdıməhəmmədovun şərəfinə avqustun 8-də rəsmi ziyafət verilmişdir.*

**İlham Əliyev**: Hörmətli Qurbanqulu Məlikqulıyeviç!

Əziz dostlar!

İlk növbədə, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm. Bizim xalqlarımızı dərin tarixi köklər, mənəvi və mədəni dəyərlər birləşdirir. Azərbaycan ilə Türkmənistan arasındakı ənənəvi dostluq və qardaşlıq münasibətləri məhz belə möhkəm təmələ əsaslanır.

Son illər ərzində Sizin rəhbərliyiniz altında Türkmənistan uğurlu inkişaf yolu keçmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Bu gün sürətlə inkişaf edən ölkənizin əldə etdiyi nailiyyətlər dövlət quruculuğu, sosial, iqtisadi, humanitar və digər sahələri əhatə edir. Qardaş Türkmənistanın bu uğurları bizi sevindirir.

Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü ilə əlamətdardır. Məmnuniyyətlə qeyd etmək istərdim ki, bu illər ərzində müxtəlif sahələri əhatə edən əməkdaşlığımız ölkələrimizin maraqlarına və xalqlarımızın rifahına xidmət edibdir.

Qarşılıqlı inam və etimada əsaslanan Azərbaycan–Türkmənistan əlaqələrinin iqtisadi, ticarət, nəqliyyat, humanitar və digər sahələrdə keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi üçün

bu gün yaxşı imkanlar vardır. Əminəm ki, bu səfər çərçivəsində keçirdiyimiz görüşlər, apardığımız müzakirələr, imzalanmış sənədlər və strateji tərəfdaşlıq haqqında Bəyannamə əməkdaşlığımızın inkişafına töhfə verəcəkdir.

Azərbaycan və Türkmənistan çoxtərəfli formatda da səmərəli əməkdaşlıq edir. Beynəlxalq təşkilatlar çərçivəsində irəli sürülən təşəbbüslərin qarşılıqlı şəkildə dəstəklənməsi bunun sübutudur.

Qeyd etməliyəm ki, Azərbaycan BMT Baş Məclisinin 2015-ci ilin iyununda keçirilmiş plenar iclasında yekdilliklə qəbul olunmuş «Türkmənistanın daimi neytrallığı» adlı qətnaməyə həmmüəllif kimi qoşulubdur.

Enerji sahəsində əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Biz bu sahədə işimizi daha da dərinləşdirmək əzmindəyik və bunun üçün də bütün imkanlar vardır.

Yaxın zamanlarda istismara verilməsi nəzərdə tutulan Bakı–Tbilisi–Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa, təhlükəsiz və iqtisadi baxımdan səmərəli bağlantı kimi, ölkələrimiz üçün yeni tranzit imkanları yaradır.

Bu gün həm Azərbaycanda, həm də Türkmənistanda yeni dəniz limanları tikilir. Bu da gələcəkdə bizim nəqliyyat imkanlarımızı daha da artıracaqdır.

Biz Xəzər dənizini dostluq, sülh, təhlükəsizlik və əməkdaşlıq dənizi hesab edirik. Azərbaycan Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan həm çoxtərəfli, həm də ikitərəfli formatda müzakirələri davam etdirərək, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın əsas prinsiplərinin razılaşdırılmasını sürətləndirməyin tərəfdarıdır. Azərbaycan və Türkmənistan xalqlarının tarixi, mədəni bağlılığını nəzərə alaraq, mədəniyyət, incəsənət, elm, təhsil, gənclər və idman sahələrində əməkdaşlığın möhkəmləndirilməsi mühüm aktuallıq kəsb edir.

Azərbaycan və Türkmənistan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurlu əməkdaşlıq edir. 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunubdur. Bu ilin may ayında Bakıda 50-dən çox ölkənin iştirakı ilə IV İslam Həmrəyliyi oyunları keçirildi. Bu bizim islam həmrəyliyinə verdiyimiz növbəti töhfədir.

2017-ci ilin sentyabr ayında Aşqabad şəhəri qapalı məkanlarda döyüş növləri üzrə V Asiya oyunlarına ev sahibliyi edəcəkdir. Asiya oyunlarının bu coğrafiyada yaşayan xalqlar arasında əlaqələri daha da gücləndirəcəyinə, mədəni əməkdaşlığın gələcək inkişafına təkan verəcəyinə inanıram. Bu münasibətlə Sizi təbrik edirəm. Əminəm ki, bu oyunlar ən yüksək səviyyədə keçiriləcəkdir.

* * *

*Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov ölkəmizə səfərinin uğurlu olduğunu, keçirilən görüşlərin və danışıqların yüksək səviyyədə baş tutduğunu və artıq bunun bir ənənəyə çevrildiyini bildirdi.*

«Bu gün əziz dostumuz İlham Heydər oğlu ilə birlikdə bir daha əmin olduq ki, ölkələrimizi sərfəli coğrafi vəziyyət, vahid tarixi keçmiş və eyni baxışlar birləşdirir» – *deyən Türkmənistan Prezidenti ortaq ənənələrə malik xalqlarımızın dünya mədəniyyətinə böyük töhfələr verdiyini, bir çox qədim dövlətlərin yaranmasında əsas qüvvə kimi çıxış etdiklərini və qədim İpək yolunun üzərində yerləşən ölkələrimiz arasında mədəni tellərin qorunaraq, bu günə qədər gəlib çıxdığını diqqətə çatdırdı.*

*Qurbanqulu Berdıməhəmmədov hazırda ölkələrimiz arasında qarşılıqlı münasibətlərin yüksək templərlə inkişaf etdiyini, Azərbaycan ilə Türkmənistanın nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq apardıqlarını vurğuladı. Prezident bildirdi ki, ümumi sülh, xalqların tərəqqisi və təhlükəsizliyin möhkəmləndirilməsi ölkələrimiz üçün qlobal dəyərdir və Azər-*

*baycan ilə Türkmənistan milli tərəqqi modelinə əsaslanaraq, inamla inkişaf edir.*

*Hər iki ölkənin müstəqillik illərində bir çox sahələrdə böyük uğurlar qazandığını deyən Qurbanqulu Berdıməhəmmədov Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərin və gələcək uğurların onları sevindirdiyini bildirdi. O bu sahədə prezident İlham Əliyevin böyük və xüsusi xidmətlərinin olduğunu diqqətə çatdırdı, Azərbaycanın dövlət başçısının fəaliyyətinin təkcə regionda deyil, həm də dünya miqyasında bəhrələr verdiyini vurğuladı.* «İlham Heydər oğlu ölkəsinə inamla rəhbərlik etməklə, haqlı olaraq regionda və dünyada layiqli hörmət qazanıb. Bu həqiqətən də belədir. Mən ölkələrimiz arasında münasibətlərin inkişafında və möhkəmlənməsində onun şəxsi xidmətlərini xüsusilə qeyd edirəm» – *söyləyən Türkmənistan Prezidenti məhz bu xidmətlərinə görə Azərbaycan Prezidentinə xalqı adından minnətdarlığını bildirdi.*

*Ölkələrimizin xoş münasibətlərinin qarşılıqlı anlaşma üçün çox yaxşı şərait yaratdığını vurğulayan Türkmənistan dövlətinin başçısı Azərbaycana budəfəki səfərinin qarşılıqlı anlaşmanı möhkəmləndirmək üçün böyük imkanlar yaratdığını qeyd etdi.* «Türkmənistan ilə Azərbaycan arasında inkişaf etməkdə olan əməkdaşlıq səfər zamanı bir sıra ikitərəfli sazişləri imzalamağa imkan verdi» – *deyən Qurbanqulu Berdıməhəmmədov bu sənədlərin əhəmiyyətindən danışaraq, onların olduqca aktual sahələri əhatə etdiyini və gələcəkdə də xalqlarımıza böyük fayda gətirəcəyinə əminliyini bildirdi.*

## PAYTAXTIN KEÇMİŞ «SOVETSKİ» ADLANAN ƏRAZİSİNDƏ YENİ YOLLARIN AÇILIŞI MƏRASİMİ

*9 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Bakının Yasamal rayonunun keçmiş «Sovetski» adlanan ərazisində təmir işlərindən sonra Statistika dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev yolların texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Dövlət başçısına Bakı şəhərinin keçmiş «Sovetski» adlanan ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması» layihəsi çərçivəsində görülən işlər barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, 2016-cı ilin avqustundan icrasına başlanan layihəyə uyğun olaraq 26 hektar ərazidə yolların salınması və abadlıq işlərinin aparılması həyata keçirilib. İşlər yüksək keyfiyyətlə, texnoloji ardıcıllığa uyğun, həm də maksimum qısa müddətdə icra olunub. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir. Ümumi uzunluğu 7 kilometrdən çox olan Nəriman Nərimanov prospekti, Abdulla Şaiq, Balababa Məcidov, Mirzəağa Əliyev və Füzuli küçələrində təmir işləri artıq yekunlaşıb.*

*Nəriman Nərimanov prospektinin təmiri zamanı hərəkət zolaqlarının sayı 4-ə çatdırılıb. Abdulla Şaiq küçəsi isə 3 hərəkət zolağından ibarətdir. Layihə çərçivəsində 169 yol nişanı quraşdırılıb. Paytaxt əhəmiyyətli bu layihənin icrası zamanı su, kanalizasiya, yağış sularının axıdılması, qaz, rabitə, elektrik və*

*digər yeraltı kommunikasiyaların tikintisi həyata keçirilib. 5,7 kilometr uzunluğunda drenaj xətti çəkilib, onun üzərində 149 quyu və uzunluğu 1,5 kilometr olan mərkəzi kanalizasiya kollektoru tikilib. Bundan əlavə, 2,6 kilometr uzunluğunda qaz xətti, 5,7 kilometrlik su xətti və abadlaşdırılmış ərazidə 510 metr uzunluğunda ehtiyat keçidlər inşa olunub. Təmir olunan yolların üzərində 9 yerdə avtobus dayanacağı quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıbdır. Prospekt və küçələrdə fiziki qüsurlu insanların rahat hərəkəti üçün panduslar qurulubdur.*

*Prezident İlham Əliyev yeni yolların rəmzi açılışını bildirən lenti kəsdi.*

*Daha sonra prezident İlham Əliyev yeni təmir olunan Statistika dairəsində görülən işlərlə tanış oldu. Dövlət başçısı burada Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mikayıl Müşfiqin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Təmir işlərinin ən əhəmiyyətli hissəsi Dövlət Statistika Komitəsinin qarşısında yerləşən dairənin ləğv olunmasıdır. Bu, hərəkətin intensivliyinin və təhlükəsizliyinin təmin olunmasına geniş imkanlar açır. İndi həmin yerdə yaşıllıq zolağı salınıbdır.*

*Keçmiş «Sovetski» adlanan ərazidə yeni yolların çəkilməsi ilə bağlı görülən işlər Bakının yol-nəqliyyat infrastrukturunun müasir səviyyədə qurulmasında xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Füzulu küçəsindəki parkla Akademik Milli Dram Teatrının arxasında yaradılacaq parkın əlaqələndirilməsi, Füzuli meydanındakı dairədə hərəkətin bağlanması, həmçinin Mirzəağa Əliyev və Füzuli küçələrindən istifadə etməklə, Səməd Vurğun küçəsi və Nəriman Nərimanov prospekti arasında nəqliyyatın fasiləsiz və təhlükəsiz hərəkəti təmin olunubdur. Ümumilikdə təmir zamanı prospekt və küçələr boyunca 6000 kvadratmetrdən çox ərazidə yaşıllıq salınıb və suvarma sistemi qurulubdur. Bununla yanaşı, Nəriman Nərimanovun heykəlinin ətrafındakı olduqca sərt sola dönmə də ləğv edilib və bir qədər irəlidə – Nəriman Nərimanov prospektində dairə tipli yeni yol*

*qovşağı tikilibdir. Yaxın vaxtlarda piyadaların təhlükəsiz hərəkəti üçün Təzəpir məscidinin qarşısındakı sahədə yeni piyada keçidinin tikilməsi, habelə burada 360 yerlik avtomobil dayanacağının salınması da nəzərdə tutulubdur.*

## BELARUS RESPUBLİKASI DÖVLƏT SƏRHƏD KOMİTƏSİNİN SƏDRİ ANATOLİ LAPPO İLƏ GÖRÜŞ

*9 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Belarus Respublikası Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul etmişdir.*

*Anatoli Lappo Bakıda 1990-cı ildə olduğunu qeyd edərək, paytaxtımıza budəfəki səfəri zamanı inanılmaz dərəcədə inkişaf gördüyünü bildirdi. O, sərhədçi olaraq, öz xidmətinə Naxçıvanda zastava rəisi kimi başladığını məmnunluqla vurğulayaraq dedi:* «Mən Naxçıvanda zastava rəisi vəzifəsində çalışarkən Azərbaycanın əfsanəvi oğlu Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam və o illəri xoş təəssüratla xatırlayıram».

*Prezident İlham Əliyev xoş sözlərə görə məmnunluğunu ifadə etdi. Dövlət başçısı ötən dövr ərzində Naxçıvanda böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq, qonağın ölkəmizə bu səfərinin onun xidmət etdiyi yerləri yenidən görmək üçün yaxşı imkan yaratdığını dedi.*

*Görüşdə Azərbaycan–Belarus ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki dövlətin sərhəd xidmətləri arasında əməkdaşlığın əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirildi.*

## YÜNGÜL ATLETİKA ÜZRƏ DÜNYA ÇEMPİONU RAMİL QULİYEVƏ

Əziz Ramil!

İlk növbədə, səni yüngül atletika üzrə dünya çempionu adını qazanmağın münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qeyd etmək istərdim ki, tarixdə ilk dəfə olaraq azərbaycanlı idmançı yüngül atletika üzrə dünya çempionu olub. Xüsusilə sevindirici haldır ki, sən qələbədən sonra Azərbaycan və Türkiyə bayraqlarını qaldırdın. Bu onu göstərir ki, sən öz xalqına bağlı, vətənpərvər insansan.

Sən bu gün Türkiyəni təmsil edirsən. Ancaq idmanda ilk addımlarını Azərbaycanda atmısan.

Bu qələbə münasibətilə Türkiyəni də təbrik edirəm. Sənin qələbən eyni zamanda, Azərbaycan–Türkiyə dostluğu və qardaşlığının növbəti təzahürüdür. Biz Azərbaycanda səninlə fəxr edirik.

Sənə idmanda yeni qələbələr arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*11 avqust 2017-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

İsgəndəriyyə şəhəri yaxınlığında 2 sərnişin qatarının toqquşması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 avqust 2017-ci il*

**QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2017-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

İndoneziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost İndoneziya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 avqust 2017-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstan İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Əfqanıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2017-ci il*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**VI FELİPEYƏ**

Əlahəzrət!

Ölkənizdə törədilmiş dəhşətli terror aktları nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi sarsıtdı.

Dinc insanlara qarşı yönəlmiş bu amansız terror əməllərindən hədsiz dərəcədə hiddətlənir, dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İspaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2017-ci il*

## GÖYGÖL RAYONUNA SƏFƏR

*19 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöl rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Göygöl şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, bu ərazi istər rayon sakinlərinin, istərsə də Göygölün qonaqlarının istirahət üçün üz tutduqları ən sevimli məkanlardan biridir.*

### Qələbə parkında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöldəki Qələbə parkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısına parkda görülən işlər, yaradılan şərait barədə məlumat verildi.*

*Bildirildi ki, Qələbə parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulubdur. Parkın rayonun mərkəzində yerləşməsi onun özəlliyini daha da artırır. Parkda istirahətin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradılıb. Qeyd olundu ki, bu parkın yaradılması ilə rayon sakinlərinin sevə-sevə üz tutduqları istirahət məkanlarının sayı daha da artıb. Parkın yaradılması zamanı balacalar da diqqətdən kənarda qalmayıb.*

*Burada uşaqların asudə vaxtının səmərəli təşkili üçün əyləncə kompleksi yaradılıb, attraksionlar quraşdırılıbdır.*

*Dövlət başçısı parkda İkinci dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Diqqətə çatdırıldı ki, ümumi sahəsi 2 hektar olan parkda əsaslı şəkildə təmir işlərinə 2016-cı ildə başlanılıb. Burada fəvvarələr quraşdırılıb, istirahət guşələri yaradılıbdır. Parkda kafe də fəaliyyət göstərir.*

*Yeni parkların, istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də turizm bölgəsi kimi böyük şöhrət qazanmış Göygölü daha da müasirləşdirir. Qələbə parkının yenidən qurulması rayonda bu istiqamətdə reallaşdırılan layihələrin bir hissəsidir.*

## Əsaslı şəkildə təmir edilən 4 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöldə əsaslı şəkildə təmir edilən 4 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı Körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, Körpələr evi-uşaq bağçasının ikimərtəbəli binasının əsaslı təmirinə 2015-ci ilin iyulunda başlanılıb. Əsaslı təmir işləri bu ilin iyulunda başa çatdırılıb. 100 uşaq yerlik bu müəssisədə oyun, yemək və yataq otaqları, tədris otağı, musiqi zalı, mətbəx, həkim otağı və anbarlar yaradılıb. Otaqların hamısı zəruri inventar və avadanlıqlarla təchiz edilib. Binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir. Bundan başqa, bu müəssisədəki şərait uşaqların istedad və qabiliyyətlə-*

*rinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məsələsində mühüm rol oynayacaqdır.*

*Qeyd edildi ki, burada yaradılan şərait uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin məntiqi nəticəsidir. Körpələr evi-uşaq bağçasının həyatində geniş abadlıq işləri aparılıb, balacaların əylənməsi üçün attraksionlar quraşdırılıbdır.*

*Azərbaycan dövləti gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin təşkili, onların sosial müdafiəsinin gücləndirilməsi, əsl vətənpərvər və sağlam yetişməsi istiqamətində mühüm layihələr icra edir. Göygöldəki 4 saylı Körpələr evi-uşaq bağçasında yaradılan şərait bu istiqamətdə görülən işləri əyani surətdə təsdiq edən nümunələrdən biridir.*

## «Çiçəkli» Su-Elektrik Stansiyasının əsaslı yenidən qurulmasından sonra istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq «Çiçəkli» Su-Elektrik Stansiyasının əsaslı yenidən qurulmasından sonra açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlət başçısına stansiya barədə məlumat verdi.*

*Bildirildi ki, 1927-ci ildə inşa edilmiş bu su-elektrik stansiyası 1997-ci ildə sel nəticəsində tamamilə dağılaraq, istismara yararsız vəziyyətə düşmüşdü. Azərbaycan Respublikası Prezidentinin ölkə iqtisadiyyatına özəl investisiyaların cəlb edilməsi tapşırığına uyğun olaraq, stansiya hazırda investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilib. Burada əsaslı təmir işləri aparılıb, yeni avadanlıqlar quraşdırılıbdır.*

*Diqqətə çatdırıldı ki, stansiyanın turbin zalı, üçmərtəbəli idarəetmə və inzibati binası da müasir səviyyədə qurulub. Stansiyada hər birinin gücü 1 MVt olan 3 hidroturbin və 3 hidrogene-*

*rator quraşdırılıb. Yenidənqurma işləri çərçivəsində stansiyada 35/6/0,4 kV-luq yarımstansiyalar yaradılıb və elektrik verilişi xətləri çəkilib. Stansiyanın su hövzəsinin tutumu 153 min kubmetr, bəndinin hündürlüyü 10, uzunluğu 134, qaşının eni 5, dibinin eni isə 60 metrdir. Burada suburaxma qabiliyyəti saniyədə 65 kubmetr olan sutullayıcı, suburaxma qabiliyyəti saniyədə 10 kubmetr olan suqəbuledici quraşdırılıb. Stansiyanın derivasiya kanalının en kəsiyi 5 kvadratmetr, uzunluğu isə 3800 metrdir. Burada, həmçinin uzunluğu 500 metr, diametri 1600 millimetr olan boru quraşdırılıbdır.*

*Qeyd edildi ki, «Çiçəkli» Su-Elektrik Stansiyası iqtisadi və sosial cəhətdən olduqca əhəmiyyətlidir. İldə 20 milyon kVt-saat elektrik enerjisi istehsal etmə gücünə malik olan bu stansiya Göygöl rayonunun tələbatının 15 faizini, Göygöl şəhərinin tələbatının isə 75 faizini ödəyəcəkdir. Stansiyanın tikintisində 80 işçi çalışıb. Ərazidə müasir işıqlandırma sistemi quraşdırılıb, abadlıq işləri aparılıb və yaşıllıq zolaqları salınıbdır. Burada 20 yeni iş yerinin yaradılması nəzərdə tutulur.*

*Son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda elektroenergetika sahəsində mühüm uğurlar əldə edilib. «Azərenerji» ASC bu istiqamətdə işləri uğurla davam etdirir. Bu günədək 14 su-elektrik stansiyası istifadəyə verilibdir. Hazırda isə ümumi gücü təqribən 15 MVt olan 4 stansiya inşa olunur.*

*Dövlətimizin başçısı «Çiçəkli» Su-Elektrik Stansiyasını işə saldı.*

## Göygöldə Respublika Süni Mayalanma Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Respublika Süni Mayalanma Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Göygöl rayonunda Respublika Süni Mayalama Mərkəzinin layihələndirilməsinə və tikintisinə prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı sərəncamla start verilib. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində görülən tədbirlər çərçivəsində ölkədə heyvan mənşəli məhsulların istehsalını artırmaq, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq, süni mayalanma tədbirlərinin həyata keçirilməsini sürətləndirmək baxımından bu mərkəzin müstəsna rolu vardır. Respublika Süni Mayalanma Mərkəzinin ümumi ərazisi 3,26 hektardır. Ərazidə enerji təchizatı obyektləri, su hovuzları və nasosxana, kanalizasiya şəbəkəsi, yanğınsöndürmə sistemi, kənd təsərrüfatı texnikalarının saxlanılması üçün qaraj, silos anbarı və digər yardımçı binalar tikilibdir. Ötən dövrdə Respublika Süni Mayalanma Mərkəzi ilə paralel olaraq, ölkədə 12 regional süni mayalanma məntəqəsi də yaradılıbdır.*

*Kənd Təsərrüfatı naziri Heydər Əsədov Respublika Süni Mayalanma Mərkəzi barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, mərkəzin kompleksinə üçmərtəbəli inzibati-laboratoriya binası, tövlə, yem anbarı və yemhazırlama sahəsi, baytarlıq klinikası, karantin məntəqəsi daxildir.*

*Dövlət başçısına kənd təsərrüfatı informasiya sistemi vasitəsilə interaktiv statistika barədə məlumat verildi. Bildirildi ki, indiyədək 115488 fermer qeydiyyata alınıbdır. Həmçinin bu günədək 41042 baş heyvan süni mayalandırılıb. Süni mayalandırmadan 19385 buzov doğulub. İndiyədək 3179400 manat məbləğində subsidiya verilibdir.*

*Binanın birinci mərtəbəsində nümayiş zalı yaradılıbdır.*

*Prezident İlham Əliyevə nümayiş zalında tərəfdaşlarla əməkdaşlıq, istehsal olunan genetik materialların marketinqinin təşkili, mərkəzdə görülən işlər barədə məlumat verildi. Hazırda mərkəzdə 36 baş törədici heyvan vardır. Onlardan beşi qaramal, biri isə camış cinsidir. Mərkəzin iş prinsipinə uyğun olaraq, genetik materiallar istehsal olunan sahə ilə inzibati hissə bir-biri ilə təcrid edilib. Nümayiş zalı elə qurulub ki, pəncə-*

*rədən laboratoriya və istehsal sahəsində gedən prosesləri izləmək mümkündür. Nümayiş zalında mərkəzdə saxlanılan törədici heyvanlar barədə kataloq məlumatları da vardır.*

*Üçmərtəbəli inzibati-laboratoriya binasının ümumi sahəsi 2320 kvadratmetrdir. Laboratoriyada Fransanın bu sahədə aparıcı şirkətinin istehsal etdiyi ən müasir avadanlıqlar quraşdırılıb. Bundan başqa, bu avadanlıqlarla işləmək üçün laboratoriya heyətinə təlimlər də keçirilib. Burada temperatur və havada azotun miqdarının təyini avtomatik idarə olunur. Laboratoriya bölməsinin bir hissəsində genetik materialın satış mərkəzi yerləşir. Kompleksdə azot çəni və azot təchizatı şəbəkəsi qurulubdur. Regionlardakı süni mayalanma məntəqələrinə azot xüsusi avtomobillərlə daşınır. Binanın ikinci mərtəbəsində isə təlim mərkəzi və təlimdə iştirak edənlər üçün yataqxana, mətbəx, camaşırxana və 60 nəfərlik toplantı zalı yerləşir. Binada mərkəzləşdirilmiş kompüter və videobaxış sistemləri quraşdırılıb. Bu sistem istənilən zaman Bakıdan, eləcə də digər bölgələrdən Respublika Süni Mayalanma Mərkəzində aparılan işləri müşahidə etməyə imkan yaradır.*

*Dövlət başçısı mobil laboratoriya və genetik materialların paylanması üçün istifadə edilən avtonəqliyyat vasitələrinə də baxdı. Burada eyni zamanda, maye azotun daşınması üçün nəzərdə tutulan xüsusi təyinatlı avtomobillər də vardır.*

*Prezident İlham Əliyev müəssisənin istehsalat sahəsində oldu. Kompleksin tövlə binası, o cümlədən tövlənin havalandırma və işıqlandırma sistemləri ən müasir standartlara uyğun olaraq qurulubdur. Tövlənin daxilindəki temperatur və nəmlik, heyvanların yemlənməsi, peyinin təmizlənməsi prosesləri tam avtomatik idarə olunur. Biotəhlükəsizlik tələblərinə uyğun olaraq tövlə daxilinə yemləmə və təmizləmə üçün traktorlar və digər mexanizmlər buraxılmır. Kompleksdə saxlanılan heyvanların hərəkəti üçün diametri 14 metr olan avtomatlaşdırılmış qurğu quraşdırılıb. Burada Baytarlıq klinikası da inşa olunubdur.*

*Kompleksin yem anbarı və yemhazırlama sahəsində Almaniya istehsalı olan paylayıcı qurğu quraşdırılıb. Xüsusi proqramla təchiz edilən bu qurğu yem rasionuna görə hər bir heyvanın önünə müvafiq miqdarda yem tökmək imkanına malikdir. Burada müxtəlif növ yemlər hazırlanaraq, qarışdırıcıya, oradan isə yempaylayıcı qurğuya verilir.*

*Mərkəzdə toxum götürülən heyvanların saxlanıldığı tövlədən normalara uyğun müvafiq məsafədə yeni alınmış heyvanlar üçün ümumi sahəsi 340,8 kvadratmetr olan karantin məntəqəsi inşa edilibdir.*

*Qeyd edək ki, Göygöldə istifadəyə verilən Respublika Süni Mayalanma Mərkəzi ölkədə qaramalın çoxaldılması üçün damazlıq materialına olan tələbatı tam qarşılayacaq və yerli heyvan cinslərindən istifadə olunmaqla, yetişdirilmiş cinslərin də genetik imkanlarından faydalanmağa şərait yaradacaqdır.*

## İNZİBATİ LABORATORİYA BİNASINDA VƏ ZONA BAYTARLIQ LABORATORİYASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI GÖYGÖL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binasında və zona baytarlıq laboratoriyasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət başçısı Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Kənd Təsərrüfatı naziri Heydər Əsədov prezident İlham Əliyevə elektron kənd təsərrüfatı sistemi barədə məlumat verdi.*

*Kənd Təsərrüfatı Nazirliyinin Göygöl Rayon İdarəsinin inzibati-laboratoriya binası 2014–2016-cı illərin dövlət investisiya proqramları çərçivəsində inşa edilib. Üçmərtəbəli binanın ümumi sahəsi 1700 kvadratmetrdən çoxdur. Binanın foyesində ulu öndərin və dövlət başçımızın rayona səfərlərini əks etdirən fotostend quraşdırılıb. Burada Göygöl Rayon Kənd Təsərrüfatı İdarəsi, Bitki Mühafizə Mərkəzinin və Dövlət Texniki Nəzarət Müfəttişliyinin rayon bölmələri, Göygöl Baytarlıq İdarəsi, Regional Təlim Mərkəzi, Göygöl Regional Aqrokimya və Göygöl Regional Toxumçuluq laboratoriyaları yerləşir. Binada işçilərin fəaliyyəti üçün bütün zəruri şərait yaradılıbdır.*

*Göygöl Regional Aqrokimya Laboratoriyası tərəfindən əkin sahələrində və digər kənd təsərrüfatına yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması, sahələrə aqrokimyəvi*

*pasportların verilməsi və kartoqramların hazırlanması nəzərdə tutulur. Bundan başqa, laboratoriyanın fəaliyyəti nəticəsində torpağın xüsusiyyətlərindən asılı olaraq, kənd təsərrüfatı bitkilərinin qida maddələri və rütubət ehtiyatları ilə təmin edilməsinə, bitkilərin bioloji xüsusiyyətindən və məhsuldarlıqdan asılı olaraq, tələb olunan gübrə normalarının müəyyənləşdirilməsinə, fermerlərə və torpaq mülkiyyətçilərinə dövlət dəstəyinin gücləndirilməsinə və kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə olunmasına şərait yaranacaqdır.*

*Göygöl Regional Toxum Sertifikatlaşdırma Laboratoriyası isə müvafiq sahə standartlarının tələblərinə uyğun toxumun keyfiyyətinə nəzarətin və sertifikatlaşdırmanın həyata keçirilməsi məqsədilə toxumluq əkinlərin qeydiyyatının aparılması işini yerinə yetirəcəkdir. Laboratoriya tərəfindən tarla nəzarəti həyata keçiriləcək, toxum partiyası və əkin materiallarından nümunə götürüləcək, səpin keyfiyyətinin və əkin materiallarının analizi aparılacaqdır. Bundan başqa, laboratoriyanın fəaliyyətinə müvafiq dövlət standartlarına uyğun keyfiyyətdə toxumların sertifikatlaşdırılması üçün rəy verilməsi, daxili və xarici əmtəəlik toxum bazarında toxum satışı ilə məşğul olan hüquqi və fiziki şəxslərin səmərəli fəaliyyətinin təşkili də daxildir.*

*Dövlət başçısı Göygöl Zona Baytarlıq Laboratoriyasında yaradılan şəraitlə də tanış oldu. Laboratoriyanın yenidən qurulması layihəsi 2017-ci ildə həyata keçirilib, laboratoriyada yeni bölmələr yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. Bakteriologiya bölməsində yoluxucu xəstəliklərin diaqnostik müayinəsi və heyvan mənşəli qida məhsullarında bakterioloji çirklənmələrin analizi aparılır. Serologiya laboratoriyasında isə virusoloji, bakterioloji, epidemioloji və sair xəstəliklərin seroloji müayinəsi həyata keçirilir. Bütün növ heyvan və quşlar arasında virus mənşəli xəstəliklərin laborator diaqnostikası və müayinəsi laboratoriyanın virusologiya bölməsində aparılır. Toksikologiya bölməsində qida məhsulları və yem əlavələrində*

*biokimyəvi, həmçinin toksiki zəhərlənmələrin müayinəsi həyata keçirilir.*

*Laboratoriya ilə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Yenidən Göygöl rayonunda olmağımdan çox məmnunam. Bu mənim prezident kimi, rayona dördüncü səfərimdir. Göygöl rayonunda işlər yaxşı gedir, sosial-iqtisadi inkişaf təmin olunur, rayonun inkişafına böyük diqqət göstərilir. Əvvəlki illərdə bir çox önəmli sosial, iqtisadi məsələlər öz həllini tapıbdır. İnfrastruktur layihələri uğurla icra edilir, sosial obyektlər tikilir. Bir neçə il bundan əvvəl 150 çarpayılıq rayon Mərkəzi Xəstəxanası, Olimpiya İdman Kompleksi, kənd yolları, sənaye obyektləri açılmışdır. Bir sözlə, rayonun inkişafı üçün bütün lazımi tədbirlər görülür. Mənə verilən son məlumata görə, Göygöl rayonunda qazlaşdırılma təxminən 70 faizə yaxındır, bu iş davam edir və davam etməlidir, daha çox kəndə qaz xətləri çəkilməlidir. Elektrik enerjisi ilə bağlı problemlər öz həllini tapır. Bu gün biz 3 meqavat gücündə yeni su-elektrik stansiyasının açılışını qeyd etdik. Kənd yollarının tikintisi davam etdiriləcək. Artıq bir neçə layihə icra edilib, növbəti illərdə qalan kəndlərdə də yollar salınacaq, xüsusilə Göygöl gölünə gedən yol əsaslı təmir olunmalıdır. Bu məqsədlər üçün lazımi vəsait yaxın gələcəkdə ayrılacaqdır.

Rayonun sosial-iqtisadi inkişafı əslində onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bu gün biz bütün rayonlarda inkişaf, tərəqqi görürük, insanların işlə təmin olunması məsələsi öz həllini tapır, işsizlik çox aşağı səviyyədədir. Son illərdə görülən tədbirlər nəticəsində işsizliklə bağlı daha da önəmli addımlar atılır və insanların məşğulluğu artır. Göygöldə

20-dən çox yeni məktəb tikilib, 20-dən artıq məktəb əsaslı təmir olunub. Yəni hərtərəfli inkişaf təmin edilir və əlbəttə, biz gələcək illərdə də növbəti addımlar atmalıyıq ki, inkişaf dayanıqlı olsun.

Bu gün biz Göygöl rayonunda respublika əhəmiyyətli 2 obyektin açılışını qeyd edirik. Bu, kənd təsərrüfatı laboratoriyası və Süni Mayalanma Mərkəzidir. Bu laboratoriyanın və Süni Mayalanma Mərkəzinin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti vardır. Mənə indi göstərilən avadanlıq, imkanlar deməyə əsas verir ki, biz yeni yanaşma ilə kənd təsərrüfatında məhsuldarlığın artımına nail olacağıq. Çünki qarşımızda duran əsas vəzifə mövcud torpaq fondundan istifadə edərək, məhsuldarlığı artırmaqdır. Buradakı toxumçuluq, baytarlıq, aqrokimya laboratoriyaları bu məqsədə çatmaq üçün bizə imkan yaradacaq. Çünki fermerlər, iş adamları, kəndlilər artıq biləcəklər ki, hansı toxumdan istifadə etmək lazımdır, hansı aqrotexniki tədbirlər görülməlidir, hansı torpaq sahəsində hansı gübrələrdən istifadə olunmalıdır. Ərzaq təhlükəsizliyi məsələləri də bu laboratoriyalar vasitəsilə təmin ediləcəkdir. Belə laboratoriyalar 12 bölgədə yaradılır. Bu əslində kənd təsərrüfatının inkişafında növbəti mərhələnin başlanğıcıdır, dönüş nöqtəsidir. Çünki bundan sonra Azərbaycanda kənd təsərrüfatı elmi əsaslarla inkişaf edəcək və beləliklə, biz məhsuldarlığın artımına nail olacağıq. Çünki Azərbaycanın ərazisi, əlbəttə, imkan vermir ki, biz böyük həcmdə yeni əkin sahələrini dövriyyəyə cəlb edək. Halbuki biz bunu edirik, xüsusilə meliorativ tədbirlər nəticəsində.

Son illər ərzində görülmüş işlər – Şəmkirçay, Taxtakörpü su anbarlarının, kanalların yaradılması və digər meliorativ tədbirlər nəticəsində on minlərlə hektar yeni torpaq sahəsi əkinə cəlb edilibdir. Yəni bu il bizim məqsədimiz ondan ibarətdir ki, 100 min hektardan çox yeni əkin sahələrini su ilə təmin edək. Yeni suvarma sistemləri də tətbiq edilir, o cümlədən bu bölgədə. Bu işləri görəndən sonra biz kənd təsərrüfatını ancaq

məhsuldarlığın artımı hesabına inkişaf etdirə bilərik. Bu laboratoriya bu imkanı bizə yaradır.

Eyni zamanda, Süni Mayalanma Mərkəzinin istifadəyə verilməsi də heyvandarlıqda ciddi artıma gətirib çıxaracaqdır. Bu, ölkəmizdə yeganə və ölkə əhəmiyyətli bir mərkəzdir. Mənim təşəbbüsümlə bir neçə il ərzində xaricdən cins inəklər gətirilir. Avropa ölkələrindən artıq minlərlə inək gətirilib. Bu proqram hesabına Azərbaycanda bir çox yeni heyvandarlıq mərkəzləri, fermalar yaradılıbdır. Bu proses davam etdirilir. Hazırda bir çox yeni heyvandarlıq kompleksləri yaradılır. Əlbəttə ki, biz növbəti illərdə də xaricdən cins mal-qara alacağıq. Yerli cinsi yaxşılaşdırmaq, xaricdən asılılığı azaltmaq üçün Süni Mayalanma Mərkəzinin yaradılması artıq öz həllini tapıbdır.

Əminəm ki, bu mərkəzin fəaliyyəti nəticəsində bir neçə il ərzində Azərbaycanda mal-qaranın cinsi tədricən yaxşılaşacaq. Beləliklə, məhsuldarlıq yüksələcək, südçülük inkişaf etdiriləcək və ət istehsalı da artacaqdır. Hazırda biz həm ət, həm də süd ixrac edirik. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki əvvəlki illərdə biz idxaldan çox asılı idik. İndi bu asılılığı aradan götürürük. Düzdür, biz özümüzü süd məhsulları ilə tam təmin etmirik, idxal da edirik, amma ixraca da başlamışıq. Bizim məhsulumuz çox keyfiyyətlidir və xarici bazarlarda yüksək qiymətləndirilir. Amma biz elə etməliyik ki, özümüzü süd məhsulları ilə tam təmin edək və ixrac potensialımızı da artıraq. Süni Mayalanma Mərkəzinin fəaliyyəti nəticəsində biz bir neçə il ərzində buna nail olacağıq. Çünki hazırda kənd təsərrüfatı bizim üçün prioritet sahədir. Son illər ərzində kənd təsərrüfatı sahəsində çox böyük işlər görülübdür. Həm bitkiçilikdə, həm heyvandarlıqda, ümumiyyətlə, kənd təsərrüfatında artım təmin edilir. Bu ilin 6 ayında kənd təsərrüfatı məhsullarının ixracı 40 faiz artıbdır. Bu, görülən işlər nəticəsində mümkün olubdur. Hazırda 40-a yaxın yeni aqropark yaradılır. Əlbəttə, biz bu aqroparkların fəaliyyəti nəticəsində istehsalı artıracağıq.

İndi bölgələrdə işsizliklə bağlı problem, demək olar ki, aradan qaldırılır. Bizim üçün ənənəvi olan kənd təsərrüfatı sahələri bərpa edilir, dirçəldilir. Pambıqçılığı son 2 il ərzində biz, demək olar ki, 10 dəfəyə yaxın artırmışıq. İndi minlərlə, on minlərlə insan işləyir və əməkhaqqı alır. Biz tütünçülüyü də, ipəkçiliyi də bərpa edirik.

Bizim kənd təsərrüfatı məhsullarımızın ixrac potensialı çoxşaxəlidir. Bu bizim böyük xoşbəxtliyimizdir. Çünki bizim 9 iqlim zonamız vardır. Bizdə meyvə-tərəvəz, tütün, pambıq, üzüm, spirtli içkilər, fındıq, badam, çay, sitrus meyvələri – yəni hər şey vardır. Sadəcə olaraq, gərək biz bu təbii imkanlardan düzgün istifadə edək, istifadə edirik də və son illərdə kənd təsərrüfatı sahəsində çox böyük inkişaf vardır. Biz indi ənənəvi sahələri bərpa etməklə, daha da böyük potensial yaradacağıq.

Bir daha deyirəm ki, biz bu sahəni bundan sonra ancaq elmi biliklər əsasında inkişaf etdirməliyik. Dövlət öz üzərinə düşən bütün vəzifələri yerinə yetirir, bütün bölgələrdə belə gözəl laboratoriyalar, mərkəzlər yaradılır, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq verilir, texnika alınır. Bu il Azərbaycana 10 min texnika gətirilib və gətiriləcək. Fermerlər, sahibkarlar, kəndlilər bu imkanlardan istifadə etməlidirlər. Bu ilk növbədə, onlar üçün lazımdır, çünki məhsuldarlıq 2 dəfə arta bilər. Bu həm də dövlət üçün lazımdır.

Bu gün xüsusi əhəmiyyətə malikdir. Bu gün Göygöl rayonunda respublika əhəmiyyətli 2 müəssisənin açılışı çox əlamətdar hadisədir. Sizi bu hadisə münasibətilə təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

**Z ü m r ü d S ə l i m o v a** (*Göygöl Regional Aqrokimya Laboratoriyasının aparıcı mütəxəssisi*): Cənab Prezident, Sizi növbəti dəfə Göygöl rayonunda görmək biz gəncləri daha çox sevindirir. Son illər kənd təsərrüfatına dövlət dəstəyi nəticəsində bütün ölkəmizdə olduğu kimi, bizim rayonumuzda da bu sahə sürətlə inkişaf edir. Yeni regional aqrokimya laboratoriyalarının yaradılması, ən müasir avadanlıqlarla təchiz olunması,

beynəlxalq ekspertlərin iştirakı ilə təlimlərin keçirilməsi Sizin bu sahəyə diqqət və qayğınızın nəticəsidir.

Çox sevindirici haldır ki, belə müasir laboratoriyada işləmək mənə də qismət olub. Biz bu laboratoriyada torpaq və bitki analizləri apararaq, torpaqların fiziki, aqrokimyəvi, bioloji xassələrini öyrənərək, fermerlərə gübrələrdən düzgün istifadə haqqında tövsiyələr verəcəyik. Eyni zamanda, bitkilərdə toksiki maddələri, pestisid qalıqlarını da təyin etmək imkanına nail olacağıq.

Cənab Prezident, bu yeni laboratoriyalar məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin artmasına xidmət edəcək, məhsul bolluğu yaranacaq ki, bu da xarici bazardan asılılığı azaldacaqdır. Biz də Sizin yüksək diqqət və qayğınızın əvəzində üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcəyik və çalışacağıq ki, əkinə yararsız torpaqları yararlı hala salmaq üçün öz töhfəmizi verək. Gənclər üçün geniş imkanlar yaratdığınıza görə bütün gənclər adından Sizə təşəkkür edirəm. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Çox sağ ol.

**Bariz Aslanov** *(Göygöl Rayon Baytarlıq İdarəsinin baytar həkimi)*: Hörmətli Prezident, Göygöl rayonuna xoş gəlmisiniz! Sizi Göygöl rayonunda görməyimizə çox şadıq. Mən 30 ildən çoxdur ki, kənd təsərrüfatı sahəsində çalışıram. Son illər respublikamızda kənd təsərrüfatı inanılmaz dərəcədə inkişaf edib. Bu inkişaf bütün kənd əhalisini torpağa bağladı. Bir vaxt gənclər iş yeri üçün başqa şəhərlərə gedirdilər. İndi onların hamısı rayonumuza, kəndlərə qayıdır, torpağa bağlanırlar, işləyirlər. Bu da kənd əhalisinin inkişafını, maddi vəziyyətini yaxşılaşdırır, respublikamızda bolluq yaradır. Müasir kənd təsərrüfatı texnikalarının respublikamıza gətirilməsi, gübrələrin alınması, subsidiyaların verilməsi, belə baytarlıq, aqrokimya, toxumluq laboratoriyaların tikilməsi, onların müasir avadanlıqlarla təmin olunması Sizin kənd təsərrüfatının inkişafına verdiyiniz töhfədir. Bu böyük inkişafa, yeni yaradılan iş yerlərinə, kənd

təsərrüfatının inkişafına verdiyiniz dəstəyə görə Göygöl rayonunun bütün əhalisi adından, kənd təsərrüfatı işçiləri adından Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun. Allah Sizə, ailənizə cansağlığı versin. Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Hansı sahədə işləyirsiniz?

**Bariz Aslanov:** Baytarlıq sahəsində işləyirəm. 30 ildən çoxdur ki, bu sahədə çalışıram.

**İlham Əliyev:** Bu laboratoriyanı görmüsünüz. İndi bu imkanlardan istifadə etməlisiniz.

**Bariz Aslanov:** Bəli, inşallah, Sizin sayənizdə istifadə edəcəyik.

* * *

*Sonra Kənd Təsərrüfatı naziri Heydər Əsədov dövlət başçısına Dövlət Baytarlıq Xidməti tərəfindən rayon baytarlıq idarələrinə epizootik tədbirlərin aparılması, baytarlıq xidmətlərinin göstərilməsi üçün lazım olan avadanlıqlar, ləvazimatlar barədə məlumat verdi. Burada xüsusi geyim vasitələri, cərrahi əməliyyat dəstləri, heyvanlarda müxtəlif xəstəliklərə dair bukletlər və əyani vəsaitlər sərgilənir. Müəssisənin anbarlarında isə vaksinlər saxlanılır. Onlar xüsusi rejimdə soyuducu konteynerlərə yığılır. Beləliklə, regionlara istənilən dərman maddələrinin və vaksinlərin təhlükəsiz daşınması mümkün olur.*

## SAMUX RAYONUNA SƏFƏR

*19 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Göygöl rayonuna səfərini başa çatdıraraq, Samux rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev ulu öndər Heydər Əliyevin abidəsinin ətrafında, həmçinin rayonda görülən işlər, həyata keçirilən və keçiriləcək layihələr barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Zazalı–İmamzadə kompleksi–Gəncə avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Zazalı–İmamzadə kompleksi–Gəncə avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və əsaslı təmir işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol-nəqliyyat infrastrukturunun əsaslı təmiri və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili*

*yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Belə layihələr sırasında Zazalı–İmamzadə kompleksi–Gəncə avtomobil yolunun tikintisi xüsusi əhəmiyyəti ilə seçilir.*

*Dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, uzunluğu 19 kilometrdən çox olan yol yerli şərait nəzərə alınmaqla, birinci və üçüncü texniki dərəcələrə uyğun surətdə hissələrlə layihələndirilib. Hərəkət hissələrinin eni 7–14 metr arasında dəyişən yol 2 və 4 hərəkət zolaqlıdır. Tikinti işləri həyata keçirilərkən Gəncə çayı üzərində ikiaşırımlı körpü, 45 yerdə yol birləşmələri inşa olunub, 12 avtobus dayanacağı və 111 yol nişanı quraşdırılıbdır. Bu yolun tikilməsi Gəncə şəhərinin şimal hissəsindən keçən əlavə dairəvi avtomobil yolu rolunu oynayaraq, Samux, Şəmkir, Tovuz, Qazax, Gürcüstan ilə dövlət sərhədi istiqamətində və əksinə hərəkət edən nəqliyyat vasitələrinin Gəncə şəhərinin mərkəzinə daxil olmadan yük və sərnişindaşımasını təmin etməyə imkan verəcəkdir. Eyni zamanda, bu yol vasitəsilə əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olan, Gəncədə VIII əsrə aid tarixi memarlıq abidəsi kimi qorunan İmamzadə dini mədəniyyət kompleksinə ziyarətçilərin rahat gediş-gəlişi təmin ediləcəkdir.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının ikinci növbəsinin birinci mərhələsi üzrə qurğular da daxil olmaqla, 8,55 kilometrlik hissəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Hazırda dünyada ərzaq təhlükəsizliyinin təmin edilməsində su ehtiyatları önəmli rol oynayır. Ölkəmizdə də bu sahədə*

*mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq, mühüm tədbirlər həyata keçirilir. Strateji əhəmiyyətinə və kapital qoyuluşuna görə ən böyük layihələrdən biri – Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisi başa çatdırılıbdır.*

*Bu layihələrin icrası ilə ölkəmizdə minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranıbdır. Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılıb, 17 min hektar yeni suvarılan torpaqlar istifadəyə verilib, həmçinin «Şəmkir Aqropark»ın 543 hektar yeni suvarılan sahələri suvarma suyu ilə təmin edilibdir. Hazırda 690 milyon kubmetr su yığılan bu anbardan Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətləri çəkilir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, «Şəmkir çayı üzərində dəryaçanın tikintisi» kompleks layihəsinə daxil edilmiş və ötən əsrin 80-ci illərində tikilmiş Şəmkir maşın kanalının davamı olaraq, 2015-ci ildən uzunluğu 27 kilometrdən çox olan kanalın ikinci növbəsinin tikintisinə başlanılıb. Bu layihənin icrası sayəsində suvarma su mənbəyi işğal zonasında qalan Goranboy rayonunun 26 min hektardan çox torpaq sahəsini suvarma suyu ilə təmin etmək mümkün olacaqdır. Ötən il kanalın 8 kilometrdən çox hissəsinin tikintisi tamamlanıb və Goranboy, həmçinin Samux rayonlarında 8000 hektar sahəyə suvarma suyu çatdırılıbdır. Kanalın kəsişmə qurğusunun və onun qalan 19 kilometrlik hissəsinin tikintisinin tamamlanması ilə Goranboy rayonunun daha 18584 hektar torpaq sahələrinə suvarma suyu çatdırılmaqla, bu sahələrdə kənd təsərrüfatı məhsulları istehsalının inkişafına nail olunacaqdır. Hazırda kanalın 4,5 kilometrlik hissəsinin tikin-*

*tisi üzrə tamamlanma işləri davam etdirilir. Eyni zamanda, Şəmkir maşın kanalından Goranboy və Samux rayonlarında yeni yaradılmış aqroparka məxsus 4700 hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün hazırda boru kəmərinin və hovuzun tikintisi işləri aparılır.*

*Qeyd edildi ki, ötən əsrin 80-ci illərində inşa olunmuş Şəmkir maşın kanalının birinci növbəsinin layihə üzrə tikinti işləri tamamlanmadığından və təbii amillərin təsirindən beton üzlüyü aşınmış və bəzi yerlərdə çökmələr baş vermişdi. Kür çayı üzərindəki Şəmkir su anbarından kanala əlavə su verilməsi və bu sulardan səmərəli istifadə edilməsi məqsədilə kanalın bu hissəsinin təmir və bərpasına ehtiyac vardır. Ümumiyyətlə, layihənin tam başa çatdırılması ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 27 min hektarı yeni suvarılan torpaqlar olmaqla, 94 min hektar sahənin suvarma suyu ilə təmin edilməsi mümkün olacaqdır.*

*Prezident İlham Əliyev kanalın istismara verilməsini bildirən düyməni basdı.*

## SAMUX–FÜZULİ–LƏK–ƏLİBAYRAMLI–QARABAĞLAR–ÇOBANABDALLI AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Samux–Füzuli–Lək–Əlibayramlı–Qarabağlar–Çobanabdallı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, uzunluğu 36 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol inşa olunarkən onun üzərində müxtəlif diametrli suötürücü borular və körpü tikilib, 16 yerdə avtobus dayanacağı quraşdırılıbdır.*

*Qeyd edildi ki, 23 min nəfər əhalinin yaşadığı və 11 yaşayış məntəqəsini birləşdirərək, yük və sərnişindaşımasını xeyli yaxşılaşdırmağa imkan verən bu yolun tikintisi prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı müvafiq sərəncama əsasən həyata keçirilibdir.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Yenidən Samuxda olmağıma, sizi görməyimə çox şadam. Bu mənim prezident kimi, Samux rayonuna üçüncü səfərimdir. Bu səfər çərçivəsində çox önəmli açılışlar qeyd olunur. Onlardan biri

bu kənd yolu layihəsidir. Bu kəndlərdə yaşayan insanlar üçün bu yol uzun illər böyük bir problem idi. Körpü yox idi, sel olanda gediş-gəliş çətinləşirdi. İndi 36 kilometr uzunluğunda gözəl bir yol çəkilib. Bu, 11 yaşayış məntəqəsini birləşdirən dairəvi yoldur. Bu yol sizə rahatlıq verəcək. Eyni zamanda, bu yolun kənd təsərrüfatının inkişafı üçün də çox böyük əhəmiyyəti vardır. Bu yolun tikintisinə dövlət tərəfindən böyük vəsait ayrılmışdır. Bu, sırf sosial layihədir. Çünki bu yolun çəkilişi ilk növbədə, insanların rahat hərəkəti üçün nəzərdə tutulub. Bundan sonra bu yolla bağlı heç bir problem olmayacaq. Bu 11 kənddə 20 mindən çox insan yaşayır. Mən sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Onu da qeyd etməliyəm ki, bu gün ikinci yol da açıldı. Bu Zazalı–İmamzadə yoludur. Orada da Samux rayonunun 5 kəndi əhatə olunur. Beləliklə, bu gün Samux rayonunun 16 kəndinə yol çəkilərək, istifadəyə verilib. Bu doğrudan da çox əlamətdar hadisədir. Yol olan yerdə inkişaf da olur. İndi həm sərmayə qoyuluşu, həm kənd təsərrüfatının inkişafı yol infrastrukturuna bağlıdır. Çünki yol həm insanlara xidmət edir, gediş-gəliş asanlaşır, həm də sizin məhsulunuz bazarlara tez bir zamanda çatdırılır, itki də olmur. Yol kənd təsərrüfatı ilə məşğul olmaq üçün də əlavə imkanlar yaradır. Ona görə yol həm sosial, həm iqtisadi layihədir. Ölkəmizdə yol layihələrinə çox böyük diqqət verilir. Demək olar ki, indi bütün magistral yollarımızda ən müasir səviyyə yaradılıbdır. Bakıdan Gəncəyə dörd hərəkət zolaqlı çox gözəl yol salınıbdır. Gəncədən Gürcüstan sərhədinə qədər 2 hərəkət zolaqlı yoldur, o da yaxşıdır. Amma biz onu 4 zolağa genişləndirmək fikrindəyik.

Digər bölgələrdə də magistral yollara, cənub, şimal istiqamətlərində şəhərlərarası yollara, kənd yollarına çox böyük vəsait qoyulur. Biz bunu ona görə edirik ki, insanlar bu imkanlardan rahat istifadə etsinlər.

Bu il ölkəmizdə yüzlərlə kəndə yol çəkilir. Bu ümumi layihənin şərti adı «40 yol» layihəsidir. Bu, 40 layihədən ibarətdir, am-

ma hər bir layihə bir neçə kəndi əhatə edir. Misal üçün, bir layihə 11 kəndi, digər layihə isə 5 kəndi əhatə edir. Yəni «40 yol» layihəsi 1 il ərzində yüzlərlə kəndi əhatə edir. Gələn il biz daha da çox kəndi əhatə edəcəyik. Beləliklə, ölkəmizdə bir dənə də olsun təmirsiz kənd yolu qalmamalıdır. Magistral yolların layihələri, demək olar ki, başa çatır, şəhərlərarası yolların böyük hissəsi öz həllini tapıbdır. İndi kəndlərarası yollar da salınır. Yol infrastrukturuna görə Azərbaycan indi dünya miqyasında qabaqcıl yerdədir.

Bu gün mən eyni zamanda, Şəmkir–Samux–Goranboy su kanalının birinci mərhələsinin açılışını da qeyd etdim. Bu layihənin Samux rayonu və qonşu rayonlar üçün çox böyük əhəmiyyəti vardır. Mənə verilən məlumata görə, vətəndaşlar bu layihənin icrası nəticəsində minlərlə hektar torpağı əkib becərirlər. 12 min hektar torpaq sahəsinin su təminatı yaxşılaşıb. Bu vaxta qədər suvarılmayan torpaqlarda indi su təminatı vardır. Bu, əlbəttə, kənd təsərrüfatının inkişafına böyük təkan verib. Vaxtilə əkilməyən sahələrdə indi gözəl işlər görülür. Mənə verilən məlumata görə, artıq boş torpaq qalmayıb. Nəyə görə? Ona görə ki, su var. Su olmayanda heç kim əkib becərmir. Suyu gətirmək üçün biz çox böyük işlər gördük. Şəmkirçay su anbarı tikilib. Bu, tarixi layihədir. Biz onu bir neçə il bundan əvvəl istifadəyə verdik. O layihəyə yüz milyonlarla manat vəsait qoyulubdur. İlkin hesablamalara görə, o layihənin icrası nəticəsində təqribən 70–80 min hektar torpaq sahəsinə suyun verilməsi və yaxşılaşdırılması nəzərdə tutulurdu. Son məlumata görə, əlavə kanalların çəkilişi hesabına biz bu rəqəmi 110 min hektara çatdıracağıq. Ona görə Şəmkirdən Samuxa qədər kanal çəkilib. Mən indi onun açılışını etdim. O kanalın çəkilişi davam etdiriləcək, Goranboy və Göygöl rayonlarının ərazisini əhatə edəcək. Beləliklə, indi 100 min hektardan çox torpaqda suvarma işləri təmin olunur. Kəndlilər, fermerlər, sahibkarlar dərhal bundan istifadə edirlər, əkirlər, becərirlər, yaxşı pul qazanırlar. Bu bizim ərzaq təhlükəsizliyimizə də böyük töhfədir.

Kənd təsərrüfatı bizim üçün prioritet sahədir. Bu gün biz Göygöl rayonunda regional toxumçuluq, aqrokimya, baytarlıq laboratoriyasının açılışını qeyd etdik. Samux rayonunu əhatə edən o laboratoriyanın böyük əhəmiyyəti vardır. Süni Mayalanma Mərkəzinin də açılışı oldu. Bu da heyvandarlığın inkişafına böyük töhfə verəcəkdir.

Bir sözlə, bu gün kənd təsərrüfatının sürətli inkişafı təmin edilir və su layihələri orada birinci şərtdir. Onu da biz təmin edirik. Əminəm ki, Samux rayonunda gələcəkdə də işlər yaxşı gedəcək. Bu günə qədər sosial-iqtisadi layihələr icra edilibdir. Mənə verilən məlumata görə, 30-dan çox məktəb tikilib, təmir edilibdir. Elektrik enerjisi ilə təminat yaxşılaşıbdır. İndi Samuxda qazlaşdırılma 83 faizə çatıbdır. İçməli su layihəsi icra edilməlidir. Azərbaycan öz daxili imkanları hesabına Samuxun içməli su layihəsini də təmin edəcəkdir. Bu gün müvafiq göstərişlər verilibdir. Bilirəm ki, bu, Samuxda problemdir. İçməli su layihəsi də tezliklə öz həllini tapmalıdır. Beləliklə, infrastruktur, kənd təsərrüfatı, suvarma layihələri, sosial obyektlər, iş yerləri hesabına rayonun kompleks şəkildə inkişafı təmin ediləcəkdir. İndi kənd təsərrüfatında sürətli inkişaf gedir və bunun nəticəsidir ki, kənddə, demək olar, iş axtaran yoxdur. Yəni işləmək istəyən iş tapır. İndi işçilərə verilən vəsaitin həcmi də artır. Yəni əvvəllər müəyyən məbləğə razı olurdularsa, indi daha da böyük rəqəm tələb edilir. Bu da yaxşıdır. Vətəndaşlar nə qədər çox pul qazansa, o qədər yaxşıdır. Sahibkarlar onsuz da pul qazanacaqlar. Onlar pul qazanmasa işləməyəcəklər. Onlar üçün artıqlaması ilə şərait yaradılıb – həm dövlət dəstəyi, kreditlər, həm bu layihələr, su layihələri. Əsas məsələ isə ondadır ki, kəndlilər, muzdla işləyənlər yaxşı maaş alsınlar, onların gündəlik əməkhaqqı tələbatlarını tam ödəsin. Biz görürük ki, bu sahədə də böyük artım vardır. İndi kənd təsərrüfatının inkişafı elə geniş vüsət alıb ki, bu sahə ilə məşğul olmaq istəyənlərin sayı artır. Biz də şərait yaradırıq. Bax, bu yol, su kanalı və digər layihələr bunun bariz təzahürüdür.

Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm və yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**M a h i r ə  M ə m m ə d o v a** (*kənd sakini*): Cənab Prezident, mən Sizi bütün samuxlular adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz! Bu gün açılışını etdiyiniz bu körpünün uzun illər həsrətində olmuşuq. Bizim ata-babalarımız da bu körpünün həsrətində olublar. Yağış yağıb çay daşanda bu yol bizim üçün keçilməz olurdu. Biz istədiyimiz yerə getmək üçün 40 kilometr yol qət edirdik. Siz bizim uzaq yolumuzu yaxın, çətin işimizi asan etmisiniz. Allah Sizə cansağlığı versin. Allah valideynlərinizə rəhmət eləsin. Allah övladlarınızı qorusun.

Cənab Prezident, Siz bizim təkcə körpü problemimizi həll etməmisiniz. Ulu öndərimizin sayəsində bizim kənd camaatına paylanan pay torpaqlarında bir zamanlar susuzluqdan heç kim heç nə əkə bilmirdi. Amma bu gün Şəmkirçay kanalının açılışı bizim camaatın torpağa bağlılığını daha da möhkəmləndirdi. Bu gün, demək olar ki, bizim kəndlərimizdə 1 hektar da olsun boş torpaq qalmayıb. Bütün kənd camaatı torpağa qayıdıb, əkir, biçir, becərir, əldə etdiyi gəlirləri ailəsi üçün xərcləyir, övladlarına toy edir, ev tikir. Bu da bizim üçün ən yüksək göstəricidir.

Mən Sizi bizim rayonumuza gəlişiniz münasibətilə bir daha təbrik edirəm. Sizdən artıq dərəcədə xahiş edirəm ki, biz Samux qadınlarının salamlarını Mehriban xanıma çatdırasınız.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm.

**A i d ə  N a m a z o v a** (*rayon sakini*): Möhtərəm cənab Prezident, mən də Sizi salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Samux haqqında fikirlərimi bildirmək istərdim.

Samux rayonu keçən əsrin 90-cı illərində yaradılıb. Nəinki ovaxtkı, hətta 10–15 il bundan əvvəlki Samuxla indiki Samuxu müqayisə etsək görərik ki, inanılmaz dərəcədə dəyişiklik baş verib. Keçən əsrin 90-cı illərində rayon mərkəzi palçıqlı əyri

yollardan, bir neçə küçədən ibarət qəsəbə idi. 2008-ci ildə Sizin sərəncamınızla rayon mərkəzi şəhər statusu aldıqdan sonra burada böyük quruculuq-abadlıq işləri həyata keçirildi. Sizin yüksək diqqət və qayğınız sayəsində Samux böyüdü, abadlaşdı, parklar, xiyabanlar, yaşıllıqlar salındı, müasir tipli binalar tikildi. Əlbəttə, Sizin qayğınız sayəsində insanların həyat səviyyəsi yüksəldi. Siz qeyd etdiyiniz kimi, yeni iş yerləri açıldı, sosial obyektlər, məktəb binaları tikildi. Bütün bunlar bizim üçün böyük fəxrdir. Biz bilirik ki, bunlar Sizin gərgin əməyinizin nəticəsidir. Biz bilirik ki, bu tədbirlərin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanımın da böyük dəstəyi, əməyi vardır. Biz Sizə minnətdarlığımızı bildiririk. Mehriban xanıma da minnətdarlığımızı çatdırmağı Sizdən xahiş edirik.

Möhtərəm cənab Prezident, şagirdlərlə və valideynlərlə daim təmasda olan bir pedaqoq kimi, Sizə onu deyim ki, bu gün bütün insanlar Sizi çox böyük məhəbbətlə sevirlər. Onlar istəyirlər ki, Siz həmişə bizim prezidentimiz olasınız. Çünki Siz bu etimadı yorulmaz fəaliyyətinizlə qazanmısınız. Siz öz fəaliyyətinizlə hər bir azərbaycanlının prezidenti olduğunuzu sübut etmisiniz. Bu yolda Sizə uğurlar arzulayırıq. Bu gün biz samuxlular bütün xalqımız kimi, Sizə güvənərək, Sizə inanaraq, gələcəyə daha xoş ümidlərlə yaşayırıq. Qoy Tanrı Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm. Xoş sözlərə görə sizə minnətdaram.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Samuxda inşa olunmuş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyüməlderinə yüksək diqqət göstərir. Müasir Körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.*

*Dövlət başçısı Körpələr evi-uşaq bağçasının binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ikimərtəbəli binanın sahəsi 1135 kvadratmetrdir. Müxtəlif yaş qruplarının fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dərs otaqlarının hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Yataq otaqları uşaqların zövqünə uyğun qurulub. Bundan əlavə, idman zalında və yeməkxanada da yüksək şərait yaradılıb. Körpələr evi-uşaq bağçasının həyatində balacaların istirahəti üçün meydançalar salınıb, attraksionlar quraşdırılıbdır.*

*Bütün bunlar göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.*

## «Aqroenerji» Yaşayış Kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Samux «Aqroenerji» Yaşayış Kompleksi ilə tanış olmuşdur.*

*Son illər Azərbaycanda alternativ enerji mənbələrindən istifadəyə xüsusi diqqətin göstərilməsi bu sahədə yeni və səmərəli layihələrin icrası ilə yadda qalır. Bu layihələrdən biri də Samux «Aqroenerji» Yaşayış Kompleksidir. Alternativ və bərpa olunan enerji mənbələri hesabına hibrid tipli günəş, külək, geotermal, enerji və bioenerji istehsalı stansiyasından, enerji təminatlı kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, satışı sahələrindən ibarət olan Samux «Aqroenerji» Yaşayış Kompleksi özündə yüksək texnologiyaları və müasir idarəetmə sistemlərini birləşdirir. Bu həm də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizdə həyata keçirilən üçpilləli Enerji İnkişafı Modelinin tərkib hissələrindən biridir. Layihənin əsas məqsədi Samux rayonunun enerjiyə olan tələbatının tam yerli alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin edilməsi, bununla yanaşı, respublikamızın enerji və kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində iştirak və ixrac potensialının artırılmasıdır.*

*Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov prezident İlham Əliyevə kompleks barədə məlumat verdi.*

*Bildirildi ki, layihənin 10–12 il müddətinə mərhələlərlə həyata keçirilməsi nəzərdə tutulur. Kompleksdə dövlət–özəl tərəfdaşlığı modeli çərçivəsində dövlət tərəfindən alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji istehsalı sahələrinin yaradılması, alternativ və bərpa olunan enerji mənbələrinin yerli iqtisadiyyatın bütün sahələrinə tətbiqinin təmin edilməsi, yerli infrastrukturun inkişafında iştirak, özəl sektor tərəfindən isə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, Logistika Mərkəzinin və eləcə də burada fəaliyyət göstərən əməkdaşlar üçün*

*müasir tipli yaşayış kompleksinin inşası planlaşdırılıbdır. Layihə 31 MVt-lıq elektrik və 48 MVt-lıq istilik generasiya gücünə malik hibrid tipli enerji stansiyasından, əkinçilik və bağçılıq sahələri, istixana, iribuynuzlu və xırdabuynuzlu heyvandarlıq, quşçuluq, balıqçılıq kompleksləri, arı ailələrinin yetişdirilməsi mərkəzi, süd və ət kombinatları, Yem zavodu, Logistika Mərkəzindən və yaşayış kompleksindən ibarətdir.*

*Diqqətə çatdırıldı ki, Samux «Aqroenerji» Yaşayış Kompleksi alternativ və bərpa olunan enerji mənbələri hesabına işləyən hibrid enerji stansiyasında il ərzində istehsal ediləcək 120 milyon kilovat/saatdan artıq elektrik və 100 min hekakaloridən çox istilik enerjisi rayonun enerjiyə tələbatını tam ödəməklə, ildə 60 milyon kubmetr təbii qaza qənaət olunmasına və atmosferə buraxılan karbon qazının həcminin 90 min ton azaldılmasına imkan verəcəkdir. Bununla yanaşı, aqrokompleksin fəaliyyəti ildə on minlərlə ton meyvə-tərəvəz, süd və ət məhsullarının istehsalına, 2000-dən çox yeni daimi iş yerinin açılmasına şərait yaradacaqdır. Hazırda «Aqroenerji» Yaşayış Kompleksində birinci mərhələ üzrə işlər başa çatdırılıb, dövlət hesabına 3,8 MVt-lıq günəş-bioenerji elektrik stansiyası, 1,1 MVt-lıq istilik stansiyası, 10/0,4 kV-luq yarımstansiya quraşdırılıbdır. Həmçinin rezidentlərin iştirakı hesabına Aqroenerji Yaşayış Kompleksinin üçmərtəbəli inzibati binası, heyvandarlıq kompleksi inşa edilib, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatları, maşın-mexanizm parkı yaradılıbdır. Bu layihə çərçivəsində Samux «Aqroenerji» Yaşayış Kompleksində «Azgüntex» zavodunda hazırlanan meyvə quruducuları, soyuducu kameralar və səyyar rejimdə fəaliyyət göstərən günəş işıqlanması ilə təmin olunmuş turist çadırları, günəş enerjisi ilə çalışan yol işıqlanma sistemləri tətbiq edilibdir.*

*Qeyd olundu ki, respublikamızda ilk dəfə günəş texnologiyaları ilə təmin olunmuş enerji effektli üzüm-tərəvəz istixanası və şəhid A.Nəbiyev küçəsində qurulmuş günəş enerjisi ilə çalışan işıq dirəkləri rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb.*

*Gələcəkdə bu texnologiyaların digər bölgələrdə də tətbiqi nəzərdə tutulubdur.*

*Alternativ və bərpa olunan enerji mənbələrinin geniş tətbiqi istehlakçıların enerji ilə təchizatının təhlükəsizliyinin yüksəldilməsində, təbii qaza qənaət olunmasında, atmosferə atılan zərərli tullantıların azalmasında, ekoloji tarazlığın təmin olunması ilə innovativ inkişafın sürətləndirilməsində və yeni iş yerlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir.*

*Samux «Aqroenerji» Yaşayış Kompleksi 50 mindən çox əhalisi olan bölgənin hibrid stansiyalarda istehsal olunan enerji ilə müstəqil rejimdə enerji təchizatını təmin edən ilk eksperimental poliqondur və bu təcrübənin digər rayonlarda və xarici ölkələrdə tətbiqi xüsusən enerji infrastrukturu olmayan bölgələrin enerji təminatı üçün geniş şərait yaradacaqdır.*

*Prezident İlham Əliyev kompleksin istifadəyə verilməsini bildirən düyməni basdı.*

## «Yenikənd» yarımstansiyasının istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da 110/35/10kV-luq «Yenikənd» yarımstansiyasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərişıq» ASC tərəfindən tam yenidən qurulan yarımstansiyada 16 MVA gücündə 2 transformator quraşdırılıb. Fiziki cəhətdən köhnəlmiş 110 kV-luq avadanlıq müasir tipli 110 kV-luq eleqaz açarlar və avadanlıqlarla əvəz olunub. Yarımstansiyada 2 ədəd 35 kV-luq «1-ci Poylu» və «2-ci Poylu», 6 kV-luq «Qırmızı Samux», «Yenikənd», «Fövqəladə hallar» hava xətləri qurulub. 35 kV-luq «1-ci və 2-ci Poylu» hava xətlərindən budaqlanan Qırmızı Samux kəndi ərazisində 35/6 kV-luq, gücü 2,5 MVA olan «Lüksemburq» adlı müasir qapalı tipli yarımstansiya tikilibdir. Yarımstansiyadan ümumi uzunluğu 150 kilometr olan 35 kV-luq 4 kabel xətti çəkilibdir. Həmin xətlər*

*kənd təsərrüfatı təyinatlı torpaqların suvarılmasında müstəsna əhəmiyyətə malikdir. Belə ki, 9500 hektarda əkiləcək pambıq və qarğıdalı sahələrinin suvarılması üçün nasosların elektrik enerjisi ilə təchiz olunmasını məhz bu yarımstansiya həyata keçirir.*

*Samux rayonunda 35/10 kV-luq «Qarayeri» yarımstansiyası da tam yenidən qurulubdur. Bu yarımstansiya ümumilikdə 2545 abonentə xidmət edir. Bu isə 12 min əhalinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz olunmasına imkan verir.*

*Son illərdə 57 min insanın yaşadığı və 16 min abonentə xidmət edən Samux Elektrik Şəbəkəsində 110 və 35 kV-luq elektrik hava verilişi xətləri təmir olunub, köhnə transformator məntəqələri yeni transformator məntəqələri ilə əvəzlənibdir. Şəbəkənin 54 kilometr hava xətti kabelləşdirilib, 405 kilometr hava xətti isə əsaslı təmir olunubdur.*

## GƏDƏBƏY RAYONUNA SƏFƏR

*20 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəy rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verildi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyekti tikilib, istehsal müəssisələri yaradılıbdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəydə Heydər Əliyev Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında və ölkədə bütün sahələrin canlanmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə respublikamızda çox mühüm tədbirlər görülür. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, ulu öndərin zəngin və çoxşaxəli siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür.*

*Orijinallığı ilə Gədəbəy şəhərinin gözəlliyini daha da artıran Heydər Əliyev Mərkəzinin yaradılması ilk növbədə, gədəbəylilərin dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramlarını*

*nümayiş etdirir. Mərkəzdəki fotoşəkillər və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən tərəqqi mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır.*

*Dövlət başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Gədəbəy rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb. Mərkəzin yerləşdiyi ərazidə hündürlüyü 70 metr olan bayraq dirəyi ucaldılıb. Bayraq dirəyinin ay-ulduz formasında inşa olunmuş postamentinin üzərində Azərbaycan Respublikasının gerbi, xəritəsi və Dövlət himninin sözləri əks etdirilibdir.*

*Məlumat verildi ki, ümumi sahəsi 3500 kvadratmetrdən çox olan Heydər Əliyev Mərkəzinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, tarixi sənədlər və fotoşəkillər nümayiş olunur. Bu fotolarda ümummilli lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkəmizin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıbdır. Ulu öndərin ölkədə müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşlərinin əks olunduğu fotolar da maraq doğurur.*

*Rəqs zalının, elektron kitabxananın yaradıldığı Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 242 yerlik konfrans zalı da vardır. Bundan əlavə, Mərkəzdə rəsm, foto və poliqrafiya studiyaları, heykəltəraşlıq dərnəyi, intellektual oyun otağı, saz emalatxanası, həmçinin ingilis, rus və fransız dilləri kabinetləri, o cümlədən ən müasir avadanlıqlarla təchiz olunan xidməti otaqlar da fəaliyyət göstərəcəkdir.*

*Son illər respublikamızda yeni ailə quran gənclərin Heydər Əliyev mərkəzlərində nikah mərasimlərinin təşkili kimi xoş-məramlı tədbirlər də keçirilir. Gədəbəydəki Heydər Əliyev Mərkəzində də bu məqsədlə Vətəndaşlıq Vəziyyəti Aktlarının qeydiyyatı otağı yaradılıb. Burada nikaha daxil olmaq istəyən gənclərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi aparılacaq və onlara tibbi arayışlar veriləcəkdir.*

## «Gədəbəy Mineral Suları» MMC-nin Limonad zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də «Gədəbəy Mineral Suları» MMC-nin illik istehsal gücü 6 milyon litr olan Limonad zavodunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısı müəssisədə yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, Gədəbəy rayonunun Zəhmət kəndində 2 hektar ərazidə fəaliyyətə başlayan və ümumi dəyəri 4 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,6 milyon manat güzəştli kredit verilib. Bu müəssisədə 0,33, 0,75 və 1,5 litrlik plastik qablarda armud, tərxun, limon və üzüm limonadları istehsal edilir. Limonad istehsalı korpusu 3500 kvadratmetrdir. Buraya anbar və istehsal sahəsi daxildir. Texnoloji xəttin başlanğıcında qablar İtaliya şirkətinin avadanlığı ilə şişirdilir. Limonadın xammalı Almaniyanın «Döhler» şirkətindən alınır və avtomatik sistemdə hazırlanır. İstehsalatda istifadə olunan kompressorlar isə Belçika avadanlığıdır.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Qabların doldurulması, qapaqların bağlanması, etiketləmə və paketləmə işlərinin həyata keçirildiyi zavodda istifadə olunan su öz mənbəyini dağlardan götürməklə, yüksək keyfiyyət göstəricilərinə malikdir. Lakin su istehsal prosesinə buraxılmazdan əvvəl təkrarən təmizləyici qurğulardan keçirilir. Hazır-*

*da müəssisədə 25 nəfər çalışır və gələcəkdə istehsalın artırılması hesabına işçilərin sayının 50-yə çatdırılması nəzərdə tutulub. Zavod öz əhatə dairəsini getdikcə genişləndirir. Təsadüfi deyil ki, ərazidə ümumi dəyəri 3,4 milyon manat olan Süfrə Suları İstehsalı zavoduna Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,9 milyon manat güzəştli kredit ayrılıb və zavodun illik istehsal gücü 12,8 milyon litrə çatdırılıb. Süfrə Suları İstehsalı zavodu müasir tələblərə cavab verən avadanlıqlar əsasında qurulub. Zavod müxtəlif çeşiddə, o cümlədən 0,5 və 1 litrlik şüşə, həmçinin plastik qablarda süfrə suları istehsal edir. Bu layihənin icrası nəticəsində 40-dək yerli sakin işlə təmin olunub. Zavodda istehsal olunan süfrə suları hazırda Rusiya Federasiyasına ixrac edilir və ərəb ölkələrinə ixracı istiqamətində danışıqlar aparılır. Artıq limonadın İraq Respublikasına ixrac olunması üçün müqavilə bağlanıbdır. İlkin olaraq müxtəlif çeşiddə 100 ton limonad avqustun sonunda İraqa ixrac ediləcəkdir.*

## «Gədəbəy» elektrik yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də 110/35/10 kilovoltluq yeni «Gədəbəy» elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlət başçısına yeni yarımstansiyada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Gədəbəy rayonuna indiyədək elektrik enerjisi istismar müddətini başa vurmuş birdövrəli 35 kilovoltluq hava xətti ilə verilirdi. Bu isə rayonun ümumi inkişaf tempinə cavab vermirdi. Hətta bəzi obyektlərin, o cümlədən qızıl mədənlərinin elektrik enerjisi ilə təchizatı generatorlar vasitəsilə həyata keçirilirdi. Görülmüş işlər nəticəsində Gədəbəy rayonunda perspektiv tələbat da nəzərə alınmaqla, müvafiq güc mənbələri yaradılıb. 110/35/10 kV-luq «Gədəbəy» yarımstansi-*

*yasından əlavə 35/10 kV-luq «Gədəbəy» adlı digər bir yarımstansiya yenidən qurulub. İkidövrəli 110 kV-luq Zəyəm–Gədəbəy hava xətti çəkilib. 35/10 kV-luq «Gədəbəy» yarımstansiyasında 6,3 MVA gücündə transformatorlar quraşdırılıb, köhnə tipli 40 transformator məntəqəsi yeni transformator məntəqələri ilə əvəz edilib. Görülən işlərin davamı olaraq, 10 kV-luq İsalı və Göyəlli hava xətlərində istismara yararsız dirəklər yeni metal dirəklərlə əvəzlənib. Həmçinin rayon üzrə istismara yararsız 1284 sayğac dəyişdirilib, 996 yeni sayğac quraşdırılıbdır.*

*Yeni yarımstansiyada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkədə elektroenergetikanın inkişafında xidmətlərinə həsr olunan fotostendlər yaradılıbdır.*

*Bildirildi ki, Gədəbəy rayonunun elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisinə artan tələbatın ödənilməsi, güc qıtlığının aradan qaldırılması, inkişafda olan sosial-iqtisadi infrastrukturun dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün tikilən yeni «Gədəbəy» yarımstansiyası 21000 abonentə xidmət edir. Yarımstansiyada 110 kV-luq açıq, 35 və 10 kV-luq qapalı paylayıcı qurğular inşa edilib. Bu qurğularda müasir standartlara cavab verən elektrik avadanlığı, elektron tipli avtomat «rele» mühafizəsi quraşdırılıb. Bu yarımstansiyanı qidalandırmaq üçün «Zəyəm» yarımstansiyasından 48 kilometr uzunluğunda 110 və 35 kV-luq birdövrəli hava xətləri çəkilib. Paralel olaraq Gədəbəy rayonunun böyük bir hissəsini elektrik enerjisi ilə təmin edən 35 kV-luq «Gədəbəy–Saratovka» hava xətti tam yenidən qurulub. Ümumilikdə «Gədəbəy» yarımstansiyasından 35 kV-luq «Saratovka» və «Mədən», həmçinin 10 kV-luq «Söyüdlü», «Arıxdam», «Ticarət mərkəzi» hava xətləri çəkilib. 10 kV-luq hava xətləri isə 1795 abonentin elektrik enerjisi ilə təchizatını təmin edir.*

*Qeyd edildi ki, Gəncə, Şəmkir, Göygöl, Samux, Daşkəsən, Gədəbəy, Ağstafa, Tovuz, Qazax elektrik şəbəkələrinin birləşdiyi «Azərişıq» ASC-nin Qərb Regional Enerji Təchizatı və Sa-*

*tışı İdarəsinin xidmət ərazisində respublika əhəmiyyətli 1 şəhər, 8 rayon mərkəzi, 37 qəsəbə və 341 kənd var ki, burada da ümumilikdə 288119 abonent olmaqla, 1 milyon əhali yaşayır. Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsinin xidmət ərazisində indiyədək «Azərişıq» ASC tərəfindən 96 kənd və qəsəbədə yenidənqurma işləri aparılıb. Hazırda 78-dən çox yaşayış məntəqəsində bu işlər davam etdirilir. Region üzrə ümumilikdə 11290 yeni sayğac quraşdırılıb, 28961 sayğac yenisi ilə əvəz edilib, qoyuluş gücü 1731 MVA-dan 1911 MVA-dək artırılıbdır.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

# İÇMƏLİ SU TƏCHİZATI LAYİHƏSİNİN AÇILIŞI ZAMANI GƏDƏBƏY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*20 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə Gədəbəy rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir, sizi ürəkdən salamlayıram. Bu gün Gədəbəy rayonunda çox əlamətdar bir gündür. Həm ulu öndərin adını daşıyan gözəl Mərkəz açılır, həm də Gədəbəy şəhərinin içməli su problemi həll olunur. Bu iki hadisə bir-biri ilə sıx bağlıdır. Çünki ulu öndərin fəaliyyəti nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edir. Məhz onun siyasəti nəticəsində Azərbaycan 1993-cü ildən bu günə qədər sürətli inkişaf dövrünü yaşayır. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, onun qurucusudur. Onun səyləri, fəaliyyəti nəticəsində 1993-cü ildə Azərbaycan inkişaf yoluna qədəm qoymuşdur. 2003-cü ildən isə bu siyasət davam etdirilir və bugünkü Azərbaycan əslində bu siyasətin gözəl nümunəsidir.

Ölkəmizdə bütün istiqamətlər üzrə sürətli inkişaf gedir, sosial-iqtisadi məsələlər öz həllini tapır. Azərbaycan beynəlxalq arenada çox ləyaqətli ölkə kimi tanınır. Ölkəmizin bütün regionlarında sürətli inkişaf gedir. Beləliklə, ölkəmizin bu günü

və gələcəyi üçün heç bir problem görmürəm, heç bir risk, təhlükə yoxdur. Azərbaycan çox təhlükəsiz ölkədir, əhalimiz sülh, əmin-amanlıq şəraitində yaşayır və gələcək inkişaf üçün də yaxşı perspektivlər vardır.

Bu gün Gədəbəy şəhərinin su probleminin həlli də bu siyasətin bir təzahürüdür. Çünki siz – burada yaşayan insanlar yaxşı bilirsiniz ki, su həmişə insanları narahat edən bir problem olub. Əvvəlki illərdə şəhərin bir hissəsi, özü də gündə bir neçə saat ərzində su ilə təmin olunurdusa, bu gün bu problem əsaslı şəkildə öz həllini tapıb və Gədəbəyə təmiz içməli su gətirilibdir. Hesab edirəm ki, bu layihə tarixi layihədir. Çünki tarixdə bu günə qədər bu problem heç vaxt öz həllini tapmamışdı. Bu layihənin həyata keçirilməsi üçün, əlbəttə, böyük vəsait tələb olunurdu. Azərbaycan dövləti bu vəsaiti ayırdı ki, insanlar təmiz içməli su ilə təmin olunsunlar. Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. İndi Azərbaycanda içməli su layihələrinin icrası geniş vüsət alıb. Bir çox rayonda bu layihələr artıq istifadəyə verilibdir. İndi icra edilməkdə olan layihələr kifayət qədər çoxdur. Bir sözlə, qarşıya vəzifə qoyulubdur ki, bu problem Azərbaycanın bütün bölgələrində öz həllini tapsın və Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunsun. Hesab edirəm ki, bu, infrastruktur layihələri arasında ən önəmli layihələrdən biridir.

Gədəbəy rayonunda ekoloji vəziyyət çox yaxşıdır. Təmiz hava, təmiz ekologiya. Bura əslində kurort zonasıdır. Gədəbəy təbii bulaqlarla zəngin bir rayondur. Bu gün biz Limonad zavodunun açılışını da qeyd etdik. Mənə deyildi ki, Gədəbəy rayonunda bir çox bulaqlar vardır. Belə olan halda, su xətləri çəkilməli, su şəbəkəsi yaradılmalı idi ki, əhali bu imkanlardan istifadə etsin. Biz buna nail olduq.

İnsanların sağlamlığı üçün, əlbəttə ki, ikinci mühüm amil tibb xidmətidir. Bu məsələ də Gədəbəydə həll olunubdur. Mə-

nim bir neçə il bundan əvvəlki səfərimdə gözəl xəstəxana açılmışdır. İndi 120 çarpayılıq xəstəxana fəaliyyət göstərir.

Digər infrastruktur layihələri uğurla icra edilir. Bu gün elektrik yarımstansiyasının açılışını qeyd etdik. Bu problem də Gədəbəy şəhərində və rayonunda öz həllini tapır. Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrdə hava şəraitindən asılı olaraq işıqlar kəsilirdi, köhnə, çürümüş taxta dirəklər sıradan çıxırdı – onların şəkilləri indi mənə təqdim olundu – əlbəttə, bu bizə yaraşmırdı. İndi həm yarımstansiya tikilib, həm yeni ötürücü xətlər çəkilib ki, Gədəbəy rayonunda enerji təminatı dayanıqlı olsun. Biz artıq buna nail olmuşuq.

Əvvəlki səfərlərimdə – bu mənim Gədəbəyə dördüncü səfərimdir – vətəndaşlar məsələ qaldırmışdılar ki, kənd yolları bərbad vəziyyətdədir. Biz bu məsələni də tədricən həll etdik. Gədəbəydə 3 kənd yolu layihəsi icra olunubdur və bu 3 layihə 100-dən çox kəndi əhatə edibdir. Əslində Gədəbəydə 100-dən bir qədər çox kənd vardır. Gədəbəydə bütün kənd yolları, demək olar ki, əsaslı təmir edilibdir. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki yolların bərbad vəziyyətdə olması həm insanları narahat edirdi, gediş-gəliş çətinləşirdi, həm də bu, kənd təsərrüfatı üçün böyük problem idi. Gədəbəy rayonunun kənd təsərrüfatı, iqtisadi potensialı artır. Gözəl kənd yollarının mövcudluğu sizə imkan yaradacaq ki, öz məhsulunuzu bazarlara daha da tez bir zamanda çatdıra biləsiniz. Ümumiyyətlə, inkişaf üçün – turizmin, kənd təsərrüfatının inkişafı üçün yollar mühüm əhəmiyyət daşıyır.

Gədəbəy rayonunda qazlaşdırılma 52 faiz səviyyəsindədir. Bu da rayonun relyefi ilə bağlıdır. Amma tədricən qazlaşdırılma da artmalıdır. Beləliklə, rayonda bütün infrastruktur problemləri həll olunur. Eyni zamanda, sosial proqramlar da icra edilir, sənaye müəssisələri yaradılır. Mənə verilən məlumata görə, qızıl mədəni sahəsində 600-dən çox insan işlə təmin olunubdur. Gədəbəydə Mineral Sular zavodu çox yaxşı fəaliyyət göstərir. İndi yeni Limonad zavodu da istifadəyə verildi. Bu həm daxili

bazarı təmin edir, həm də ixrac potensialı yaranır. Bu da rayonun iqtisadi inkişafına böyük dəstəkdir.

Gələcək illərdə emal sənayesinin, kənd təsərrüfatının inkişafı, əlbəttə ki, rayon üçün prioritet olaraq qalacaqdır. Biz hamımız – siz də, fermerlər də, sahibkarlar da növbəti illərdə bu istiqamətdə çalışmalıyıq ki, məhsuldarlığı artıra bilək. Mən yolla gələndə gördüm ki, fermerlər artıq dağların yamaclarında da əkin işlərinə başlamışlar. Yəni bu nəyi göstərir? Onu göstərir ki, artıq bütün yerlər əkilib. Bu da çox sevindirici haldır ki, indi fermerlər artıq dağlara da çıxıblar və orada da əkin işləri aparırlar. Biz gələcəkdə istehsalın artımına ancaq məhsuldarlığın artımı hesabına nail ola bilərik. Dünən Göygöl rayonunda açılan kənd təsərrüfatı laboratoriyasının fəaliyyəti nəticəsində biz buna nail ola bilərik. Bütün fermerlərə, kəndlilərə məsləhət görürəm ki, məhsuldarlığın artımına böyük diqqət göstərsinlər. Bu ilk növbədə, onlara və dövlətə lazımdır. Çünki biz özümüzü bütün ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Biz onu da bilməliyik ki, Azərbaycan əhalisi hər il 100 min nəfər artır. Yəni bu çox gözəl göstəricidir. Bu onu göstərir ki, ölkəmizdə sürətli inkişaf vardır. Ancaq inkişaf olan ölkələrdə belə müsbət dinamika var. Çünki indi bəzi ölkələrdə əhali nəinki artır, hətta azalır. Həm təbii azalma, həm miqrasiya var. Bizdə nə miqrasiya, nə də təbii azalma var. Çünki ölkə iqtisadiyyatı sürətlə inkişaf edir, iş yerləri açılır, insanlar üçün şərait yaradılır, bax, belə gözəl infrastruktur obyektləri tikilir. Azərbaycan vətəndaşları öz torpağına çox bağlıdırlar. Ancaq biz bu amili mütləq həmişə yadda saxlamalıyıq ki, Azərbaycan əhalisi hər il 100 min nəfər artır. Əlbəttə, bu bizim qarşımıza yeni tələblər qoyur. Yeni məktəblər, uşaq bağçaları, xəstəxanalar tikilməlidir, infrastruktur yaradılmalıdır və əlbəttə ki, ərzaq məsələləri həllini tapmalıdır. Biz bu gün özümüzü ərzaq məhsulları ilə tam təmin etmək üçün böyük işlər görürük. Ancaq bizim torpaq fondumuz məhduddur. Ona görə bundan

sonra kənd təsərrüfatı ancaq məhsuldarlığın artımı hesabına inkişaf etməlidir, o cümlədən Gədəbəy rayonunda.

Gədəbəydə bir gündə həm yarımstansiyanın, həm Limonad zavodunun, həm Heydər Əliyev Mərkəzinin açılışı, həm də içməli su layihəsinin istifadəyə verilməsi göstərir ki, ölkəmizdə işlər yaxşı gedir. Gədəbəy rayonunda sosial-iqtisadi məsələlər öz həllini tapır. Rayonun gələcək inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək, yeni sərəncam imzalanacaq ki, bu günə qədər həll olunmamış məsələlər də öz həllini tapsın və rayonda işlər həmişə yaxşı getsin. Mən sizi bu gözəl hadisə – içməli su layihəsinin başa çatması münasibətilə ürəkdən təbrik edirəm.

* * *

**M ə l a h ə t Ə l i y e v a** *(rayon sakini)*: Möhtərəm cənab Prezident, icazə verin, bütün gədəbəylilər adından Sizi salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim.

Cənab Prezident, bu gün gədəbəylilərin sevincinin həddi-hüdudu yoxdur. Sizin budəfəki səfəriniz şəhərimizin ən böyük probleminə son qoydu. Siz qeyd etdiyiniz kimi, uzun illər idi şəhər camaatı sudan çox böyük əziyyət çəkirdi. İnsanlarımız yollarda qalmışdı, müxtəlif vasitələrlə müxtəlif mənbələrdən su daşıyırdılar. Artıq bu problem Sizin qayğı və diqqətiniz nəticəsində öz həllini tapdı. Şəhərimizin sakinlərinin canı bu əzab-əziyyətdən birdəfəlik qurtardı. Bütün bunlara görə Sizə gədəbəylilər adından minnətdarlığımı bildirirəm. Sizə və ailənizə cansağlığı arzulayıram. Sağ olun.

**T o f i q M i r z ə y e v** *(rayon sakini)*: Cənab Prezident, bütün bölgələrdə olduğu kimi, Gədəbəy rayonunda da sürətli inkişaf gedir. Gündən-günə gözəlləşən rayonumuzun siması tamamilə dəyişib. Bu gün açılışını etdiyiniz Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, onun ətrafı gözəl Gədəbəyə xüsusi yaraşıq verir.

Cənab Prezident, rayonumuzda yollar əsaslı təmir olunur, infrastruktur dəyişir, yenilənir. Yeni məktəb binaları, səhiyyə,

turizm, mədəniyyət sahələrində yeni obyektlər tikilir, parklar, istirahət zonaları salınır. Bir sözlə, Sizin diqqət və qayğınız nəticəsində Gədəbəydə yaşamaq, istirahət etmək, qurub-yaratmaq daha gözəldir. Bütün bunlara görə Sizə təşəkkür edirik. Sizə, ailənizə cansağlığı arzu edirik. Mənfur düşmənlə üz-üzə olan mərd, qədirbilən gədəbəylilər Sizə həmişə dəstəkdir, arxadır. Allah Sizi qorusun. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Mənim yadımdadır, birinci layihə Şəmkir–Gədəbəy yolunun təmiri idi. O vaxt biz bu işə başlayanda yol çox bərbad vəziyyətdə idi. O yolun çəkilişi əslində Gədəbəyin həm Şəmkirlə, həm ölkəmizin digər bölgələri ilə əlaqəsini daha möhkəm, daha rahat etdi. Ondan sonra, siz də qeyd etdiniz, bir çox məktəblər tikilib. Mənə verilən məlumata görə, Gədəbəy rayonunda 60-dan çox məktəb tikilib və əsaslı təmir edilibdir.

Dörd il bundan əvvəl mən burada olarkən biz Aşıqlar evinin açılışını etdik. Bu gün mənə məlumat verildi ki, orada 100-dən çox uşaq dərs alır. Biz aşıq sənətini yaşadırıq və bu bizim milli sərvətimizdir. Yəni Gədəbəydə hərtərəfli inkişaf vardır. Əminəm ki, bu, gələcək illərdə davam etdiriləcəkdir. Yenə də qeyd etməliyəm ki, bu günə qədər həll olunmamış məsələlər də öz həllini tapacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun.

* * *

*Prezident İlham Əliyev «Gədəbəy şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, layihə Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən «Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı» layihəsi çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə perspektiv*

*inkişaf nəzərə alınmaqla, Gədəbəy şəhərində 12 min nəfər əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihəyə əsasən, Gədəbəy şəhərinin içməli su mənbəyi olaraq, bulaqlar seçilib və bir suqəbuledici qurğu tikilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün ümumi həcmi 5500 kubmetr olan 7 su anbarı, 14,8 kilometr uzunluğunda magistral su kəməri və digər köməkçi infrastruktur inşa edilibdir. Bundan başqa, Gədəbəy şəhərində inşası planlaşdırılan 81 kilometr uzunluğunda paylayıcı su şəbəkəsinin, şəbəkədaxili 2 nasos stansiyasının tikintisi başa çatıb, 2300 evə birləşmə verilib və sayğaclar quraşdırılıbdır. Yeni yaradılan su təchizatı sistemi ilə Gədəbəy şəhərinə fasiləsiz suyun verilməsi təmin edilibdir.*

*Dövlət başçısının diqqətinə çatdırıldı ki, Gədəbəy şəhərində ilk dəfə kanalizasiya sistemi yaradılıbdır. Layihəyə uyğun olaraq, 47,5 kilometr kanalizasiya şəbəkəsi və 1,5 kilometr kanalizasiya kollektoru tikilib. Şəhərdə yaranacaq tullantı sularının təmizlənərək kənarlaşdırılması üçün məhsuldarlığı gündə 3500 kubmetr olan təmizləyici qurğunun inşası nəzərdə tutulur. Hazırda tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosedurları davam etdirilir. Bundan başqa, şəhərin su mənbələri və su təchizatı qurğuları rayonun 11 min nəfər əhalisinin yaşadığı Düzyurd, Arıqdam, Yenikənd, Söyüdlü və Qaradağ kəndlərinin su tələbatı nəzərə alınmaqla layihələndirilib. Ümumilikdə bu layihədən gələcəkdə 23 min nəfər faydalanacaqdır.*

*Layihənin icrasına qədər olan vəziyyət barədə məlumat verilərkən bildirildi ki, Gədəbəy şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi ötən əsrin 60-cı illərində yaradılıb. «Azərsu» ASC hazırda şəhərin 10 min sakinindən 25 faizinə xidmət göstərir. Mərkəzləşdirilmiş qaydada su alan əhaliyə hər gün qrafik üzrə 4 saat su verilir. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyir. Gədəbəy şəhərində kanalizasiya sistemi isə indiyə qədər mövcud olmayıb.*

*Prezident İlham Əliyev Gədəbəy şəhərinə təmiz içməli suyun verilməsini bildirən düyməni basdı.*

## ŞƏMKİR RAYONUNA SƏFƏR

*20 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Şəmkir rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ulu öndər Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov prezident İlham Əliyevə abidənin yerləşdiyi ərazidə və rayonda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, son illər Şəmkirdə bir sıra mühüm sosial-infrastruktur layihələri icra edilib, rayonda genişmiqyaslı quruculuq işləri aparılıb, yeni istirahət məkanları yaradılıb, yaşıllıqlar salınıbdır.*

### Şəmkir–Yeni Göyçə–Dağ Cəyir avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Şəmkir–Yeni Göyçə–Dağ Cəyir avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda çox mühüm yol-nəqliyyat layihələri reallaşdırılır. Bu yollardan biri də Şəmkir–Yeni Göyçə–Dağ Cəyir avtomobil yoludur.*

*Yeni yolun texniki göstəriciləri barədə dövləti başçısına məlumat verildi. Bu yolun tikintisinə Azərbaycan Respublikası Prezidentinin 2014-cü ildə imzaladığı sərəncama əsasən başlanılıb. Yol 5000 nəfər əhalinin yaşadığı 7 kəndi birləşdirir. Avtomobil*

*yolu texnoloji ardıcıllığa riayət edilməklə və yüksək keyfiyyətlə inşa edilibdir. Ümumi uzunluğu 31 kilometr olan yol 4-cü texniki dərəcəyə aiddir. Yol 2 hərəkət zolaqlıdır. Hərəkət hissəsinin eni 7 metrdir.*

*Bildirildi ki, layihə çərçivəsində 482,2 min kubmetr torpaq işləri görülüb, yol əsasının və çiyinlərin tikintisinə 112 min kubmetr çınqıl, qum-qırmadaş qarışığı və 55 min ton asfalt-beton qarışığı sərf edilibdir. İnşaat işləri zamanı müxtəlif diametrli 30 suötürücü boru tikilib, yol təhlükəsizlik dirəkləri, yol nişanı və göstərici lövhələr quraşdırılıb, yol cizgi xətləri çəkilibdir. Şəmkir–Yeni Göyçə–Dağ Cəyir avtomobil yolunun istifadəyə verilməsi ümumilikdə rayonun sosial-iqtisadi inkişafına müsbət təsir edəcək, yük və sərnişin daşınmasının yaxşılaşmasına imkan yaradacaqdır.*

*Prezident İlham Əliyevə Gədəbəy rayonunda tikintisi başa çatmış avtomobil yollarının layihəsi barədə də məlumat verildi. Bildirildi ki, uzunluğu 5 kilometr, 3-cü texniki dərəcəli, 2 hərəkət zolaqlı Qızıltorpaq–Ağbaşlar avtomobil yolu istismara tam hazırdır. Bundan əlavə, 7000 əhalinin yaşadığı və 5 yaşayış məntəqəsini birləşdirən Novosaratovka–Çobankənd–Novoivanovka kəndlərarası avtomobil yolunun tikintisi də başa çatıbdır. 9 kilometr uzunluğu olan bu yol 4-cü texniki dərəcəlidir və 2 hərəkət zolaqlıdır. İnşası başa çatmış yollardan biri də Qarıkənd–Miskinli–Çalburun avtomobil yoludur. Uzunluğu 16 kilometr olan bu yol 4-cü texniki dərəcəli olmaqla, 2 hərəkət zolaqlıdır.*

*Prezident İlham Əliyev Şəmkir–Yeni Göyçə–Dağ Cəyir avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Şəmkirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur.*

*Muzeydə həm ölkəmizin, həm də Şəmkirin tarixini əks etdirən eksponatlar vardır. Bu eksponatlar turistlər üçün böyük maraq doğuracaq, onlara ölkəmizin tarixi ilə daha yaxından tanış olmaq imkanı yaradacaqdır. Həmçinin muzey bu bölgənin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün mühüm əhəmiyyətə malikdir.*

*Dövlət başçısına məlumat verildi ki, Tarix-Diyarşünaslıq Muzeyində əsaslı təmir işlərinə 2015-ci ilin aprelində başlanılıb, ötən ilin noyabrında isə başa çatdırılıbdır. Muzeydə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Şəmkirə səfərlərini əks etdirən fotolar, rayonun tanınmış ziyalıları, qəhrəmanları barədə məlumatlar vardır.*

*Prezident İlham Əliyev təmirdən sonra muzeydə yaradılan şəraitlə və eksponatlarla tanış oldu.*

*Bildirildi ki, muzeyin ümumi ərazisi 0,26 hektardır. 2 mərtəbədən ibarət muzey binasının ümumi sahəsi isə 800 kvadratmetrdir. Muzeyin birinci mərtəbəsində 2 bölmə yerləşir. Birinci bölmədə miniatür rəsm sərgisi və ekspozisiya zalı, ikinci bölmədə isə elektron informasiya lövhəsi və ekspozisiya zalı vardır. Muzeydə mövcud olan 6000-ə yaxın eksponatdan 350-si ekspozisiya zallarında sərgilənir. Eksponatlar əsasən Qədim Tunc dövrünə və XVIII–XIX əsrlərə aiddir. Qədim tarixi və geniş turizm potensialı olan Azərbaycanda belə muzeylərin yaradılması olduqca vacib məsələdir.*

*Binanın həyətyanı sahəsində yaradılmış «Açıq muzey»də müxtəlif filmlərin personajlarının heykəlləri qoyulub, həyətdə müasir işıqlandırma sistemi quraşdırılıb və yaşıllıq zolağı salınıbdır.*

## «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir*

*avtomat idarəetmə və nəzarət mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə mərkəzin binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzin binasında yaradılmış stendlərdə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin elektroenergetika sahəsinin inkişafındakı xidmətlərini əks etdirən fotolar yer alıb.*

*Mərkəz barədə dövlət başçısına məlumat verildi. Bildirildi ki, bu layihənin icrası ilə aşağıgərginlikli və yüksəkgərginlikli şəbəkələrdə fasiləsiz və keyfiyyətli elektrik enerjisinə nəzarətin təmin edilməsi, sərfiyyat göstəricilərinin real vaxt rejimində monitorinqi, abonent məmnunluğunun təmin olunması məqsədilə fasiləsiz elektrik enerjisinin parametrlərinə nəzarətin təşkili, 10 və 0,4 kV-luq elektrik şəbəkələrində açma qoşmaların real vaxt rejimində qeydiyyatının aparılması mümkün olacaqdır. Bundan başqa, sayğacların göstəricilərinin onlayn rejimdə oxunması təmin ediləcək, insan amili aradan qaldırılacaq, qəzaların qarşısının alınması təmin olunacaqdır.*

*Prezident İlham Əliyevə respublikada ilk dəfə aşağıgərginlikli 10/0,4 kV-luq şəbəkənin avtomatik idarəetmə və nəzarət layihəsi də təqdim olundu.*

*Dövlət başçısı sistemi işə saldı.*

*Şəmkir Elektrik Şəbəkəsinin tamamilə yenidən qurulması və şəbəkənin avtomat idarəetmə və nəzarət layihəsi tam hazır vəziyyətə gətirilib, həmçinin Şəmkir Elektrik Şəbəkəsinin yeni ofis binasında bu prosesin aparılması üçün bütün şərait yaradılıbdır. Şəmkir avtomat idarəetmə və nəzarət mərkəzinin yeni binasında işçilərin səmərəli fəaliyyəti üçün elektroenergetika sahəsinin avadanlıqları ilə bərabər, kompüter texnikası və sürətli internet də vardır. Burada nəzarət-monitorinq, avtomat idarəetmə kabinetləri, həmçinin enerji satışı, qəza və müştəri xidmətləri üçün xüsusi otaqlar yaradılıbdır. Mərkəzin binasının ətrafında abadlıq işləri aparılıb, yaşıllıq zolağı salınaraq, dekorativ ağaclar əkilibdir.*

*Prezident İlham Əliyevə Şəmkir Elektrik Şəbəkəsində son illərdə görülən işlər barədə məlumat verildi. Son 2 il yarım ərzində şəbəkənin xidməti ərazisində bir sıra vacib işlər görülüb. Rayon mərkəzi, şəhər tipli 4 qəsəbə, 61 kənddən ibarət olan, ümumilikdə 52100 abonentə və bununla da 210 mindən artıq əhaliyə xidmət edən Şəmkir Elektrik Şəbəkəsində köhnə tipli transformator məntəqələri yeniləri ilə əvəz edilib. Şəmkir Elektrik Şəbəkəsinin qoyuluş gücü 35 MVA artırılıb. Ümumilikdə «Azərişıq» ASC dövründə Şəmkir Elektrik Şəbəkəsində 16 kilometr uzunluğunda 35 kV-luq, 126 kilometr uzunluğunda 6–10 kV-luq, 130 kilometr uzunluğunda 0,4 kV-luq xətlər yenidən qurulub. Həmçinin istismara yararsız 5504 sayğac dəyişdirilib, 1846 yeni sayğac quraşdırılıbdır.*

## Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 20-də Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının imkanları ilə tanış olmuşdur.*

*Bu gün artıq hamıya məlumdur ki, Azərbaycan Ordusu nəinki regionun, eləcə də dünyanın ən peşəkar ordularından biridir. Şübhəsiz ki, peşəkar ordu xalqın müstəqilliyinin əbədi olmasını şərtləndirən mühüm amillərdəndir. Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla, həyata keçirilir. Odur ki, 2003-cü ildən prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar ordumuzun gücünü daha da artırır. Müdafiə Nazirliyinin Mobil Səhra Cərrahiyyə Hospitalının alınması da son illərdə ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir. Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali*

*Baş Komandanı İlham Əliyevin göstərişi ilə 2013-cü ildə Türkiyə Respublikasının «Turmaks» firmasından ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş Mobil Səhra Cərrahiyyə Hospitalı alınaraq, Silahlı Qüvvələrin istifadəsinə verilibdir. Əsas hissəsi 8 konteynerdən və 9 çadırdan ibarət olan mobil hospitalda gün ərzində 100 cərrahi əməliyyat aparmaq mümkündür.*

*Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlət başçısına səyyar hospital barədə məlumat verildi. 2013-cü ilin iyun ayının 24-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında açılaraq, dövlət başçısına təqdim edilən bu Mobil Səhra Cərrahiyyə Hospitalı Silahlı Qüvvələrə təhvil verildiyi gündən indiyədək döyüş bölgələrində təyinatı üzrə fəaliyyət göstərib, 2016-cı ilin aprel döyüşlərində yaralı və xəstələrə tibbi yardım göstərilməsi zamanı praktiki olaraq sınaqdan keçirilibdir. Hospital 2,5 min kvadratmetr sahədə açılır. Açıldıqdan 1 saat sonra xəstələri qəbul edə, 4–6 saatdan sonra isə öz funksiyasını tam yerinə yetirə bilir. Burada gündə 150-dək xəstəyə tibbi xidmət göstərmək mümkündür. Hospital yaralıların və xəstələrin qəbulu, qeydiyyatı və diaqnozun qoyulması üçün nəzərdə tutulan çeşidləmə, idarəetmə və rabitə, həmçinin diaqnostika çadırlarından ibarətdir. Diaqnostika çadırında müayinələr aparmaq üçün rəqəmsal rentgen, USM, 12 kanallı elektrokardioqraf aparatları və 24 göstəricini eyni zamanda verən qan analizatoru mövcuddur. Həmçinin hospitalın 2 əməliyyat, 2 intensiv terapiya bloku və hər birində 8 çarpayı olan 6 müalicə çadırı vardır. Hospitalın özəlliyi onun konteyner və çadırlarının qısa müddətə hazır vəziyyətə gətirilməsindədir. Konteynerləri 5–7, çadırları isə 7–9 dəqiqəyə hazırlamaq mümkündür. Bu isə hospitalın daşınma prosesini asanlaşdırır. Səyyar hospital şəxsi heyətin yataqxanası, aptek, mətbəx, hamam və sanitar qovşaqla təchiz olunub. Bütün konteynerlərdə və çadır-*

*larda işıq, mərkəzləşdirilmiş havalandırma və yanğın əleyhinə xüsusi sistemlər quraşdırılıbdır. Mobil Səhra Cərrahiyyə Hospitalının tam həcmdə fəaliyyəti üçün 25 həkim və digər hərbi qulluqçular, ümumilikdə 88 nəfər nəzərdə tutulubdur.*

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Şəmkir filialının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisə barədə məlumat verdi. Bildirildi ki, «Azərxalça» ASC-nin Şəmkir filialının binasının tikintisinə 2016-cı ildə başlanılıb və inşaat işləri bu il başa çatdırılıbdır. Ümumi sahəsi 1100 kvadratmetr olan filial binasında 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaqdır. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və Gəncə, Şəmkir, Samux, Daşkəsən, Göygöl, Gədəbəy, Goranboy rayonlarının kəndlərində toxunmuş orijinal Gəncəbasar xalça çeşnilərinə üstünlük veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi şəkildə iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hazırlıq-tədris kursları filial fəaliyyətə başladıqdan sonra da davam etdiriləcək və məzun-*

*lara «Azərxalça» ASC-nin sertifikatı veriləcəkdir. Satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatının sərgilənməsi və satışı həyata keçiriləcəkdir.*

*Filialda yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev xalçaçılarla görüşdü.*

**İlhamə Məmmədova** *(xalçaçı)*: Cənab Prezident, bizə belə bir müəssisəni bəxş etdiyinizə görə Sizə təşəkkür edirik. Mənim uşaqlıqdan arzum idi ki, xalça toxuyum. Xalça toxumaq biz Azərbaycan qadınlarının qanında var. Bizim nənələrimiz də xalça toxuyublar. Təəssüf ki, mən onlardan birini görüb öyrənə bilməmişdim. Çox sevinirəm ki, məhz Sizin sayənizdə burada yaradılmış müəssisədə qısa müddət ərzində xalça toxumağı öyrəndim. İndi burada mənim gözəl kollektivim və daimi iş yerim var. Bunun üçün Sizə çox minnətdaram.

Mən buraya Şəmkirin Qapanlı kəndindən gəlirəm. Buraya işləmək üçün rayonumuzun Qaracaəmirli, Seyfəli və digər kəndlərindən, həmçinin Gəncəbasardan gələnlər var. Biz müxtəlif ölçülərdə xalçalar toxuyuruq. İşimizdən çox razıyıq. Sizə minnətdarıq ki, bizim üçün belə şərait yaratmısınız. Göstərdiyiniz bu qayğıya və diqqətə görə çox sağ olun. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**İlham Əliyev:** Çox sağ olun. Mən də sizi Xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Çox gözəl hadisədir. Bu, artıq ikinci Xalça fabrikidir ki, Azərbaycanda açılır. Birinci fabriki biz keçən il Füzuli rayonunun Horadiz şəhərində açmışıq. Orada 150 iş yeri yaradılıbdır. Burada da 150 nəfər işlə təmin olunacaqdır. Burada işləyənlərin, demək olar ki, hamısı qadınlardır. Bu xalça fabriklərinin yaradılması çox əlamətdar hadisədir.

Bir müddət bundan əvvəl mənim sərəncamımla «Azərxalça» Açıq Səhmdar Cəmiyyəti yaradıldı. Cəmiyyətin qarşısında vəzifə qoyuldu ki, tezliklə ölkəmizin bütün bölgələrində xalça fabrikləri yaradılsın. Bu il 10 fabrik, gələn il də 10, 2019-cu ildə də əlavə 10 fabrik yaradılacaqdır. Beləliklə, Azərbaycanda

xalça fabriklərinin sayı 30-a çatacaqdır. Bu fabriklərdə 5000-dən çox insan – onların mütləq əksəriyyəti qadınlar olacaq – daimi işlə təmin ediləcəkdir.

Bu çox gözəl təşəbbüsdür. Biz haqlı olaraq hesab edirik ki, xalçaçılıq bizim milli sənətimiz, milli sərvətimizdir. Əsrlərboyu biz bu sənəti yaşadırıq. Azərbaycan xalçaçılığın vətənidir. Bu bizi çox qədim vaxtlara aparan bir tarixdir. Ölkəmizin müxtəlif bölgələrində xalçaçılıq məktəbi mövcuddur və sizin kimi gözəl insanlar bu sənəti yaşadırlar.

Bizim xalçalarımız dünyanın aparıcı muzeylərində, müxtəlif ölkələrin saraylarında nümayiş etdirilir. Bakıda möhtəşəm Xalça Muzeyi yaradılıbdır. İndi xalçaçılıq sənətinin inkişafı ilə bağlı əlavə tədbirlər də görülür və bu fabriklərin yaradılması bunun bir hissəsidir. Çünki bu həm iş yerləridir, həm biz tarixi sənətimizi, sərvətimizi qorumuş oluruq, həm də qadınlar üçün iş yerləri yaradılır. Bu da çox vacibdir ki, qadınlar işlə təmin olunsunlar, ailə büdcəsinə öz töhfəsini versinlər və işlə məşğul olsunlar, xüsusilə belə gözəl şəraitdə. Bu fabrik ən müasir standartlara cavab verir. Burada ən gözəl dəzgahlar quraşdırılıbdır. Sizin istehsal etdiyiniz xalçalar həm daxili bazarlarda, həm də xaricdə satılacaq. Ölkəmizə daha çox valyuta gələcək, ölkəmiz və qədim xalçaçılıq sənətimiz dünyada nümayiş etdiriləcəkdir. İndi bir çox ölkələrdə bilirlər ki, Azərbaycanda xalçaçılıqda çox gözəl ənənələr var və xarici bazarlara çıxmaqla, biz bu məqsədi də təmin etmiş oluruq. Ölkəmizin təbliğatı, tanıdılması istiqamətində bunun çox böyük mənası vardır.

Növbəti mərhələlərdə Əyirici-boya fabrikinin yaradılması nəzərdə tutulur ki, biz boyalarla bağlı xaricdən asılılığı azaldaq. Yun tədarükü məsələləri öz həllini tapır. Bilirsiniz ki, Azərbaycanda ipəkçilik də sürətlə inkişaf etdirilir. İpək xalçaların toxunması da gündəlikdədir. Yəni «Azərxalça»nın yaradılması həm xalçaçılıq sənətinin qorunmasına, həm də qeyri-neft sektorunun inkişafına çox böyük təkan veribdir.

Şadam ki, ikinci fabrik Şəmkir rayonunda yaradılıb. Şəmkir qədim Azərbaycan diyarıdır. Bu gün Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilən eksponatlar, fotoşəkillər bunu bir daha göstərir. Burada böyük arxeoloji ekspedisiya fəaliyyət göstərir və qədim Şəmkir şəhərinin tarixi tapıntıları artıq nümayiş etdirilir.

Şəmkirin inkişafına çox böyük diqqət göstərilir. Bu gün şəhər gözəlləşir, abadlaşır. Deyə bilərəm ki, Şəmkir ölkəmizin ən gözəl şəhərlərindən birinə çevrilibdir. Şəmkirdə abadlıq-quruculuq işləri və infrastruktur məsələləri həll olunur. Dörd il bundan əvvəl mənim iştirakımla şəhərin içməli su təminatı layihəsi istifadəyə verilibdir. Bu gün 200 çarpayılıq böyük xəstəxananın tikintisi davam etdirilir, gələn il istifadəyə veriləcəkdir. Yeni yollar salınır. Bu gün biz yol layihəsinin də açılışını etdik. Elektrik enerjisi ilə təminat yaxşılaşır, qazlaşdırılmanın səviyyəsi 90 faizdən çoxdur, 30-dan çox məktəb tikilib, təmir edilib. Yəni rayonun hərtərəfli inkişafı təmin olunur.

Şəmkir rayonunun çox böyük iqtisadi potensialı vardır. Burada kənd təsərrüfatı, emal sənayesi inkişaf edir. Şəmkirçay su anbarının istifadəyə verilməsi nəticəsində on minlərlə hektar torpaqda əkin işləri aparılır. Ölkəmizin ən böyük aqroparkı yaradılır. Bu gün Logistika Mərkəzinin açılışı da nəzərdə tutulur. Belə gözəl fabrikin açılışı Şəmkir rayonunun iqtisadiyyatına növbəti töhfədir. Mənim göstərişim «Azərxalça» tərəfindən layiqincə yerinə yetirilir. Qısa müddət ərzində biz ikinci fabrikin açılışına nail olduq. Bu 2 fabrikdə 300 iş yeri yaradılıbdır və qeyd etdiyim kimi, bu iş yerlərinin sayı 5000-ə çatacaqdır.

Sizə uğurlar arzulayıram. Arzu edirəm siz öz biliyinizi gənc nəslə də ötürəsiniz ki, Azərbaycanda xalçaçılıq sənəti daim yaşasın.

**İlhamə Məmmədova:** Cənab Prezident, Siz Horadizdə Xalça fabrikinin açılışını edəndə evdə baxıb deyirdim ki, kaş bizim də rayonumuzda belə bir müəssisə açılardı. Mən bunu çox arzulayırdım. Xalçaçı sənətini çox sevirəm. Hər dəfə hana

arxasında əyləşib xalça toxuyarkən Sizə dua edirəm, ilk növbədə ona görə ki, öz sevimli peşəmə qovuşmuşam.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Onu da qeyd etməliyəm ki, qonşu rayonlarda da xalça fabriklərinin açılışı nəzərdə tutulur.

**V i d a d i  M u r a d o v** *(«Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri*): Cənab Prezident, Tovuz, Ağstafa və Qazaxda da bu ilin sonuna qədər xalça fabriklərinin açılması nəzərdə tutulur. O rayonların toxucuları da burada hazırlıq kursu keçirlər, biz həm də onları işə götürmüşük. Fabriklər hazır olandan sonra həmin 3 rayonda 450 nəfər işlə təmin olunacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bu zonanın xalçaçılıq sənəti çox zəngindir, qədim ənənələri vardır.

**Z ə m i n ə  İ s g ə n d ə r o v a** (*xalçaçı*): Xoş gəlmisiniz, cənab Prezident! Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Həm Sizi görməyi, Sizinlə söhbət etməyi Allah bizə qismət etdi, həm də bizə belə gözəl iş yerləri yaratdığınıza görə Sizə minnətdarıq. Sizə kollektivimiz adından təşəkkür edirəm. Mən Şəmkir rayonunun Tatarlı kəndindənəm. Bu sənəti çox sevirəm. Nənəmizdən, anamızdan görüb-götürdüyümüz sənətdir. Bu sənəti qızıma da öyrədirəm. Biz nənələrimizin davamçılarıyıq, qızlarımız da bizim davamçılarımız olacaqlar. Cənab Prezident, Sizə çox minnətdarıq. Biz Sizi çox istəyirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də sizi çox istəyirəm.

**S o l m a z  C ə l i l o v a** (*xalçaçı*): Cənab Prezident, mənim birinci arzum odur ki, Allah Sizə uzun ömür, möhkəm cansağlığı versin. Biz Sizinlə fəxr edirik. Bizə yaratdığınız bu şəraitə görə çox sevinirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mən sizdən də çox sevinirəm.

**S o l m a z  C ə l i l o v a:** 2 şəhid bacısı, 2 veteran anası kimi, mənim ikinci arzum odur ki, işğal altındakı torpaqlarımız tezliklə azad olunsun, Cocuq Mərcanlı kimi abadlaşsın, gözəlləşsin. Sizə

böyük nailiyyətlər, xoş günlər, əsas nemət olan cansağlığı arzulayıram.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**X a l ç a ç ı l a r:** Cənab Prezident, xahiş edirik bizim salamlarımızı Mehriban xanıma çatdırın.

* * *

*Prezident İlham Əliyev fabrikdə toxunması başa çatmış xalçanı kəsdi.*

## «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev Logistika Mərkəzini işə saldı.*

*Məlumat verildi ki, ümumi dəyəri 100 milyon manatdan çox olan «Şəmkir Aqroparkı»nda həyata keçirilən layihələrə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 22,7 milyon manat dövlətin güzəştli krediti verilibdir.*

*Mərkəzin inzibati binasında hüquq, maliyyə, biznesin inkişafı departamenti yerləşir. Burada tibb otağı və mətbəx də vardır.*

*Logistika Mərkəzinin ərazisi 12,3 hektar, uzunluğu 254, eni isə 141 metrdir. İstehsal sahəsi 3,9 hektar ərazini əhatə edir. Burada Fransanın tanınmış şirkətlərindən birinin meyvələri ölçüsünə, rənginə, zədəliliyinə görə çeşidləyən və qablaşdıran avadanlıqları quraşdırılıb. İriölçülü meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçikölçülü meyvələri çeşidləyən avadanlıqların gücü isə saatda 2 tondur. İstehsal sahəsində eyni zamanda 200 ton məhsul qəbul edə biləcək 2 terminal,*

*120 ton hazır məhsulu yola sala bilən 1 terminal mövcuddur. «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya fəaliyyət göstərir. Burada meyvə və tərəvəzlərin keyfiyyəti, toksikliyi, bakterioloji və mikrobioloji göstəriciləri üzrə analizlər aparılır. Logistika Mərkəzində meyvə və tərəvəzlərin çeşidlənməsi, qablaşdırılması və soyuducu kameralarda saxlanılması müasir standartlara uyğun olmaqla, mühüm texnoloji proseslərdən keçirilərək aparılır. Bu zaman laboratoriya təhlilləri nəzərə alınır, sonra məhsul xüsusi hidroşoklama qurğusundan keçirilir. Nəticədə məhsulun çeşidlənməsi və qablaşdırılması zamanı, həmçinin soyuducu kamerada temperatur fərqində zədə alması minimuma endirilir.*

*Mərkəzdə regionda yetişdirilən xurmanın alıcılıq qabiliyyətini aşağı salan xüsusi dadın aradan qaldırılmasını təmin edən və gücü sutkada 1 ton olan «determing room» qurğusu da vardır. Mərkəzdə eyni zamanda, İtaliyanın aparıcı şirkətlərindən birinin tutumu 24 min ton olan «71 ULO» tipli soyuducu saxlama kamerası quraşdırılıb. Soyuducu depolarda meyvə və tərəvəzin növlərinə görə 25 gündən 270 günə qədər minimum itki və keyfiyyətlə saxlanılması təmin olunur. Aqroparkın yaradılması ölkənin ixrac həcminin artırılmasında və coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kiçik və orta fermerlərin innovativ qabiliyyətinin artırılmasında, intensiv metodların geniş tətbiqində, kənd təsərrüfatı sahəsində əlaqələndirilən vahid sistemin, eləcə də istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətlərinin formalaşmasında, yüksək məhsuldarlığın əldə olunmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin yaradılmasında əhəmiyyətli rol oynayacaqdır.*

*Dövlət başçısına aqroparkın «Ceyrançöl» massivi ərazisində yerləşən hissəsində görülən işlər barədə də məlumat verildi. İri taxılçılıq, bitkiçilik və meyvəçilik təsərrüfatını özündə birləşdirən aqroparkın ərazisində kənd təsərrüfatının inkişafına xid-*

*mət edəcək 8000 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil edilməsi, Kür çayından əraziyə 2 istiqamətdə 730 millimetr diametrli dəmir borularla 27,5 kilometr və qismən kiçikdiametrli borularla 15,6 kilometr təsərrüfatdaxili su xətlərinin çəkilməsi təmin edilibdir. Ərazidə lazımi infrastrukturun yaradılması üçün prezident İlham Əliyevin 2017-ci il 13 yanvar tarixli və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 oktyabr tarixli sərəncamlarına əsasən dövlət büdcəsindən 3 milyon 200 min manat vəsait ayrılıbdır. Aqropark üçün «New Holland» markalı 10 müasir traktor, 45 adda müxtəlif kənd təsərrüfatı maşın və qoşqu avadanlığı lizinq yolu ilə alınıb, ümumi tutumu 15 milyon kubmetr olan 3 sututar inşa edilib, sahəsi 2016 kvadratmetrə çatan anbar yaradılıbdır. Ərazidə böyük gücə malik elektrik yarımstansiyası və 6 transformator quraşdırılıb, ümumilikdə 35 kilometr uzunluğunda elektrik xətti çəkilibdir. 2 üzən ponton üzərində 3 yeni motor və su nasosu, həmçinin 1000 hektar torpaq sahəsində ABŞ-ın «Lindsay» şirkətindən alınmış müxtəlif radiuslu 14 müasir pivot suvarma aqreqatı və avadanlığı quraşdırılıbdır. Bütün bunlar məhsuldarlığa müsbət təsir göstərib. Nəticədə pivotaltı sahələrə ötən il şəkər çuğunduru əkilərək, 14 min ton məhsul yığılıb və İmişli Şəkər zavoduna təhvil verilibdir. Cari ildə həmin pivotaltı sahəyə qarğıdalı bitkisi əkilibdir.*

*«Ceyrançöl»də 35 nəfər daimi, 200 nəfər mövsümi işlə təmin olunub. Burada sahəsi 260 kvadratmetr olan 9 otaqdan ibarət ikimərtəbəli ofis binası tikilib. Ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə vermək məqsədilə aqroparkda mövcud 1000 hektar pivotaltı sahənin genişləndirilərək, 2017-ci ildə 2000 hektar, 2018-ci ildə 1600 hektar olmaqla, ümumilikdə, 4600 hektara çatdırılması planlaşdırılır. Bu ilin payızında 3000 hektar pivotaltı sahəyə taxıl əkilməsi və 15 min ton məhsul istehsalı, 2018-ci ildə isə 3000 hektarda qarğıdalı əkilməsi və 30 min ton məhsul götürülməsi nəzərdə tutulur. İntensiv bağçılığın yaradılması məqsədilə 2400 hektarda damcılı suvarma*

*sistemlərinin quraşdırılması layihələndirilib. Nəticədə gələcəkdə 36 min ton məhsul istehsalı gözlənilir. Pivotaltı sahəyə qarşıdakı illərdə növbəli əkin prinsipinə uyğun olaraq soya, kartof, soğan və digər bitkilər də əkiləcəkdir. Sözügedən məhsulların saxlanılması üçün 30 min tonluq taxıl anbarı kompleksinin qurulması, 10 min tonluq kartof saxlama-soyuducu kameranın yaradılması nəzərdə tutulur. 8000 hektar torpaq sahəsini əhatə edəcək aqrotexniki qulluq prosesini vaxtında yerinə yetirmək məqsədilə aqroservis bazasının genişləndirilməsi üçün ABŞ-ın «John Deere» şirkətinin istehsalı olan 30 adda müasir kənd təsərrüfatı texnika və avadanlığının alınması da planlaşdırılır. Nəticədə 5000 daimi, 1500 mövsümi iş yeri yaradılacaqdır. «Ceyrançöl»də salınacaq bağçılıq təsərrüfatının məhsulları «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzində emal ediləcək, həmin məhsulların satışı və ixracı məhz buradan təmin olunacaqdır.*

*Aqroparkın Könüllü kəndi ərazisində yerləşən hissəsinin ümumi ərazisi 604 hektardır. Bu ərazinin 100 hektarı sənaye sahəsi, 200 hektarı istixanalar, 274 hektarı intensiv bağçılıq, 25 hektarı tingçilik, 5 hektarı şitilçilik üçün nəzərdə tutulubdur.*

*Aqroparkda həyata keçirilən bütün bu işlər ölkəmizdə kənd təsərrüfatının ümumi daxili məhsulda pay nisbətini artırmağa, əhalini yerli keyfiyyətli məhsullarla təmin etməyə yönəlibdir.*

*Logistika Mərkəzində sahibkarların ixrac əməliyyatları ilə əlaqədar prosedurları sadələşdirmək və sürətləndirmək məqsədilə «bir pəncərə» sistemi qurulub. Burada Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi İstehlak Mallarının Ekspertizası Mərkəzinin, Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarət Xidmətinin, «Atabank» kommersiya bankının müvafiq strukturları fəaliyyət göstərəcəkdir.*

*«Şəmkir Aqroparkı»nın kommunikasiya təminatı üçün dövlət dəstəyi ilə 25 meqavat gücündə elektrik stansiyası tikilib, saatda buraxılış gücü 18 min kubmetr olan 9 kilometr uzunluğunda qaz xətti, 48 portluq 22 kilometr fibrooptik rabitə xətti çəkilibdir.*

*Hazırda 11 kilometr uzunluğunda dəmir yolu xəttinin inşası da layihələndirilir.*

*Diqqətə çatdırıldı ki, «Şəmkir Aqroparkı»nın Logistika Mərkəzi tam gücü ilə fəaliyyət göstərəndə burada 274 nəfərin işləməsi nəzərdə tutulur. Hazırda mərkəzdə 179 nəfər çalışır. Orta aylıq əməkhaqqı 600 manatdır. Bu ərazidə ikinci mərhələdə müasir istixana kompleksi, şitilçilik, tingçilik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, Tara İstehsalı fabriki, aqroservis və satış mərkəzləri, avtopark, Elmi Araşdırma və İnnovasiyalar Mərkəzi, hotel və müxtəlif infrastruktur müəssisələri də inşa olunacaqdır.*

*Sonda dövlət başçısı aqroparkda və Logistika Mərkəzində yaradılan imkanlardan daha səmərəli istifadə olunması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PETRO POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Ukrayna arasındakı ənənəvi dostluq əlaqələri, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız dövlətlərarası münasibətlərimizin inkişafı üçün möhkəm bünövrədir. İnanıram ki, bu münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2017-ci il*

# NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunda iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin başçılıq etdiyi, Latviyanın sabiq prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq prezidentləri Rosen Plevneliev və Petar Stoyanov, Xorvatiyanın sabiq prezidenti İvo Yosipoviç, İsrailin sabiq prezidenti Dalia İtzik, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya və Türkiyənin sabiq Xarici İşlər naziri Hikmət Çətinin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun getdikcə artdığı, tərəfdaşlarının çoxaldığı, fəaliyyət istiqamətlərinin genişləndiyi vurğulandı və mərkəzin gələcək fəaliyyəti ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunun əhəmiyyəti qeyd edildi.*

## BAKININ XƏTAİ RAYONUNDAKI 257 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*23 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Bakının Xətai rayonundakı 257 saylı tam orta məktəbin əsaslı təmir edilən mövcud binasında, həmçinin yeni tikilən korpusunda yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yeni korpusda görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1974-cü ildən fəaliyyət göstərir. Məktəbdə 38 sinif, 3 informatika, 3 laboratoriya, idman və akt zalları, yeməkxana vardır. Bu təhsil ocağının mövcud korpusu prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı sərəncamla təsdiq edilmiş «2011– 2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın Tədbirlər Planına uyğun olaraq əsaslı təmir edilib. Burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilibdir.*

*Məktəbin yeni tikilən korpusu üçmərtəbəlidir. Foyedə ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın təhsil sahəsinə göstərdikləri diqqəti əks etdirən fotostend quraşdırılıbdır.*

*Yeni korpus prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı sərəncamla təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın Tədbirlər Planında təhsil sahəsi üzrə*

*nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq inşa edilib. Burada 24 sinif otağı, 1 informatika kabineti, fizika, kimya və biologiya laboratoriyaları vardır. 672 şagird yerlik əlavə korpus təhsil ocağında birnövbəli dərs rejiminə keçməyə imkan yaradır. Yeni korpusun istifadəyə verilməsi ilə 257 saylı tam orta məktəb 1848 şagird yerlik olacaqdır. Müasir səviyyədə inşa edilən binada videomüşahidə və yanğın xəbərdarlığı sistemləri yaradılıb. Yeni korpus internet, mebel-inventar və digər zəruri avadanlıqlarla təchiz edilib. Təhsil müəssisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıbdır.*

## İTALİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AUQUSTO MASSARİ İLƏ GÖRÜŞ

*24 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Auqusto Massarinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Auqusto Massari Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Auqusto Massari etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə İtaliya arasında əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimizin bir çox sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə tərəfdaş olduğunu qeyd etdi. Prezident İlham Əliyev 2014-cü ildə Roma şəhərində qəbul olunmuş iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin əlaqələrimizin səviyyəsini əks etdirdiyini bildirdi, bunu əməkdaşlığın ən yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi. Bununla belə, dövlətimizin başçısı tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün bir çox imkanların mövcud olduğunu qeyd etdi. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsi üzrə də işlərin uğurla davam etdirildiyini bildirdi. Əməkdaşlığımızda balansın gözlənilməsi, həmçinin ticarət dövriyyəsinin daha da artırılması üçün iqtisadi əməkdaşlığın şaxələndirilməsinin vacibliyini qeyd edən dövlətimizin başçısı buna təkcə neft təchizatının artırılması yolu*

*ilə deyil, ticarət əlaqələrini daha da inkişaf etdirməklə nail olmağın əhəmiyyətini vurğuladı. Azərbaycanda çoxlu sayda İtaliya şirkətlərinin müxtəlif sahələr üzrə fəaliyyət göstərdiklərini qeyd edən dövlət başçımız ölkəmizdə investor şirkətlərin sayının artırılması üçün də yaxşı imkanların mövcud olduğunu bildirdi, bunun hər iki istiqamət üzrə ixrac məhsullarının həcminin artırılmasına xidmət edəcəyini vurğuladı. Prezident İlham Əliyev səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*İtaliya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən səfir Auqusto Massari bunu artıq ölkəmizə gəldiyi bir neçə gün ərzində hiss etdiyini, burada çoxlu sayda italyanları və italyan brendlərini gördüyünü vurğuladı. Auqusto Massari Azərbaycanda müşahidə olunan sabitlik, dini tolerantlıq və multikulturalizm mühitinin ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını qeyd etdi. Azərbaycan ilə əlaqələrin 2014-cü ildə Romada qəbul edilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə əsasında daha da inkişaf etdirilməsinin İtaliya hökuməti üçün mühüm əhəmiyyət daşıdığını bildirən səfir Auqusto Massari əməkdaşlığımızın müxtəlif istiqamətlərdə daha da möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq Sazişi ilə bağlı aparılan danışıqlara İtaliya tərəfinin dəstəyinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı iki ölkə arasında iqtisadi, kosmik sənaye, infrastruktur layihələri, kənd təsərrüfatı, ticarət, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yüksək potensialın olduğu qeyd edildi.*

## UEFA ÇEMPİONLAR LİQASININ QRUP MƏRHƏLƏSİNƏ YÜKSƏLƏN AĞDAMIN «QARABAĞ» FUTBOL KLUBUNUN HEYƏTİ İLƏ GÖRÜŞ

*24 avqust 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın «Qarabağ» futbol klubunun heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Dünən ölkəmizin futbol tarixinin yeni səhifəsi açıldı. «Qarabağ» futbol klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazandı. Bu tarixi qələbə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Siz Azərbaycan xalqına qələbə sevinci bəxş etdiniz. Siz gərgin mübarizədə bir daha göstərdiniz ki, Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür, peşəkardır və ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edir.

Bu tarixi qələbə ona görə önəmlidir ki, bu qələbəni hamımız üçün doğma və əziz olan «Qarabağ» komandası qazanıb. «Qarabağ» komandası Qarabağın adını daşıyır. «Qarabağ» komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə də sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası vardır. Azərbaycan sadəcə, idman qələbəsini deyil, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsini qeyd edir. Biz döyüş meydanlarında da, idman meydançalarında da qələbələr qazanırıq. Necə ki, keçən ilin aprel ayında qəhrəman Azərbaycan hərbçiləri şücaət göstərərək, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdilər. O torpaqlarda indi həyat qaynayır. Vətəndaşlar işğaldan azad edilmiş torpaqlara

qayıdıblar, orada yaşayırlar, qururlar, yaradırlar. O torpaqlarda indi Azərbaycan bayrağı dalğalanır.

Siz də dünən Azərbaycan bayrağını futbol sahəsində yüksəklərə qaldırmısınız. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı və xaricdə yaşayan milyonlarla azərbaycanlı sizin qələbənizə ürəkdən sevinirdi, fəxr edirdi ki, Azərbaycan komandası, xüsusilə «Qarabağ» adını daşıyan komanda bu gün dünyanın, Avropanın ən güclü komandaları arasında yer tutub.

Bu qələbə eyni zamanda, Azərbaycanda futbolun inkişafının təzahürüdür. Mən çox şadam ki, dünyanın ən populyar idman növü – futbol Azərbaycanda inkişaf edir. Biz bu inkişafı çoxdan gözləyirdik. Futbolçularımızın qələbələrini səbirsizliklə gözləyirdik. Bu gün hesab edirəm ki, bunun şahidiyik. Çünki həm klublar, həm milli yığma komandamız yaxşı nəticələr, ləyaqətli oyun, əzmkarlıq, iradə və vətənpərvərlik göstərir. Düşünürəm ki, Azərbaycan futbolu gələcəkdə daha da sürətlə inkişaf edəcək, həm klublar, həm də yığma komandamız ölkəmizi ləyaqətlə təmsil edəcəkdir.

Əlbəttə, bu qələbə son illər ərzində ölkəmizdə idman sahəsində görülən işlərin nəticəsidir. Çünki idman Azərbaycanda dövlət siyasətidir. Bu gün Azərbaycan dünya miqyasında idman dövləti kimi tanınır. İstər Avropa və dünya çempionatlarında, istərsə də Olimpiya oyunlarında idmançılarımız yüksək nəticələr göstərirlər. Bakıda keçirilmiş I Avropa və IV İslam Həmrəyliyi oyunları bir daha Azərbaycan idmançılarının gücünü göstərdi. Biz komanda hesabında Avropa oyunlarında 2-ci, İslam Həmrəyliyi oyunlarında isə 1-ci yerə layiq görüldük. Bu, tarixi qələbədir. Keçən il Rio Yay Olimpiya oyunlarında Azərbaycan idmançıları 18 medal qazanmış və medalların sayına görə dünya miqyasında 14-cü yeri tutmuşlar.

Bu, gənc müstəqil dövlət üçün tarixi nailiyyətdir. Çox şadam ki, ən məşhur, ən populyar idman növü olan futbol Azərbaycanda da inkişaf edir. Yeni stadionlar tikilir, bizim tarixi Tofiq Bəhramov adına stadionumuz bir neçə il bundan əvvəl əsaslı təmir olunubdur.

Dünyanın ən gözəl stadionlarından biri olan, təxminən 70 min tamaşaçı tutan Bakı Olimpiya stadionu tikilibdir. Bölgələrdə stadionlar, idman qurğuları tikilir. Çünki idmanın inkişafı, əlbəttə, idman infrastrukturunun mövcudluğuna bağlıdır. Bu istiqamətdə həm bölgələrdə, həm Bakıda ən müasir idman infrastrukturu yaradılıbdır.

Əminəm ki, bu qələbədən sonra futbol bölmələrinə uşaqların axını daha da güclənəcək, futbolçu olmaq, sizə oxşamaq istəyənlərin sayı artacaqdır. Əlbəttə, bu sizin üzərinizə əlavə məsuliyyət qoyur. Çünki sizi indi Azərbaycanda, demək olar ki, tanımayan yoxdur. Sizə diqqət artacaq və necə ki, siz bu günə qədər həm idmanda, həm məişətdə özünüzü ləyaqətlə aparmısınız, əminəm ki, gələcəkdə də gənclər, gənc idmançılar üçün nümunə olacaqsınız.

Onu da qeyd etmək istəyirəm ki, dünənki qələbə təsadüfi qələbə deyildi. Siz bu qələbəyə doğru neçə ildir ki, gedirdiniz. Həm daxili çempionatda bir neçə dəfə çempion olmusunuz, həm də neçə il Avropa Liqasının qrup mərhələsində iştirak etmisiniz. Mən sizinlə əvvəlki görüşümü xatırlayıram. O vaxt hakimin ədalətsizliyi ucbatından siz qələbədən məhrum edilmişdiniz. Onu da xatırlayıram ki, – o vaxt da mən bunu qeyd etdim – ədalətsizliyə baxmayaraq, özünüzü çox ləyaqətlə, təmkinlə apardınız və ədalət öz yerini tapdı. Siz bu gərgin, çox açıq, ədalətli mübarizədə sübut etdiniz ki, Azərbaycan futbolu inkişaf edir və böyük qələbələr qazana bilər. Ona görə sizin qələbəniz təbiidir və ədalətlidir.

Mən bu münasibətlə ilk növbədə, klubun rəhbərliyini təbrik etmək istəyirəm, xüsusilə klubun rəhbəri Tahir Gözəli. Mən bilirəm ki, Tahir bu məsələyə çox böyük sevgi ilə, ürəklə yanaşır. Bəlkə də bu gün ən çox sevinən elə Tahirdir. Səni təbrik edirəm, Tahir. Sənin bütün köməkçilərini, mütəxəssisləri təbrik edirəm. Komandanın baş məşqçisi Qurban Qurbanovu təbrik edirəm. Qurban Qurbanov özünü futbolda həm peşəkar

futbolçu, həm bilikli məşqçi, həm də vətənpərvər insan kimi təsdiqlədi.

Yəqin ki, tamaşaçılar da mənim fikrimə şərik olarlar – Qurban Qurbanov özünü oyunlar zamanı çox ləyaqətlə aparır. Əminəm ki, onun davranışı, əminliyi və təmkinliyi futbolçulara da əlavə güc verir. Əlbəttə, futbolçuları təbrik etmək istəyirəm. Çünki bu qələbəni futbolçular qazanıblar. Futbolçu olmaq, idmançı olmaq çox böyük zəhmət, fədakarlıq tələb edir. Futbolçular, əfsuslar olsun ki, gənc yaşlarından zədələrlə üzləşirlər, əməliyyat olunurlar. Ağır işdir, ağır peşədir. Futbolçular göstəriblər ki, onlar böyük qələbələr qazanmağa qadirdirlər.

Bu gün «Qarabağ» futbol klubu Avropanın aparıcı klubları ilə yarışır və yarışacaq. İndi bütün xarici kütləvi informasiya vasitələrinin xəbərlərində artıq Azərbaycanın «Qarabağ» klubu haqqında verilişlər gedir. Bu, əlbəttə, ölkəmizin təbliğində çox önəmli hadisədir. Yenə də bütün dünya görür ki, Qarabağ Azərbaycan torpağıdır. Yenə də görürlər ki, baxmayaraq Ağdam şəhəri işğal altındadır, ancaq onun təmsilçiləri Avropanı fəth edirlər. Bu yenə də göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Onu göstərir ki, biz öz torpağımızda yaşayırıq və hamımız arzu ilə yaşayırıq ki, torpaqlarımız işğaldan azad olunsun. Hər bir qələbə, hər bir uğurumuz, istənilən sahədə uğurumuz o günü yaxınlaşdırır.

Keçən ilin aprel döyüşləri onu göstərdi ki, Azərbaycan istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Bu gün hərbi potensialımız imkan verir ki, biz döyüş bölgəsində bütün vəziyyətə nəzarət edək və öz iradəmizi diktə edək. İdmanda da belədir və idman sevincini bizə idmançılar bəxş edir.

Mən sizin qələbənizi çox yüksək qiymətləndirirəm. Bu, tarixi qələbədir. Bu qələbə tarixə yazılıbdır və çox ədalətlidir ki, məhz «Qarabağ» klubu bu qələbəyə imza atdı. Mən sizi bir daha təbrik edirəm, gələcək uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, siz qrup mərhələsində də ölkəmizi layiqincə təmsil edəcəksiniz. Sağ olun.

* * *

**T a h i r  G ö z ə l** *(«Qarabağ» futbol klubunun vitse-prezidenti*): Cənab Prezident, bu gün bizi qəbul etdiyinizə, gözəl sözlərinizə və dəstəyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Cənab Prezident, Azərbaycanda bir şəhər, bir guşə yoxdur ki, orada Olimpiya İdman Kompleksi olmasın. Dövlətimiz Sizin rəhbərliyinizlə illərdir idmana, idman infrastrukturuna çox böyük qayğı göstərir. Bunun nəticəsində müxtəlif idman növlərində – güləşdə, futbolda, intellektual oyunlarda, şahmatda Azərbaycan Avropanın və dünyanın diqqətindədir.

Cənab Prezident, təkcə uğur qazananda yox, ən çətin günümüzdə də biz Sizin dəstəyinizi, Azərbaycan xalqının sevgisini hiss etmişik. Doğrudan da «İnter»lə oyundan sonra ruh düşkünlüyü yaşamışdıq, əhvalımız pis idi, haqsızlığa uğramışdıq. Sağ olun ki, Siz bizi dəvət etdiniz, bizə o şərəfi verdiniz. Dediniz ki, bu haqsızlıqdır, mən bunu görürəm, amma siz yolunuza davam edin. Cəsarətlə gedin və biz mütləq zəfər çalacağıq.

Şükürlər olsun, cənab Prezident, dünənki qələbə ilə Avropada 650–700 klub arasında «Qarabağ» artıq ilk 32-liyə daxil oldu. Bu doğrudan da böyük bir şərəfdir, böyük bir nailiyyətdir. Artıq biz ölkəmizdə ən böyük klubları gözləyirik. «Arsenal», «Real Madrid», «Tottenhem» gələ bilər, «Liverpul», «Mançester Yunayted» – bunların hamısını Bakıda qonaq edəcəyik, inşallah.

Cənab Prezident, mən bir daha Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz Avropaya gedəndə oyunlar üçün Bakıya gələn klub rəhbərləri heyranlıqlarını gizlədə bilmirlər. Söhbətimizin ilk 20 dəqiqəsi onların Bakıda gördükləri inkişafdan olur. Onlar deyirlər ki, necə ola bilər ki, bir ölkə 20–25 il ərzində bu səviyyəyə gəlib çıxsın?! Sonra biz onlara Qarabağın tarixindən, Azərbaycandan danışırıq və bu, möhtəşəm bir dialoq olur. Bizi həmişə böyük ehtiramla qarşılayırlar.

Cənab Prezident, bütün bunlar Sizin sayənizdədir. Doğrudan da biz Avropanın ən qabaqcıl ölkələrinin gördüyü hörməti

görürük. Dünyada bizə, mədəniyyətimizə, xalqımıza ancaq maddi resurslarımıza görə yox, şəxsiyyətimizə görə də, siyasətdə duruşumuza görə də hörmət edirlər. Cənab Prezident, yenə deyirəm, bunların hamısı Sizin sayənizdədir. Çox sağ olun. Allah Sizi başımızın üstündən əskik etməsin.

«Qarabağ» adını daşımaq bizim üçün böyük bir şərəfdir. Biz də Sizin üçün, xalqımız üçün əlimizdən gələni əsirgəməyəcəyik. Çox sağ olun, çox təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**Q u r b a n Q u r b a n o v***(«Qarabağ» futbol klubunun baş məşqçisi)* **:** Cənab Prezident, mən də Sizi bütün komandanın adından salamlayıram. Çox şadıq ki, bu komanda ilə, bu kollektivlə ikinci dəfə Sizin görüşünüzdəyik, bizi buraya dəvət etmisiniz.

Həqiqətən, keçən ilin aprel döyüşlərindən sonra bu komandada əlavə bir ruh yarandı. Bizim bütün legionerlərimiz bir daha Qarabağı daha yaxından tanıdılar. Bu həqiqətən, futbolçular üçün böyük ruh yüksəkliyi oldu. Onlar bizim azərbaycanlıların, bizim dövlətimizin mərdliyini gördülər. Düşünürəm ki, bu bizim builki uğurlarımızda çox böyük bir addım oldu. Bizim üzərimizə düşən budur. Əsgərlərimiz bizi cəbhədə qoruyurlar. Bizim üzərimizə düşən vəzifə isə onlarınkından daha asandır. Çalışırıq ki, öz vəzifəmizi ləyaqətlə yerinə yetirək.

Əlbəttə, qeyd etdiyiniz kimi, idmanın, demək olar, bütün növlərində bizim uğurlarımız var idi. Biz nə qədər desəydik ki, Avroliqada oynayırıq, bu, az idi. Amma Çempionlar Liqasının bu turniri çox böyük turnirdir. Dünyanın ən güclü komandaları bu turnirdə iştirak edir. Onların hər birinin Bakıya gəlmək şansı vardır. Mən çox şadam ki, Siz futbola, ümumiyyətlə, idmana bu cür dəstək göstərirsiniz. İstəyirsiniz ki, bizim futbolumuz daha da inkişaf etsin. O klubların buraya gəlməsinə və belə bir böyük turnirdə Azərbaycanın adının çəkilməsinə görə çox şadam, həmçinin azarkeşlərimiz, bütün qarabağlılar, köçkünlərimiz – dünən şəhərdə hər şey o dərəcədə idi ki, bu bizim

məsuliyyətimizi daha da artırdı. Düşünürəm ki, biz bundan sonra daha çox çalışmalıyıq, daha məsuliyyətli olmalıyıq. Biz bacardığımız qədər, hətta bacardığımızdan da artıq çalışacağıq ki, futbolumuz ildən-ilə daha da irəli getsin. Bir daha Sizə təşəkkür edirəm. Hər şeyə görə çox sağ olun.

**R ə ş a d S a d ı q o v:** Cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. Mən daim futbolçuların arasındayam. Burada millimizin də üzvləri çoxdur. Amma bir hissəsi burada deyil. Biz futbolçular göstərdiyiniz diqqətə, qayğıya görə Sizə minnətdarlığımızı bildirmək istəyirik. Biz bu diqqət və qayğını daim hiss edirik. O qədər olur, oyundan qayıdanda aramızda söhbət edirik ki, görəsən bu qələbədən sonra cənab Prezidentin diqqətini cəlb edə bildikmi? Sizinlə görüşmək bizim üçün bir stimuldur. Çox sağ olun ki, bizi qəbul etdiniz.

«İnter»ə məğlub olandan sonra Sizin bizi qəbul etməyiniz həqiqətən də bizim üçün bir stimul oldu. Biz o təcrübə ilə, belə məğlubiyyətlə ilk dəfə idi qarşılaşırdıq, bir növ sınmışdıq. Amma Sizinlə görüş bizim üçün böyük ruh yüksəkliyi oldu və qayıtdıq, 3 gün sonra çempionatda vacib oyunda qələbə qazandıq, həmin il yenə çempion olduq, Avroliqa qrupuna düşdük. Həmin qələbə bu yolda irəli atılan addımlardan biri oldu.

Biz Sizə dərin minnətdarlığımızı bildiririk. Fikrimi sözlərlə tam çatdıra bilmirəm. Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, çox sağ ol. Xahiş edirəm ki, mənim salamlarımı bu gün burada iştirak etməyən futbolçulara da çatdırasınız, həm yığma komandanın üzvlərinə, həm də digər komandanın üzvlərinə. Bilin ki, mən sizin oyunlarınızı imkan daxilində izləyirəm. Əgər Bakıdayamsa mütləq izləyirəm. Dünənki oyunu da izləmişəm. «Kopenhagen»lə birinci oyunu da izləmişəm. Ondan əvvəl Moldova komandası ilə oyunu da izləmişəm və görürəm ki, nəinki nəticə var, gözəl oyun da var. Oyun olan yerdə, iradə olan yerdə mütləq nəticə də olacaq. Qayıdıram sənin dediyin o mə-

sələyə. Məhz bu iradə və ləyaqət hesabına siz o ədalətsiz qərardan sonra daha da möhkəm oldunuz. Yəni bu sizi daha da ruhlandırdı, sizi yeni qələbələrə apardı.

**T a h i r  G ö z ə l:** Cənab Prezident, Sizin dəstəyiniz bizim üçün çox böyük stimul oldu.

**İ l h a m  Ə l i y e v:** Mən də görürdüm ki, siz doğrudan da bu işə çox ürəklə yanaşırsınız. Biri var hansısa işə formal yanaşasan, biri də var ürəklə. Siz indi nəinki qələbə qazanmaq istəyirsiniz – hər bir insan, hər bir oyunçu, idmançı qələbə qazanmaq istəyir – siz xalqı sevindirmək istəyirsiniz. Bax, mən sizdə bunu görürəm. Siz qələbəyə sevinəndə elə bil ki, xalqımızı sevindirmək üçün sevinirsiniz. Mən bunu çox yüksək qiymətləndirirəm, səni də oyunçu kimi çox qiymətləndirirəm. Sən hələ çox oynamalısan. Bilirəm, veteransan, amma sən bütün «Qarabağ»a da, milli komandaya da güc verirsən, onu bil. Sən çox gözəl oyunçusan, demək olar ki, səhv buraxmırsan. Sağ ol, Rəşad, çox sağ ol.

**T a h i r  G ö z ə l:** Cənab Prezident, biz keçən Avropa Liqasında olanda o, tarixi bir gün idi. İndi bu gün yeni bir tarix yazılıb. Bu gün Sizə üzərində Çempionlar Liqasının loqosu olan formanı təqdim etmək istəyirik. Siz bu klubun mənəvi rəhbərisiniz. Siz olmasaydınız, bunların heç biri olmayacaqdı. Çempionlar Liqasının imzalanmış topunu da Sizə təqdim edirəm.

**İ l h a m  Ə l i y e v**: Təşəkkür edirəm. 10-cu nömrə vermisiniz? Çox yaxşı, çox sağ olun.

## QEYDLƏR

**1. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 5–29.

**2. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 5–20, 23–27.

**3. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 5, 7, 8.

**4. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6, 9, 20, 21, 27, 99, 116, 135, 147.

**5. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş

nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 7, 15, 18, 55.

**6. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 7, 18.

**7. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat, yazıçı. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. –7, 32, 36, 57.

**8. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. – 9, 26, 27, 32, 35, 36, 51, 57, 58, 60, 97, 99, 104, 116, 125, 140, 147.

**9. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 10, 19, 29, 36, 40, 43, 44, 98, 110, 114, 116, 147.

**10. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 28, 58, 75, 92, 93, 97, 100, 104, 107, 110,114, 116.

**11. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 18, 43.

**12. Polşa Senatı –** Polşa parlamentinin yuxarı palatası. Aşağı palata Seym adlanır. Palata 100 deputatdan ibarətdir. Senatorlar 4 ildən bir seçilir. – 21-22.

**13. Stanislav Karçevski** (d.1955) – Polşa siyasətçisi və dövlət xadimi. 2011–2015-ci illərdə Senatın vitse-marşalı, 2015-ci il noyabr ayından Polşa Senatının Marşalıdır. – 21–22.

**14. Beata Şidlo** (d.1963) – Polşanın siyasi və dövlət xadimi. 2015–2017-ci illərdə Polşanın Baş naziri olmuşdur. – 28–29.

**15. Vitold Zqlenitski** (1850–1904) – geoloq, Azərbaycanda yaşamış polyak mesenatı. 1891-ci ildə Bakıya köçmüş və ömrünün sonuna kimi burada yaşamışdır. O, Bakıda xeyriyyəçi kimi də

tanınırdı. Vitold Zqlenitski «Bakı neftinin atası» adlandırılırdı. – 24.

**16. Pavel Pototski** (1879–1932) – polşalı mühəndis. 1910-cu ildə Bibiheybət buxtasının qurudulmasına başçılıq etmək üçün onu Bakıya dəvət edirlər. O bu işin öhdəsindən çox böyük uğurla gəlir. Pavel Pototski Bakıda böyük tikinti işlərinə rəhbərlik etmişdir. Polşalı mühəndis Pavel Pototskinin Azərbaycanda neft sənayesinin inkişafında böyük xidmətləri olmuşdur. – 24, 26.

**17. Yuzef Qoslavski** (1865–1904) – polşalı memar-mühəndis. 1891-ci ildə R.R.Marfeldin layihəsi ilə Aleksandr Nevski Başkilsəsinin inşası üçün Bakıya dəvət olunur. Yusef Qoşlavski 1842-ci ildən Bakı şəhərinin memarı vəzifəsini yerinə yetirir. Yuzef Qoslavski Bakıda bir sıra memarlıq cəhətdən fərqlənən binaların memarıdır. – 24, 26.

**18. Stanislav Despot-Zenoviç** (1835–1900) – general, 1879–1893-cü illərdə Bakı şəhərinin başçısı. Onun Bakı şəhərinin böyüməsində, inkişaf etməsində, abadlaşmasında müstəsna rolu olmuşdur. – 24.

**19. Ploşko Yuzef** (1867–1931) – polşalı memar. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911–12) və Venesiya qotikası üslubunda inşa edilmiş «İsmailiyyə» (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908–13) binasıdır. – 24, 26.

**20. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 24, 115, 182, 207.

**21. Vəli bəy Yadigar** (1898–1990) – Rusiya Çar ordusunda xidmət etmiş azərbaycanlı hərbçi, polkovnik. 1921-ci ilə kimi bolşeviklərə qarşı vuruşmuş, sonra isə Türkiyəyə, oradan da Polşaya mühacirət etmişdir. 1939-cu ildə Polşaya hücum etmiş hitlerçilərə qarşı vuruşmuşdur. – 25, 26.

**22. Uzun Həsən** (1423–1478) – Ağqoyunlu hökmdarı (1468–78), görkəmli sərkərdə və diplomat. 1467-ci ildə Cahan şahı məğlub edən Uzun Həsən Qaraqoyunlu dövlətinə son qoyaraq, mərkəzi Təbriz şəhəri olmaqla, «Xorasandan Qa-

ramana qədər uzanan» Ağqoyunlu dövlətinin əsasını qoymuşdur. – 25.

**23. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 25, 26.

**24. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 26.

**25. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 27, 244, 250, 252.

**26. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə

Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 27.

**27. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 27, 101, 114, 116.

**28. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 31, 262.

**29. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 31.

**30. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ

Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 32, 36, 57–58, 174–175, 194.

**31. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. –32, 51, 58.

**32. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 34–48, 55, 81–82, 124–125, 196, 263.

**33. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35, 37, 46–47, 81, 82, 124, 125.

**34. Reks Tillerson** (d.1962) – mühəndis. Amerikalı siyasətçi, sahibkar. 2017-ci ilin fevralından 2018-ci ilin martına qədər ABŞ-ın Dövlət katibi olmuşdur. – 36.

**35. Binəli Yıldırım** (d.1955) – Türkiyənin siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018 iyul – 2019 fevral aylarında Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 37, 40–41.

**36. Berat Albayrak** (d.1978) – Türkiyə biznesmeni və siyasətçisi. 2015-ci ildən Türkiyənin Enerji və Təbii Sərvətlər naziridir. – 37, 38, 39.

**37. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88,3 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 37, 40.

**38. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 40, 41, 42.

**39. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 40, 41, 42.

**40. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Pa-

dan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 43, 194, 333–334.

**41. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 51, 58, 196.

**42. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və lideridir. – 51.

**43. Özbəkistan,** Ö z b ə k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 52–53.

**44. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 52, 53.

**45. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 53.

**46. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan

Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inte-

qrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 53, 137, 143, 144, 146, 149, 156, 162, 182, 194, 206, 207, 220, 221, 262, 269, 284, 299, 300, 303, 305, 313, 315.

**47. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 55, 109, 224.

**48. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 58, 164–166.

**49. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 59, 71.

**50. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 59.

**51. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 59.

**52. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 59, 71, 141.

**53. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 59.

**54. Cocuq Mərcanlı** – Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş. 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 61, 141, 321.

**55. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 70.

**56. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanıb. Bu teatr 1880–90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli Qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq, müstəqil fəaliyyət göstərməyə başladı. – 74.

**57. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 79–80, 121–122, 239–258.

**58. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 79, 80, 122, 239–258.

**59**. **Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 17 fakültəsi, 127 kafedrası, 2 Elmi-Tədqiqat İnstitutu, 3 Elmi-Tədqiqat Mərkəzi, 24 Elmi-Tədqiqat Laboratoriyası, elmi kitabxanası, 6 muzeyi, nəşriyyatı və mətbəəsi var. Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 86–88.

**60. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 89–117.

**61**. **Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 118.

**62. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. – 118.

**63. Rəşid Meredov** (d.1960) – Türkmənistanın siyasi və dövlət xadimi. 2001-ci ildən Türkmənistan Xarici İşlər naziri və Nazirlər Soveti Sədrinin birinci müavinidir. – 121–122.

**64. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 124–125.

**65. Əflatun Amaşov,** Əflatun Əhməd oğlu (d.1957) – jurnalist. Azərbaycan Respublikası Milli Məclisin üzvüdür. 2003-cü ildən Mətbuat Şurasının sədridir. – 144–148.

**66. «Kaspi»** – ictimai-siyasi, ədəbi qəzet. 1881-ci ilin yanvarından 1919-cu ilin martınadək Bakıda rus dilində nəşr olunmuşdur. Cəmi 10065 nömrəsi çıxmışdır. Naşiri müxtəlif imtiyazlı şəxslər olan «Kaspi» Bakı burjuaziyasının təşəbbüsü ilə yaradılmışdı. – 136.

**67. Həsən bəy Zərdabi,** Məlikov Həsən bəy Səlim bəy oğlu (1842–1907) – azərbaycanlı maarifçi-demokrat, təbiətşünas-alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F. Axundovun «Hacı Qara» pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi «Əkinçi» qəzetini nəşr etdirmişdir (1875–77). «Əkinçi» qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsində çox böyük xidmət göstərmişdir. – 137.

**68. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Görkəmli hüquqşünas, siyasi və dövlət xadimi, diplomat, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq

Cümhuriyyəti Parlamentinin Sədri. Paris (Versal) sülh konfransında (1919–20) Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. –137.

**69. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün Toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir, 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edirdi. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 137.

**70. Assoşieyted Press** – ABŞ-ın ən iri informasiya agentliklərindən biri. 1848-ci ildə Nyu-Yorkda yaradılmışdır. Amerika

qəzet naşirlərinin xüsusi mülkiyyəti olan Assoşieyted Press agentliyi ABŞ-da bütün informasiya işinə nəzarət edir. – 139.

**71. «Euronews» –** dünyada baş verən hadisələri sutkaboyu operativ surətdə işıqlandıran Avropa informasiya telekanalı. «Euronews»un kabel, peyk və efir yayımları Avropa, Afrika, Asiya, Avstraliya, Şimali və Cənubi Amerikada, həmçinin Yaxın Şərqdə – 150-dən çox ölkədə yayımlanır.

Kanal Yayım Birliyinin təşəbbüsü ilə Fransada yaradılmışdır. «Euronews» 14 dildə yayımlanır. Mənzil-qərargahı Lion (Fransa) şəhərindədir. – 139.

**72. BBC,** «Britişh Broadcastinq Corporation» – Böyük Britaniya radio və televiziya verilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici verilişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır. – 139.

**73. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrə-

nilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 140, 144, 156, 292, 293.

**74. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər

Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 144, 216–217, 294–295.

**75. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 165–166.

**76. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 $km^2$, əhalisi 402 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 167.

**77. Abdul Qəyyum** (d.1959) – 2013–2018-ci illərdə Maldiv Respublikasının Prezidenti olmuşdur. – 167.

**78. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min $km^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 170.

**79. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 170.

**80. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 171.

**81. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 172.

**82. Doris Loythard** (d.1963) – İsveçrə siyasətçisi. 2010-cu və 2017-ci illərdə İsveçrə Konfederasiyasının Prezidenti olmuşdur. – 172.

**83. Nümayəndələr Palatası** – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr Palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. – 174–175.

**84. Səfəvilər** (1501–1736)–Səfəvilər dövləti hökmdarları sülaləsi. Banisi I Şah İsmayıldır (Xətai) (1487–1524). Səfəvilər dövründə Azərbaycanın Cənub və Şimal torpaqları vahid dövlət çərçivəsində birləşmiş, ölkə iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etmiş, beynəlxalq əlaqələr xeyli genişlənmişdi. – 181.

**85. Ağqoyunlular** (1378–1508) – Ağqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin

(1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdi. – 181.

**86. Qaraqoyunlular** (1378–1468)– Qaraqoyunlu hökmdarları sülaləsi. Banisi Bayram Xocadır. Qaraqoyunlular dövründə ölkənin təsərrüfatı böyük dağıntılara məruz qalsa da, Cahanşahın (1447–1458) hakimiyyəti illərində iqtisadi və mədəni həyat nisbətən canlanmışdı. – 181.

**87. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 181.

**88**. **Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 232.

**89. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 $km^2$, əhalisi 5,3 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 238.

**90. Toni Yam** (d.1940) – Sinqapur siyasətçisi, bankir və riyaziyyatçı. 2011–2017-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 238.

**91. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 241, 244, 250, 253, 257.

**92. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 246, 248.

**93. Ramil Usubov,** Ramil İdris oğlu (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 247.

**94. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 256.

**95**. **İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 266.

**96. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 266.

**97. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i -k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 267.

**98. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 267.

**99. İspaniya,** İ s p a n i y a K r a l l ı ğ ı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 268.

**100. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya kralıdır. – 268.

**101. Nəcməddin Sadıkov** (d.1956) – Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Müdafiə nazirinin

birinci müavini, general-polkovnik. Azərbaycan Respublikasının «Rəşadət» ordeni ilə təltif edilmişdir. – 318.

**102. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 329.

**103. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 329.

**104. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 330.

**105. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 330.

**106. Rosen Plevneliev** (d.1964) – Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 330.

**107. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 330.

## Şəxsi adlar göstəricisi

**Abutalıbov Hacıbala** – 83
**Auqulis Uldis** – 94
**Albayrak Berat** – 37, 38, 39
**Alimov Usmonxon** – 52–53
**Amaşov Əflatun** – 126, 144–148
**Aslanov Bariz** – 282–283
**Babayev Maksad** – 248
**Bağırov Hüseynqulu** – 94
**Battulqa Xaltmaaqiyn** – 50
**Bazarov Batır** – 247
**Bazarov Məhəmməd** – 191–192
**Bəşimov Deryaqulı** – 246
**Berdıməhəmmədov Qurbanqulu** – 79, 80, 122
**Barıka Tsezari** – 24
**Bertse Auqustus** – 116
**Bədəlov Akim** – 159, 295
**Birznieks-Upitis Ernest** – 116
**Borisov Boyko** – 37, 39–40
**Cabbarov Mikayıl** – 95
**Conson-Serlif Ellen** – 168
**Çavuşoğlu Mövlud** – 124–125
**Çətin Hikmət** – 330
**Çolukov Sərdar** – 247
**Despot-Zenoviç Stanislav** – 24
**Diko Amadou** – 173
**Duda Andjey** – 5–20, 23–27
**Eyyubov Yaqub** – 248

**Əliyev Heydər** – 53, 137, 143, 144, 146, 149, 156, 162, 182, 194, 206, 207, 220, 221, 262, 269, 284, 299, 300, 303, 305, 313, 315
**Əliyeva Mehriban** – 140, 144, 156, 292, 293
**Əliyeva Məlahət** – 309
**Ərdoğan Rəcəb Tayyib** – 35, 37, 46, 47, 81–82, 124, 125
**Əs-Sisi Əbdülfəttah** – 123, 264
**Əsədov Heydər** – 247, 273, 276
**VI Felipe** *(İspaniya Kralı)* – 268
**Filipp** *(Belçika Kralı)* – 118
**Gəncəvi Nizami** – 330
**Heydərov Kəmaləddin** – 247
**Hüseynov Qorxmaz** – 310
**İmanov Vasif** – 151
**İsgəndərova Zəminə** – 323
**İşanquliyev Mekan** – 79–80
**Jeromski Stefan** – 24
**Kaçinski Lex** – 5, 7, 8
**Karçevski Stanislav** – 21
**Karmasin Sofi** – 119–120
**Kosçinski Tadeuş** – 12
**Kovind Ram** – 171
**Kuçinski Pedro** – 169
**Qani Məhəmməd** – 267
**Qurdov Amanmırat** – 247
**Qəyyum Abdul** – 167
**Qocayev Alı** – 284
**Qoslavski Yuzef** – 24, 26
**Quliyev İlham** – 136–141
**Quliyev Ramil** – 263

**Qurbanov Cavid** – 246
**Lappo Anatoli** – 262
**Laqumciya Zlatko** – 330
**Loythard Doris** – 172
**Lukaşenko Aleksandr** – 31
**Makron Emmanuel** – 51
**Massari Auqusto** – 333–334
**Medinş Yazeps** – 116
**Mehdiyeva İlhamə** – 200–201
**Meredov Rəşid** – 121–122
**Mesnard Cavan** – 174–175
**VI Məhəmməd** *(Mərakeş Kralı)*– 170
**Məmmədli Cahangir** – 86–88
**Məmmədov Alimpaşa** – 313
**Məmmədov Saleh** – 176
**Məmmədova İlhamə** – 320
**Məmmədova Mahirə** – 292
**Məmmədova Mehriban** – 141–144
**Məmmədyarov Elmar** – 246, 248
**Mirzəyev Tofiq** – 309–310
**Mirziyoyev Şavkat** – 52, 53
**Mulikov İsgender** – 247
**Muradov Vidadi** – 319
**Mıradov Qoçmırat** – 246
**Murnietse İnara** – 103–104
**Muhammetqulıyev Yusup** – 248
**Mustafayev Şahin** – 237, 247
**Namazova Aidə** – 293
**Nkurunziza Pyer** – 30
**Ondimba Ali** – 265
**Orazmıradov Batırmırat** – 248
**Ozols Andris** – 105
**Paxomov Anatoli** – 164

**Plevneliev Rosen** – 330
**Ploşko Yuzef** – 24, 26
**Poroşenko Petro** – 329
**Pototski Pavel** – 24, 26
**Putin Vladimir** – 165–166
**Rama Edi** – 39
**Rzayev Baba** – 203
**Rzayev İslam** – 179
**Sadıkov Nəcməddin** – 318
**Sapardurdıyev Nursaxet** – 247
**Serageldin İsmail** – 330
**Seyidov Arif** – 269
**Səfərli Vüqar** – 126
**Stoyanov Petar** – 330
**Sulkeviç Maçey Süleyman** – 24
**Skibinski Yevgeni** – 24
**Şadurskis Karlis** – 94, 95
**Şahin Vasip** – 34
**Şəkiliyev Musa** – 206
**Şirinov Allahverdi** – 209–210
**Şirinova Ülkər** – 155–157
**Şidlo Beata** – 28–29
**Tağıyev Hacı Zeynalabdin** – 137
**Tillerson Reks** – 36
**Toni Tan Kenq Yam** – 238
**Topçubaşov Əlimərdan bəy** – 137
**Tot Cozef** – 37, 38
**Tramp Donald** – 7, 32, 36, 57
**Usubov Ramil** – 247
**Uzun Həsən** – 25
**Veyonis Raymonds** – 90–117
**Vəli bəy Yadigar** – 25, 26
**Vəliyev Rauf** – 247

**Vuçiç Aleksandr** – 37, 40
**Vidodo Coko** – 266
**Vuyanoviç Filip** – 49
**Yagello** *(Polşa Kralı)* – 25
**Yıldırım Binəli** – 37, 40–41
**Yosipoviç İvo** – 330
**Yusupov Artukbek** – 52–53
**Zatlers Valdis** – 330
**Zeynalova Xəzangül** – 201
**Zurnayeva Xanım** – 190–191
**Zərdabi Həsən bəy** – 137
**Zqlenitski Vitold** – 24

## Coğrafi adlar göstəricisi

**Ağcabədi** – 71
**Ağdam** – 59, 71
**Ağdərə** – 59
**Albaniya** – 37, 43
**Alxanlı** – 60
**Amerika Birləşmiş Ştatları** – 32, 36, 57, 58, 174–175, 194
**Arizona** *(ABŞ-da ştat)* – 174–175
**Asiya** – 7, 15, 24, 75, 256
**Avrasiya** – 254
**Avstriya** – 119–120
**Avropa** – 7, 10, 15, 16, 18, 19, 24, 43, 44, 55, 75, 256
**Balaxanı** – 65
**Balakən** – 179–193
**Belarus** – 31, 262
**Beyləqan** – 71
**Belçika** – 118
**Bəhmənli** – 204
**Bilgəh** – 176
**Bolqarıstan** – 37, 43, 194
**Burkina-Faso** – 173
**Burundi** – 30
**Ceyranbatan** – 154
**Cəbrayıl** – 59, 71, 141
**Cənubi Qafqaz** – 20, 23
**Cocuq Mərcanlı** – 61, 141, 324
**Çin** – 7, 8
**Dağlı** – 204
**Dağlıq Qarabağ** – 9, 26, 27, 32, 35, 36, 51, 57, 58, 60, 97, 99, 104,

116, 125, 140, 147
**Daşkəsən** – 319
**Davos** – 55, 56
**Əfqanıstan** – 36, 267
**Fatmayı** – 176
**Fransa** – 51, 58, 196
**Füzuli** – 59
**Gədəbəy** – 299–312
**Gəncə** – 71, 319
**Gəncəbasar** – 319
**Goradil** – 176
**Göygöl** – 269–283
**Gürcüstan** – 18, 43
**Gürgan** – 154
**Hacıqabul** – 71
**Hindistan** – 7, 171
**Horadiz** – 232
**Xaçmaz** – 71
**Xəzər dənizi** – 18, 20, 26, 42, 142, 154, 244, 256
**Xırdalan** – 176
**Xızı** – 72
**Xocalı** – 59
**Xorvatiya** – 330
**İndoneziya** – 266
**İran** – 7, 15, 18, 55
**İsgəndəriyyə** – 264
**İsmayıllı** – 71
**İspaniya** – 268
**İsveçrə** – 172
**İtaliya** – 43, 194, 333–334
**Katex** – 184
**Kəpənəkçi** – 204
**Krasnodar** – 164–166
**Kürdəxanı** – 176
**Kürdəmir** – 71

**Qabon** – 265
**Qax** – 67, 71, 206–237
**Qafqaz** – 189
**Qara dəniz** – 42
**Qərbi Avropa** – 19
**Qətər** – 55
**Quba** – 181
**Lahıc** – 204
**Latviya** – 89–117
**Lənkəran** – 181
**Liberiya** – 168
**Maldiv** – 167
**Masallı** – 65
**Masazır** – 176
**Mərakeş** – 170
**Mingəçevir** – 65, 66
**Monqolustan** – 50
**Monteneqro** – 49
**Mərkəzi Asiya** – 244
**Misir** – 123, 264
**Münhen** – 55
**Naxçıvan** – 181, 182, 262
**Naxçıvan Muxtar Respublikası**– 70
**Neftçala** – 65
**Novxanı** – 176
**Nuxa** – 181
**Özbəkistan** – 52–53
**Pakistan** – 55
**Paris** – 87
**Peru** – 169
**Pirallahı** – 65, 151–163
**Pirşağı** – 176
**Polşa** – 5–29
**Riqa** – 89–117
**Rumıniya** – 39
**Rusiya** – 39, 58, 164–166

**Saatlı** – 71
**Sabirabad** – 71
**Samux** – 284–298
**Saray** – 176
**Serbiya** – 37, 40
**Səudiyyə Ərəbistanı** – 55
**Sinqapur** – 238
**Soçi** – 164–166
**Sumqayıt** – 65, 176
**Şamaxı** – 181
**Şəmkir** – 313–328
**Şəki** – 67
**Şimali Avropa** – 19
**Şuşa** – 61, 181
**Türkan** – 154
**Türkiyə** – 34–48, 55, 81–82, 124–125, 196, 263
**Türkmənistan** – 79–80, 121–122, 239–258
**Ukrayna** – 7, 329
**Varşava** – 5–29
**Vuç** – 6
**Yardımlı** – 72
**Yelizavetpol** – 181
**Yunanıstan** – 43
**Zaqatala** – 181, 194–205
**Zirə** – 154

# MÜNDƏRİCAT

POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*27 iyun 2017-ci il......................................................................................... 5*

AZƏRBAYCAN–POLŞA BİZNES-FORUMUNDA İŞTİRAK

*27 iyun 2017-ci il......................................................................................... 12*

POLŞA RESPUBLİKASI SENATININ MARŞALI STANİSLAV KARÇEVSKİ İLƏ GÖRÜŞ

*27 iyun 2017-ci il......................................................................................... 21*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*27 iyun 2017-ci il......................................................................................... 23*

POLŞA RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM BEATA ŞİDLO İLƏ GÖRÜŞ

*28 iyun 2017-ci il......................................................................................... 28*

BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PYER NKURUNZİZAYA

*29 iyun 2017-ci il......................................................................................... 30*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
ALEKSANDR LUKAŞENKOYA

*30 iyun 2017-ci il* ........................................................................... *31*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
DONALD TRAMPA

*30 iyun 2017-ci il* ........................................................................... *32*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*9 iyul 2017-ci il* ............................................................................. *34*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*9 iyul 2017-ci il* ............................................................................. *35*

ABŞ-ın DÖVLƏT KATİBİ REKS TİLLERSON
İLƏ GÖRÜŞ

*10 iyul 2017-ci il* ........................................................................... *36*

XXII ÜMUMDÜNYA NEFT KONQRESİNDƏ İŞTİRAK
EDƏN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI ARASINDA
QISA SÖHBƏTDƏ İŞTİRAK

*10 iyul 2017-ci il* ........................................................................... *37*

XXII ÜMUMDÜNYA NEFT KONQRESİNDƏ İŞTİRAK

*10 iyul 2017-ci il* ........................................................................... *38*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*10 iyul 2017-ci il* ........................................................................... *49*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB XALTMAAQİYN BATTULQAYA

*11 iyul 2017-ci il............................................................................ 50*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
EMMANUEL MAKRONA

*11 iyul 2017-ci il............................................................................ 51*

ÖZBƏKİSTAN RESPUBLİKASININ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*11 iyul 2017-ci il............................................................................ 52*

NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN BİRİNCİ
YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ
YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ
HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*12 iyul 2017-ci il............................................................................ 54*

YEKUN NİTQİ

*12 iyul 2017-ci il............................................................................ 64*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
MEKAN İŞANQULİYEV İLƏ GÖRÜŞ

*13 iyul 2017-ci il............................................................................ 79*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
RƏCƏB TAYYİB ƏRDOĞANA

*14 iyul 2017-ci il............................................................................ 81*

YASAMAL RAYONUNDA YENİ SALINMIŞ PARKLA TANIŞLIQ

*15 iyul 2017-ci il.......................................................................... 83*

LATVİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*16 iyul 2017-ci il.......................................................................... 89*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*17 iyul 2017-ci il.......................................................................... 90*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*17 iyul 2017-ci il.......................................................................... 91*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*17 iyul 2017-ci il.......................................................................... 92*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*17 iyul 2017-ci il.......................................................................... 94*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*17 iyul 2017-ci il.......................................................................... 96*

RİQA ŞƏHƏRİNDƏ «AZADLIQ» ABİDƏSİNİ ZİYARƏT

*17 iyul 2017-ci il........................................................................ 102*

LATVİYA RESPUBLİKASININ SEYMİNDƏ GÖRÜŞ

*17 iyul 2017-ci il........................................................................ 103*

LATVİYA–AZƏRBAYCAN BİZNES-FORUMUNDA İŞTİRAK

*17 iyul 2017-ci il........................................................................... 105*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*17 iyul 2017-ci il........................................................................... 112*

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

*18 iyul 2017-ci il........................................................................... 118*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL AİLƏ VƏ GƏNCLƏR NAZİRİ SOFİ KARMASİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 iyul 2017-ci il........................................................................... 119*

TÜRKMƏNİSTAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ SƏDRİNİN MÜAVİNİ RƏŞİD MEREDOV İLƏ GÖRÜŞ

*18 iyul 2017-ci il........................................................................... 121*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*19 iyul 2017-ci il........................................................................... 123*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*19 iyul 2017-ci il........................................................................... 124*

MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ JURNALİST-LƏR ÜÇÜN TİKİLMİŞ NÖVBƏTİ BİNADA MƏNZİLLƏRİN PAYLANMASI MƏRASİMİNDƏ İŞTİRAK

*20 iyul 2017-ci il........................................................................... 126*

PİRALLAHI RAYONUNUN «NƏRƏKƏND»
KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ
TANIŞLIQ

*21 iyul 2017-ci il......................................................................... 151*

PİRALLAHI RAYONUNUN İÇMƏLİ SU TƏCHİZATI
LAYİHƏSİNİN AÇILIŞI MƏRASİMİ

*21 iyul 2017-ci il......................................................................... 153*

«PİRALLAHI» GÜNƏŞ ELEKTRİK STANSİYASININ
AÇILIŞI MƏRASİMİ

*21 iyul 2017-ci il......................................................................... 159*

PİRALLAHI RAYONUNDA BALIQYETİŞDİRMƏ
FERMALARININ TƏMƏLQOYMA MƏRASİMİ

*21 iyul 2017-ci il......................................................................... 161*

PİRALLAHI RAYONUNUN MƏRKƏZİ HİSSƏSİNDƏ
HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏRLƏ TANIŞLIQ

*21 iyul 2017-ci il......................................................................... 162*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*21 iyul 2017-ci il......................................................................... 164*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR
PUTİN İLƏ GÖRÜŞ

*22 iyul 2017-ci il......................................................................... 165*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA YAMİN ABDUL
QƏYYUMA

*24 iyul 2017-ci il......................................................................... 167*

LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM ELLEN CONSON-SERLİFƏ

*24 iyul 2017-ci il........................................................................... 168*
PERU RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
PEDRO PABLO KUÇİNSKİYƏ

*25 iyul 2017-ci il........................................................................... 169*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*27 iyul 2017-ci il........................................................................... 170*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RAM NATH KOVİNDƏ

*31 iyul 2017-ci il........................................................................... 171*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
XANIM DORİS LOYTHARDA

*31 iyul 2017-ci il........................................................................... 172*

BURKİNA-FASO DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ AMADOU DİKO
İLƏ GÖRÜŞ

*31 iyul 2017-ci il........................................................................... 173*

ABŞ-ın ARİZONA ŞTATININ NÜMAYƏNDƏLƏR
PALATASININ SƏDRİ CAVAN MESNARD
İLƏ GÖRÜŞ

*31 iyul 2017-ci il........................................................................... 174*

TƏMİR İŞLƏRİNDƏN SONRA PİRŞAĞI–NOVXANI VƏ
BİNƏQƏDİ–NOVXANI–CORAT YOLLARININ AÇILIŞI
MƏRASİMİ

*2 avqust 2017-ci il* ........................................................................ *176*

BALAKƏN RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il* ........................................................................ *179*

«ABAD» MƏRKƏZİNİN AÇILIŞINDA BALAKƏN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2017-ci il* ........................................................................ *184*

ZAQATALA RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il* ........................................................................ *194*

«AZƏRTÜTÜN » MMC-nin TÜTÜN EMALI ZAVODUNUN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ ZAMANI ZAQATALA RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2017-ci il* ........................................................................ *198*

QAX RAYONUNA SƏFƏR

*3 avqust 2017-ci il* ........................................................................ *206*

QAX RAYONUNDA BARAMA, TÜTÜN VƏ FINDIQ İSTEHSALININ İNKİŞAFI MƏSƏLƏLƏRİNƏ DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*4 avqust 2017-ci il* ........................................................................ *218*

YEKUN NİTQİ

*4 avqust 2017-ci il* ........................................................................ *225*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TONİ TAN KENQ YAMA

*7 avqust 2017-ci il* ........................................................................... *238*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
QURBANQULU BERDIMƏHƏMMƏDOVUN RƏSMİ
QARŞILANMA MƏRASİMİ

*8 avqust 2017-ci il* ........................................................................... *239*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*8 avqust 2017-ci il* ........................................................................... *240*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 avqust 2017-ci il* ........................................................................... *243*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 avqust 2017-ci il* ........................................................................... *246*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ
QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*8 avqust 2017-ci il* ........................................................................... *249*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ
ZİYAFƏTDƏ İŞTİRAK

*8 avqust 2017-ci il* ........................................................................... *255*

PAYTAXTIN KEÇMİŞ «SOVETSKİ» ADLANAN ƏRAZİ-
SİNDƏ YENİ YOLLARIN AÇILIŞI MƏRASİMİ

*9 avqust 2017-ci il* ........................................................................... *259*

BELARUS RESPUBLİKASI DÖVLƏT SƏRHƏD KOMİTƏ-
SİNİN SƏDRİ ANATOLİ LAPPO
İLƏ GÖRÜŞ

*9 avqust 2017-ci il* ........................................................................ *262*

YÜNGÜL ATLETİKA ÜZRƏ DÜNYA ÇEMPİONU RAMİL
QULİYEVƏ

*11 avqust 2017-ci il* ...................................................................... *263*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*12 avqust 2017-ci il* ...................................................................... *264*

QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*14 avqust 2017-ci il* ...................................................................... *265*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*14 avqust 2017-ci il* ...................................................................... *266*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*16 avqust 2017-ci il* ...................................................................... *267*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*18 avqust 2017-ci il* ...................................................................... *268*

GÖYGÖL RAYONUNA SƏFƏR

*19 avqust 2017-ci il* ...................................................................... *269*

İNZİBATİ LABORATORİYA BİNASINDA VƏ ZONA BAYTARLIQ LABORATORİYASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI GÖYGÖL RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 avqust 2017-ci il ........................................................................... 276*

SAMUX RAYONUNA SƏFƏR

*19 avqust 2017-ci il ........................................................................... 284*

SAMUX–FÜZULİ–LƏK–ƏLİBAYRAMLI–QARABAĞLAR–ÇOBANABDALLI–SAMUX AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 avqust 2017-ci il ........................................................................... 288*

GƏDƏBƏY RAYONUNA SƏFƏR

*20 avqust 2017-ci il ........................................................................... 299*

İÇMƏLİ SU TƏCHİZATI LAYİHƏSİNİN AÇILIŞI ZAMANI GƏDƏBƏY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*20 avqust 2017-ci il ........................................................................... 305*

ŞƏMKİR RAYONUNA SƏFƏR

*20 avqust 2017-ci il ........................................................................... 313*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PETRO POROŞENKOYA

*21 avqust 2017-ci il ........................................................................... 329*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 avqust 2017-ci il* ........................................................................ *330*

BAKININ XƏTAİ RAYONUNDAKI 257 SAYLI TAM
ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*23 avqust 2017-ci il* ........................................................................ *331*

İTALİYA RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ AUQUSTO MASSARİ
İLƏ GÖRÜŞ

*24 avqust 2017-ci il* ........................................................................ *333*

UEFA ÇEMPİONLAR LİQASININ QRUP
MƏRHƏLƏSİNƏ YÜKSƏLƏN AĞDAMIN
«QARABAĞ» FUTBOL KLUBUNUN HEYƏTİ
İLƏ GÖRÜŞ

*24 avqust 2017-ci il* ........................................................................ *335*

QEYDLƏR........................................................................................ *343*

*Şəxsi adlar göstəricisi*........................................................................ *371*

*Coğrafi adlar göstəricisi*..................................................................... *376*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.